*Dilarə Ağamusa Nağıyeva – Muxtarova*

# *NURLU ƏMƏLLƏRİN İŞIĞINDA*
**(*Milyonçunun mənalı ömür yolu*)**

**Redaktor Asif Rüstəmli – Filologiya elmləri doktoru, Professor**

**Elmi redaktor – Teymur Əhmədov**
**Filologiya elmləri doktoru, Professor**

**Texniki redaktor – Elşən Hüseynov**
**Tarix elmləri doktoru**

## Unutsaq - unudularıq!

***XIX əsrin sonu XX əsrin əvvəllərində qurub yaradan Azərbaycanın milyonçusu, xeyriyyəçi, məşhur neft kralı Ağa Musa Nağıyevin nəslindənəm.***
***Mənalı bir ömür yaşayaraq, yüksək əxlaqi keyfiyyətlərilə həyatda öz yerini tutmaqla yaddaşlarda qalıb, özünə əbədi iz qoymuş neft milyonçusu Ağa Musa Nağıyev Bakının 11 milyonçularından birincisi olub.***
***Zaman-zaman bu sahədə etdiklərimi, çoxşahəli fəaliyyətimi qiymətləndirərək məni - hünərli qadın, cəsarətli insan, fəxri bibi, Nağıyev nəslinin aslanı, qayğıkeş ana, zəhmətkeş insan, cəfakeş övlad və nəvə adlandırıblar. Deyilənlərə görə bu kəlmələrin arxasında dayanıram. Ağa Musanın 100 bina tikdirəcəyi arzusuna çatmasına 2 bina qaldı. Bu arzunu yerinə yetirməyi öhdəmə götürmişəm. Əyər yatırlarından azacıq da olsa vətənə gətirilərsə, ölməzliyə vəsiqə almış olaram. Çünki məni ictimaiyyət bu gün "98+2" forumun müəllifi kimi qəbul edir.***

**.... Bəxt, tale, qismət deyilən anlamlara inanmayanlara bir məsləhətim var: Neft milyonçusu Ağa Musa Nağıyevin həyat tarixçəsinə nəzər salsınlar. Çünki şaxtanın bıçaq kimi sümüyə işlədiyi qış axşamlarının birində dünyaya gəlmiş Ağa Musanın milyonları sonradan başına gələn hadisələrin qarşısını ala bilməyəcək. Bu həmin gün onun alnına yazılmış tale qisməti idi. Və zamanla böyüyən insan - Ağa Musa Bakının simasına çevrilir. Keçmişimizə hörmətlə yanaşmaq, Azərbaycanın tarixini, onun dəyərli səhifələrini övladlarımıza, gələcək nəslə ötürmək hər birimizin borcudur.**

**Dilarə xanımın bu mövzuya müraciət etməsi və zaman məsafəsində qazandığı nailiyyətləri, onun vətənpərvərlik hisslərindən, humanizmindən, incə və nəcib duyğularından irəli gəlir. Xeyriyyəçilik əməlləri ilə tanınan, insanlara maddi və mənəvi dayaq olan bu xanımın ürək genişliyi onun ətrafında olan insanlara sevgi hissini aşılayır.**

**O, xalq üçün yaşanan ömrün davamçısı olaraq məsuliyyət və qətiyyəti gündəmə gətirib. Onun yazdığı hər bir fəsildə Azərbaycanın dövlətçilik prinsipləri, coğrafiyası, tarixi, tanınmış simaların portret cizgiləri əsas xətt olaraq təqdim olunur. Buradakı hər iz tariximizin bir parçası, yaşanılan illərin əks-sədasıdır desək, f ikrimizdə yanılmarıq.**

**Neçə əsirlik tariximizi " Daş kitabə"lər vasitəsilə bizlərə əxz etməkdir onun məqsədi. Kitablarını oxuyarkən, Dilarə xanımın bu sahədə etdiklərinə nəzər saldıqda, artıq onun izlərini görmək olur.**

Ön söz Azərbaycan Respublikası İdman və Gənclər Nazirliyi
Ön söz – redaktordan.....

## Müəllifdən

**Milyonçu Ağa Musa Nağıyevin nəvəsi**
**tədqiqatçısı Dilarə Nağıyeva**

**Kim üçünsə dünya ədalətsiz görünməsin!**

**D**ünya dedikdə, hərə öz əqidəsində müxtəlif versiyalar mülahizə edir. Kimsə üçün dünya aldadıcı, kimsə üçün burulğanlı həyat, kimsə üçün yalan, kim üçünsə - ədalətsiz görünür.

**M**üdrüklük üzərində qurulan dünya bütün bunlara dözür. Hər kəs bu dünyaya eyni gəlir, saf və günahsız. Uşaqlıq illərimiz quş kimi ötüb keçsə də, o illər həmişə xoş anlarla yadda qalıb xatırlanır. Zamana nə var ki, gözünü yumub – açanda görürsən ki, illər quş qanadında bir yel kimi səni bu günə çatdırıb. Amma ötən günləri çoxumuz layiqincə yaşamışıqmı? Bax, əsas da budur!

**İ**nsanın malaşmasında Allah- Taalanın yazmış olduğu taleyin və tutduğu ömür yolunun böyük rolu var. Taleyimi özüm də hiss etmədən məhz tarixə - Bakı milyonçusu, babam Ağa Musa və atam Fərəc Nağıyevlərin talesiz talelərinə bağlayaraq, onların bu günədək görünməyən tərəflərini, istedadını, bilgisini aləmə car çəkmək, həyata keçirdikləri əməllərindən, gördükləri işlə`rdən zövq almaq qisməti oldu alın yazım.

**H**əyatda insan özünü dərk edəndən hansısa bir zirvəyə ucalmaq eşqiylə yaşayır. Ən əsası isə bu zirvələrin ucası sayılan ali insanlıq zirvəsini aşılamaqdır ki, bu da hər kəsə nəsib olmayır.

**D**üşünürəm ki, əməllərim və rəftarımla özümü bu zirvənin ən uca nöqtəsində hesab etmək hüququnu qazanmışam desəm, yanılmaram.

**B**u yolda qazandıqlarımı, mətbuat yolunda ayaq döydüyümü, səlahiyyətli dövlət idarələrindən məyus qayıtdığımı yaşayıb, mətbuatda, televiziya ekranlarında və radio dalğalarında sədalarımı eşidəndə düşünürəm ki, **"Dünyanın xoşbəxti mənəm"** – deməyə haqqım çatır.

**Ö**mrü mənalı yaşamaq, müqəddəs peşə sahibi olmaq, doğrudan da böyük səadətdir. Elə bu səbəbdən babama, atama və ailəmə bağlanmaq payı ömrümə düşdü. Məni tanıyanlar zərif duyğulu olduğumu vurğulayıb, XXI əsrin rəmzi kimi parlayıb bu günə Ağamusa işığı saçan bir xanıma bənzədirlər. Həyatın çətinlikləri çox vaxt məni sınağa çəksə də, bu sınaqlardan hər zaman qalib çıxmışam.

**Ö**mrümün 70 illik zirvəsini addayıb, həyata keçirdiklərimdən qürur duyuram. Arxaya nəzər saldıqda, gördüyüm işləri az bilib, deyirəm: - "Məndə sığar iki cahan, mən bu cahana sığmazam!

**Ç**oxları deyir ki, məndən nəyi bacarmadığımı sormaq daha düzgün olar. Yeni zirvələr fəth etməkdəm yorulmuram.Uzun illər babamın və atamın etdiklərini aşkarlayıb, gündəmə gətirməkdə göstərdiyim səyi bu gün də davam edirəm. Bu iş isə damla-damla həyata keçir. Çox vaxt və qüvvə tələb edir. Ağa Musa və Fərəc Nağıyevlər ilə bağlı tarixi həqiqətlərə həsr olunmuş Dövlət radio və televiziyasının

“Qızıl fondu”nda qorunub saxlanılan çoxsaylı verilişlərin müəllifi və səsləndiricisi, dövrü mətbuatda bu mövzuya həsr olunmuş silsilə yazıların, eləcə də elmi məqalələrin müəllifiyəm. Məlum səbəbdən başqa şəhərdə doğulduğuma baxmayaraq, milli ənənələri, azərbaycançılıq meyillərini daxili dünyamda yaşadıb, Ağa Musa Nağıyevin qoyduğu amala, onun həyat yolunun davamçısı olmağa çalışıram. Bu yolu tutmaq ailə tərbiyəmdən irəli gəlmiş və cəmiyyətdə nüfuz qazanmağıma səbəb olmuşdur.

**İ**ctimaiyyətçi xanım kimi tanınmağım Ağa Musa Nağıyevin həyat və fəaliyyətinə göstərdiyim diqqətin nəticəsidir. Baba adına layiqli nəvə, ata adına layiqli övlad olduğumu təsdiqləyənədək bu yolun mübarizi olmaq qarşımda duran əsas məqsəddir.

**B**abamın həyat və fəaliyyətinə həsr etdiyim kitabları qaranlıqdan saçan bir parıltı sanıram. Bunlar insan taleyinə naxış salan illərin məcmusu əsasında yaranıb. Sətirlərdə ömür kitabımın ən yaddaqalan və unudulmaz səhifələri əks olub. Bu iş isə damla-damla həyata keçir.

**B**u günədək Ağa Musanın “xəsis” kimi qələmə verilməsinə bu kitab tam şəkildə nöqtə qoymaqla bərabər, arxiv materiallarına və faktlara əsaslanaraq, milyonçunun fəaliyyətilə bağlı bir çox məsələlər həllini tapıb.

## Həyat üzünə güldü

**A**zərbaycan xalqı tarixi siyasi və ictimai şəraititnə görə XIX - XX əsrlərdə yerli sahibkarların neftdən əldə etdikləri gəlir hesabına bu gün müstəqil Azərbaycanın bütün sahələrində fəaliyyət göstərən alimlərin, iqtisadçıların və digər mütəxəssislərin ərsəyə gəlməsində milli burjuaziyanın böyük rolu olub.

**T**arix zaman-zaman görkəmli şəxsiyyətlər yetişdirib. Azərbaycanda ötən əsrin əvvəllərində milyonçu və neft sənayeçisi olmaqla, xeyriyyəçiliyi ilə iz qoymuş Ağa Musa Nağıyev də milli burjua nümayəndələrindən olub.

**A**ğa Musa 1849-cu ildə Bakı quberniyasının Biləcəri kəndində saman satmaqla məşğul olan Hacı Nağı kişinin ailəsində doğulub. Kasıb ailədə dünyaya göz açan Musa, 11 yaşından zəhmətə qatılıb hamballıq edib, ailəsinə yardımçı olub. Ağırlığı bir pud (16 kq) olan hambal palanının üstünə bir o qədər də çəkidə yük yükləyib, ona-buna xidmət edən Musa, sanki qarşısında açılacaq səadət qapılarını əvvəlcədən görürmüş kimi , ağır zəhmətinin hədər getməyəcəyinə inanırdı.

**Ə**linin qabarı, ayaqlarının döyənəkləri hesabına qazandığı pulu qəpik-qəpik toplayaraq kiçik bir torpaq sahəsi alan Musa, o zaman ağlına da gətirməzdi ki, çətinliklə topladığı pula aldığı kiçik torpaq sahəsində qazdırdığı quyudan su əvəzinə neft fontan vuracaq və bu neft bir müddət sonra onu Bakının ən iri maqnatlarından birinə çevirəcək. Bəli, tale onunla zarafat etməyir. Doğrudan da onun üzünə bəxt qapılarını açır.

**N**efti vedrə-vedrə satan Musa, sonradan 30 min işçiyə çörək verəcək, saysız-hesabsız var-dövləti idarə etməkdə savadın əsas şərt olmadığını ağlına da gətirməzdi.

**B**eləcə saman satan Hacı Nağının oğlu hambal Musa, neft sahibkarına, milyonçuya çevrilir.
**O**, varlanqıdca Sabunçu, Ramanı və Suraxanıda yeni neft yataqları alır, istehsalı genişləndirir. Bu zaman o, istehsalın təkmilləşdirilməsini də unutmurdu. Başqa neft sənayeçilərindən fərqli olaraq Ağa Musa Nağıyev Qaraşəhərdə kiçik "Neft Emalı" zavodu tikdirir, sonra onu genişləndirir, Xəzərdə ilk gəmisi peyda olur.
**A**ğa Musa Nağıyevi çox nadir hallarda mühafizəçilər qoruyurdu. O, bunu israfçılıq hesab edirdi. Sifariş ilə qoçular onu girov götürüb şəhər kənarında bir zirzəmidə saxlayıb, azadlığa buraxılması üçün 20 min manat tələb edib, əks təqdirdə onu öldürməklə hədələyərkən Ağa Musa çətinliklər gördüyündən özünü müdafiə etməyi bacarır. Onun ağıllı hərəkəti köməyinə çatır. Belə ki, o, öldürsəz bu pul da əlinizdən çıxacaq - deyir. Bunun nəticəsində cəmi min manatla canını qurtarır.
**A**ğa Musa Nağıyev xeyriyyə axşamlarının biriində məcməyiyə (padnosa) ianə olaraq kiçik bir məbləğ qoyur. Pulun azlığını görən həmkarlarının baxışları Ağa Musanın nəzərindən yayınmayır. Nəsə qaydasında deyil – deyə o, nəzakətlə soruşur. Eşidəndə ki, bir az əvvəl oğlu İsmayıl böyük məbləqdə pul ianə verib, deyir - bu təəccüblü deyil, verər də, axı o milyonçu Ağa Musanın oğludur, mən isə kiməm ki, saman satan Hacı Nağının oğlu.
**A**dı XX əsrin əvvəllərində Azərbaycanın məşhur 11 milyonçular sırasına düşən və bu siyahıda öncül yerlərdən birini tutan Ağa Musa Nağıyev xalqın:-"Tikmədim özüm qalam, tikdim ki, izim qala" məşhur deyimini sanki şüar götürmüşdir.
**A**ğa Musa Nağıyev kapitalını ancaq bina tikintisinə deyil, həm də o dövrdə cəhalət girdabında boğulan xalqın maariflənməsinə, onun dünyagörüşünün və ümumi mədəni səviyyəsinin yüksəldilməsi istiqamətinə sərf etmişdir. Başqasının övladını ölümdən xilas etmək üçün xəstəxanalar tikdirmək yalnız ona mənsub olub.
Onun fəaliyyəti yalnız bununla bitmir...
**A**ğa Musa haqqında çəkilmiş "Yük" filminin rejissoru Rövşən Almuradlı belə bir fikir irəli sürüb : - Yeri gələndə tələb olunan pulun iki qat artığını verən Ağa Musanın məqsədi pulun israfçılığa deyil, xeyriyyə işlərinə sərf edilməsi olub.
**T**arixi şəxsiyyət– Ağa Musa Nağıyev haqqında film çəkməsi, 38 yaşlı Rövşən Almuradlını bu gün də düşünməyə vadar edir. Görəsən yarada bildim, ya yox? – sualına o, bu gün də cavab axtarır.

## Əcnəbi arxitektorların Bakıda fəaliyyəti

**Polşalılar hələ XVII əsrin axırlarında Xəzər dənizinin sahilinə gəlmişdirlər. O zaman bu missionerlər, yezuit rahiblər idi. Rusiya imperiyası Azərbaycana Polşa müxalifətçilərini XIX əsrdə göndərib. Neft bumu dövründə ortaya çıxan polşalı mühəndislər, tacirlər, müəllimlər, hərbiçilər, arxitektorlar şəhərdə nəzərə çarpacaq iz qoyur.**

**A**ğa Musa Nağıyev möhtəşəm "İsmailiyyə" binasının sifarişi ilə arxitektor İosif (Yozef) Ploşkonun peşəkar karyerasının başlanğıcını qoymuşdur.

Təşəbbüskar arxitektor Ploşko Venesiyadakı sarayların sərbəst parafrazını Bakı şəhərinə gətirib. Əylənməyi, pul xərcləməyi sevən, dahi arxitektura və rəssamlıq ustalarına sifarişlər verən bu dəniz respublikasının sahibkarlarının sifarişləri ilə Ploşko layihədə şərq şəhərinin əzəmətini qeyd etməklə eyni zamanda da sakinlərin rəğbətini qazanmağa çalışıb.
1846-cı ildə dağ mühəndisi Semyonovun Bakı şəhərinin yaxınlığındakı Bibi Heybət qəsəbəsində qazdığı quyu Şamaxı quberniyasının qəza şəhərciyində neft bumunun başlanğıcını qoyub. Nəticədə XIX və XX əsrlərin qovşağında sakit və kiçik Bakı şəhəri sürətlə inkişaf edərək böyük quberniya şəhərinə çevirilib. Bunu həyata keçirmək üçün ağıl və zövqdən əlavə yüksək ixtisaslaşma tələb olunurdu.
Çox keçmədən Bakıya axışan mühacirlərin milli və dini tərkibi müxtəliflilik və rəngarənglik təşkil edir. Kilsə ilə yanaşı pravoslav məbəd, katolik kostyolu, lüteran kilsəsi və yəhudi sinaqoqu (məbədi) tikilir.
Bu yönümdə Polşalı həkimlər, tacirlər, hərbiçilər, müəllimlər də şəhərin inkişafına öz töhfələrini az verməyib. Hətta mühəndislərdən Pavel Pototskiy və Vitold Zqlenitskiy dənizdən qara qızılın çıxarılması üsulunu işləyib hazırlamışlar.
Mütəxəssislər qeyd edirlər ki, həmin illərdə Bakı şəhərində baş verən inkişaf templəri başqa şəhərlərdə müşahidə edilmirdi. Burada ələlxüsus yaşayış evləri, karvansaraylar, banklar, ticarət evləri, anbarlar, körpülər, doklar (gəmi təmir olunan yer), neftayırma zavodlarının sürətli tikintisi həqiqətən də təəccüb doğururdu.
Əgər Peterburq vaxtı ilə italyan və fransızlar tərəfindən yaradılıbsa, Bakıya Avropa parıltısını əlavə etmək almanlar və polşalıların üzərinə düşmüşdür. Bu dövrdə əhəmiyyətli memarlıq irsini əsasən dörd Polşa memarları təqdim etmişdir.

## Yevqeniy Yakovleviç Skibinski

Yevqeniy Yakovleviç Skibinski 1886-cı ildə Sankt-Peterburqda arxitektor-rəssam ixtisasına yiyələnməklə Rəssamlıq Akademiyasını bitirdikdən sonra vətənpərvərlik hissləri onu yenidən Bakıya gətirir. O, Bakını vətən sayıb, evinə - öz uşaqlıq şəhərinə qayıdır.
Gələcək memar Şamaxıda kollec müşaviri polkovnik Yakov Skibinskinin ailəsində anadan olmuşdur. 1859-cu ildə Şamaxıda dəhşətli zəlzələdən sonra ailəsi ilə Bakıya köçmüş polkovnik rütbəli atası qubernatorun dəftərxanasında xüsusi tapşırıqlar üzrə baş məmur vəzifəsinə təyin edilmişdir. Oğlu Yevqeniy hələ tələbə ikən mavritaniya stilində olan möhtəşəm bina, ornamentlər ilə təmtəraqlı şəkildə bəzədilmiş və Tiflis dəmir yol vağzalı layihəsi üzərində işləyir.
Yevgeniy Skibinski Bakının varlı vətəndaşları, məmurları, həmçinin də tacirlərinin sifarişi ilə çoxlu sayda tikililər, əsasən ticarət dükanları (mağazalar) üçün layihələr hazırlayır.
O, layihələrində daha çox klassik formalara üstünlük verib. Onun yalnız bir işi ən böyük yaradıcılıq uğurunu qazanır, bu Ağa Bala Quliyevin tikdirdiyi iqamətgah idi. Sonradan **bu iqamətgahı böyük məbləğə Ağa Musa Nağıyev alır. Bu gün bu möhtəşəm bina “COKAR” – Neft Şirkətinin istifadəsindədir.**

XIX əsrin sonunda tələbat artdıqca, gənc arxitektorların Bakıya gəlişi daha da artır. Artıq o zaman yaşına görə Y.Skibinski istefa vermək astanasında idi. Beləcə Yevqeniy Yakovleviç Skibinskiy xidməti vəzifəsini tərk edərək özünü bütövlükdə gələcək nəslin tərbiyəsinə həsr edir və Bakıda Mexanika-inşaat texniki peşə məktəbində müəllimlik edir.

## Yozef Vikentyeviç Qoslavski

Peterburq Mülki mühəndislər İnstitutunun məzunu, polşalı zadəgan Yozef Vikenteviç Qoslavski Bakının çiçəklənən obrazını və yeni Şərqi Avropa neft meqapolisini yaratmaqla bu şəhərə əhəmiyyətli töhvə bəxş etmişdir.
O, Bakıya Aleksandr Nevski adına ucaldılacaq əzəmətli kilsənin inşasını həyata keçirmək üçün ezamiyyə olunmuşdu. Layihəyə şəxsən çar nəzarət etdiyi üçün bu məhsuliyyətli iş idi. Bakılılar məbədi “Qızıl kilsə” adlandırırdılar. Kilsənin məhz Bakı xeyriyyəçilərinin vəsaiti hesabına inşa olunduğunu xüsusi qeyd etmək vacibdir. Kilsənin ucaldılmasına yığılmış (ianə edilmiş) vəsaitin 200.000 rublın 150.000 -ni müsəlmanlar tərəfindən verilmişdi. Təəssüf ki, 1936-ci ildə məbəd partladılmışdı.
1892-ci ildən Y.Qoslavski Bakı Şəhər Memarı vəzifəsini icra edib. Bundan sonra o, yaşadığı cəmi 12 ildə binalar inşa edib, bir çox layihələr hazırlamaqla məşğul olub. Avropa zövqünə malik və paytaxtla bağlı bilgilər sahəsində peşəkar sayılan Y.Qoslavski dövrün nəbzini düzgün tuta bilirdi. O, sadə əyalət şəhərini (Bakını) order sisteminin parlaq libasları ilə bəzəyərək ümidləri layiqli şəkildə doğruldurdu.
Təmtəraqlı Bakının simasının formalaşmasında məhz Y.Qoslavskinin yaradıcılığı böyük rol oynayıb. 1900-1901-ci ildə şəhərin mərkəzində Nikolayevski (hazırkı İstiqlaliyyət) küçəsində çıxıntılı hörgü (yonulmamış daşla hörmə) və bəzədilmiş frontonlar ilə təchiz edilmiş Şəhər Dumasının - hazırkı Bakının İcra Hakimiyyətinin binası əsas tikili olaraq bu gün də belə qəbul edilir. Binanın layihələndirilməsi zamanı memar yaradıcılıq enerjisini əsirgəmədiyi kimi şəhər də maliyyə baxımından lazımı səxavətini əsirgəməyib.
Y.Qoslavski yaradıcılığında möhtəşəm imperiya ideyalarını, kamera miniatürlərini yaratmağa müvəffəq olub. Memar qotik və ya renessans elementləri ilə asanlıqla manipulyasiya edə bilirdi. Buna baxmayaraq, o, öz üslubunu layihədən- layihəyə gətirmirdi. Yəni hər zaman yenilik axtaran olub.
O, Bakı şəhərində çox sayda inşaat işlərini həyata keçirib. Onun əsərlərinin sırasına Nikolayevski küçəsində yerləşən müsəlman qız məktəbinin binası da daxildir. Həmin dövrün mətbuatı bu binanı şəhərin ən gözəl tikililərindən biri adlandırıb. Şərq ekzotikasına çox da maraq göstərməyən Qoslavski binaya milli memarlığın incəliyini və plastikasını vurğulamağa nail olmuşdur. Etiraf etmək lazımdır ki, məhz onun sayəsində şərq motivlərinin (elementlərinin) klassik əsaslara daxil olması Bakının memarlıq simasının xüsusiyyətinə çevrilmişdir.
Bu məktəbin layihəsinə və inşaasına Y.Qoslavskinin rəhbəri və baş sifarişçisi olan neft sənaye sahibi **Hacı Zeynalabdin Tağıyev** olmuşdur.

**K**asıb çəkməçinin oğlu H.Z.Tağıyev sonradan milyonçu və səxavətli mesenata çevrilmişdir. Ruhanilər qızlar üçün bütün müsəlman dünyasında Avropa üslubunda tək olan təhsil ocağının açılmasına qarşı çıxış edirlər. Lakin H.Z.Tağıyev xeyriyyəçiliyini əsirgəməyərək, bu təhsil ocağının inşasına 300.000 rubl miqdarında vəsait qoyur və imkansız ailələrdən olan 35 qızın pulsuz təhsil almalarına imkan yaradır. Mesenat məktəbin ilk məzunlarına Quranın Azərbaycan dilində olan nüsxəsini hədiyyə etmişdir.
**Y**.Qoslavski neft milyonçusu H.Z.Tağıyevin sifarişi ilə Mərdəkan qəsəbəsində bağ evi və Bakı şəhərinin mərkəzində yaşayış binaşının layihəsini də hazırlamışdır. Bakılılar haqlı olaraq bu binanı saray adlandırmışlar. İki daxili həyətə malik tikili Qorçakovskiy (hazırkı H.Z.Tağıyev) küçəsində yerləşən bina bütün məhəlləni əhatə edir.
**G**əncliyində daşyonan olan memar, yerli əhəng daşlarının imkanlarından incəliklə istifadə edib. Azərbaycan Tarix muzeyinin yerləşdiyi və H.Z.Tağıyevin bizə qədər gəlib çatan ev interyerləri Y.Qoslavskinin yalnız memarlıq formaları ilə işləməkdə deyil, həmçinin təmtəraqlı və yaşayış interyerlərin bəzədilməsində təcrübəyə malik olduğunu göstərə bilirdi.
**H**acı Zeynalabdin Tağıyevin həyat yoldaşı Sona xanım Ərəblinskayaya (Sofiya Vladimirovna) hədiyyə etdiyi yüz otaq və zallardan ibarət olan iqamətgahı palıddan döşəmələr, limon ağacından qapılar, təbii dəridən divar kağızları və venesiya vitrajları bəzəyirdi. Şərq zalının qızıl tavanı gələn bütün qonaqları öz dəbdəbəsilə heyran edirdi. Bu tavanın işləməsinə dörd kq. çəkisində nəcib metal ayıran ev sahibi görünür bu heyranlığı əvvəlcədən təsəvvür edirdi.
**Ə**fsuslar olsun ki, memar Y.Qoslavski Şəhər Dumasının inşaat işləri başa çatmazdan vəfat etmişdir. O, hələ Peterburqda olarkən vərəm xəstəliyinə yoluxmuşdu. Özünü sənətə həddən artıq həsr etməsi ona sağlamlığını qorumağa imkan vermirdi. Məhz bu səbəbdən o, 39 yaşında vəfat edib. Ömrünün sonunun yaxınlaşdığını hiss edən Y.Qoslavskiy həyat yoldaşı ilə uşaqlarını vətəni Polşaya göndərmişdi.
**Onu Qafqazın rastrellisi adlandırıblar.**

**Brunoviç Kazimir Skuryeviç**
(1866-1950)

**B**runoviç Kazimir Skuryeviçin 1896-cı ildə Bakıya gəlişinə məktəb yoldaşı Yuzef Qoslavskiy səbəb olur. O zaman Şəhər Memarı olan Yuzef Qoslavskiy gənc həmvətənlisini Bakıya dəvət edərək şəhər idarəsində sahə arxitektoru vəzifəsinə qəbul etdirir. K.Skuryeviç öz himayəçisinin ölümündən sonra, binövrəsi 18 may 1900-cu il tarixdə qoyulmuş onun sonuncu əsəri sayılan “Şəhər Duması” binasının tam inşasını və üzərində bəzək işlərinin aparılmasını başa çatdırmalı olur.
**S**oyuq Neva sahillərindən saysız-hesabsız sərvətə malik olan və sürətlə inkişaf edən şəhər haqqında əfsanələrin yayıldığı Bakıya gələn polşalı, XV-XVI əsrlərin yerli arxitektur formalarının füsünkarlığının təsiri altına düşür.

**M**əscidlərin gözəl proporsiyaları - ornamentləri, dörd yaruslu kəmərləri və hissələrin ifadəli şəkildə təsvir edilməsi, həmçinin yumşaq əhəng daşının vertuoz işlənməsi ətrafda hər bir detala maraq göstərən gözləri cəlb etməyə bilməzdi. K.Skuryeviç Bakı arxitektura fenomeninin vətənpərvərinə çevrilir və "Zodçiy" jurnalında ifadə verərkən Şirvanşahlar sarayını nəzərdə tutaraq : "Bu cür memarlıq ansamblına Rusiya İmperiyasında rast gəlmək olmaz, hətta "Baxçasaray" onun qarşısında öz gözəlliyini itirir" - demişdir.

**K**.Skuryeviçin uğurlu həyatı Bakıda başlayır. O, bir sıra dövlət və şəxsi sifarişlər işləyir. İlk sifarişi Olqinskaya ( hazırkı N.Rəfibəyli- R.Rza) küçəsində 1896-1898-ci illərdə reallaşdırılmış Tağıyev passajı oldmuşdur. Gənc memar ticarət binası inşa edərək köhnə üsluba müraciət etmiş və klassikanı çox dəqiq şəkildə vermişdir. Tağıyev passajı Bakıda ilk tikililərdəndir ki, burada ara örtüklərdə dəmir betondan istifadə edilmişdir.

**K**.Skuryeviç Persidskaya (hazırkı M.Muxtarov) küçəsində Bakı neft biznesində tanınmış Rotşildin idarəsinin inşa işlərinə başlayır. O, şəhər, dünya və maariflənmiş müştərilərlə üslublara uyğun olaraq işləmək bacarığını nümayiş etdirməyi arzulayaraq romantik əsərlərə müraciət etmişdir. İdarə binası (kontor) iki küçə boyunca uzanmışdır. Binanın tərkibinə daxil olan açıq sütunlu qalereya – tağ şəkilli oyuqlarının qövslərinin axıra qədər birləşməsini başa çatdırmayan K.Skuryeviç, birləşmə yerlərinin "aqlay" bloklarından istifadə etməklə, şəxsi bədii mövzusunu həyata keçirmişdir.

**O** zaman hələ abadlaşdırılmamış dənizkənarı sahilin kənarında Qubernatorun yeni iqamətgahı yerləşirdi. K.Skuryeviç komissiya məhkəməsinə dənizkənarı sahilin layihəsini təqdim edərək, nəqliyyat üçün sahil boyunca küçənin salınmasını, sahil və II Aleksandr prospekti (hazırkı Neftçilər prospekti) arasındakı sahədə ağacların əkilməsi və gül bağlarının salınmasını təklif edir.

**B**eləliklə əzəmətli dənizkənarı bulvarının əsası qoyulur ki, bu da sonradan yaşayış məhəllələrinin uzunluğu boyunca davam edir.

**P**olşa memarı Kazimir Skuryeviç 1905-ci ilin inqilabi hadisələrlə əlaqəli olduğundan, katorqaya göndəriləcək təhlükəsi gözlədiyindən o, karyerasının xöşbəxt davamını tarixi vətənində - Polşada həyata keçirir.

**K**.Skuryeviçin həyatı uğurla başa çatmışdır! Polşada "Məclis" binasının müəllifi, Varşava Kral qalası və Krakov Vavelinin bərpaçısı (restavratoru) kimi məhşurluq əldə etmişdir.

## İOSİF KASPEROVİÇ PLOŞKO
## (1867-1931)

### İsmailiyyənin sifarişi

**3**0 yaşlı İosif Kasperoviç Ploşko 1897-ci ildə Bakıya gəlmiş, İmperiya Rəssamlıq Akademiyasında, sonra isə Peterburq Mülki Mühəndislər İnstitutunda təhsil almış, işləmək üçün Kiyev şəhərinə təyinat almışdır. Bir neçə il sonra Yozef Qoslavski həmyerlisini Qafqaza cəlb edir. Bakı Polşa quberniyasının sakinini xüsusi qonaqpərvərliklə qarşılayır.

**İ**.Ploşko Azərbaycan neft sənayesi sahibləri, multimilyonçulardan A.M.Nağıyev, M.Muxtarov, Ə.Əmiraslanov və digərlərinin simasında səxavətli mesenatlar və sifarişçilər tapır. Memarın debüti gözləniləndən daha parlaq olur.
**A**ğa Musa Nağıyev vərəm xəstəliyindən vəfat etmiş oğlu İsmayılın xatirəsinə möhtəşəm bir bina inşa etməyi qərara alır və sifarişini İ.Ploşkoya həvalə edir. Venesiya üslubunda olan möhtəşəm "İsmailiyyə" binasının tikintisindən sonra Ağa Musa Nağıyevin onun işindən məmnun olması və onu özünün **Saray Memarı** təyin etməşi – İ.Ploşkonu daha da məşhurlaşdırır.
**A**ğa Musa Nağıyevin bu dəbdəbəli sifarişi memar İ.Ploşkonun professional karyerasına bir start oldu. İşgüzar memar İsveçrə qotikasını Bakının küçələrində əks etdi. İ.Ploşko Bakıdakı yaradıcılığında Şərqin dühasını qırmızı xətt ilə göstərib, sakinlərlə əlaqə tapmağa çalışıb.
**B**u xüsusiyyətdə İ.Ploşko tək deyildi. Beləki rusiyanın memarı İvan Jeltovski moskvalıları Spiridonovkadakı Tarasovun malikanəsini qotik saray tipində yaratmışdır.
**İ**.Ploşkonun Ağa Musa Nağıyev üçün tərtib etdiyi layihələrin siyahısında Telefonnı (hazırkı 28 may) küçəsindəki dörd mərtəbəli "Gəlir evi" də var idi. 1910-cu ildə tikilən bu binada memar modernin zərif plastikası, sirli dekorativ düyünləri qarşısında sanki öz heyranlığını bildirmişdi. A.M.Nağıyevin digər binalarında olduğu kimi bu binanın üzərində soy kökünü təsvir edən **daş kitabə - MN** emblemi mövcuddur. Emblem zəngin insanın saman satan ailəsində anadan olduğunu və hamballıq etdiyini heç vaxt unutmadığını təsdiq edir.
**A**rtıq Şəhər Memarı vəzifəsini icra edən İ.Ploşko yeni neft sənayesi sahibləri (neft maqnatları) arasında da şöhrət qazanır.
**B**eləki, milyonçu Murtuza Muxtarov həyat yoldaşı Lizaya qotik üslubunda inşa edilmiş **Səadət Sarayını** hədiyyə etməklə Bakı şəhərində fərqlənir. Sarayın qotik elementləri tam toplusu ilə qılınca söykənən polşalı cəngavərin fiquru ilə tamamlanan qalanın inşası bir ilə yaxın davam edir. İ.Ploşkonun məhz bu möcüzəsinə tamaşa etmək üçün əhali Persidskaya (hazırkı M.Muxtarov) küçəsinə gəlirdi.
**İ**.Ploşko müntəzəm olaraq yaradıcılıq müxtəlifliyi ilə sifarişçiləri təəccübləndirirdi. Sanki bütün üslublar onun hakimiyyəti altında idi.
**1**910-cu ildə memar Persidskaya küçəsinin S.Əsgərova küçəsilə kəsişdiyi yerdə **Hacı Sultan-Əli məscidini** inşa edir. Məscid kanonik müsəlman formalarında modern üslubunda tikilib.
**İ**.Ploşkonun inqilabdan əvvəlki son işi Ağa Musa Nağıyevə məxsus olan Qorçakovski (hazırkı H.Z.Tağıyev) küçəsində altı mərtəbəli **"Novaya Yevropa"** (hazırkı LUKOYL) oteli olmuşdur. Bu bina konstruktivizmin əsasını qoymuşdur.
**İ**.Ploşko 1917-ci ildən sonra da Bakıda qalmış, yeni reallığa daxil olmağa cəhd göstərərək Abşeronda şəhər-bağlarının layihələrini tərtib etməklə fəaliyyətini davam etmişdir.
**1**925-ci ildə o vətəni Varşava şəhərinə köçsə də orada yaşaya bilməyib, Fransaya köçmüş və orada vəfat etmişdir.

## SƏADƏT SARAYI ONUN HƏYATINA SON QOYDU

(Murtuza Muxtarov haqqında salnamə)

Murtuza Muxtarovun tikdirdiyi dəbdəbəli Səadət sarayı ölkə tariximizin salnaməsidir. Ən əsası bu saray osetiyalı zadəgan Liza Tuqanovaya olan ülvi məhəbbətin hekayəsidir.

Persidski küçəsində yeləşən bu saray qeyri-adiliyi ilə hər zaman seçilir.

O dövrün görkəmli xadimi sayılan Murtuza Muxtarov 1859-cu ildə Bakının Əmiracan kəndində kasıb ailədə anadan olub, 15 yaşında əmək fəaliyyətinə Balaxanı və Sabunçu neft mədənlərində başlayıb. Ağlasıqmaz mühəndislik məharəti ona neft buruqlarının qazma texnologiyasının sirlərini öyrənməsinə kömək olur.

Xatirələrdən məlum olur ki, Murtuza Muxtarovun neftə qarşı xüsusi məharəti olub. O, hətta qazmanın aparılacaq sahəsində müvəffəqiyyətini də əvvəlcədən duyub. Bütün bu xüsusiyyətlər onun milyonçu olmasına səbəb olur.

Təhsili olmayan mühəndisi təmizlənməmiş neft maraqlandırmadığından, o, bu sahədə mühərriklərin hazırlanması və təmiri üzrə emalatxana açır. O biri milyonçular kimi o da xüsusi təhsil almasa da, cəmiyyətdə dövrün istedadlı mühəndisi kimi qəbul olunur. Qazma işləri üzrə öz ixtiraları ilə sayılıb, şöhrət qazanmışdır.

1910-cu ildə onun Sabunçu və Bibi Heybət qəsəbələrində iki iri neft zavodları fəaliyyət göstərirdi. Bakıda gördüyü işlər artıq onu qane etmədiyindən, o, neft işi ilə Qroznıda da məşğul oıur.

Şimali Qafqazda tez-tez görünməyi onun həyatının büsbütün dəyişməsinə səbəb olur. O, Vladiqafqazda polkovnik Aslan bəy Tuqanovun dəvətilə verdiyi şam yeməyi zamanı ilk görüşdən gənc qızı Lizaya vurulur. Murtuza Muxtarovun ilk taleyi düz gətirməmişdi. Bu anda Tuqanov müflüsləşsə də, qarşısındakının milyonçu olduğuna baxmayaraq, yaş fərqiniə görə bu izdivaca razılıq verməyir.

Sadəliyi və təvazökarlığı ilə seçilən Murtuza bəy bu hadisədən az sonra Terek çayı sahilində iki minarəli məscid tikdirir. Bu Bakı neft sahibkarının məhəbbət bəslədiyi bir ölkəyə etdiyi bəxşiş idi. Məscidin tikintisi, M.Muxtarovun əliaçıqlığı barədə ölkədə xoş söz-söhbətlərin yayılması bitmək bilmirdi. Bu hadisə Tuqanovun ailəsinə də xoş təsir bağışlayır və aralarındakı yaş fərqinə baxmayaraq Tuqanov Lizanın Murtuza bəy ilə izdivacına razılıq verir.

Vladiqafqazda çox şan-şöhrətli toy keçirir. Lizanın Bakıya gətirilmə mərasimi isə daha böyük rezonansa səbəb olur. Lizanı Vladiqafqazdan- Bakıya gətirmək üçün İtaliyada sifariş etdiyi faytonu on ağ atlı carçı müşayət edirdi.

İngilis sayağı geyinməyi sevən Murtuza bəy Lizadan yaşca çox böyük olsa da, onun şux geyimi və şah qaməti bu fərqı hiss etdirmirdi. Murtuza bəy rus və ingilis

dillərində sərbəst danışırdı. Liza xanım öz növbəsində savadı ilə seçilib, bir neçə xarici dil bilməkdən əlavə musiqi elə bil onun həyatına, incəsənət isə qəlbinə hopmuşdu. Bu xüsusiyyətlər onun cəmiyyət arasında davranışı böyük nüfuza malik olmasını təsdiqləyirdi. Murtuza bəy nə qədər səxavətli idisə, Liza xanım da bir o qədər dəlbi yumşaq idi. Sonradan Liza xanım xeyriyyəçliliyi ilə də başqalarından fərqlənirdi.

**O**, Qafqazın "Vərəmlə mübarizə cəmiyyəti"nin Bakı şöbəsinə rəhbərlik edir. Ən böyük xeyriyyəçiliyi "Uşaq Xəstəxanası Cəmiyyəti"nin üzvü olması və Bakıda "Nicat" müsəlman xeyriyyə cəmiyyətinə etdiyi köməyi olub.

**Səadət sarayı**

**İ**taliyaya səfəri zamanı Liza xanımın gözəlliyinə valeh olduğu bir sarayın qarşısından keçə bilmədiyini görən Murtuza bəyə bir işarə kifayət idi. O, belə bir sarayın analoqunu Bakıda ucaldacağını qət edir!

**A**rxitektor İ.Ploşko bu sarayı ətrafdakı tikililərə ustalıqla yaraşdırır. Saray ilə yanaşı hündürlüyi 87metr olan beş qülləli Aleksandr Nevski kilsəsi ucalırdı. Sonradan bu kilsə bolşeviklər tərəfindən darmadağın edildi.

Murtuza Muxtarovun sarayı şəhərin ansamlında inqilabdan əvvəlki Bakının renesansı kimi qəbul edilir. Saray iki ildən az bir müddətdə - rekord bir vaxt zamanında hazır olur.

**L**iza xanım üçün bu sürpriz gözlənilməz olur. Gəzintiyə çıxan Lizanın hazır sarayın qarşısında dayanaraq heyrətdən susduğunu və dediyi:- "Bu nağıldlr!" sözlərinə Murtuza bəy ancaq -"Bu nağıl sənə aiddir!"- deyə bilir.

**H**əyatın sonrakı yadda qalan məhəbbət dolu illərini Muxtarovlar məhz bu sarayda keçirirlər...

**Xeyriyyə cəmiyyəti**

**1**914-cü ildə Liza Muxtarova Bakıda ilk müsəlman qadın xeyriyyə cəmiyyəti yaradır. Bu cəmiyyətdə azərbaycanın tanınmış ziyalıları, sahibkarların həyat yoldaşları fəaliyyət göstərib. Cəmiyyət xeyriyyə günlərində şam yeməyi verir, yığıncaqlar keçirirdi. Bu yığıncaqlar Muxtarovların məhəbbət sarayında keçirilir və "Ağ çobanyastığı günləri" adlanırdı. Yığılan ianələr imkansız ailələrə, himayəsiz və yetim uşaqlara paylanırdı.

**O**nların övladları olmadığından, yetim uşaqlara daha çox diqqət yetirirdilər. Arxiv sənədlərinə əsasən Liza xanım cəmiyyətin adından Qala qəsəbəsində iki yetimxananın tikintisi üçün sahəsi beş hektara yaxın torpağın ayrılmasına imza atsa da, tikintiyə başlamağa Dünya müharibəsinin başlanması, sonradan inqilab hadisələri mane olur.

**1**920-ci ildə on birinci qızıl ordunun silahdaşları at üstündə Muxtarovların məhəbbət sarayına daxil olarkən, Murtuza "çağırılmayan qonaqları" güllə yağışına tutub, son gülləni gicgahına tuşlayır. Məhəbbət əfsanəsi olan bu saray, Qızıl ordunun ştabına çevrilir.

**L**iza xanımı yaxındakı yaşayış binalarından birinin zirzəmisində gizlədirlər. Rəvayətə görə o, bir müddət ağlını itirmiş olur. Sonradan mühacirət olmaq məqsədilə o, türk diplomatı ilə saxta kəbin kəsdirib, başqa soyad ilə Fransaya gedir. Lakin Liza xanım Bakıda yaşayan yaxınları ilə əlaqə saxlaya

bilmədiyindən, sonrakı taleyi məlum deyil. Bəzi məlumatlara görə o, 50-ci illərdə Fransada vəfat edib. Qəbri naməlumdur.

**P.S.** **Q**otik üslubunda tikilmiş "Səadət sarayı" - Murtuza Muxtarovun yadigarı, yeni ailə quranların kəbinləri kəsilən məkana çevrilərək bu **"Məhəbbət əfsanəsi"**ni bu gün də yaşadır.

## Opera və balet teatrı (1911)

**K**eçmiş Qubernskaya – Torqovaya (hazırkı Nizami) küçəsində Opera və Balet teatrı binasının inşası bir il ərzində - 1911 ildə başa çatıb. Bu möhtəşəm bina mərc nəticəsində inşa olunub.
**1**910-cu ildə çox istedadlı müğənni Antonina Nejdanova Bakıda qastrol zamanı verdiyi konsertlər taxtadan qurulmuş Sirk binasında və Kazinoda keçirilmişdir.
**M**üğənninin fanatlarından olan iki balıq sənayeçisi A.Nejdanovanı yola salarkən böyük jestə əl atırlar.
**S**ahibkarlar Kür sahilində qara kürünün istehsalı ilə məşğul olurdular. Şərəfinə vedikləri şam yeməyi zamanı Antonina xanımın bir də nə vaxt Bakıya səfər edəcəyini soruşduqda, cavabında eşitdikləri onların həyacanına səbəb olur. Xanım deyir: "Bir də heç vaxt. Mən inanmazdım ki, belə dövlətli şəhərdə bir opera teatrı yoxdur ki, müğənnilər öz istedadlarını burada nümayiş etsinlər".
**S**ahibkarlar bir ilin ərzində məhz onun şərəfinə teatr binası tikdirməyə söz verməklə bərabər, A.Nejdanovadan teatrın açılışında iştirak edəcəyi razılığını da alırlar. Bu nəhəng proyektin tərtib edilməsini memar Nikolay Bayevə tapşırırlar.
**T**ikintidən böyük anlayışı olan milyonçu H.Z.Tağıyev bu nəhəng işin bir ilə baş tutmayacağına şübhə ilə yanaşır. Sahibkar onunla mərc qoşub, deyir: "Hacı, şübhə edirsiz? Onda sizinlə bir şərtimiz var, əyər vaxt-vədəmiz baş tutmasa, bina sizin olacaq. Amma vaxtla ayaqlaşa bilsək, pulunu siz ödəyirsiz, teatr isə olur bizim!"
**M**odern üslubunda tikilən teatrın tikintisi müəyyən olunmuş vaxtdan 2 ay da qabaq başa çatır.
Sahibkarların dəvətilə 28 fevral 1911-ci ldə teatın açılışında Antonina Nejdanova iştirak edir.

### Rotşildin kontoru (1898-1899)

**B**aron Rotşildlər neft ilə zəngin olan torpaqları ələ keçirmək məqsədilə Fransadan Bakıya gəlmişlər.
**P**ersidskaya (hazırkı M.Muxtarov) küçəsi 13 -də yerləşən "Xəzər- Qaradəniz Cəmiyyəti"nin binası keçmişdə Rotşildin kontoru (idarəsi) kimi tanınıb. Bu yerin idarə üçün daha münasib olması – şəhərdə işgüzar mühütin qaynar nöqtəsində yerli varlıların sığınacaq yerində - mərkəzində seçilmişdir.

**Rotşildlər binanın tikintisini Polşalı arxitektor Kazimir Skuryeviçə** tapşırmışdılar. O, bu saray tipli binanın tikintisində orta əsr dəbinin incəliklərini işləməyə cəhd etmiş və buna nail olmuşdur.
**B**ina qoruyucu qüllələrlə əhatə olunub, açıq eyvanlar isti havadan qorunmaq məqsədilə binanın künc tərəfində - iki küçənin kəsişdiyi yerdə tikilib. Binanın alt mərtəbəsi iri üzlük aralarındakı tikiş dəqiq görünür. Biri-birinin yanında yerləşən pəncərələrin kənarındakı bər-bəzək binaya xüsusi yaraşıq verir.
**S**on vaxtlar bu binada Niderlandiya konsulluğu, Tarix muzeyi, hazırda isə Azərbaycan Respublikasının Prokurorluğu fəaliyyət göstərir.

**Sadıxov qardaşlarının binası**
**(1910-1912)**

**S**adıxov qardaşlarının binası tikiləcək yerdə Nikolayevskaya (hazırkı İstiqlaliyyət 21) küçəsində qəbiristanlıq olub.
**B**ulvara tərəf dönərkən dikdirdə, bir qədər tikinti üçün narahat yerdə tikiləcək bu binanın proyektinin hazırlanması üçün Sadıxov qardaşları ümumrusiya üzrə müsabiqə elan edir. Bakı memarları bu müsabiqədə birinci yeri tutur.
**M**illi-romantik stildə tikilmiş binanın tinindəki üçbucaq eyvanlar, arkalar və şüşəbəndlər təkraredilməz gözəlliyini bu günədək itirməmişdir.
**B**ina haqda belə bir el məsəli də var ki, Kərbəlayi Sadıxovdan soruşanda ki, niyə belə narahat yer seçmisiz? O belə cavab verib ki, yeri çox əladır, hətta Qubernator mənim evimin pəncərələri qarşısında bağ da salıb.
**S**ovetlərin vaxtında bir zaman bu binada Azərbaycan Respublikasının Mərkəzi İcra Hakimiyyəti fəaliyyət göstərmişdir.

**"Yetimlər Evi (Ağa Musanın tikilisi)**
**(1910)**

**A**zadlıq pr. 66 – keçmiş Stanislavski küçəsi - üzü dənizə sarı uzanan bu küçə elə bil yaşayış yeri ilə sənaye rayonlarının arasında sərhədd idi.
**B**ir bakılı gəmi sahibi və bir neft sahibkarı 1882-1885 –ci illərdə xeyriyyə işlərində təşkilatçılıq edəcək "İnsan Sevən Cəmiyyət"ini yaratmışlar. İki mərtəbəli binada körpə uşaqlar üçün uşaq bağçası, tikiş tikmək üçün emalatxana və xüsusi paltaryuyan otaqlar yaradırlar.
**1**910-cu ildə elə bu binanın yaxınlığında həmin cəmiyyətin təşkilatçılığı ilə bir bina da inşa olunur. Dünyasını erkən dəyişmiş oğlunun xatirəsinə neft sahibkarı kimsəsiz uşaqlar üçün ucaltdığı "Yetimlər evi" – binasının tikintisinə 24 000 rubl vəsait xərcləmişdir. Arxitektorun adı bu günə çatmasa da, təsviri incəsənətin formalarından necə ustalıqla istifadə etməsi göz qarşısındadır. Bakıya xas olan şüşəbənd eyvanlar modern qrafikasına uyğun verilib. Binanın hər iki tərəfində

eyvan tipli şüşəli - daş çıxıntılar, binanın girişini isə yerli daşlardan hörülmüş pilləkanlar bəzəyir.
Sovetlərin vaxtında binada Xalq Təsərrüfatı ilə məşğul olan alimlərin institutu kimi fəaliyyət göstərib.

## İsabəy Hacınskinin "Gəlir evi" (1910-1912)

İsabəy Abdul Salambəy oğlu Hacınski savadlı - tanınmış nəsildən olub. İsabəyin "Qız Qalası" nın yaxınlığında - Neftçilər pr. 103( keçmiş Naberejnaya) - tikdirdiyi bina demək olar ki, qala ilə bir hündürlükdə olduğundan o zaman ictimaiyyət bunu bir çağırış kimi qəbul edir.
Qaraşəhərdə nöyüt zavodunun, Abşeronda neft sahibkarı olan İsa bəy binanı tikdirərkən elə bu effekti gözləyirmiş. O, buna nail olduğundan çox məmnun olur. Binanın hündürlüyü və qülləsindəki eklerləri ilə o, sanki mənəm-mənəm deyirdi. Binanın yuxarısından aşağı baxanda, küçədən keçənlər görünməz olurdu. Mozaikadan plastik relyeflərlə üzüm salxımlarına və palma daş oymaların bu saraya verdiyi yaraşıq bu gün də keçmişin tarixini yaradır.
İsabəy bu binanı tikdirməklə İtaliyanın "Romantik möcüzəsi" (romantiçnoye arnuvo çudo) nümunəsini Bakı şəhərinə bəxş etmişdir. Çox hayıf ki, binanı yaradan memarın adı naməlum qalıb.
Xalq arasında bu binaya **"Orlinoye qnezdo"** (Qartal yuvası) deyirlər.
Təsadüfi deyil ki, 1944-ildə Bakıda qonaq olan General Şarl De Qol məhz bu binada yaşamışdır.

## Ruhani Kərbəlayi İsrafilin binası (1910-1912)

Kərbəlayi İsrafil Hacıyevin Şamaxinskaya (hazırkı Cəfər Cabbarlı 12) küçəsində tikdirdiyi əzəmətli binada uzun müddət Yasamal r-nun İcra Hakimiyyəti fəaliyyət göstərib. İnşası 1910-1912-ci illərə təsüadüf edir.
Kərbəlayi İsrafil – şəhərin tanınmış ruhanilərindən olub, binanı tikdirməklə, xüsusi malikanənin məhz belə olmasını sübuta yetirib. **Memarı Yuzef Ploşko olub.** Ümumiyyətlə belə binalar əhalisi sıx olan mərkəz yerlərdə tikilirdi. Şamxinka (Bakıda ilk beşmərtəbə kimi məşhur olan) küçəsi belə yerlərdən biri olub, şəhərin şimal ətraf hissəsini mərkəz ilə birləşdirib. Memar Yuzef Ploşko binalarının proyektlərindəki fantaziyası ilə başqalarından seçilib.

## "Gəlir evi" - Arxitektorlar İttifaqının binası (1899)

**A**ğa Bala Quliyevin 1899-cu ildə Persidski ( hazırkı M.Muxtarov 24) küçəsində tikdidiyi "Gəlir evi" binasında bu gün Arxitektorlar İttifaqı fəaliyyət göstərir.
**S**ankt Peterburqdan 1886-cı ildə Bakıya gəlmiş **memar Yevgeniy Skibinskiy** bu binanı mavritan memarlıq üslubu ilə işləyib. Bu hissləri onda oyadan memar əcəmi Antonio Qaudi olmuşdur. Öz yaradıcılığında məhz A.Qaudi ilk olaraq mavritan apxitekturasına müraciət etmişdir.
**H**ələ uşaq ikən Ağa Bala anasının bişirdiyi qutabları körpü üstündə satıb -əldə edilən gəlirlə ailəsinə köməklik edirdi. Bəlkə də çörəyə olan bu istək onu böyüyəndə mağazaların, daha sonra isə un üyüdən və düyü təmizləyən zavodların sahibinə çevirir. Möhtəkirlik sayəsində varlanıb dövlətlilər sırasına qatılan bu insan Avropaya dəfələrlə səyahət etmişdir. Geniş dünyagörüşü səyahətçidə Qərbdən nümunə götürmək, yəni avropaya bənzəmək əvəzinə, avropasayağı ideyaları həyata keçirmək fikri yaradır.
**A**rtıq "Un kralı" kimi şöhrət tapan Ağa Bala Quliyev memar Y.Skibinskiyə inşa ediləcək "Gəlir evi"nin layihəsini hazırlamağı sifariş edir. O, A.Quliyevin iqamətgahını birbaşa Şirvanşahlar arxitekturası - memarlığın yerli ənənələri təsiri altında yaradır.
**A**.Quliyevin təklifilə arxitektor Skibinskiy mağaraların tavanında sızan damcılardan əmələ gələn əhəngli ərp (stalaktitlər) sistemi ilə qədim memarlığın milli ənənələrini - qapıların yuxarı hissələrində nal şəkilli oyma tağlarını şüşəbəndlərin təsiri altında yaratmışdır.
**Y**.Skibinskiy dəyirman və düyü üyüdən zavodların sahibi, tacir Ağabala Quliyevin sifarişi ilə iki mərtəbəli binanın tikintisini o zaman dəbdə olan formada - həyətin **"П"** hərfi formasında alınması məqsədilə Persidski (M.Muxtarov), Karantinnaya və Gimnaziçeskaya ( Həzi Aslanov və Tolstoy) küçələrinin kəsişdiyi yeri seçir. Binanın eşik hissəsinə çıxan erkerlər və ikinci mərtəbədəki eyvanlar birinci mərtəbəni daha yaraşıqlı göstərir. Dekorçu Durov binanın divarlarına Şərqin tarixi səhnəsini həkk edir.
**Ş**irvan-Abşeron məktəbinin elementlərini Şərqin adət-ənənələrinə uyğun olaraq ərsəyə gətirə bilən Y.Skibinskinin inşa etdiyi bu bina, ənənəvi milli geyimin altında gizlənsə də, bu çətinlik yaratsa da, amma asan tanınır.

## Tiflis Ticarət Bankı (1901)

**1**898-1900-cü illərdə Bakıda iqtisadiyyatın və sənayenin inkişafı artıq ayrıca bank binasının olmasını tələb edirdi. Tiflis bankının binasının inşası üçün ticarətin sıx olduğu yer Malyutinskaya (Əliyarbəyov -5) küçəsində yer nəzərdə tutulmuşdur.
**1**901 ildə bank üçün nəzərdə tutulan binanın tikintisinə başlanır. İki mərtəbəli binanın künc tərəfi mərkəz hissəisni təşkil edib qüllə və günbəz ilə bəzədilir. Binanın üz tərəfi üzüm salxımları ilə bəzədilən mötərizəyə bənzər eyvana dayaq olub, ona xüsusi gözəllik verir. Üzüm salxımları təsviri rəmzi mənada Gürcüstanın məhsuldarlığını təqdim dəcək element olmaqla elə bil binanın ağırlığını üzərinə

götürür. Bol məhsuldarlığın rəmzi olaraq binanın üzərindəki ornamentlərdə də müxtəlif meyvə və məhsullara rast gəlmək olur.
Sovetlər vaxtı bina "Uşaq aləmi" mağazası və Azərbaycan Elmlər Akademiyasının "Bilik" cəmiyyəti kimi tanınmışdır. Hazırda binada "Atatürk Mərkəzi" fəaliyyət göstərir.

**Şimali Rusiya- Asiya Bankının Bakıdakı bölməsi (1903-1905)**

Qorçakovskaya (H.Z.Tağıyev 3) küçəsində yerləşən bu binanın tikintisinə 1903 cü ildə başlanıb, 1905 ci ildə tamamlanmışdır. Arxitektor ticarətin rəmzi olaraq Merkurinin- Ticarət Allahının əksini Bankın girəcəyində təsvir etmişdir.
Binanın qülləsində bir neçə yerdə «CB» (Северный Bанк) venzelləri bu gün də qorunub saxlanılır. Bina Tiflis Bankının yanında yığcam və məntiqi cəhətdən çox monumental görünürdü.
Bina tikilərkən, artıq romantik modern dəbdən düşür, neoklasika aktuallıq təşkil edirdi. Adı naməlum qalan apxitektorun bu tikintiyə sanki əziz övladının doğumu kimi yanaşmış və qarşısında Yuzef Qoslavskinin ucaltdığı H.Z.Tağıyevin Renosans tipli sarayının (Tarix muzeyinin) tikintisinə böyük hörmətlə yanaşmışdır.

## *H*əyat yuxu kimi, bu gün var, sabahsa, yox!

**Bəxt, tale, qismət deyilən anlamlara inanmayanlara bir məsləhətim var - Neft milyonçusu Ağa Musa Nağıyevin həyat tarixçəsinə nəzər salsınlar. Çünki şaxtanın bıçaq kimi sümüyə işlədiyi qış axşamlarının birində dünyaya gəlmiş Ağa Musanın, hətta milyonları sonraan başına gələn hadisələrin qarşısını ala bilməyəcək...**

Ötən əsrin sonlarında Azərbaycan Respublikası müstəqilliyini bərpa etdiyi vaxtdan Vətən tarixşünaslığı, tarix elmi qarşısında böyük perspektivlər açılmışdır. Uzun illər üzərinə kölgə salınan, qadağalar qoyulan mövzular tədqiq olunmaqla, yeni-yeni mənbə materialları elmi dövriyyəyə cəlb edilməkdədir. İndi tarix elmi azərbaycançılıq ideologiyası aspektindən yenidən işlənilir, uzun illər qadağa olunmuş mövzulara işıq salınır, arxivlərin küncünə atılmış qiymətli sənədlər aşkarlanır.
XIX-XX əsrlərdə yerli sahibkarların neftdən əldə etdikləri gəlir hesabına bu gün müstəqil Azərbaycanın bütün sahələrində fəaliyyət göstərən alimlərin, iqtisadçıların və digər mütəxəssislərin ərsəyə gəlməsində milli burjuaziyanın böyük rolu olub.
Sovet təbliğatının tədbiqini qadağan edən mövzulardan biri də Azərbaycanda neft milyonçularının, xeyriyyəçilik hərəkatında rolunun öyrənilməsi, millətin görkəmli şəxsiyyətlərinin həyat və fəaliyyətini araşdırmaq olmuşdur. Uzun illər boyunca onların üzərinə «burjua» damğası vurularaq adlarını ləkələməyə çalışmışlar. Amma

XX əsrin əvvəllərindən milli oyanışın artdığı şəraitdə neftxudalar - mesenatlar millətin yaddaşında elə dərin iz buraxmış, öz xidmətləri ilə millət qarşısında elə şöhrət qazanmışlar ki, onları tarixdən silmək və ya ləkələmək sovet ideologiyasına nəsib olmadı.
**B**elə şəxsiyyətlərdən biri olub , Ağa Musa Nağıyev.
**T**ariximizin qaranlıq səhifələrindən birinə həqiqət işığı salmaq baxımından Azərbaycanda neft sənayesinin inkişafındakı xidmətlərinin, habelə xeyriyyəçilik və ictimai fəaliyyətinin tədbiq edilməsi onun ruhu qarşısında heç olmasa mənəvi borcdur. Yaranan hər bir nümunədə Azərbaycanın dövlətçilik prinsipləri, onun coğrafiyası, tanınmış simaların portret cizgiləri əsas xətt olaraq təqdim olur. Burada salınan izlər tariximizin bir parçası, yaşanılan illərin əks-sədasıdır. Neçə əsrlik tariximiz daş kitabələr vasitəsilə bizlərə əxz olunmaqdadır.
**İ**tirdiklərimin çoxunu ictimai fəaliyyətimdə, yazdıqlarımda, ailə çərçivəsinin istisində tapdığımı etiraf edirəm.
**D**eyilənlərə görə - illər uzunu çalışdığım bu yolda mənəvi sarsıntılara tuş gəlməyimlə, Azərbaycan qadınına məxsus dəyanət və dözümüm ilə sərt buxovları dəf edə bilmişəm.
**A**ğa Musa Nağıyevin imperiyanın qanunları qarşısında hüquqlarının əlindən alınması, vətənpərvərliyinin şübhə altına alınması zamanın barışmayan mövqelərində ona güc gəlmişdir.
**M**ədənlərdən gələn gəlir hesabına saya-hesaba gəlməz qədər binalar tikdirməsi, "Qaraşəhər"də (indiki Ağ şəhər) neft emalı zavodunu quraşdırması 49 yaşında onu igidlik, mərdlik səltənətinin məşhur milyonçusuna çevirmişdir. O, var dövlətini şəxsi mənafeinin reallaşmasına deyil, vətəni- xalqı rifahı uğrunda işlərin görülməsinə sərf etmişdir. Uşaq ölümü ilə mübarizə aparan "Bakı cəmiyyəti"nə küllü miqdarda pul köçürən, xeyriyyəçilik məqsədli bir sıra işlərə imza atan Ağa Musa Nağıyev nəslinin təlim-tərbiyəsi mənə kiçik yaşlarımdan aşılanıb.
**S**ovet dövründə yaşanılan ictimai-siyasi böhran taleyimdən, fəaliyyətimdən yan keçməyib. Nəslin davamçısı kimi uzun illər ağrı-acını yaşadım. Adını daşıyan "Milli Dəyərlərin Qorunması" İctimai Birliyini yaratmaqla, nəslimin təbliğatına diqqət yetirərək bir sıra işləri həyata keçirirəm.
**N**eçə illərdir ki, haqqında yazdıqlarımdan: - Ağa Musa Nağıyevin saya gəlməz möhtəşəm tikililərinin, maariflənməyə və səhiyyənin inkişafına yönəltdiyi işlərin, hətta bolşeviklər tərəfindən oğurlanarkən pullarını göyə sovurmayan anların şahidi olub, imkansızlara əl tutmasından, vəfatının 40 günü tamam olmamış əmlakının qohumlar arasında bölüşdürülməsi ilə tanış olduqca, onun insani keyfiyyətlərini qiymətləndirərək, hər birinizin ürəyində Ağa Musa Nağıyevə yer ayıracağınıza əminəm.
.... **B**əxt, tale, qismət deyilən anlamlara inanmayanlara bir məsləhətim var - Neft milyonçusu Ağa Musa Nağıyevin həyat tarixçəsinə nəzər salsınlar.
**Ç**ünki şaxtanın bıçaq kimi sümüyə işlədiyi qış axşamlarının birində dünyaya gəlmiş Ağa Musanın, sonradan başına gələn hadisələrin qarşısını almağa hətta milyonları da çarə edə bilmədi. Bu həmin gün onun alnına yazılmış tale qisməti idi.

**T**anrı onu kiçik yaşlarından özündən böyük yükün altına atır. Zəhmətinin bəhrəsini – yalnız çörəyə və qəndə çatan pulu qazanıb, ona möhtac olan ailəsinə köməkdə görür. Uşaqlığını unudur.
**S**onradan xeyirxahlığı, ziyalı təfəkkürü ilə zəmanəsinin mesenatları arasında özünəməxsus yer tutanlardan olur və zamanla böyüyən insan - Ağa Musa Bakının simasına çevrilir.
**K**eçmişə hörmətlə yanaşmaq, Azərbaycanın tarixini, onun dəyərli səhifələrini gələcək nəslə ötürmək hər birinin borcudur.
**B**u mövzuya müraciət etməyim və zaman məsafəsində qazandığım nailiyyətlər, vətənpərlik husslərindən, humanizmdən, nəcib duyğulardan yaranır. İnsanlara mənəvi dayaq olmaqdan, ətrafdakılara sevgi hisslərini paylaşmaqdan irəli gəlir.
**X**alq üçün yaşanan ömrün davamçısı olmaq məsuliyyətini, bu qətiyyəti üzərimə götürməkdə səhf etmədiyimi günü-gündən daha çox inanıram.
**A**ğa Musa Nağıyevin haqqında yazdığım kitabların hər bir fəslində Azərbaycanın dövlətçilik prinsipləri, onun coğrafiyası, tarixi, tanınmış simaların portret cizgilərini əsas xətt olaraq tədim etməyə çalışıram. Buradakı izlər tariximizin bir parçası olmaqla, baba və atamın yaşanılan illərinin əks-sədasıdır desəm, fikrimdə yanılmaram.
... **İ**llərlə eşitdiklərimin əksinə olaraq, arxiv sənədləri Ağa Musa Nağıyevin qənaətcil olduğunu təsdiqləyir. O, pulu hara və nəyə xərcləməyi dəqiq bilib. Pul qazanmaqda igidlik göstərib, onu əldə saxlamağı müdrüklük sayan Ağa Musa, ondan lazımı istiqamətdə yerində istifadə etməkdə istedadını təsdiqləyib.
**O**, nahaqdan deməzdi ki, “Zər qədrini zərgər bilən kimi, pulunun da qədrini bilən varlana bilər”.
**Ə**ldə olunan sənədlərdən Vətən övladının, Bakı milyonçusunun çox işıqlı obrazı boylanır. Verdiyi töhfələrin və faktların arxasından bu fenomen şəxsiyyətin dəyərli xidmətləri boylanır.
**A**ğa Musa Nağıyevin tikdirdiyi və Bakı memarlığının “Qızıl fondu”na daxil olan binalarını sıralayarkən, uzun bir siyahı əmələ gəlir.
**B**akıya bir klassikalıq gətirən, onun hüsnünə Qərb və Şərq memarlıq koloritini bəxş edən qeyri-adi binaların müəllifi olub Ağa Musa Nağıyev.
**B**akının ilk neftxudalarından olan mesenat, milyonçu Ağa Musa Nağıyev səxavəti ilə imkansız ailələrin dayağı olub.
**B**ir övlad yanğısı ilə illər uzunu arxivlərdən, yaddaşlardan topladığım faktlar və xatirələr, əsasında yazdığım ”Xalq üçün ömrünü şam kimi əridən...” adlı ilk kitabda məşhur milyonçunun həyatından, millət üçün gördüyü işlərdən bəhs etməklə, onu xalqa sevdirə bildiyimə əminəm.
**Ç**oxsaylı tikililərilə hətta Bakı milyonçularını **(Bakını qurub-yaradan on bir neftxuda olub)** dəhşətə gətirən Ağa Musanın arzusuna çatmasına iki bina qaldı. Onun məqsəd və arzusu 100 bina tikdirmək idi. Oğlunun varlandığını görən atası Hacı Nağının bu nəsihəti sonradan vəsiyyətə - Ağa Musanın arzusuna çevrilir.
**A**zərbaycan xalqı tarixi siyasi və ictimai şəraitinə görə XIX - XX əsrlərdə yerli sahibkarların neftdən əldə etdikləri gəlir hesabına bu gün müstəqil Azərbaycanın bütün sahələrində əldə edilən naaliyyətlərdə milli burjuaziyanın böyük rolu olub.
**A**ğa Musa 1849-cu ildə Bakı quberniyasının Biləcəri kəndində saman satmaqla

məşğul olan Hacı Nağı kişinin ailəsində doğulub. Kasıb ailədə dünyaya göz açan Musa, 11 yaşından zəhmətə qatılıb hamballıq edib, ailəsinə yardımçı olub.
Ağırlığı bir pud (16 kq) olan hambal palanının üstünə bir o qədər də çəkidə yük yükləyib, ona-buna xidmət edən Musa, sanki qarşısında açılacaq səadət qapılarını əvvəlcədən görürmüş kimi ağır zəhmətinin hədər getməyəcəyinə inanırdı.
Əlinin qabarı, ayaqlarının döyənəkləri hesabına qazandığı pulu qəpik-qəpik toplayaraq kiçik bir torpaq sahəsi alan Musa, qazdırdığı quyudan su əvəzinə neftin fontan vuracağını və qısa müddətdən sonra bu qara qızılın onu Bakının iri maqnatlarından birinə çevirəcəyini heç ağlına da gətirməzdi.
Tale onunla zarafat etmədi, üzünə bəxt qapılarını açdı. Əvvəllər nefti vedrə ilə satan Musa sonradan 30 min işçiyə çörək verir, saysız-hesabsız var-dövləti idarə etməklə savadın əsas şərt olmadığını təsdiqləyir.
Beləcə saman satanın oğlu, hambal Musa, neft sənayeçisi milyonçu Ağa Musa Nağıyevə çevrilir.
Çar Nikolay II – Neft sənayesinin inkişafında və Qara dənizdə üç iri zavodun quraşdırılmasına qoyduğu kapitala görə, eləcə də "Qara Qızıl"ın hasilatı üçün yeni mexaniki üsulun tətbiqinə görə Ağa Musa Nağıyevi "Andreyev lentalı qızıl medalı; III dərəcəli Müqəddəs Stanislav ordeni" ilə təltif etmişdir.

## Xeyriyyəçilik əməlləri

Xalq arasında Ağa Musa Nağıyevin xəsisliyi barədə çoxlu şayiələr gəzirdi. Əslində isə hərdən hər qəpiyinin hesabını aparan A.M.Nağıyev əsasən təhsil sahəsinə də kifayət qədər iri məbləğdə ianələr verib. Bakı "Realnı məktəbi"ni himayəsinə götürərək hazırlıq sinifində təhsil alan 25 müsəlman qızların məsrəflərini ödəyib. Bunun nəticəsidir ki, qısa müddətdə məktəbdə təhsil alan qızların sayı 50 faiz artmışdı.
A.M.Nağıyev hər il müxtəlif ali təhsil müəssisələrində oxuyan təqaüdçü tələbələrin təhsilinə 8 min rubl pul ayırıb.
Departamentin direktoru Kobalevski Bakıda ticarət məktəbi yaradılması təklifi ilə çıxış edəndə qısa müddətdə 170 min manat vəsait toplanmışdı. İlk pul köçürənlər siyahısında H.Z.Tağıyev, A.M.Nağıyev və Ş.Əsədullayev olub.
1898-ci ildə Bakıda yetim uşaqlar üçün evin tikintisi başlanır, ancaq ilin sonunda məlum olur ki, toplanmış vəsait azlıq edir. Bu zaman A.M.Nağıyev və Ş.Əsədullayev ilk olaraq iri məbləğdə ianə verir.
A.M.Nağıyev vərəmlə mübarizə üzrə "Qafqaz Cəmiyyəti"nin Sədri və aktiv iştirakçısı olub.
Ağa Musa Nağıyev **"Xeyriyyə axşamları"**nın biriində məcməyiyə (padnosa) ianə olaraq kiçik bir məbləğ qoyur. Pulun azlığını görən ətrafdakıların baxışları Ağa Musanın nəzərindən yayınmır. Nəsə qaydasında deyil? – deyə o, nəzakətlə soruşur. Eşidəndə ki, bir az əvvəl oğlu İsmayıl ondan üç dəfə çox pul ianə verib, cavab verir: - Bu təəccüblü deyil, axı o milyonçu oğludur, mən isə kiməm? Saman satan Hacı Nağının oğlu.

**V**arlandıqca Sabunçu, Ra ilkmanı və Suraxanıda yeni yataqlar alır, neft istehsalını genişləndirir. Başqa neft sənayeçilərindən fərqli olaraq Ağa Musa Nağıyev Qaraşəhərdə "Neft Emalı" zavodu quraşdırır və istehsalın təkmilləşdirilməsi vasitələrini genişləndirir. Xəzərdə ilk olaraq onun **"İsmayıl"** adına gəmisi peyda olur, sonradan qardaşlarının adını daşıyan **"Yusif " və "Ağa Əli"** Nağıyev gəmiləri də Xəzərdə görünür.

**Ç**ox maraqlıdır ki, milyonlar sahibi olan Ağa Musa Nağıyevin ətrafında qoçuların (cangüdənlərin) olmasına baxmayaraq, çox vaxt tək seyrə çıxmağı sevirdi. Sifarişli qoçular onu girov götürüb şəhər kənarındakı zirzəmidə saxlayıb, azadlığa buraxılması üçü 100 min rubl tələb edib, əks təqdirdə onu öldürməklə hədələyəndə Ağa Musa çətinliklər gördüyündən özünü müdafiə etməyi bacarır. Onun ağılı köməyinə çatır, "qurulmuş tələdən" cəmi 10 min rubl ilə yaxasını onlardan qurtarıb deyir: "Əyər öldürsəniz, bu məbləği də almayacaqsız".

**T**əəssüflə qeyd etmək lazımdır ki, Azərbaycan Demokratik Cümhuriyyətinin devrilməsindən sonra, 1920 –ci ilin sosialist inqilabı illər boyu meydana gəlmiş milli burjuaziya nümayəndələrindən olan **A.M.Nağıyevi, H.Z.Tağıyevi, M.Muxtarovu, İ.Hacınskini, Ş. Əsədullayevi, Aşurbəyovu** və başqalarını səhv və yanlış təhlillər nəticəsində unutdurmağa çalışıblar.

**A**dı XX əsrin əvvəllərində Azərbaycanın məşhur 11 milyonçular sırasına düşən və bu siyahıda öncül yerlərdən birini tutan Ağa Musa Nağıyev xalqın məşhur deyimini - **"Tikmədim özüm qalam, tikdim ki, izim qala"** - şüar götürmüşdür.

**A**ğa Musa Nağıyev kapitalını ancaq bina tikintisinə deyil, həm də o dövrdə cəhalət girdabında boğulan xalqın maariflənməsinə, onun dünyagörüşünün və ümumi mədəni səviyyəsinin yüksəldilməsi istiqamətinə sərf edib. Ölümün qarşısını almaq üçün xəstəxanalar tikdirmək yalnız ona mənsub olub.

**O**nun fəaliyyəti yalnız bununla bitmir...

**T**orpağına, millətinə bağlı olan Ağa Musa Nağıyevin həyat və fəaliyyətinə aid faktlar və xatirələr əsasında yazdığım: **"Xalq üçün ömrünü şam kimi əridən...", "Ömrün səhifələri" və "Zamanın sorağında"** kitabları xeyriyyəçinin fəaliyyətinə müxtəlif aspektlərdən bir baxışdır. Kitablar illərin məsafəsində fəaliyyətinə kölgə salmış ziyalının – Ağa Musanın göstərdiyi xidmətə həsr olunub.

## TORPAĞINA, MİLLƏTİNƏ BAĞLI OLUB

**"Allah ev tikənin ömrünü uzadar!"**

**R**əsmi məlumatlara görə, o illərdə **A**ğa Musa Nağıyevin Balaxanı, Ramana və Sabunçu kəndlərindəki neft mədənlərində 45 məhsuldar, həm də texniki baxımından yaxşı təchiz edilmiş quyuları var idi. Burada 800-dən artıq fəhlə işləyirdi. Uğurun əldə edilməsində şirkətin müdürü, istedadlı azərbaycanlı mühəndis Fətullabəy Rüstəmbəyovun və mədənlərin rəhbəri mühəndis - geoloq Hüseynxan Talışxanovun rolu böyük idi.

**1**908-ci ildə **A**ğa Musa Nağıyev **12.328.300** pud xam neft hasil edərək istehsalı rekord səviyyəyə çatdırır. Beş ildən sonra, yəni 1913-cü ildə isə **A**.M.Nağıyevin

müəssisələri ən iri Azərbaycan firmalarının ilk onluğuna daxil olub, sonradan müxtəlif illərdə 6-7-ci yerləri tutur.
**Q**ısa müddətdə neftin hesabına varlanan A.M.Nağıyev daşınmaz əmlaka sərmayə qoyur. O, bu qaynaqı gəlirli olduğu kimi həm də etibarlı sayırdı. Tikintiyə olan meylini atasının vəsiyyəti ilə izah edirdi: - "Allah ev tikənin ömrünü uzun edər. Yadında saxla oğul, nə qədər tikdirsən, ömrün bir o qədər uzanar".
**A**ğa Musa Nağıyevin Bakıda tikdirdiyi binaların içərisində ən çox seçilənləri İsmailiyyə, Ana və uşaq Pediatriya İnstitutu, 28 May küçəsindəki əkiz binalar və həmin küçədə daha altı bina, o cümlədən Nizami küçəsindəki bişmiş kərpiclə tikilmiş bina; keçmişdə "Qış evi" kimi məşhur olan -Zabitlər evi; "Socar" və "Astoriya" mehmanxanası – hazırkı "Məhkəmə ekspertiziyası", ilk yeddi mərtəbəli -"Novaya Yevropa" mehmanxanası – hazırkı "LUKOYL"un Bakı ofisi, Realnı Məktəb hazırkı Dövlət İqtisad Universiteti və başqaları...
**"M**əhkəmə Ekspertizası" fəaliyyət göstərən binanın eyvanlarında mifoloji heyvan qrifi və "AM" inisialları bu gün də ömrünü yaşayır;
Bununla bərabər Ağa Musa hər il müxtəlif ali təhsil ocaqlarında oxuyan tələbələrin təhsilinə 8 min rubl ayırıb.
**1898-**ci ildə Bakıda kimsəsiz uşaqlar üçün " Yetimlər evi"nin tikintisinə başlanır, ancaq ilin sonunda məlum olur ki, bu sahədə toplanmış vəsait azlıq edir. O zaman Ağa Musa Nağıyev və Şəmsi Əsədullayev ilk olaraq iri məbləğdə ianə verirlər.
**A**ğa Musa eləcə də vərəmlə mübarizə üzrə "Qafqaz Cəmiyyəti"nin ən sədri və aktiv iştirakçısı olub.
1914-cü ildə maliyyə hesabına görə Ağa Musa Nağıyevin qızıl pul ilə yetmiş milyona yaxın məbləği olub.
**B**akının gözəllik tacı sayılan A.M.Nağıyevin **"İsmailiyyə"** sarayı, ailə həyatının ilkin özülünü qoyduğumuz M.Muxtarovun **"Səadət sarayı"**, tariximizi tərənnüm edən H.Z.Tağıyevin **"Tarix muzeyi"**, mədəniyyə t və elm ocaqlarını özündə təcəssüm edən yüzlərlə belə binalar, bizə məhz milli burjua nümayəndələrinin qoyduqları yadigarlardır.
**A**ğa Musa Nağıyevin inşa etdirdiyi arxitektur binalar öz gözəlliyi və möhtəşəmliyi ilə seçilir. O, fəhlələrinə toy edən, incəsənətə fikir yönəldən, 35 yoxsul ailənin vəsiyyətinə əməl edib, dəfnlərini Kərbəlada öz hesabına keçirən, xəstəxanalar və mehmanxanalar tikdirənlər sırasında birincilik qazanıb.

## Sabahı xeyirə açan xeyriyyəçi...

**M**illi tariximizi sahibkarlıq və xeyriyyəçilik fəaliyyəti fonunda öyrənmək elmi ictimaiyyətin son zamanlar müraciət etdiyi maraqlı tədqiqat sahələrindən biridir. Dilarə Nağıyeva – Muxtarovanın AMEA-nın Tarix İnstitutunun Elmi Şurasının

qərarı ilə çap olunan **"Ağa Musa Nağıyevin xeyriyyəçilik və ictimai fəaliyyəti"** monoqrafiyası və **"Zamanın sorağında"** adlı elmi-kütləvi kitabı bu baxımdan diqqət çəkir.

**B**akıda neft sənayesinin yaranması və formalaşması prosesinə milli əxlaqın mədəni-ictimai həyatda yeri və rolu zamana görə dəyişmiş, neft kapitalının ona təsiri nəticəsində yeni münasibətlər sistemi dirçəlmişdir. Bütün yaramazlıqlara rəğmən bu sistemin daxilində qara qızıl səltənətinin qəhqəhələri və göz yaşları içərisndən ətrafa vətənpərvərlik, xeyirxahlıq, millilik gözü ilə baxanlar da olmuşdur.

**Ş**ükürlər olsun, xalqın yaddaşı sovet təbliğatının "burjua" damğası vurduğu həmin şəxsiyyətlərin bir çoxunu unutmayıb, bu gün də onları ehtiramla yad edir. Həmin xatirələrdə xariqələrilə yaşayanlar sırasında Ağa Musa Nağıyevin xüsusi yeri vardır.

**B**ütün bunları nəzərə alan müəllif yazır: "Ağa Musa Nağıyevin Azərbaycan neft sənayesinin inkişafındakı xidmətlərinin, sahibkarlıq, habelə xeyriyyəçilik və ictimai fəaliyyətinin tədqiq edilməsi, Vətən tariximizin daha bir qaranlıq səhifəsinə həqiqət işığı salmaq baxımından, eləcə də bu insanın əməlləri müqabilində onun ruhu qarşısında heç olmasa mənəvi borcun ödənilməsi baxımından vacib bir vəzifədir". Bu həm də o deməkdir ki, millət öz xetirxahlarını yaxından tanımalıdır.

**E**rkən yaşlarında biləcərili hambal kimi tanınan balaca Musa müasirlərindən gəlirli işi vaxtında duymaq bacarığı ilə fərqlənirdi. Bu fikir hər iki kitabın məntiqidir. Dolayısı yol ilə desək, azərbaycanlıların təbiətində "iş qurub, pul qazanmaq" ehtirasının güclü olduğunu təsdiqləyir. Müəllif Ağa Musa Nağıyevin şəxsində bu xüsusiyyəti faktlaşdıra bilmişdir. Tariximizin o dönəminin yaşantıları göstərir ki, yenicə yaranmaqda olan neft biznesinin perspektivini görüb fəaliyyətə başlayan hambal Musanın çox sürətlə tuzlaşması, Bakının ən bərkgedən neftxudalarından birinə çevrilməsi, ümumuiyyətlə millət və vətən üçün qürur mənbəyi olub.

**B**ir neft buruğunun fontan vurması ilə taleyi dəyişənlərin həyatı qazandıqları pulun miqdarı ilə deyil, "puldan pul etmək", " pulu idarə etmək" mədəniyyətinə nail olmaq qabiliyyəti baxımından maraqlıdır. Çünki o vaxtlar bəxtinə neft gülənlər çox olub, ancaq adını neftxuda kimi qoruyub saxlayanların **cəmi on bir nəfər** ilə tarixləşib. Məhz bu on bir kişinin hesabına Bakıda söz sahibi -biznes qrupların tərkibi azəbaycanlıların xeyrnə dəyişib. Kontorlarda iş verən və işləyən azəbaycanlıların sayı durmadan artırdı. Həmin dövr üçün bu çox ciddi məsələ olub və bu məsələ aktuallığını bu gün də saxlayır.

**Ə**yər 1872-ci ildə Bakıda neft yataqları olan yerlərin 13-dən 2-si, 163 neft quyusundan isə cəmi 21-i azərbaycanlı sahibkara məxsus idisə, bir heçə ildən sonra artıq 167 neft müəssisəsindən 49-u azərbaycanlılara məxsus olub. 1908-ci ildə həmin neft müəssisələrində 3.320 fəhlə çalışıb. 1893-cü ildə Bakıdakı 100 kerosin zavodundan 41-i azərbaycanlılara məxsus olub.

**R**usiya, Fransa və Almaniyanın iş adamları, xüsusilə də Nobel qardaşları iri neft şirkətlərin sahibkarları ölkəni taladıqları halda, bu sahəyə investisiya qoyub istehsal həcminə görə ən böyük neft emalı zavodu tikdirən iki milyonçu – qudalar

Ağa Musa Nağıyev və Şəmsi Əsədullayev olub.
**B**u kişilər binalar tikdirib, məktəblər açıb, müsəlman balalarının təhsil haqqını ödəyib. Hətta məhbuslar üçün bina tikdirərkən düşünüblər ki, dustaq olanda nə olar, özümüzünkilərdir. Həmin vaxtlar millətin işinə yarayan bütün bu tipli təşəbbüslərin əksəriyyətində Ağa Musa Nağıyevin böyük rolu olub. Ehtiyacı olanlara kömək əlini uzadıb, yeni ailə quranlara və yaxud doğmasını dəfn etməyə imkanı olmayana, həyatın bu iki nöqtəsi arasında qalan bütün xeyir-şər məsələlərilə bağlı kömək üçün Ağa Musa Nağıyevə müraciət edənlər, ümüdsiz geri qaytarılmazdı.
**K**öhnə Bakının şərqli çöhrəsinə bir az Avropa gözəlliyi qata biləcək tanınmış arxitektorların, həkimlərin, müəllimlərin, müğənnilərin, bəstəkarların, dirijorların Azərbaycana dəvət edilməsi, ümumiyyətlə mədəniyyətimizə təmənnasız xidmət etmək onun amalı olub.
**B**akının füsünkar mərkəzini bizə yadigar qoymuş görkəmli şəxslərdən biri, düşüncəsi və işgüzarlığı ilə özünə "Ağa" dedirtməyi bacaran, Rus Çarının rəğbətini qazanan "Neft Kralı "(Neftin Çarı), I Dərəcəli Tacir - Ağa Musa Nağıyev olmuşdur. Bu gün də "МН" (kiril əlifbası ilə) embleması ad və soyadının baş hərfləri ilə vüqarını itirməyən saray tipli binaları xalqımızın xidmətindədir.

## Tale üzünə bəxt qapılarını açdı
## (1849 – 1919)

**K**übar məclislərdə Ağa musa Nağıyevin məşuqəsi Yelizaveta Qriqoryevnanın üstündəki ziynət əşyalarından qızılın çəkisi təxminən 700qr., brilyant isə 10-15 karat təşkil edirdi. Yaxasına taxdığı daş qaşlar gürəbəcürə cücülərin təsviri idi. Hamı ona qısqanclıq ilə tamaşa edirdi.
**T**ale onunla zarafat etmədi, üzünə bəxt qapılarını açdı. Vaxtı ilə nefti vedrə ilə satıb, qazanc əldə edən Musa, sonradan 30 min işçini dolandırıb, saysız-hesabsız var-dövləti idarə etməklə savadın əsas şərt olmadığını təsdiqləyib. Allah –Taala hambal Musanı neft sahibinə çevirdi. Gəliri artqıdca o, Sabunçuda, Ramanada və Suraxanıda yeni yataqlar alır və neft istehsalını genişləndirir. Bu zaman o, istehsalın təkmilləşdirilməsini də unutmayır. Başqa neft sənayeçilərindən fərqli olaraq Ağa Musa Qaraşəhərdə əvvəlcə kiçik "Neft Emalı" zavodu tikdirir, sonra onu genişləndirir, Xəzərdə ilk dəfə onun gəmisi görünür.
İmperator II Nikolayın onu medal və orden ilə təltif etdiyi siyahıya: - Ağa Musanın neft sənayesi inkişafı üçün Qara dənizdə üç iri zavodun tikintisinə qoyduğu kapitala, "Qara Qızıl"ın hasilatı üçün yeni mexaniki üsulun tətbiqi də daxil idi.
**X**alq arasında Nağıyevin xəsisliyi barədə çoxlu şayiələr gəzirdi. Əslində isə hərdən hər qəpiyinin hesabını aparan A.M.Nağıyev digər milyonçulardan geri qalmayaraq təhsil sahəsinə kifayət qədər iri məbləğdə ianələr verirdi.
**K**übar məclislərə A.M.Nağıyev kəbinli arvadı ilə getmirdi, çünki qadınlar bu ziyafətlərdə açıq-saçıq geyimlərdə iştirak edirdilər. Ümma Səlmə isə hicablı xanım olduğundan, Ağa Musa cəmiyyətə açıq-saçıq geyinən Lizanı (Yelizaveta Qriqoryevna Cankorova) çıxarırdı. Bununla əlaqədar idi ki, o, Lizanı –naşa jena

(məcazi mənada -bizim arvad ), Ümma Səlmə xanımı isə uşaqların anası - deyə təqdim edirdi.
1919-cu ildə Ağa Musanın vəfatından sonra Lizanı doğmaları Gürcüstana aparır. Burada doğma qardaşları onu qarət edir və o, yenidən Bakıya qayıdır. Daha sonralar o, milliyyətcə yəhudi olan bir yaşlı kişi ilə ailə qurur, ancaq ondan da övladı olmur. O, ötən əsrin 60-cı illərinin ortalarında Bakıda vəfat edib, Çəmbərəkənddə rus qəbiristanlığında dəfn olunub. Onun məzar daşının üstündə belə bir yazı həkk olunub: "Naqiyeva – Cankorova Yelizaveta Qriqoryevna".
Sonralar proletar dünyasında Ağa Musanın sərvətinin "qırmızılaşdırılmasına", talan edilməsinə çalışanlar hətta onun ruhuna belə rahatlıq verməyib.
Azərbaycan müstəqillik əldə etdiyi zamandan bütün sahələrdə özünədərk, özünəqayıdış hisləri gücləndiyi kimi, bu böyük insanın adına münasibətdə də diqqət və ehtiram hiss olunur. Ona olan hüsn rəğbət artır.

## Sahibkarlıq fəaliyyəti

Ağa Musanın həyatı sanki nağıla bənzəyirdi: "yoxsulluqdan – zənginliyə, şan – şöhrətdən unutqanlığa"! Unutmaq olmaz ki, millətin dövləti olmadığı zamanda bir dövlətin görəcəyi işləri həyata keçirib Ağa Musa Nağıyev. Neftdən əldə etdiyi gəlirin xeyli hissəsini millətin tərəqqisinə sərf edib.
1887-ci ildə "Musa Nağıyev" adlı neftayırma firmasını təsis edir. Kapitalın və istehsalın görünməmiş konsentrasiyası və sahibkarlığın səhimdar formasının daha çox yayıldığı bir şəraitdə bu firma milli sahibkarlıq müəssisələrindən olub.
XIX əsrin 90-cı illərinin əvvəllərində Ağa Musa Nağıyevin sərvəti durmadan artırdı. Belə ki, zavod və ticarət müəssisələrinin illik ticarət dövriyyəsi artıq 1 milyon rubla çatmışdı. Təmiz gəlir isə 200 min rubl təşkil edirdi.
1890-cı ildə Şəmsi Əsədullayev Ramanadakı neftlə zəngin olan 6 desyatin torpağa bərabər payla Ağa Musaya verir. Ağa Musa sonradan qonşu sahəni də alıb bu sahəyə qatır. 1891-ci ildə məhz bu sahədə qazılan tək bir buruqdan 31 min pud neft əldə edir. Ağa Musa Nağıyevin zavodunda neftin emalı və növlərə ayrılması daha çox effektli olub. Bu müəssisə qabaqcıl müəssislərdən olub, texniki cəhətdən çox yaxşı təchiz edilmişdi. Müəssisəni 26 fəhlə və 6 qulluqçu idarə edirdi. Burada 13 buxar qazanı, 12 dəmiryol rezervuarı olub. Həmin ildə burada 2,3 mln pud ağ neft (kerosin) istehsal olunub. İstehsal olunan 15 mln. pud mazut və yüksək keyfiyyətli neft məhsulları müxtəlif istiqamətlərə göndərilirdi. Neft məhsullarını daşımaq üçün müəssisə bir neçə barj icarəyə götürür.

### I gildiyalı tacir - Ağa Musa Nağıyev

1893-cü ildə Ağa Musa Nağıyev Sormovo zavoduna iki göyərtəli "Qara şəhər" adlı barkas (şxuna) sifariş edir. Bu barkasın tutumu kifayət qədər böyük olub, 38,7 min kub fut təşkil edirdi.
Neftçıxarma sahələrini artırmaq məqsədilə Ağa Musa neftlə zəngin olan yeni torpaq sahələri alır. XIX əsrin sonunda Balaxanı, Sabunçu, Əmircan və Ramanada neftli sahələri icarəyə götürür. Qazma buruqlarının sayı 8-ə çatmışdı.
Əvvəllər neft saxlamaq üçün başqa neft sahibkarlarının ambarlarından istifadə edən Ağa Musa, 1898-1899-cu ildə daha bir neftayırma zavodu quraşdırır. Buradakı fəhlə və qulluqçuların sayı 226 nəfər təşkil edirdi. Onlara verilən aylıq əmək haqqının miqdarı 7 min manat təşkil edirdi. Hər fəhləyə düşən əmək haqqı Ş.Əsədullayevin və M.Muxtarovun müəssisələrindən fərqli olaraq, 32 manat olub.
XX əsrin ilk illərində Ağa Musa Nağıyevin neft mədənlərində neftin güclü fontan vurması, firmanın istehsal xarakterinə və fəaliyyətinə müsbət təsir göstərirdi. 1900-cü ildə Ramana sahəsindəki buruqlar 1,1 mln.pud neft verirdi. Sabunçuda isə istehsal olunana neftin həcmi 2 mln. pud təşkil edirdi.
Ağa Musa Nağıyev üçün o biri illər də uğurlu olmuşdur. Belə ki,:
-Sabunçu sahəsində 10 mln. puddan artıq neft – çıxarılmış, sahələrində 20 buruq, 14 neft saxlayan ambar var idi. Firmanın zavodlarında istehsal ketdikcə artır, realizə olunacaq məhsulların həcmi çoxalırdı.
1907-cı ildə ona məxsus olan müəssisələr əsasında əsas kapitalı 10 mln. rubl təşkil edən "Musa Nağıyev" adlı səhmdar neft sənayesi və "Ticarət cəmiyyəti" yaradır.
**1898-ci ildə Ağa Musa Nağıyevin əmlakının dəyəri 334 560 rubl təşkil edib.**
Fərəc Nağıyevin xatirələrindən (RDA fond № 475) bəlli olur ki, 1918-cu ilədək Ağa Musa Nağıyevin varidatının ümumi miqdarı 413 mln. rubl təşkil edirdi.
Ağa Musa kapitalını ancaq bina tikintisinə deyil, həm də dövrün cəhalət girdabında boğulan xalqın maariflənməsinə, onun mədəniyyət səviyyəsinin yüksəldilməsinə sərf etmişdir.
Ağa Musa varidatına və binalarının sayına görə Bakı milyonçuları arasında seçilib.

## SABAHI XEYİRƏ AÇAN XEYRİYYƏÇİ...

Milli tariximizi sahibkarlıq və xeyriyyəçilik fəaliyyəti fonunda öyrənmək elmi ictimaiyyətin son zamanlar müraciət etdiyi maraqlı tədqiqat sahələrindən biridir. Dilarə Nağıyeva – Muxtarovanın AMEA-nın Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunan **"Ağa Musa Nağıyevin xeyriyyəçilik və ictimai fəaliyyəti"** monoqrafiyası və **"Zamanın sorağında"** adlı elmi-kütləvi kitabı bu baxımdan diqqət cəlb edir.
Bakıda neft sənayesinin yaranması və formalaşması prosesinə milli əxlaqın

mədəni-ictimai həyatda yeri və rolu zamana görə dəyişmiş, neft kapitalının ona təsiri nəticəsində yeni münasibətlər sistemi dirçəlmişdir. Bütün yaramazlıqlarına rəğmən bu sistemin daxilində qara qızıl səltənətinin qəhqəhələri və göz yaşları üzərindən ətrafa vətənpərvərlik, xeyirxahlıq, millilik gözü ilə baxanlar da olmuşdur.

**Ş**ükürlər olsun, xalqın yaddaşı sovet təbliğatının "burjua" damğası vurduğu həmin şəxsiyyətlərin bir çoxunu unutmayıb, bu gün də onları ehtiramla yad edir. Həmin xatirələrdə xariqələri ilə yaşayanlar sırasında Ağa Musa Nağıyevin xüsusi yeri vardır.

**B**ütün bunları nəzərə alan müəllif yazır: -"Ağa Musa Nağıyevin Azərbaycan neft sənayesinin inkişafındakı xidmətlərinin, sahibkarlıq, habelə xeyriyyəçilik və ictimai fəaliyyətinin tədqiq edilməsi, Vətən tariximizin daha bir qaranlıq səhifəsinə həqiqət işığı salmaq baxımından, eləcə də bu insanın əməlləri müqabilində onun ruhu qarşısında heç olmasa mənəvi borcun ödənilməsi baxımından vacib bir vəzifədir".

**B**u həm də o deməkdir ki, millət öz xetirxahlarını yaxından tanımalıdır.

**E**rkən yaşlarında biləcərili hambal kimi tanınan balaca Musa öz müasirlərindən gəlirli işi vaxtında duymaq bacarığı ilə fərqlənib. Bu fikir müəllifin hər iki kitabının məntiqidir. Və dolayısı ilə desək, azərbaycanlıların təbiətində "iş qurub, pul qazanmaq" ehtirasının güclü olduğuna işarədir. Müəllif Ağa Musa Nağıyevin şəxsində bu xüsusiyyəti faktlaşdıra bilmişdir. Tariximizin o dönəminin yaşantıları göstərir ki, yenicə yaranmaqda olan neft biznesinin perspektivini görüb fəaliyyətə başlayan hambal Musanın çox sürətlə tuzlaşması, Bakının ən bərkgedən neftxudalarından birinə çevrilməsi, ümumuiyyətlə millət və vətən üçün qürur mənbəyi olub.

**B**ir neft buruğunun fontan vurması ilə taleyi dəyişənlərin həyatı qazandıqları pulun miqdarı ilə deyil, "puldan pul etmək", " pulu idarə etmək" mədəniyyətinə nail olmaq qabiliyyəti baxımından maraqlıdır. Çünki o vaxtlar bəxtinə neft gülənlər çox olub, ancaq tarixdə adını neftxuda kimi qoruyub saxlayanların cəmi on bir nəfər ilə tarixləşib. Məhz bu on bir neftxudaların hesabına Bakıda söz sahibi biznes qrupların tərkibi azəbaycanlıların xeyrinə dəyişib. Kontorlarda işləyən azəbaycanlıların sayı durmadan artıb. Həmin dövr üçün çox ciddi hesab edilən bu məsələ aktuallığını bu gün də saxlayır.

**Ə**yər 1872-ci ildə Bakıda neft yataqları olan yerlərin 13-dən 2-si, 163 neft quyusundan isə cəmi 21-i azərbaycanlı sahibkara məxsus idisə, bir heçə ildən sonra 167 neft müəssisəsindən artıq 49-u azərbaycanlılara məxsus olub.

**1**908-ci ildə həmin neft müəssisələrində 3.320 fəhlə çalışıb. 1893-cü ildə Bakıdakı 100 kerosin zavodundan 41-i azərbaycanlılara məxsus olub.

**R**usiya, Fransa və Almaniyanın iş adamları, xüsusilə də Nobel qardaşları iri neft şirkətlərinin sahibkarları ölkəni taladıqları halda, bu sahəyə investisiya qoyub istehsal həcminə görə ən böyük neft emalı zavodu tikdirən iki milyonçu - qudalar Ağa Musa Nağıyev və Şəmsi Əsədullayev olub.

**B**u kişilər binalar tikdirib, məktəblər açdırıb, müsəlman balalarının təhsil haqqını ödəyib. Hətta məhbuslar üçün bina tikdirərkən düşünüblər ki, dustaq olanda nə olar, özümüzünkilərdir. Həmin vaxtlar millətin işinə yarayan bütün bu tipli

təşəbbüslərin əksəriyyətində Ağa Musa Nağıyevin böyük rolu olub. Ehtiyacı olanlara kömək əlini uzadıb, yeni ailə quranlara və yaxud doğmasını dəfn etməyə imkanı olmayana, həyatın bu iki nöqtəsi arasında qalan bütün xeyir-şər məsələlərilə bağlı kömək üçün Ağa Musa Nağıyevə müraciət edənlər, ümüdsiz geri qaytarılmazdı.
**K**öhnə Bakının şərqli çöhrəsinə bir az Avropa gözəlliyi qata biləcək tanınmış arxitektorların, həkimlərin, müəllimlərin, müğənnilərin, bəstəkarların, dirijorların Azərbaycana dəvət edilməsi, ümumiyyətlə mədəniyyətimizə təmənnasız xidmət etmək onun amalı olub.
**B**akının füsünkar mərkəzini bizə yadigar qoymuş görkəmli şəxslərdən biri, düşüncəsi və işgüzarlığı ilə özünə "Ağa" dedirtməyi bacaran, Rus Çarının rəğbətini qazanan Ağa Musa Nağıyev olmuşdur. Bu gün də "MH" embleması ad və soyadının baş hərflərilə (kiril əlifbası ilə) vüqarını itirməyən saray tipli binalaı xalqımızın xidmətindədir.
**B**öyük ürək sahibi, aydın düşüncəli, haqq-hesabı yaxşı bilən bir şəxsə "xəsis" damğası qoşanlar da sonradan etiraf etmişlər ki, Ağa Musa doğrudan da qərarlarında haqlı imiş. Onun "fontan vurmayan şeyə maya qoymaram"- biznes proqramının məntiqi bəzilərinin düşündüyü kimi xəsislik olmayıb!
**Ə**cəl, yüz bina tikmək arzusunda olan Ağa Musa Nağıyevə doxsan səkkizini ucaltmağa imkan verdi. Bir ömür üçün məgər bu azdır?! Həmin binaların hər birinin həyatda öz inşaat missiyası olub, poçt idarəsi, məktəb və s.
Doxsan səkkizdən ikisi - "İsmailiyyə" və Semaşko xəstəxanasının, milli həyata baxışın koloritli ifadəsi ucalığından xüsusi təyinatı bu gün də öz tərbiyəvi əhəmiyyətini qoruyub, yaşayır. Bu hissin izini də milyonlarla vətəndaşlarımızın istifadə etdiyi Şollar su kəmərinin çəkilişinin əhəmiyyətini xatırlayır. Suyun çəkilişinə sərf olunan vəsaititn75 faizini, 23mln. xeyriyyəçi Ağa Musa ödəmişdir.
**A**ğa Musa Nağıyevin bu əməlləri - xeyriyyəçilik və yardımlaşmaq, Azərbaycan mentalitetinin şah əsəri hesab olunur.

**Respublika qəzeti 12.03.2013,**
**Elçin Vələdoğlu**

## Məzarı 80 il yol gözlədi

(Sovet hakimiyyəti dövründə milyonçunun qəbri üç dəfə yerini dəyişib)

**A**zərbaycanda sovet hakimiyyəti qurulandan sonra **Ağa Musa Nağıyev** kimi xeyriyəçilərə "istismarçı", "kapitalist" damğası vuruldu.
**O**nların məzarlarını belə hörmətdən salır, hətta qohumların məzarı ziyarət etmələrinə icazə verilmirdi.
**A**ğa Musa Nağıyev 1919-cu ildə martın 4-də vəfat etmiş, vəsiyyəti Kərbəlada, oğlu İsmayılın yanında dəfn olunmaq olub. Zəmanəyə rəğmən imkansızlıqdan vəsiyyətinə əməl olunmayıb, sonradan nəşi Kərbəlaya göndəriləcək məqsədilə milyonçu "Əmanət" kimi Çəmbərəkənd qəbiristanlığında dəfn olunub.

**1**931-ci ildə bolşeviklər Bakının ən yüksəkliyində - Çəmbərəkənd qəbiristanlığının yerində Dağüstü park salıb, burada “alovlu natiq” Kirovun heykəlini ucaltmağı qərarlaşdırır.
**U**zun illərin dumanlı-çiskinli mənəvi iqlimində bütöv bir nəslin yaddaşının aşınması tədrici olaraq şanlı şəxsiyyətlər tarixin qaranlıqlarında əriyib itməsilə nəticələndi. Elmin bizlərə qarşı tətbiq etdiyi ən dəhşətli cəza üsullarından biri də yaddaşın represiyası oldu.
**Ş**əxsiyyəti kapitalizm, burjuaziya damğasına tuş olan, adı qadağalar sırasına düşən, müvəqqəti zaman kəsiyində nəsillərin yaddaşından silinsə də, tarixin yaddaş səhifəsinə əbədi həkk olan xeyriyyəçi-mesenat, neft maqnatı **Ağa Musa Nağıyev** mürəkkəb və faciəli tale yaşamış, ölümündən sonra da bu tale onun ruhunu təqib etmiş, əbədiyyət evində də kədərli nişanəsini qoymuşdur.
**D**ünyasını dəyişdikdən sonra onun ruhu dinclik tapa bilmir:
-**V**əfatından sonra zamanın hökmü ilə əlaqədar, məcburən dörd dəfə qəbir yerini dəyişən Ağa Musa Nağıyevin nəşi, yalnız1998-ci ildə rahatlıq tapa bildi. Vəfatının 80 illiyi ərəfəsində “Əmanət” qəbri daimi olaraq əbədiləşdirildi:
- **Ü**zərinə qoyulmuş kiçik baş daşı ilə bərabər onun nəşi: **1919 – 1931- ilədək Çəmbərəkənd, 1931-1938 ilədək Biləcəri “Propaka”, 1938-1998 ilədək Biləcəri “Dağüstü” qəbiristanlıqlarını gəzib-dolaşır. Beləcə düz 80 il keçir...**
**S**ordular, xəsis kimdir? Dedilər, imkanı olub, əl tutmayan”. Ağa Musa Nağıyev “Əl tutmaq Əlidən qalıb” məsəlinə riayət edərək dəfələrlə insanların dadına çatıb - həm dirilərin, həm ölülərin. Amma onun aqibəti isə...

## NARAHAT QƏBİR ƏBƏDİLƏŞDİRİLDİ

**D**eyirlər ki, dünyanın aqibəti insanların əlindədir. Bunlar peşəsi, təcrübəsi, işgüzarlığı və istedadı ilə seçilən insanlardır.
“**Y**axşılıq et, at dəryaya. Balıq bilməsə, Xaliq biləcək.” Belə də etdi xeyriyyəçi Hacı Əvəz.
... **T**əngənəfəslikdən şikayət edən Baba kişi dəfələrlə “Musa Nağıyev” adına xəstəxanada müalicə alıb. Söylədiklərinə rəğmən o, xəstəxanaya daxil olarkən hələ müalicə almamış, səhhətində artıq yüngüllük hiss edirdi. Hər zaman Baba kişi Ağa Musanın “Əmanət” qəbrini gözü önünə gətirirdi. Narahat hisslər keçirib, düşünürdü: - Bu da milyonların sonu. Nəhəng tikinti-abadlıq işləri görən milyonçunun qəbri beləmi olmalıdır? Əyər bilsəydi, sağlığında özünə bir məqbərə-türbə də tikdirərdi..
**B**izimlə tanışlıq zamanı Baba kişinin oğlu Hacı Əvəz Ağa Musanın nəşini vəsiyyətinə əsasən Kərbəlaya göndərməyi təklif etdisə də, bu təklifdən vaz keçdik.
**A**.M.Nağıyevin “qəbr macarası”ndan qısa şərh:
**1**919-cu ildə vəfat etmiş, ömrünü qurub-yaratmağa həsr edən milyonçu Ağa Musanın əlindən hər şey alındığına görə vəsiyyətinə əməl olunmayır. Kərbəla

həsrətli Ağa Musa Çəmbərəkənd qəbiristanlığında "əmanət" olaraq dəfn olundu. 1930-31-ci illərdə bu qəbiristanlıq "mədəni istirahət parkına" çevrildiyindən, Ağa Musanın qəbir sərgüzəştləri başlanır. ..
**1**998-ci il iyulun 23-də Ağa Musa Nağıyevin nəşinin yenidən köçürülmə mərasiminə toplaşan izdiham bu hadisənin gedişatını səbirsikliklə gözləyirdi.
**O**nun nəşi Bakının yayın qızmar günündə özü kimi xeyirxah və xoşməramlı Hacı Əvəzin köməyi ilə dördüncü qəbir evinə köçürüldü. Xeyriyyəçi Hacı Əvəzin təşəbbüsü ilə Xırdalan məscidinin mollalarının iştirakı ilə Ağa Musanın ruhuna dualar oxyaraq, 80 il əmanət qalmış nəşi Biləcəri qəbiristanlığında əbədi qəbrə qoyuldu. Uyuduğu qəbrin yeri (III qəbri) narahat olduğundan, milyonçunun məzarı Binəqədi İH –nin ayırdığı yerdə - Biləcəri qəbiristanlığının girəcəyində daimiləşdirildi. O günü yağan iri yağış damlaları elə bil Ağa Musaya olan ehtirama axıdılan göz yaşları idi. sanki məzarlığa bir rahatlıq gətirdi bu yağış. Həmin il dekabrın 25-də daimi qəbrin açılışı oldu.
**H**acı Əvəz "İsmailiyyə" binasının kompleksini məzarın üzərinə qoymaqla sanki oğlu İsmayılın ruhunu atasına yaxınlaşdırdı. Təxminən bur metr hündürlüyü olan vəfalı başdaşı isə onunla üç qəbr gəzib, əbədi məzarının üstündəki İsmailiyyə maketinin içərisinə qoyuldu.
**A**ğa Musanın qara mərmər üzərində həkk olmuş rəsmi elə bil izdihamı salamalyırdı. Məzar üstü yazı - "Tikmədim özüm qalam, tikdim izim qala", sanki Ağa Musanın ahu-zarı idi.
...**A**tası Baba kişinin : Oğul, Ağa Musanın qəbrini əbədiləşdirmək lazımdır – deməsi, Hacı Əvəzi qəti qərar qəbul etməyə məcbur etdi. Hacı Əvəzin uduşu isə sanki onun həyatını buraya qoyulan daşların hər birinin ömrü qədər uzanacağı oldu.
**H**acı Əvəzin dəvətilə Maqnitaqorskidən gələn rəssam, qara mərmər üzərində Ağa Musanın böyük portretini bir günə hazır etmişdi. Hacının dediyi kimi bunu mənə hədiyyə edib.
**H**acı Əvəzin bu əməli Azərbaycan üçün çox işlər görmüş, 35 yoxsul ailə başçısının vəsiyyətinə əməl edib dəfnlərini Kərbəlada keçirən, saya-hesaba gəlməyəcək möhtəşəm tikililərinin, maarifin, səhiyyənin inkişafına yönələn işlərini, imkansızlara əl tutmasını və bir çox başqa xeyriyyə işlərini həyata keçirən Ağa Musa böyüklüyünə, məhəbbətinə, bütövlükdə tariximizə olan münasibət kimi qarşılandı.

**P.S.** 2013-cü ildə Novxanı bağında bacım Solmaz xanım ilə istirahət edirdik. Orucluq ayında Quran tapşırmaq üçün **İyulun 23-də** Hacı Əvəzə zəng edib, Ağa Musa başda olmaqla mənə yaxın olan əzizlərim üçün quran oxumağı xatırlatdım. Artıq neçə illərdir ki, bu məsuliyyəti Hacı Əvəz öz üzərinə götürməsinə baxmayaraq, onun yadına salmağı mənəvi borc sanıram.
**S**öhbət zamanı Hacı Quranı əhyələrdə tapşıracağını bildirməklə daha bir savab sahibi olacağımızı vurğuladı. Hər zaman məzmunundan asılı olmayaraq, Hacı Əvəz ilə söhbətimiz o qədər səmimi keçir ki, bəzən əsas məsələlər bir tərəfə qalır.

Bu bizim biri-birimizə olan isti münasibətin nəticəsidir. Bu dəfə də söhbət o qədər şirin keçdi ki, zəng etdiyim günün varlığına getmədim.
**B**irdən ilan çalmış kimi yerimdən sıçradım. Solmaz xanımın həyəcan içində nə olduğunu anlamadan sual dolu nəzərlərini mənə dikib, nə isə dəhşətli bir hadisənin baş verdiyi xəbərini gözlədiyini anlayanda, həyəcanım heyrətlə əvəz oldu.
**F**ikrimi cəmləyib onu sakitləşdirdim və qürurla dedim: - Bu gün Ağa Musanın **qəbrinin daimiləşdirilməsindən 15 il keçir.** Quranını tapşırmağın məhz bu günə düşməsi məni şoka saldı.
**B**ir anda gözümün önündə Biləcəri qəbiristanlığında **1998-ci il iyulun 23-də** Ağa Musa Nağıyevin nəşinin daimi qəbrə köçürülməsi canlandı. Qardaşım Rauf onun nəşini yeni qəbrə qoyarkən, sanki söz vermişdi ki, tezliklə yanına gələcəyəm. 1999-cu ilin bu tarixində (23 iyul) Raufa qəbr evi qismət oldu.

## Binaların sirrləri

**O binalar ki, bu günkü Bakının**
**görünüşü təsəvvür edilməzdir...**

**B**akı milyonçuları arasında ən çox mülk sahibi olan Ağa Musa Nağıyevin tikililəri haqqında məlumatlar azlıq təşkil etdiyindən, bu sahədə apardığım araşdırmalar uğurlu nəticələr verdi.
**Q**ısa müddətdə neftin hesabına varlanan A.M.Nağıyev daşınmaz əmlaka sərmayə qoyur. Bu qaynaq daha gəlirli olduğu kimi həm də etibarlı sayılırdı.
98 binasından 64-nü aşkar edib, siyahıya aldım. Video görüntülərini çəkdim. Aşkar etdim ki, A.M.Nağıyevin Neftçilər procpekti 69 ünvanda tikdirdiyi binada 1920-ci ildən "Elektrik yarım stansiyası" yerləşir.
**2**006-cı ildə bina sökülocək deyə hasara alınanda müraciətlər və teleqramlar ilə lazımı təşkilatları "top atəşinə" tutdum. Çox saylı müraciətlərimin nəticəsi oldu. Binanın xarici görkəmi (fasadı) saxlanılmaq şərtilə burada "ÜNS" teatrı tikildi.
**B**elə bir hadisə 2006-cı ildə Ağa Musa Nağıyev adına xəstəxana ilə də baş verdi. Ağa Musa Nağıyev istedadlı mülki mühəndis N.Q. Bayevə etdiyi sifarişinə əsasən hazırlanmış layihə üzrə Bakıda böyük şəhər xəstəxanası tikdirir. Təsadüfi deyil ki, bina "H" (kiril əlifbası ilə) soyadının baş hərfi formasındadır. Xəstəxana 1913-cü ildə istifadəyə verilib.
**X**əstəxananın tikintisinə A.M. Nağıyev 300 min rubl vəsait sərf edib. Xəstəxananın ərazisinin ümumi sahəsi 100 min kv metr təşkil edir. Ambulator hissəsi və 1000 çarpayılıq palatalar müalicə üçün nəzərdə tutulub. Ağa Musanın arzusu bu xəstəxanada ağır xəstəliklərin profilaktikasını həyata keçirmək və əlbəttə ki, effektiv müalicə işlərinin aparılması olub ki, insanlar, xüsusilə də gənclər, İsmayıl oğlu kimi həyatını vaxtsız tərk etməsinlər. Hazırda xəstəxananın binası yenə də səhiyyəyə xidmət edir.
**2**010-cu ildən –binada aparılan əsaslı təmirdən sonra Cənab Prezidentin Sərəncamına (2006-cı ildə) əsasən əvvəlki vəziyyətinə qaytarılmaq şərtilə, Respublikanın Səhiyyə Nazirliyi fəaliyyət göstərir.

**T**ikdirdiyi binaların hər birinə, eləcə də İsmailiyyəyə üç küçəyə girişin və çıxışın olması yalnız Ağa Musa Nağıyevin tikililərinə məxsus olub!
**H**ər bir binanın arxasında onun surəti və dövrün həsrəti duyulur. Onun hər bir tikilisi bu gün də insan tarixini, insan taleyini qoruyur. Rokkoko və borokko üslubunda tikdirdiyi "İsmailiyyə" və "n" qədər məbədlər! Bu binalar dünyanın üzünə açılan ən gözəl peyzajdır. Nəqşidir Azərbaycanın!
**B**akının Bayıl tərəfində bir binanın sorağına getdim, üçünü tapdım. Bu tapıntıda RQC-nin sədri Bahar xanım Qasımova da iştirak edirdi. Qurban Abbasov küçəsi 11 ünvandakı binanın yuxarı hissəsində tarix - 1908 və "AM" embleması burada da onun tikilisini qoruyur.
**Ə**trafdakıların və yerli sakinlərin söhbətlərindən məlum oldu ki, 10-12 il bundan əvvəl xaricdən gələn bir xanım burada yaşayan sakinlərə böyük məbləğdə pul təklif edib, binanı almaq niyyətində olub. Heç kəs razılıq verməyib.
**D**üşündüm, maraq nə ola bilər?...
Bahar xanım nə isə dedi, həyəcan keçirdiyimdən, əhəmiyyət vermədim.
**H**əmin küçədə 13 saylı binanın da Ağa Musaya məxsus olduğunu aşkarlayıb, 15 saylı binaya keçdim. Xaricdən kiçik mələklər və çox saylı meyvələrlə bəzədilmiş binada Səbail r-nun15 saylı poliklinikası fəaliyyət göstərir. Məhsuldarlığın rəmzi olan nar meyvələri binanın girəcəyini bəzəyir. Əllərində musiqi alətləri olan mələklər elə bil binanın sağlamlıq ocağı olduğuna sevinirlər. limana yaxın olduğu üçün keçmişdə dənizçilər binadan otel kimi istifadə ediblər. Divarlardakı istilik peçləri (kamin) dəfələrlə rəngləndiyinə baxmayaraq, gözəlliyini itirməmişdir. Bu yaxınlarda bina əsaslı təmir edilib. Poliklinikada çox illərdir ki, işləyən işçilərdən sorğu-sual etdikdə, bu divar peçlərinin quruluşunda memarın çox incəliklər işlətdyi məlum oldu. Belə ki, daşların düzülməsində xüsusi sxema tərtib edilib. Sonradan bunun sirri aşkar olundu.
**M**əlum oldu ki, limana yaxın və çox yaraşıqlı olduğundan binadan otel (mehmanxana) kimi istifadə edilib. Sonradan mühaciratda yaşayan bu otelin sahibi 10-15 il bundan əvvəl dövlətə etdiyi müraciətə əsasən, otaqlarda olan kaminin birini göstərmiş və onu sxema üzrə sökdürüb, küllü miqdarda qiymətli daş-qaş və qızıl məmulatlar əldə etmişdir...
Hadisədən xəbər tutan Bahar xanım dedi: - Dilarə xanım mən bayaq da dedim, indi də təkrar edirəm ki, xanım binada nə isə olduğunu bilib ki, binanı kökündən almaq marağında olub.

**Telefonnı küçənin macarası:**
**A**ğa Musa ən çox evləri məhz Telefonnı ( hazırkı 28 may) küçəsində tikdirmişdir. Şəhərdə telefonlar yalnız sahibkarlara aid olduğundan, Ağa Musa ilk olaraq bu küçədə (əhalinin sıx olduğu yerdə) ona qədər dirək qoydurub, avtomat telefonlar çəkdirib. Telefonla danışmağa bu küçəyə gələn rus dilli əhali buranı "telefon olan küçə" (Telefonnaya) adlandırır.
**A.M.Nağıyevin gəlirli evlərini "Qasımov qardaşları və K" şirkəti ucaldırdı. Bir binanın tikintisi qurtarmamış başqa birinin tikintisinə başlayırmış. Bu miqyasda inşaatı hətta Hacı Zeynalabdin Tağıyev də həyata keçirməyib.**

**A**ğa Musa təkcə İsmailiyyə, Zabitlər evi, Novaya Yevropa (Yeni Avropa), Astoriya binalarını tikdirməklə, sağlığında heykəlini ucaldıb demək məqsədə uyğundur. Binalarının üzərindəki emblem isə daş kitabələrə çevrilib, milyonçunun xatirəsini yad edir.

**Nadir hadisə:** 1992-ci ildə 28 may küçəsində yerləşən -əkiz, yaxud "güzgü simmetriyalı" binalarda mənzillərin birində yanğın baş vermişdir. Sakinlərin danışıqlarından:

-Səhər 9-dan başlayan yanğın 12 saat davam edib. Yanğın söndürənlərin binaya vurduqları su sanki kiçik dənizi xatırladırdı. Yanğın söndürüləndə, döşəmədəki parketin olduğu kimi qalması hamını heyrətə salmışdı. İnanılası olmayan belə bir fakt hamını şoka salmışdı. 12 saat suyun altında qalmış parket döşəməyə heç bir ziyan dəyməmişdi. Əks mütənasib olan taxta və suyun "dostluğunun" nəticəsinin belə bitməsi, ağlasığmaz bir faktın baş verməsi parket döşəmənin yüksək keyfiyyətindən xəbər verirdi.

**M**üsahibim onu da əlavə etdi ki, eşitdiyinə görə Ağa Musa Nağıyev hələ o zaman tikinti materiallarını Bakıda əldə etmək mümkün olmadığından, xaricdən gətizdiribmiş.

**D**üşündüm ki,70 ildən bir "yeni dünya" qurarkən, köhnəni yıxmaq, keçmişi yaddaşlardan silmək lazım gələndə, dağıdılan heykəllər hayıf ki, dil aça bilmir. Elə bil bu heykəllər daşıdıqları məna kimi:- "keçmişi dəyişmək mümkün deyil" - deyir və hadisəni olduğu kimi təmsil edir.

**A**ğa Musanın etdiklərinə rəğmən yalnız iki heykəli olub desəm, yanılmaram. Onlardan biri adını daşıdığı xəstəxanadakı 2006-cı ildə məhv edilən – lövhə idi. O biri isə vəfalı olub "Ekspertiziya məhkəməsi" nin fəaliyyət göstərdiyi binanın eyvanlarındakı qrifi ilə bərabər MH- inisialları həmin formada emblem qorunub, saxlanılıb.

**Zabitlər evi**

**S.**Vurğun və Xaqani küçələrinin kəsişdiyi yerdə, sahilə yaxın tikiləcək binanın (..il....) binövrəsi sudan qorumaq məqsədilə körpüvari şəkildə, bir növ Parisdəki Eyfel qülləsinin dayağını xatırladan körpü kimi qoyulmuşdur. Ümumi yığıncaqlar keçiriləcək məqsədilə tikilən bu bina neçə illərdir ki Zabitlər evi kimi fəaliyyət göstərir. Ətrafında baş vermiş yanğından sonra ziyan çəkmiş bu bina əsaslı təmir olunub. Demək olar ki, bina yenidən bərpa olunub. Qeyd etmək lazımdır ki, Hərb muzeyində Ağa Musa Nağıyev guşəsində bina haqqında tarixi sənədlər var.

## İSMAİLİYYƏ binası
## (Ulduzlarla bəzədilmiş bina)
## (1907-1913)

**2013-cü ildə "İsmailiyyə" binasının 100 ili tamam olur.**
**Bina bu gün də qoca əsrin qocalmayan qotikasıdır.**

**M**əscidin tikintisi üçün şəhərin mərkəzində "Qapan dibi" adlanan yerdə meydan ayrılmışdı. Səslənən şeypur səsləri növbəti karvanın Qoşa qala qapısında yerləşən Şərq bazarına yaxınlaşdığını bildirirdi. Məscidin ətrafında fəvvarələrlə bəzədiləcək bağın salınması planlaşdırılsa da, Rusiya imperiyası dövründə böyük nüfuz sahibi olan xristian ruhaniləri "Qızıl kilsə" adlanan Aleksandr Nevski kilsəsinin yaxınlığında belə bir məscidin tikilməsinə mane olur. Məsələnin həlli uzandığığına görə məmurların qərarını gözləməli olan bu meydan tədricən təbii bazara çevrilir. Şəhərkənarı kəndlərdən satış üçün buraya ərzaq və başqa mallar, hətta heyvan da gətirirdilər. Şeytan bazar adlanan bu yer XIX əsrin axırlarında və XX əsrin əvvəllərində Bakının ən qaynar nöqtəsi sayılırdı.
**Ş**amaxı, Şəki və Qubadan gələn tacirlər səkilərin üstündə alverlərini edirdilər. Bu isə meydanın zibillənməsinə, palçıq və üfunətin yaranmasına səbəb olurdu.
**1**898-ci ildə Şəhər Hakimiyyətinin məsləhəti ilə şəhərin memarı Y.Qoslavski bu yerdə çox faydalı və sanitar normalarına uyğun olaraq ticarət bazarının tikilməsi fikrini də irəli sürmüşdür. Sonradan məmurlar şəhər bağı da salamaq haqqında da düşünmüşdürlər. Amma...
... **O**ğlu İsmayıl ağır xəstəliyə düçar olan zamandan yerli və xarici həkimlərin dediklərinə əməl etsə də, xəstəliyin övladına yeddi il verdiyi əzaba Ağa Musa dözməli olur. İsveçrədə keçdiyi müalicə zamanı oğlu İsmayılı ziyarət edərkən, hər dəfə Qotik üslubda tikilmiş Palatso Kantarini sarayına həsrətlə baxır, tezliklə oğlunun sağalacağına ümüdünü üzmədən, onun şərəfinə Bakıda binanın analoqunu tikdirəcəyinə özlüyündə qərar verir.
**B**u yönlü fikirlər getdikcə daha da artmaqda davam edəcəkdi, əyər milyonçu Ağa Musa Nağıyevin başına bədbəxt hadisə gəlməsəydi. 1902-ci ildə Vərəmin (çexotka) ağır formasından heç cürə yaxa qurtara bilməyən 27 yaşlı İsmayılın dünyasını dəyişməsi bütün bu danışıqlara son qoyur.
**T**əssüflər olsun ki, Ağa Musa bu qeyri-adi sarayı oğlunun xatirəsinə tikdirməli olur.
**O**, gələcək İsmailiyyə binasını ucaltmaq məqsədilə 1905-ci ildə polşalı memar İ.Ploşkonu İsveçrədəki sarayın layihəsini hazırlamaq məqsədilə bu şəhərə göndərir. Bu proses uzun müddət tələb etdiyindən memar İsveçrədə 3 il qalmalı olur.
**B**ir çox rəvayətlərə görə **guya** milyonçu Hacı Zeynalabdin Tağıyev Ağa Musanı oğlunun xatirəsinə bina ucaldıb, onun şərəfinə də İsmailiyyə adını verməyi və binanı Cəmiyyəti xeyriyyəyə verməyi məsləhət görüb. Hətta pulu çatmazsa, ona kömək edəcəyini də bildirib...
**A**mma heç bir yerdə göstərilmirdi ki, varidatının ümumi miqdarı- 413 mln., bəzi məlumatlara görə isə 690 mln.məbləğində dəyərləndirilən Ağa Musa Nağıyev, 11 Bakı milyonçularından fərqlənərək birincisi sayılıb. O, kapitalını cəhalət girdabında boğulan xalqın maariflənməsinə, dünya görüşünün, mədəni səviyyəsinin yüksəldilməsi istiqamətinə sərf etməklə bərabər, bina tikdirməkdə də başqalarından çox-şox fərqlənib.
**M**emar Y. Ploşko Venesiyada hazırladığı binanın layihəsini Ağa Musaya təqdim edir və 1908 -ci il dekabrın 21-də İmamın mövludu günü - təntənəli mərasimdə "İsmailiyyə" binasının tikintisinə start verilir.

**7 aprel** 1913-cü ildə istifadəyə verilmiş bu saray öz gözəlliyi ilə Bakının bütün imarətlərini kölgədə qoyur. Bakının qazısı – Mir Məhəmmədin xeyir duası ilə başlanan bu tikinti üçün daşlar Bakının Pirşağa kəndindən - "Qızıl qaya" deyilən yerdən arabalarla daşınıb. Daş ustaları kimi artıq böyük hörmət qazanmış usta Hənifə və Hacı Abbasın bacarığı nəticəsində sözün əsl mənasında daşlardan simfoniya yaranır.
**B**inanın dörd bir tərəfində Dördüncü Xəlifə İmam Əlinin bu kəlamları həkk edilmişdi: "İnsan əməylə ucalır və arzularına yalnız zəhmətilə çatır; İnsan doğulandan ölənədək öyrənməlidir; Ay müsəlmanlar, dövrünüz sizinlə birlikdə ölür, övladlarınızı yeni dövrə hazırlayın!"
**B**ina 1913 – 1918-ci illərədək "İsmailiyyə" adını daşıyıb və "Xeyriyyəyi Cümhuriyə"yə xidmət edib. Ağ daşla işlənmiş binanın akt zalında müsəlman xeyriyyə cəmiyyəti üzvlərinin toplantısı, müsəlman qadınlarının və Bakı ziyalılarının yığıncaqları, eləcə də ruhanilərin qurultayı keçirilib.
**H**əmin illərdə maariflənmə və xeyriyyə cəmiyyətlərinin fəaliyyəti aktivləşmişdi. Bu, hansısa vahid bir müsəlman xeyriyyə və mədəni mərkəzinin yaradılmasını tələb edirdi. "İsmailiyyə" binası belə bir mərkəzə çevrilir. Onun zallarında "Nəşr-Maarif" cəmiyyəti tərəfindən çay süfrəsi arxasında xeyriyyə axşamları təşkil olunurdu. Zaman keçdikcə burada siyasi müzakirələr də aparılırdı. 1917-ci il aprel ayının 26-da xalq müəllimlərinin iştirakı ilə tələbə konfransı da bu binada keçirilib.
**İ**çəri şəhərin fonunda "İsmailiyyə" öz dekoru ilə bu günədək hamının diqqətini cəlb edir. Oğlu İsmayılın xatirəsinə inşa etdirdiyi və «Şah əsəri» sayılan bu bina həqiqətən də nadir memarlıq nümunəsidir. Binanın divarlarına sanki Ağa Musa göz yaşları ilə suvaq şəkib, ürəyinin yağını əridərək, gənc oğlunun tellərinə sığal çəkirmiş kimi əllərini binanın hər bir daşına, divarına sürtərək bütün varlığını ora hopdurub…
**"İ**smailiyyə" binasının mərkəz girişində qapının üstündəki daş heykəli və ətrafındakı mələkləri təsvir etməklə, Ağa Musanın düşüncəsi bu olub: - Əyər İsmayıl sağ qalsaydı, məni də ətrafdakı mələklər kimi nəvə - nəticə dövrəyə alardı. 1918-ci ilin mart ayında Bakı qırmızı qvardiyanın atəşi altına düşəndə, "İsmailiyyə" - müsəlman cəmiyyətinin dayağı olan bina müqavimət məpkəzlərindən biri olub, aramsız hücumlara məruz qalır. Ermənilərin Bakıya hücumu zamanı İsmailiyyəni milyonçu Dadaşovun "Metropol" mehmanxanasının (Nizami ad. Ədəbiyyat muzeyi) damından "top yağışına" tutduqları zaman Ağa Musa oğlu İsmayılı sanki ikinci dəfə itirir. Bina güllə və mərmilərdən ciddi şəkildə zədələnir. Məqsədlərinə tam nail ola bilməyib, binanı yandırırlar.
**A**bidə 1922-23-cü illərdə memar Aleksandr Dubovun iştirakı ilə bərpa olunub bir müddət "Türk mədəniyyət sarayı" adlandırılır. Binanın bərpası zamanı artıq İsmailiyyə başlığının yerində hörmət əlaməti olaraq, iri həriflərlə "Памят Нагиевым"- sözləri yazılır. Burada "Nəşr-Maarif" cəmiyyəti tərəfindən çay süfrəsi arxasında xeyriyyə axşamları təşkil olunurdu. Zaman keçdikcə burada siyasi müzakirələr də aparılıb. 1917-ci il aprelin 26-da keçirilən xalq müəllimlərinin iştirakı ilə tələbə konfransı da bu binada baş tutub. Sonrakı illərdə binada: "Azərbaycanın tədqiq olunması və öyrənilməsi cəmiyyəti; Əlyazmalar

fondu; SSSRİ Elmlər Akademiyasının Respublika filialı fəaliyyət göstərib. 1917-ci ildə Qafqaz Müsəlmanlarının qurultayı keçirilərkən, ilk dəfə "çadra daloy" (çadranı at) deyib, başıaçıq gəzən xanımlardan- Şəfiqə Əfəndiyeva, Ədilə Şaxtaxtinskaya, Ayna Sultanova və daha onlarla qadın olub.
**"**İsmailiyyə" binası daşlaşmış heykəl olub, bütövlükdə Bakının mədəni tarixini bu gün də yaşadır.
**M**illi ornamentini itirməyən bu saray bu gün elmə xidmət edir. Hazırda bina Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti kimi tanınır.
**B**akının günəşi sanki binanın arka və pəncərələrini, iri venesian stilindəki fasadlarını, eləcə də elə bil nəhəng binanı qoruyan nazik sütunlarını soyuqda qızdırır, istidə isə binanın üzərinə bir pərdə çəkir. Çox qəribədir ki, binanın daşları və plasktik detallar malasız bərkidilib. Bakının Qazısı Mir Məhəmmədin xeyir-duası ilə başlanıb.
**H**ayıf ki, bütün bunlar çox qısa ömür yaşayır. Sosialist inqilabı hətta bu kəlamların da üzərinə xətt çəkir. Xarici görkəmində dəyişiklik aparılan, qarşı tərəfdən iki, arxa tərəfdən dörd mərtəbəli olan bu sirrli binanın Pollatso –Kantarini Sarayının bu günümüzə gəlib çıxması çox baha başa gəlsə də, amma bu həqiqətdir.

**P.S.** Əyər bu saraya hər bir kəs Nağıyevlər nəslinin gözlərilə baxarsa, Ağa Musanın göz yaşlarını, gənc İsmayılın pərvaz edən ruhunu, Fərəcin sovetlərin dövründə binaya həsrətli baxışlarını duyar;
**M**ənim isə bu üç əziz, doğma insanların ruhlarının şad olması üçün etdiklərimin, ölkəmiz müstəqillik yoluna qədəm qoyduğu vaxtdan Nağıyevlər şəcərəsi ətrafında nələr etdiyimin şahidi olar.
**H**ər dəfə Ağa Musanın tikdirdiyi binalara baxarkən, indiyədək görmədiyim yenilikləri kəşf edirəm. Bir istəyim var: Ağa Musanın binalarına mənim həsrətli gözlərimlə baxın....

## O, yer üzündə cənnət axtarışında olub

**A**zərbaycan xalqının tarixi, siyasi və ictimai şəraitinə görə XIX-XX əsrlərdə milli ənənələri, iqtisadiyyatı, o cümlədən yerli sahibkarların neftdən əldə etdikləri gəlir hesabına bu gün müstəqil Azərbaycanın bütün sahələrində fəaliyyət göstərən alimlərin, iqtisadçıların və digər mütəxəssislərin ərsəyə gəlməsində milli burjuaziyanın böyük rolu olub.
**L**akin təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycan Demokratik Cəmiyyətinin devrilməsindən sonra yaranmış (1920)l sosialist inqilabı illər boyu ərsəyə gəlmiş dövrünün böyük və milli burjuaziyası sayılan A.M.Nağıyevi, H.Z.Tağıyevi, Ş.Əsədullayevi, M.Muxtarovu, İ.Hacınskini, Aşurbəyovu və başqalarını səhv və yanlış təhlillər nəticəsində unutdurmağa çalışmışlar.
**A**dı XX əsrin əvvəllərində Azərbaycanın məşhur 11 milyonçular sırasına düşən və

bu siyahıda öncül yerlərdən birini tutan Ağa Musa Nağıyev, xalqın - "Tikmədim özüm qalam, tikdim ki, izim qala" məşhur deyimini şüar götürmüşdür.
Ağa Musa kapitalını ancaq bina tikintisinə deyil, həm də o dövrdə cəhalət girdabında boğulan xalqın maariflənməsinə, onun dünyagörüşünün və ümumi mədəni səviyyəsinin yüksəldilməsi istiqamətinə sərf etmişdir. Başqalarının övladını ölümdən xilas etmək məqsədilə xəstəxanalar tikdirmək yalnız ona mənsub olub. Onun fəaliyyəti bununla bitmir...
**S**avadsız bir gəncin həyatın nəbzini psixoloq dəqiqliyi ilə duya bilən milyonçunun amalı yalnız bu olub- israfçılığa yol verməmək!
**A**ğa Musa Bakı Neft Sənayeçiləri Qurultay şurasının, Bakı ağ neft zavodları İttifaqının və Sərəncam Komitəsinin üzvü olub. Hazır məhsulların satışa çıxarılması, ixrac tarifinin azaldılması və digər məsələlər üzrə komitə iclaslarında çıxış edib, dəyərli məsləhətlər verməklə ciddi tələblər də irəli sürüb.
**O**nun gördüyü işlər bu gün də minnətdarlıqla qarşılanır.

**Qoşa Ulduz Jurnalı, Baş redaktor,**
**Gülzar Namazova**

## O insanlıq tacıdır

**Q**oy ruhu şad olsun, Dilarə xanım,
Müqəddəs torpaqda uyuyanların.
Bakı milyonçusu Ağa Musanın,
Adı zirvələrdə səslənəcəkdir.

**E**lə bir zirvə ki, orda işıq var,
Orda dilə gəlir ürəyin səsi.
Orda çiçəkləyir günəşli bahar,
Dil açır ruhumun yeni nəfəsi.

**B**inalar tikdirib öz zəhmətilə,
Minlərlə kasıbın hayına çatıb.
Ucalıb zirvəyə şan-şöhrətilə,
Neçə kimsəsizin əlindən tutub.
**A**rzusu, məqsədi, məsləyi təmiz,
Allahın yolunu ucaldanların.
Xalqın istəyini gəl, qaytaraq biz,
İnsanlıq tacıdır dövlətin varın.

**T**orpağı əmanət Kərbəlayaya,
Oğlu İsmayıla qovuşmaq imiş,
Ümüdlə doludur insan taleyi,
Azadə Taleyin arzusu çinmiş.

**D**ilarə xanımın baba istəyi,
Arzusu, amalı həyata keçdi,
Şükür Allahıma, bu qismət oldu,
Bu arzu, bu istək bir də doğuldu.

**A**rzular, istəklər yüz illər boyu,
İnsandan sonra da yaşaya bilir.
Dünyaya mərdanə gələn insanlar,
İnsanlıq adını yaşaya bilir.

**Yazıçı, publisist Azadə Taleh**

## Ağa Musa Nağıyevin oğurlanması

**1**908-ci il, dekabrın 26-da gündüz saat iki radələrində Ağa Musa Krasnovodski və Kamenistaya küçələrinin kəsişdiyi yerdə evinə daxil olakən oğurlanır. Tez bir zamanda mətbuatda belə bir məlumat verilir: -Birinci dərəcəli tacir, neft mədənlərinin, nöyüt zavodlarının, paraxodların, çoxsaylı mülklərin sahibi Ağa Musa Nağıyev oğurlanıb.

...**A**bbas Allahverdi oğlu, Ağa Musa Nağıyevin zavodunun kontorunda qarovulçunun danışdıqlarından: - Günorta üstü kontora dörd nəfər naməlum kişi daxil olub, Ağa Musanı xəbər alır. Onların ikisi qapıda pusquda dayanmışdı. Kəmərlərinin üstündəki tapancaya gözü dəyən Abbas, xozeyinin zavodda olmadığını söyləyir. Tez bir zamanda gələnlərin silahlı olması barədə mühəndis Maqomayevə xəbər verir.

... **A**ğa Musa Nağıyevin mühəndis texnoloqu Fətullabəy Rüstəmbəyovun danışdıqlarından: - Zavodun baş idarəsi bulvardakı çimərlik ilə üzbəüzdəki (hazırkı "ÜNS" teatrı) binada yerləşir. Həmin gün saat iki radələrində Ağa Musa Şamaxıdan gələn Baba Səmədov ilə hara isə getmişdi. Sonra xəbər tutdum ki, əli silahlılar idarədə Ağa Musa Nağıyevi axtarıb. Bu xəbərlər məndə şübhə oyatdığından mən xozeyinin evinə getdim. Lakin artıq gec idi, Ağa Musa oğurlanmışdı.

**B**aba Səmədovun danışdıqlarından: - Hər ikimiz faytonda yol gedrdik. Ağa Musa evinə yaxınlaşıb, qapıdan içəri girəndə, dörd nəfər silahlılar onun ardınca qapıdan içəri girib, onu faytona qaytardılar. Onlardan birini- balaca boylunu erməniyə oxşatdım. Silahlılardan biri dedi ki, Komitə Sizinlə danışmaq istəyir, ora gedirik. Komitənin adını çəkmədi. Ağa Musa cavabında dedi ki, Komitəyə lazımamsa, onlar bizə gəlsinlər də... Tapancanın müşayətilə məni faytondan düşməyə qoymadılar. Yolda onlara diqqətlə baxdım, təxminən 22 yaşlı gürcü millətindən

olduğunu dərk etdim. Qısa bığları var idi. Bir saat yol getdikdən sonra məni faytondan düşürtdülər, Ağa Musanı hara apardıqlarını bilmədim. Dördlüyün söhbətlərindən başa düşdüm ki, bu tələ pul qoparmaq üstündə qurulub.
**B**akı şəhər rəisini (qradonaçalnik) təəccübləndirən o idi ki, günün günorta çağı Ağa Musanı oğurlayanlar Zaqafqaziyanın internasional qrupu olub. Çünki qoçular belı hərəkət etməzlər. O zaman "Gürcü qrupu", "Qırmızı yüzlüklər", "Qara qarğa", "Qara əl" və "Mişa qardaşları" kimi qruplar fəaliyyətdə idi.
**Y**azıçı Məmməd Əsəd bəy sonradan, yəni 1930-cu ildə "Stalin" adlı kitabında yazmışdı: - "...1907-ci ildə partiya Stalini Bakıya göndərir. Koba ləğəbilə tanınmış Stalin haqqında heç kəs dəqiq məlumat ala bilmirdi. Hətta bolşevik və yaxud "Qafqazın qabaqcılı" olduğunu ayırd edə bilməyən Lenin, ona "Qafqazlı quldur" ləğəbini vermişdi. Parisdə partiya təşkilatına yardım etmək üçün (Leninin tapşırığı ilə) pullar Zaqafqaziyada əldə edilirdi. Bakının nefti əsas rol oynayırdı".
...**A**ğa Musa qorxaq deyildi. Terroristlər onlara tabe olmayanları öldürürdilər. Hadisə baş verən zaman Şəhər Rəisi var qüvvəsini Ağa Musa Nağıyevin axtarışığına yönəltmişdi. Artıq iki gün idi ki, Ağa Musa yoxa çıxmışdı. Şəhərdə haqq-nahaqq çox adamlar həbs edilirdi. İlk həbs olunanlardan Lomidze Mixail idi. Onun cibindən Ağa Musanın dəsti xəttilə yazdığı kağız parçasında Fətullabəy Rüstəmbəyova həmin adama 50000 rubl verməsi göstərilmişdi. Həbs edilənlər arasında altı-yeddi nəfər erməni də var idi. Həbs edilənlərdən Şvanidze, Xalayans və Qriqoryanın yanında silah tapılmışdı. Lakin onlardan heç biri Ağa Musanın oğurlanmasında günahkar oduqlarını boyunlarına almamışdı.
**D**örd gün sonra gözlənilmədən evə buraxılan Ağa Musanı Komitədə sorğu-sual etmişdilər. Ağa Musanın danışdıqlarından:
-**B**aba Səmədovu yola saldıqdan sonra onlar faytonçunu başqası ilə əvəz etdilər. Balaxanski (Füzuli) küçəsindən keçəndə İsabəy Hacınskini gördüm, salamlaşdım. Oradan Nikolayevski küçəsindən keçib, Sahil (neftçilər) küçəsilə Şəhər rəisi Martınovun evinin yanından ötüb, Malakanski (R.Rza) küçəsinə döndük. Faytonu bir Qəlyanaltının qarşısında saxlatdırdılar. Adam çox olduğundan, bizi arxa otağa apardılr. Məni qoruyan -pis niyyətlilər çaxır içirdilər. Orada çay olmadığından, qəlyanaltının sahibinin oğlunu evlərinə samavar gətirmək üçün göndərdilər. Oğlan gedərkən silahlılardan birini ona qoşduldr. Bu mənim şübhələrimə son qoydu, çünki atasının - qəlyanaltının sahibinin onlarla əlbir olduğunu düşünmüşdüm.
**S**onradan bildim ki, Qəlyanaltının sahibi Osip Ovanesov məni tanıdığından məsələnin nə yerdə olduğunu başa düşüb, şübhələndiyi haqda polisə xəbər verib ki, onun qonşuluğunda olan birinin evində həmin "qoruyuculardan" birini görmüşdir. Qonşu həmin adamın "Qırmızı yüzlükdən" olduğunu söyləmişdi.
.... **Q**əlyanaltıdan çıxarkən qaranlıq çöksə də, Ağa Musanın başına yekə papaq geydirmişdilər ki, onu tanımasınlar və o hara getdiyini görməsin. Onlar iki mərtəbəli binanın içərisinə daxil olanda, Ağa Musa otağın bom – boş olduğunu görür. O,qarşısında peyda olan tıxminən 30 yaşlı gürcüyə sual verir: -Məndən nə istəyirsiz? - Sizdən yarım milyon qızıl pul istəyirik cavabını eşidir. Amma pulun kim tərəfindən və nə üçün tələb olduğunu ona demirlər. Məndə o qədər məbləğ yoxdur deyəndə, cavab bu olub ki, barmaqlarınız kəsiləndə, taparsız.

**A**ğa Musa yol boyu yerdəyişmələrdən başa düşmüşdi ki, bu işdə çox adamın əli var. Bir qədər "alver" etdikdən sonra 50.000 rubl verəcəyini bildirib, Fətulla bəyə yazılı göstəriş göndərir. Amma ürəyində pulu verməyəcəyinə and içir. Çünki o, heç vaxt nahaqq yerə halal pulunu xəcləməyib.

**D**ekabrın 29-da xəbər gəlir ki, Şəhər Rəisi tərəfindən Nağıyevin bank hesablarına qadağa qoyulbr. Ağa Musa çıxış yolunu onu azad edilməsində görür. Çünki pulu bankdan onsuz heç bir kəs çıxara bilməzdi.

**B**u səbəbdən quldurlara pul çatdırılmadı. Dördlüyün hər birinə ayrı-ayrılıqda anonim xəbər çatdırılmışdı ki, sual-cavabdan qaçmasalar, onları ölüm gözləyir. Baba Səmədov da danışmayır ... Mühəndis Maqomayev şəhəri tezliklə tərk edir...

**A**ğa Musa da şübhələndiklərindən heç bir yerdə söhbət açmayır...

## Məhkəmə başlandı...

### O,Qafqazın milyonçusu sayılıb!

**1**919-cu il martın 4-də dünyasını dəyişmiş Ağa Musa Nağıyev heç bir vəsiyyətnamə qoymayıb. Çünki 100 yaş yaşayacağına inamlı idi. Qarşısına qoyduğu məqsəd - 100 bina tikəcəyi, onda əminlik yaradırdı.

**S**adə kəndli balası, zəhmətkeş, ağlasığmaz komersant bacarığı olan milyonçunun vəfatından sonra bölünməli saya-hesaba gəlməyən əmlakı qalmışdı.

**A**ğa Musa Nağıyev dövrünün ən varlı adamı olub, "**Qafqazın ən varlı şəxsiyyəti**" titulunu qazanmışdı.

**Ç**ox yazılarda rast gəlirik ki, Ağa Musa Nağıyevin şəxsiyyəti lazımı səviyyədə qiymətləndirilməyir. Buna çalışan istehzalı baykilər onun xəsisliyini o qədər şişirdiblər ki, şahidi olacağınız məsələlər tamamilə nəzərə alınmayıb. Bu məsələdə öz taqsırı da az olmayıb. Etdiyi xeyriyyəçilikləri, ümumiyyətlə etdiklərini bütövlükdə gizli saxlayır, cəmiyyətə əyan etmirdi. Bu gün dəbdə olan terminlə desək, reklamı sevməyib. Bəlkə də bu diqqət cəlb etməmək məqsədini güdüb.

**İ**ki nöyüt zavodunun; "Qara şəhər", "Sormovo",İsmayıl", "Ağa Əli Nağıyev", "Yusif Nağıyev" gəmilərinin; Neft məhsulları ambarlarının; Rusiya dəmir yolu aksiyaları; Xaricdə, Rusiya və Bakı banklarındakı yatırları; Nobel təşkilatlarının; Bir sıra dəniz kompaniyalarının; 70-ə yaxın torpaq sahəsinin; Xəstəxanalar və çox mərtəbəli binaların sahibkarı olub.

**H**ətta o, memarlıq incisi sayılan "İsmailiyyə" binasını tikdirməsəydi, onsuz da tarixə düşəcəkdi. Amma o, 98 bina tikdirdi. Ağa Musa əmlakını və pulunu qoruyan olub. Yaxın qohumlarına varidatından çatsa da, 2 ay sonra, 1920-ci ilin aprelində Sovetlərin gəlişi ilə onun "hər tərəfli imkansız varisləri" dünyaya səpələndi...

## Xeyriyyəçi insanlar xeyirxahlığın hədəfi olur

**T**arixi şəxsiyyətlər həqiqi mənada tarixin simasıdır. Azərbaycanın salnaməsində bu cür şəxsiyyətlər çox olub. Belələrindən olub xeyriyyəçilik üçün doğulmuş Ağa Musa Nağıyev!
**O**nun haqqında çox bilsək də,yenə azlıq edir. Xalqı və dövləti üçün etdikləri ölçüyə gəlməzdir. Taleyin amansızlıqları onun kimi şəxsləri addımbaşı sıxşada, onların xeyriyyəçilik missiyaları zəifləməmişdir. Bəlkə də Ağa Musa Nağıyevi xalqın yaddaş tarixçəsində ədəbi bir cığıra yönəldən elə bu vacib məqamlar olub.
**XX** əsrin əvvəllərində Azərbaycanın on bir məşhur milyonçular sırasında adı çəkilən Ağa Musa Nağıyev hələ uşaq ikən çalışqanlığı ilə həmyaşıdlarından seçilib, əziyyətli yollar keçib, 49 yaşında milyonçu olub.
**Q**azandığı milyonları sadə insanlara, xeyirxahlıq işlərinə sərf etməklə sadəcə insan məhəbbəti qazanmışdır. Onun xeyirxahlığı sayəsində paytaxtda 98 nəhəng tikililər inşa edilib; Bir sıra mədəniyyət, elm –təhsil ocaqları, xəstəxanalar bu gün də onun xeyirxahlığının yadigarıdır.
**S**ovet dövründə adını çəkməkdən ehtiyat edən insanlar zaman-zaman Ağa Musa Nağıyevin vəfatı gününü qeyd edirdilər.
**Ar**tıq xeyli vaxtdır ki, nəvəsi Dilarə xanım Nağıyeva onun şərəfinə tədbirlər keçirib, anım gününü hər il qeyd edir. Dilarə xanım məhz keçmişə qayıdaraq, bu yönümdə silsilə tədbirlərini həyata keçirərək, məhz Ağa Musa Nağıyevin irsən qoyduğu ənənəyə - "Bakı gecələri" ənənəsinə start verib.
İyirmi ilə yaxındır ki, ata yurdu Biləcəridə Ağa Musa Nağıyevin məzarından başlanan tədbirdə bu şəxsiyyətin böyüklüyündən, insanlıq dayəsindən yaranan çıxışlar hər kəsə xeyirxahlıq salnaməsi kimi təsir bağışlayır.
**2**011-ci ildə Ağa Musa Nağıyevin məzarı üstündən götürülmüş torpağın Kərbəlada - oğlu İsmayılın uyuduğu torpağa qatılmasında iştirak edən insanların - Hacı Azadə xanım və Hacı Tahirin çıxışları baba vəsiyyətini yerinə yetirdiyinə görə, təşəkkürlər Hacı Dilarə xanım Nağıyevaya ünvanlanırdı.
**A**ğa Musa Nağıyevin xatirəsinə həsr olunan konfrans- tədbir məkanından asılı olmayaraq, istər Təzə Pirdə, istər İsmailiyyədə və başqa bir çox məkanda ehsan süfrəsi verillməklə sona yetir.
**S**özü gedən Böyük Şəxsiyyət, xeyriyyəçi Ağa Musa Nağıyev xeyirxahlıq zirvəsinə ucalmışdır. Böyük ürək sahibi olub. Tikililəri tariximizin daş yaddaşı olmaqla, həm də Ağa Musa Nağıyevin xeyirxahlıq mücəssəməsidir.

"Dövlət və Qanun" qəzeti<br>Baş redaktor,Yasəmən Möhübbətqızı

## Xəstəxanadan adı götürüldü

**2**005-ci ilədək Musa Nağıyev və Emin Əfəndiyev adını daşıyan xəstəxanalar, Uşaq və pediatriya insyitutu və Sabunçu qəsəbəsindəki poliklinika kimi sağlamlıq ocaqları tikdirən Ağa Musa Nağıyevin adının xəstaxanadan götürülməsi bu günün müəmmalı suallarından ən vacibidir.1913-cü ildə tikdirdiyi xəstəxana 1992-ci ildən onun adını daşıyıb. Xəstəxanaya vurulan lövhə sadəliyi ilə fərqlənirdi. Elə bil qənaət edilmiş kimi tablo standarta uyğun olmasda, amma var idi. Bu gün isə...
**M**əsələ ilə bağlı 2005-ci ildən Respublika Nazirlər Kabinetinə etdiyim müraciətlərdə adı xəstəxanadan götürülən milyonçunun tərcümeyi halının ilk növbədə xeyirxahlıqdan, vətənpərvərlikdən başladığını faktlarla göstərib, **t**ikdirdiyi binaların sayına (98) və varidatının məbləğinə (690 mln) görə on bir Bakı milyonçularından birincisi sayılan Ağa Musa Nağıyevi "Neft Kralı" (Neftin Çarı) adlandırdığını göstərib, xəstəxanalar tikdirməyinə səbəbi - oğlu İsmayılın çarəsi tapılmayan xəstəlikdən dünyasını dəyişməsini vurğulayıb, onun əsas məqsədinin isə vərəmlə mübarizə aparmaq olduğunu da qeyd etdim. Vərəmi yayan "Kox" çöplərini məhv etmək məqsədi ilə xəstəxananın tikintisinə başlamazdan öncə, meşəni xatırladan küknar ağaclarını həyətyanı sahədə əkdirməsini, savadsız Ağa Musanın tapıntısı olduğunu da vurğuladım.
**B**elə bir insanın adının yeganə daşıyıcısı olduğu xəstəxanadan götürülməsi cinayətdir. Halbuki, kommunist ideologiyasının, xalq üçün əvəzsiz işlər görmüş milyonçunun gələcək nəsillərin gözündə mənfi obrazını yaratmasına baxmayaraq, adının 1992-ci ildə Nazirlər kabinetinin Sərəncamına əsasən xəstəxanaya qaytarılması o zaman cəmiyyət tərəfindən haqqın - ədalətin bərpası kimi qarşılanmışdır (Bakı qazeti 16 iyul 1992-ci il).
**2**005 –ci ildə xəstəxananın iki yerə bölünməsi Ağa Musanın adının aradan götürülməsi ilə nəticələndi.
**V**axtı ilə bu xəstəxana Azərbaycana heç bir xeyir gətirməyən keçmiş SSSRİ-nin Səhiyyə Naziri Semaşkonun adı ilə adlanıb.
**D**övlətimiz müstəqillik əldə etdiyi vaxtdan Ağa Musa Nağıyevin fəaliyyəti ilə bağlı çalışdığım göz qarşısındadır.
**Ç**oxsaylı müraciətlərdə binalarından birinə xatirə lövhəsinin və ya barelyefinin vurulmasını da qeyd etdim. Lakin, əfsuslar olsun ki...
**Ə**dalətin mütləq qələbə çalacağına ümüdümü üzmürəm.

## BAYATILAR

**M**ən aşiq, yanağında, Kəlmələr dodağında,
Tarixə səyahətdir, "Zamanın sorağıda"*

**Ə**ziziyəm, üz-üzə, Gəl danışaq üz-üzə,
Dilarənin* zəhməti, Onu çıxardı üzə.

**Ə**ziziyəm, gül gərək, Gül yanında gül gərək,
Məzar üstə gələnin, Əlində sünbül* gərək.

Əzizim söhbət düşər, Çəkənə, zəhmət düşər,
Yüz* binaya tikdirənə, Əlbəttə rəhmət düşər.

Əziziyəm, şam oldu, Ömrün yandı şam oldu,
Kitabları yazdıran, Nəvənə imham oldu...

Əzizim uzaqdadır, Bülbülü budaqdadır,
Sənə "Rəhmət" kəlməsi,Həmişə dodaqdadır.

Əziziyəm bu ada, Bu imzaya, bu ada,
Bir ovuc məzar qumu, Uyuyur Kərbəlada.*

**Şairə, publisist - Gülara Munis**

## Nəvə Ümmül Banu

Ümmül Banunun (Banin) ata babası iri neft sahibkarı Şəmsi Əsədullayev, ana babası Qafaqzın ən dövlətli adamı Ağa Musa Nağıyev olub.
Atası Mirzə Əsədullayev ADR-nın Parlament (1919-cu ilin dekabrnadək) üzvü olaraq, Ticarət və Sənaye Naziri vəzifəsində çalışıb. Həyat yoldaşı Ümmül Banu doğuş zamanı vəfat etdiyindən, yeni doğulmuş uşağa anasının adını verib.
Sonradan Mirzə Əsədullayevin ikinci dəfə ailə qurduğu həyat yoldaşı osetiyalı gözəl- Tamara Datiyevanın dünyaya gətirdiyi oğlana atası Şəmsinin adını verir.
Uşaqların hər ikisinin tərbiyəsilə məşğul olan alman milliyyətli dayə freylen (fr.)Anna onlara ana əvəzi qulluq edirdi. Buna baxamyaraq, Ümmül Banu xatirələrində analığı Tamaranın onun həyatında böyük rolu olduğunu vurğulayıb. Geyimləri fransız "kutyurye" modalarından olduğunu, avropasayağı rəqslər öyrənib, fransa mədəniyyətinə uyğun yaşamsı, eləcə də Tamaranın Paris haqqında danışdıqları sonrakı taleyində böyük rolu olduğunu da qeyd edib.
1920-ci ilin hadisələri- bolşeviklər tərəfindən Bakının mühasirəyə alınması, keçmiş nazir və iri sahibkar Mirzə Əsədullayevin həbsi Ümmül Banunun gələcək həyatına böyük təsiri olub. O, 20 yaş özündən böyük mühəndis Balabəy Qocayev ilə ailə qurmasını bədbəxtçilik hesab etsə də, məhz sonradan ailəsinin faciədən xilas olmasında ona kömək edir. Atasının həbsdən azad edilməsinə və Azərbaycanı tərk etməsinə böyük köməklik edir.
Sonradan Ümmül Banu həyat yoldaşı Balabəy ilə Konstantinopola (Türkiyəyə) gəlir, oradan isə tək Parisə doğmalarının yanına yola düşür. Çətinlik çəkən Əsədullayevlər miqrasiya zamanı özləri ilə keçirə bildikləri qiymətli ziynət əşyalarını satıb, bir qədər dolanırlar.
Vəziyyətin get-gedə çətinləşdiyini görən Ümmül Banu geriyə yol olmadığından çıxış yolunu ayrı yaşamaqda görür. Moda evində maniken işləyib, çörək pulu qazanır. Katibə, makinaçı, tərcüməçi, müxbir işləyib, sonradan qazandığı fransız dostlarının məsləhəti ilə özünü ədəbiyyat sahəsində sınayır. Adı çətinlik yaratdığından ədəbiyyat aləmində Banin təxəllüsü ilə tanınır.

**B**aninin 1943-cü ildə "Nəimi" adlı ilk romanı Parisin Kallimar mətbəəsində çap olunur. Romanda əsərin baş qəhrəmanının dili ilə Azərbaycanda cərəyan edən hadisələrdən, XX əsrin başlanğıcında baş verən faciələrdən söhbət gedir. Nəimi romanı Jan Pol Sartr, Marqarit Yursenar, Lui Araqon, Pol Elyuar, Ernst Yunger kimi qələm ustalarının diqqətini cəlb edir.

**1**945-ci ildə çapdan çıxan "Qafqaz" adlı bioqrafik romanı ona böyük uğur gətirir. İki ildən sonra emiqrasiya taleyindən bəhs edən "Paris günləri", daha sonra "Yunqer ilə görüş" (1951), "Mən opiumu seçdim" (1959), "Sonra" (1961), "Xarici Fransa" (1968), "Axırıncı ümüdin qışqırığı" (1971), "Ernst Yungerin portreti" (1971), "İvan Buninin axırıncı döyüşü" (1979), " Ernst Yungerin başqalaşır" (1989), 1991-ci ildə isə "Mariyanın mənə söylədikləri" romanı işıq üzü görür.

**B**anin təkcə roman və povestlərin müəllifi deyil. O, F.Dostayevskinin və Tatyana Tolstoyun əsərlərini rus dilindən fransız dilinə, Ernst Yungerin isə alman dilində yazdıqlarını rus dilinə tərcümə edib.

**B**anin xatirələrində yazır: -"Ədəbiyyat o mənada yaxşıdır ki, insanları öz ətrafında birləşdirir. Şəxsən mənim üzümə çox evlərin qapılarını açıb, müxtəlif yazıçılarla tanış edib".

**O**nun avropalı yazıçılarla tanışlığı çox olub. Amma iki görkəmli yazıçı onun həyatında və yaradıcılığında çox dərin iz buraxıb. Bu insanlardan biri bəzi əsərlərini həsr etdiyi alman yazıçısı - filosov Ernest Yunger olub. O, Yungerin dostlarının yaratdıqları "Fransız assosiyasiyası"na başçılıq edib. Yunger çox savadlı olub. O, Yunger ilə 1943- cü ildə ilk kitabının işıq üzü görərkən tanış olub. Yunger öz kitabında Baninin fotosunu vermişdir. Onların dostluqları yarım əsrdən çox davam edib. Parisdə o, Yungerin yaradıcılığı ilə yaxından məşğul olub. Banin onun məqalələrini və məktublarını fransız dilinə tərcümə edib və üç romanını ona həsr edib.

**İ**van Bunin ilə tanışlığı 1946-cı ildə olmuşdur. Hadisə rus yazıçısı-satirik N.Teffinin evində baş verib. Baninin diqqətini Teffinin evlndəki bir foto cəlb edir. Arıq, lakin çox zövq ilə geyimi və gözəl qamətli kişi surətinin qarşısında donub qalan Baninin təəccübünü görən Teffi onu tanımadığına təəccüb edib, deyir:- mötəbər İvan Alekseyeviç Bunini tanımayan çox az adam tapılar.

**S**onradan Banin xatirələrində yazır ki, onunla ilk tanışlığım zamanı sözün əsl mənasında vuruldum ona . 75 yaşlı bu insanın şux qaməti Tolstoyun qəhrəmanı 30-40 yaşlarında olan knyaz Balkonskini xatırladırdı mənə. Kül rəhgli saçları ona xüsusi yaraşıq verirdi.

**O**nların dostluğunu təsdiqləyən məktubları Banin əzizləyib, ömrünün sonunadək qoruyub saxlamışdı. O, Banini Allahın bağça-bağındakı qara qızıl gülə (Çernaya roza) bəzətmişdir. Hər dəfə Banindən əsərlərini rus dilində yazmağı xahiş etsə də, o, buna əməl edə bilməyib.

**B**anin yazır ki, Bunin öz əsərlərini oxuyanda o, xüsusi ləzzət alırdı. Onun səsi çox gur olduğundan insana elə bil şeypurun səsləndiyi kimi təsir bağışlayırdı. Onu Ernest Yungerə qısqandığını da gizlətmirdi. Hətta yadigar verdiyi şəkillərin altında mətn altı eyhamlar yazırdı. Bir şəkilin isə altında yazdığı avtoqrafla qısqanclığını Tolstoyun şeirlə bildirmişdir: - **Y**axınlıqda yadda saxlayın,

**U**zaqda yadda saxlayın,

Yadda saxlayın, hər zaman
Sevməyi bacarmağım həqiqətdir.

**B**anin Buninin oturduğu kreslonu ömrünün sonunadək bir qiymətli eksponat kimi qoruyub, ora əyləşməyə heç kimə icazə verməyib. Bunin onu əzizləyəndə, canım (джаным) və yaxud Şamaxı şahzadəsi (Шемахинская принцесса) – deyə müraciət edirdi.

**P.S. B**anin Fransada təkcə romanları ilə deyil, həm də rus, ingilis və alman dillərindən gözəl bədii tərcümələri ilə tanınıb.
**O**, məşhur rus yazıçıları Bunin və Dostayevskinin yaradıcılığının ən yaxşı bilicilərindən sayılıb. Fransız ədəbiyyatına qaynayıb-qarışmasına baxmayaraq Banin öz xalqını heç vaxt yaddan çıxarmayıb. Xatirələrdən bəlli olur ki, **D**ağlıq **Q**arabağda baş verən hadisələrdən olduqca dərin həyəcan keçirib. O, Fransanın kütləvi informasiya vasitələrində mütamadil olaraq Qarabağ münaqişəsinə dair obyektiv məqalələrilə çıxış edərək erməni iddialarının əsassız olduğunu göstərib.
**1**992-ci ilin oktyabrın 29-da Fransanın "Fiqaro" qəzeti ölkəni sarsıdacaq bir məlumat yaydı: "İlk fransız dilli azərbaycanlı yazıçı Banin vəfat edib**...**".

## XEYRİYYƏÇİLİK ƏMƏLLƏRİ

**A**ğa Musa Nağıyev **"Xeyriyyə axşamları"**nın biriində məcməyiyə (padnosa) ianə olaraq kiçik miqdarda məbləğ qoyur. Pulun azlığını görən xeyriyyəçilərin baxışları Ağa Musanın nəzərindən yayınmır. Nəsə qaydasında deyil, deyə o, nəzakətlə soruşur. Eşidəndə ki, bir az əvvəl oğlun İsmayıl ondan üç dəfə çox pul ianə verib, o belə cavab verir: - **Bu təəccüblü deyil, axı o milyonçu oğludur, mən isə saman satan.**
**V**arlandıqca **Sabunçu, Ramana və Suraxanıda** yeni yataqlar alıb, neft istehsalını genişləndirir. Başqa neft sənayeçilərindən fərqli olaraq Ağa Musa Nağıyev **Qaraşəhərdə "Neft Emalı"** zavodu tikdirib, istehsalın təkmilləşdirilməsi vasitələrini genişləndirir. İlk olaraq onun **"İsmayıl"** adlı gəmisi Xəzər dənizində peyda olur, sonradan qardaşlarının adını daşıyan **"Yusif" və "Ağa Əli"** gəmiləri də Xəzərdə görünür.
**Ç**ox maraqlıdır ki, milyonlar sahibi olan Ağa Musa Nağıyevin ətrafında qoçuların (cangüdənlərin) olmasına baxmayaraq, çox vaxt tək seyrə çıxırdı. Sifariş ilə qoçular onu girov götürüb şəhər kənarındakı zirzəmidə saxlayıb, azadlığa buraxılması üçün 100 min rubl tələb edib, əks təqdirdə onu öldürməklə hədələyərkən, Ağa Musa özünü müdafiə etməyi bacarır. Onun ağıllı hərəkəti köməyinə çatır, "qurulmuş tələdən" yaxa qurtarmaq məqsədilə cəmi 10 min rubl ilə bu işə son qoyub, deyir: **"Əyər öldürsəz, bu məbləği də almayacaqsız".**
**T**əəssüflə qeyd etmək lazımdır ki, Azərbaycan Demokratik Cünhuriyyətinin devrilişindən sonra, 1920 –ci ilin sosialist inqilabı illər boyu meydana gəlmiş milli burjuaziya nümayəndələrindən olan **H.Z.Tağıyevi, A.M.Nağıyevi, Aşurbəyovu, M.Muxtarovu, İ.Hacınskini, Ş. Əsədullayevi** və başqalarını səhv və yanlış təhlillər nəticəsində unutdurmağa çalışıblar.

XX əsrin əvvəllərində **Azərbaycanın məşhur 11 milyonçuları** sırasında olub və bu siyahıda öncül yerlərdən birini tutan Ağa Musa Nağıyev xalqın məşhur deyimini - **“Tikmədim özüm qalam, tikdim ki, izim qala”** - şüar götürmüşdür. Ağa Musa Nağıyev kapitalını ancaq bina tikintisinə deyil, həm də o dövrdə cəhalət girdabında boğulan xalqın maariflənməsinə, onun dünyagörüşünün və ümumi mədəni səviyyəsinin yüksəldilməsi istiqamətinə sərf etmişdir. Ölümün qarşısını almaq məqsədilə xəstəxanalar tikdirmək yalnız ona mənsub olub. Onun fəaliyyəti yalnız bununla bitmir...
Torpağına, millətinə bağlı olan Ağa Musa Nağıyevin həyat və fəaliyyətinə aid faktlar və xatirələr əsasında: **“Xalq üçün ömrünü şam kimi əridən...”, “Ömrün səhifələri” və “Zamanın sorağında”** adlı kitabları xeyriyyəçinin fəaliyyətinə müxtəlif aspektlərdən bir baxış kimi daxil etmişəm. Bu kitabları illərin məsafəsində fəaliyyətinə kölgə salmış ziyalının – Ağa Musanın göstərdiyi xidmətinə həsr etmişəm.

## TORPAĞINA, MİLLƏTİNƏ BAĞLI OLUB, O!

**“Allah ev tikənin ömrünü uzadar!”**

Rəsmi məlumatlara görə, o illərdə Ağa Musa Nağıyevin Balaxanı, Ramana və Sabunçu kəndlərindəki neft mədənlərində 45 məhsuldar, həm də texniki baxımından yaxşı təchiz edilmiş quyuları olub. Burada 800-dən artıq fəhlə işləyirdi. Uğurun əldə edilməsində şirkətin müdüri, istedadlı azərbaycanlı mühəndis Fətulla bəy Rüstəmbəyovun və mədənlərin rəhbəri mühəndis - geoloq Hüseynxan Talışxanovun rolu böyük idi.
1908-ci ildə Ağa Musa Nağıyev **12.328.300** pud xam neft hasil edərək istehsalı rekord səviyyəyə çatdırır. Beş ildən sonra, yəni 1913-cü ildə isə A.M.Nağıyevin müəssisələri Azərbaycan firmalarının ilk onluğuna daxil olur, müxtəlif illərdə isə **6-7-ci yerləri tutur**.
Qısa müddətdə neftin hesabına varlanan A.M.Nağıyev daşınmaz əmlaka sərmayə qoyur. O, bu qaynaqı gəlirli olduğu kimi həm də etibarlı sayıb. O, tikintiyə olan meylini atasının vəsiyyəti ilə izah edirdi: - **“Allah ev tikənin ömrünü uzun edər. Yadında saxla oğul, nə qədər bina tikdirsən, ömrün bir o qədər uzanar”**.
Ağa Musa Nağıyevin Bakıda tikdirdiyi 98 binaların içərisində ən çox seçilənləri İsmailiyyə, Ana və uşaq Pediatriya İnstitutu, 28 May küçəsindəki əkiz binalar, həmin küçədə daha altı bina, o cümlədən Nizami küçəsindəki bişmiş kərpiclə tikilmiş binalar; keçmişdə “Qış evi” kimi məşhur olan -Zabitlər evi,“Socar”, “Astoriya” mehmanxanası – hazırkı “Məhkəmə ekspertiziyası”, ilk yeddi mərtəbəli -“Novaya Yevropa” mehmanxanası – hazırda “LUKOYL”un Bakı ofisi, Realnı Məktəb indiki Dövlət İqtisad Universiteti və başqaları...
Hazırda “Məhkəmə ekspertizası” fəaliyyət göstərən binasının eyvanlarında mifoloji heyvan qrifi və “AM” inisialları bu gün də ömrünü yaşayır.

**B**akıda ticarət məktəbi yaradılması təklifi ilə Departament direktoru Kobalevski çıxış edəndə qısa müddətdə 170 min rubl vəsait toplanmışdı. İlk pul köçürənlər arasında A.M.Nağıyev və Ş. Əsədullayevin adları olub. Bununla bərabər Ağa Musa hər il müxtəlif ali təhsil ocaqlarında oxuyan tələbələrin təhsilinə 8 min rubl ayırıb.
**1898-**ci ildə Bakıda kimsəsiz uşaqlar üçün " Yetimlər evi"nin tikintisinə başlanır, ancaq ilin sonunda məlum olur ki, bu sahədə toplanmış vəsait azlıq edir. O zaman Ağa Musa Nağıyev və Şəmsi Əsədullayev ilk olaraq iri məbləği ianə verirlər. **A**ğa Musa vərəmlə mübarizə üzrə "Qafqaz Cəmiyyəti"nin ən sədri və aktiv iştirakçısı olub.
**Bu** və digər nailiyyətlərinə görə İmperator II Nikolay Ağa Musa Nağıyevi - neft sənayesi inkişafına, Qara dənizdə üç iri zavodun tikintisinə qoyduğu kapitala, eləcə də "Qara Qızıl"ın hasilatı üçün yeni mexaniki üsulun tətbiqinə görə **Andreyev lentalı "Qızıl medal" və III dərəcəli Müqəddəs Stanislav ordeni** ilə təltif etmişdir.
1914-cü ildə maliyyə hesabına görə Ağa Musa Nağıyevin qızılla yetmiş milyona yaxın məbləği olub.
**B**akının gözəllik tacı sayılan **"İsmailiyyə"** sarayı, ailə həyatının ilkin özülünü qoyduğumuz **"Səadət sarayı"**, tariximizi tərənnüm edən **"Tarix muzeyi"**, mədəniyyət və elm ocaqlarını özündə təcəssüm edən yüzlərlə belə binalar bizə məhz milli burjua nümayəndələrinin yadigarlarıdır.
**A**ğa Musa Nağıyevin inşa etdirdiyi arxitektur binaları öz gözəlliyi və möhtəşəmliyi ilə seçilir. O, fəhlələrinə toy edən, incəsənətə fikir yönəldən, 35 yoxsul ailənin vəsiyyətlərinə əməl edib, dəfnlərini Kərbəlada öz hesabına keçirən, xəstəxanalar və mehmanxanalar tikdirənlər sırasında birincilik qazanıb.

**Elm qəzeti 15.03.2013**
**Müəllif....**

## ZAMANLA BÖYÜYƏN İNSAN

**Z**iddiyyətli, sevincli-kədərli və faciəli həyatı bütövlükdə dogma xalqının tarixi və mədəniyyəti ilə baglı olub xeyriyyəçi - milyonçu Aga Musa Nagiyevin.
**X**IX əsrin sonlarında, XX əsrin əvvəllərində neftə artan tələbat Azərbaycan milli burjuaziyasının **təşəkülünə** səbəb olur. Onların malik olduqları var-dövlət həmin dövrün bəzi hökmdarlarının xəzinələrində oldugundan qt-qata artıq idi.
**D**ünənədək heç kimin tanımadığı, saymadığı sadə insanlar qısa müddət ərzində varlandılar. Sanki hansısa bir sehirbaz Hacı Zeynalabdin Tağıyevi, Ağa Musa Nağıyevi və bir çoxlarını milyonçuya çevirdi.
**B**u milyonçuların üzərinə sanki tarix vacib bir vəzifə qoydu – xalqını maarifləndirmək! Lakin onların arasında pullarını zi**ny**ət əşyaları almağa sərf etməyə üstünlük verənlər də tapıldı. Bəziləri isə maarifləndirilmənin əhəmiyyətini dərk edərək, təhsilin inkişafına vəsait buraxdı. Neft sahibkarı Ağa Musa Nağıyev

belə vətənpərvərlərin sırasına daxil oldu. Onun və digər mesenatların əməyi və milyonları sayəsində Azərbaycanda qısa müddət ərzində bütöv bir ziyalılar nəsli təşəkkül tapdı.
1917-ci ildə Azərbaycanda mesenatlığa müvəqqəti olaraq son qoyuldu.
Ağa Musa Nağıyev kimilərin - milli burjuaziya nümayəndələrinin üzərinə "xalq düşməni" damğası vuraraq onları təqibə məruz qoydular.
Lakin belə bir deyim də var ki, bütün sirlər nə vaxtsa aşkar olur – deyiblər. Sosializmin dağılması ilə keçmiş düşmənlər "qəhrəmanlara", sosialist inqilabının qəhrəmanları isə "milli xainlərə" çevrildi.
Ağa Musa Nağıyev ilə eyni vaxtda Sovet Ensiklopediyasında "geniş" yer tutmuş, vətənində heç vaxt yaşamayan Gülbekyan adında bir mesenat həyatını İraq, Fransa, Avstraliya və Rusiyada keçirməsinə baxmayaraq, müstəqillik qazanandan sonra xalqının ilk tədbiri onun adını əbədiləşdirmək olmuşdur. Yerevanın mərkəzində heykəli qoyulmaqla bərabər adını da küçəyə veriblər.
Bəxt, tale, qismət deyilən anlamlara inanmayanlara bir məsləhətim var: -
Ağa Musa Nağıyevin həyat tarixçəsinə nəzər salsınlar. Şaxtanın bıçaq kimi sümüyə işlədiyi qış axşamlarının biirində dünyaya gəlmiş Ağa Musanın milyonları sonradan başına gələn hadisələrin qarşısını ala bilməyəcək. Bu həmin gün onun alnına yazılmış tale qisməti idi.
Tanrı onu kiçik yaşlarından özündən böyük yükün altına yıxır. Zəhmətinin bəhrəsini yalnız çörəyə çatan pulu qazanıb, ona ehtiyacı olan ailəsinə köməkdə görür. Uşaqlığını unudur.
Sonradan xeyirxahlığı, ziyalı təfəkkürü ilə zəmanəsinin mesenatları arasında özünə məxsus yer tutanlarda çevrilir və "Zamanla böyüyən insan" - Ağa Musa Bakının simasına çevrilir.
XX əsrin əvvəllərində Bakının daha çox ehtiyac duyduğu sahələrin dirçəlişi, xalqın tələbatını öyrənmək baxımından məşhur mesenatın həyata keçirdiyi tədbirlər bu gün fövqəladə zəhmətin və xalqa bağlılığın təzahürü kimi diqqəti cəlb edir.
A. M. Nağıyevin qazandığı sərvətin ölçüsü hesaba gəlməzdir. Onun ictimai fəaliyyətini öyrəndikcə, xalq onu daha çox qiymətləndirir.
Azərbaycanda Sovet hakimiyyəti qurulduğu zamandan Ağa Musa Nağıyev kimi xeyriyyəçi-milyonçulara "istismarçı-kapitalist" damğası vurulur. Bunun nəticəsidir ki, milyonçu dünyasını dəyişdikdən sonra vəsiyyətinə rəğmən Kərbəla dəfni ona qismət olması da bununla bağlıdır.
Keçmişə hörmətlə yanaşmaq, Azərbaycanın tarixini, onun dəyərli səhifələrini övladlarımıza, gələcək nəslə ötürmək hər birimizin borcudur.
Dilarə xanımın bu mövzuya müraciət etməsi və zaman məsafəsində qazandığı nailiyyyətləri onun vətənpərvərlik hisslərindən, humanizmindən, incə, nəcib duyğularından irəli gəlir. Xeyriyyəçilik prinsipləri ilə tanınan, insnalara maddi və mənəvi dayaq olan bu xanımın ürək genişliyi ətrafında olan insanlara sevgi hissini aşılayır. O, xalq üçün yaşanan ömrün davamçısı olaraq məsuliyyət və qətiyyəti gündəmə gətirib. Yazdığı hə bir fəsildə Azərbaycanın dövlətçilik prinsipləri, onun coğrafiyası, tarixi, tanınmış simaların portret cizgiləri əsas xətt olaraq təqdim olunur. Burada tariximizin bir parçası, yaşanılan illərin əks-sədasıdır desək, fikrimizdə yanılmarıq.

**N**eçə əsirlik tariximizi “Daş kitabə”lər vasitəsilə bizlərə əxz etməkdir onun məqsədi.
**K**itabı oxuyarkən Dilarə xanımın bu sahədə etdiklərinə nəzər yetirdikcə, artıq onun saldığı ləpirləri görmək olur.

**“Zamanın sorağında” kitabının elmi redaktoru,**
**Akademik Arif Həşimov**

## Bakı milyonçusunun vəfatından 94 il keçir

**X**alqımızın tarixi kimi, xalq yolunda malından, canından keçən oğulların da taleyi uzun illər qaranlıq qalmış, ləkələnmiş, haqsızlıqlara məruz qalmışdır. Bunlardan biri məşhur Bakı milyonçusu, doğma şəhəri üçün miras olaraq möhtəşəm binalar qoyan mesenat Ağa Musa Nağıyevdir. Vaxtı ilə “Müsəlman Xeyriyyə Cəmiyyəti” missiyasını yerinə yetirən “İsmailiyyə” binasında indi Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti fəaliyyət göstərir.
**O**ğlu İsmayılın xatirəsinə inşa etdirdiyi və «Şah əsər»i sayılan bu bina nadir memarlıq nümunəsidir. Təkcə bu yadigarına görə Ağa Musa Nağıyevin adı mədəniyyət tariximizə qızıl hərflərlə yazılmağa layiqdir. İşlədiyim «Elm» nəşriyyatı da bu binadadır.
**B**inanın mərtəbələrini seyr etməyi çox xoşlayıram. Hər dəfə də nə isə «kəşf edirəm». Təsəvvürümdə bu bina qeyri-adi istedada malik olan hansısa bir bəstəkarın canlı musiqisi kimi beynimə həkk olunur, sanki hər bir detal hərəkətə gəlir, danışır, nə isə demək istəyir...
**İ**nsan hər hansı bir işə həvəslə qatlaşarkən, həqiqətən o iş əbədiyaşar olur... İnşa etdirdiyi bu binanın divarlarına sanki Ağa Musa göz yaşları ilə suvaq şəkib, ürəyinin yağını əridərək, gənc oğlunun tellərinə sığal çəkirmiş kimi əllərini binanın hər bir daşına, divarına sürtərək bütün varlığını ora hopdurub... Elə binanı da bu qədər əzəmətli, cazibədar edən budur.
**T**əəssüf ki, binanın taleyi də İsmayılın taleyi kimi oldu…
1918-ci ilin martında ermənilər Bakıya hücumları zamanı “İsmailiyyə”ni top atəşinə tutan zaman Ağa Musa Nağıyev sanki İsmayılı ikinci dəfə itirdi. O, bu dərdə dözə bilməyərək erməni terrorunun qurbanı oldu, 1919-cu ildə 70 yaşında vəfat etdi…
**D**üz deyirlər ki, haqq nazilsə də üzülməyir. Tale bir tərəfdən Ağa Musanı amansız imtahanlarla sınadısa, o biri tərəfdən ona əbədiyaşarlıq qazandırdı...
**N**əvə - Dilarə Nağıyeva onun fəaliyyətinə dair “Zamanın sorağında” kitabını və “Ağa Musa Nağıyevin xeyriyyəçilik və ictimai fəaliyyəti” adlı monoqrafiyasını oxuculara təqdim etməklə, onun üzərindəki bütün qaranlıq məqamlara işıq saldı. O, eləcə də A.M.Nağıyevin adını daşıyan Sayt və “Milli Dəyərlərin Qorunması” İctimai Birliyini yaratdı.

**A**ğa Musa Nağıyevin xidmətləri və Dilarə xanımın zəhməti dövlətimiz tərəfindən də yüksək qiymətləndirilib, o, Prezidentin fərdiaüdünə layiq görülüb.
**X**oşbəxtəm ki, bu tarixi işdə - kitabların çapında bizim Milli Elmlər Akademiyasının və işlədiyim "Elm" nəşriyyatının da xidməti oldu.
**H**ər il Dilarə xanım babasının vəfatı tarixini ehsan süfrəsi ilə qeyd edir, qəbrüstü abidəsi ziyarət olunur. Bu il onun ölümündən 94 il keçir.
**D**ilarə xanım tanınmış ziyalıları – Ağamusasevərləri başına toplayıb bu günü qeyd edir. **"Unutsaq – unudularıq"** şüarını özünə amal seçən Dilarə xanım çoxları üçün nümunəvi varisdir.

**Azərbaycan Jurnalistlər Birliyinin üzvü,**
**"Milli Dəyərlərin Qorunması" İctimai Birliyinin**
**mətbuat katibi - Aliyə Qabilqızı**

## Vəfatının 94-cü ildönümü
## PRESS RELİS

**A**ğa Musa Nağıyevi tanımayan çox az adam tapılar. Susuzluğu yatızdırmaq məqsədilə Şollar suyundan içərkən ona dualar edib, yaratdığı xəstəxanalarda şəfa taparkən, Bakının küçələrindən keçən hər kəs tikdirdiyi binalardan birinə baxanda, ona rəhmət oxuyur.
**T**arixə əfsanəvi milyonçu kimi daxil olan bu insanın varidatının ümumi miqdarı 413 mln. (bəzi məlumatlara görə 690 mln.) məbləğində dəyərləndirilib. Ağa Musa Nağıyev kapitalını o dövrdə cəhalət girdabında boğulan xalqın maariflənməsinə, onun dünya görüşünün ümumi mədəni səviyyəsinin yüksəldilməsi istiqamətinə sərf etməklə bərabər bina tikintisinə də yönəltmişdir. Tikdirdiyi "N" qədər binalar tariximizin daş yaddaşıdır. Bu yadigarların hər naxışında neft milyonçusunun saf əməlləri, vətənpərvərliyi, milli təəssübkeşliyi hiss olunur. Neçə əsrlik tariximiz bu daş kitabələr vasitəsilə bizlərə əxz olunmaqdadır. Onun binaları memarlıq üslubu cəhətdən nadir tikililərdir.
**S**ovet təbliğatının tədbiqini qadağan edən mövzulardan biri də Azərbaycanda neft milyonçularının, onların xeyriyyəçilik hərəkatındakı rolunun öyrənilməsi, millətin görkəmli şəxsiyyətlərinin həyat və fəaliyyətinin araşdırılması olmuşdur. Uzun illər boyunca onların üzərinə «burjua» damğası vurularaq adlarını ləkələməyə çalışıblar. Amma XX əsrin əvvəllərindən milli oyanışın artdığı şəraitdə neftxudalar - mesenatlar millətin yaddaşında elə dərin izlər buraxmış, öz xidmətlərilə millət qarşısında qazandıqları şöhrəti tarixdən silmək və ya ləkələmək sovet ideologi-yasına nəsib olmadı.
**D**əfninin Kərbəlada oğlu İsmayılın yanında keçirilməsini vəsiyyət edən Ağa Musa arzusuna 2011-ci ildə - vəfatının 93 -cü il dönümündə nəvəsi Dilarə xanım tərəfindən əməl olundu. Məzarı üstündən götürülən torpaq – cimvolik olaraq Kərbəlada "dəfn" edildi. Nəhayət Kərbəlada dəfn olan oğlu İsmayılın ruhu atası ilə görüşdü.

**K**imdir Ağa Musa? Onun haqqında nə bilirik? Gələcək nəsil nə biləcək?
Bu vaxtadək onun şəxsi keyfiyyətlərindən çox az bilib, gördüyü böyük işlər haqqında düşünməmişik.
**1**900-cü ildə Binəqədi mədənlərində hasil edilən 10 mln. pud neftin 4-5 il ərzində 13 milyona çatması və eləcədə mədənlərdə 800 fəhlənin çalışmasıyla bərabər çoxsaylı mülklərin sahibkarı olmaq məhz Ağa Musaya nəsib olub. Bu izlər tariximizin bir parçası, yaşanılan illərin əks-sədasıdır desək, fikrimizdə yanılmarıq. 49 yaşlı Ağa Musanı igidlik, mərdlik səltənətinin məşhur milyonçusuna çevirmişdir.
**O**nun adı xalqın zəngin tarixi ilə maraqlanan, şərəfli keçmişimizə ehtiramla nəzər salan hər bir insanda qürur hissi oyadır.
"**M**illi Dəyərlərin Qorunması" təşkilatının yaradıcısı olaraq Ağa Musanın həyatının görünməyən tərəflərini işıqlandırmaq məqsədilə nəvə Dilarənin yazdığı kitablarda bu vaxta qədər görünməyən bir çox məqamlara işıq salıb.

**" ZAMANIN SORAĞINDA "**

**M.Qorki adına Mərkəzləşdirilmiş kitabxana 15.02. 2013-cü il**

**Y**azıçı-jurnalist Dilarə Ağamusa Nağıyevanın milyonçu-xeyriyyəçi Ağa Musa Nağıyevin həyat və fəaliyyətinə həsr etdiyi "Zamanın sorağında" kitabının təqdimatına professor Əsədulla Qurbanov bu sözlərlə başladı:
- **K**itab ictimai-tarixi reallıqdan, dövr-zaman həqiqətləri vətənpərvərlik puhunda qələmə alındığı hiss olunur. Tarixi unutmaq qeyri mümkündir. Hər bir vətəndaş bu hissləri yaşamalı, tarix üçün, vətən uğrunda nə isə etməlidir. Dilarə xanım yazdıqları ilə ancaq nəsl uğrund çalışmaq deyil,bu tarixi vərəqləmək deməkdir.
Bunlar Dilarə xanımın çıxışında daha yaxşı hiss olunur: -
"**T**aleyimi heç özüm də bilmədən məhz tarixə - Bakı milyonçusu, Bakının və bakılıların xeyirxahı, babam Ağa Musa və atam Fərəc Nağıyevlərin talelərinə bağlayaraq, bu günədək onların fəaliyyətlərinin görünməyən tərəflərini, istedad və bilgiləri haqda aləmə car çəkərək, onların xoş əməllərindən, gördükləri dəyərli, önəmli işlərindən zövq almaq qisməti oldu alın yazım. Mənalı bir ömür yaşamaq, müqəddəs peşə sahibi olmaq, doğrudan da böyük səadətdir. Görünür, bu səbəbdən ailəmizə, babama və atama bağlanmaq payı ömrümə düşüb. Həyatın çətinlikləri çox vaxt məni sarsıtsa da, bu sınaqdan hər zaman qalib çıxmışam.
**Y**üksək əxlaqi keyfiyyətlərilə həyatda yerini tutmuş, yaddaşlarda yaşamaqla özünə əbədi iz qoymuş neft milyonçusu Ağa Musa Nağıyev Bakı milyonçularından birincisi sayılıb. Son 20 ildə Ağa Musa Nağıyevin çox cəhətli həyatını, xeyriyyəçilik və səmərəli - ictimai fəaliyyətini, eləcə məşəqqətli sürgünlük taleyi yaşayan Fərəc Nağıyevin incəsənət və ədəbiyyat sahəsindəki uğurlu xidmətlərini araşdırmağa həsr etdim. Torpağına, Vətəninə, millətinə hədsiz dərəcədə bağlı olan Ağa Musa Nağıyevin həyat və fəaliyyətinə aid konkret və inandırıcı faktlar, kövrək xatirələr əsasında yazdığım: "Xalq üçün ömrünü şam kimi əridən...", "Ömrün səhifələri" və "Zamanın sorağında" kitablar və elmi monoqrafiyam

keçmişdən xəbər verən bariz nümunələrdir. "Milli Dəyərlərin Qorunması" İctimai Təşkilatını yaradıb, internet saytını açmaqla, babam və atamın borcundan az da olsa çıxdığımı hesab edirəm. Bu kitablar insan taleyinə rəngarəng naxışlar salan illərin məcmusu əsasında yaranıb. Hər bir sətirlərdə ömür kitabımın ən yaddaqalan və unudulmaz səhifələri əks olub"...

**D**ilarə xanımın yaratdığı hər bir nümunədə Azərbaycanın dövlətçilik prinsipləri, onun sosial coğrafiyası, tarixi, tanınmış məşhur simaların, görkəmli şəxsiyyətlərinin portret cizgiləri əsas xətt olaraq təqdim olunur.

**Ö**zü dediyi kimi onun sadə əməyi Ölkə Prezidenti tərəfindən yüksək qiymətləndirilib. Bir sıra "Diplom" və "Fəxri Fərman"lara layiq görülüb. Beynəlxalq Sülh Federasiyası - Ağa Musa Nağıyevi xalqı qarşısındakı xidmətlərinə görə, Dilarə xanımı isə A.M.Nağıyevin həyat və fəaliyyətinin tədqiqatçısı olduğuma görə **"Ümumdünya Sülh Səfiri"** Diplomları ilə mükafatlandırıb.

**N**eçə illərdir ki, babasının insani keyfiyyətlərini araşdırmaqla Dilarə xanım hər birimizin ürəyində Ağa Musa Nağıyevə yer ayıra bilib.

**B**irtərəfli, məhdud Sovet təbliğatının tədbiqini qadağan edən mövzulardan biri Azərbaycanda neft milyonçularının xeyriyyəçilik hərəkatında A.M.Nağıyevin həqiqi rolunun öyrənilməsi, millətin görkəmli şəxsiyyətlərinin həyat və fəaliyyətini araşdırmaq onun amalı olub.

**U**zun illər boyunca onların üzərinə «burjua» damğası vurularaq xeyirxah milyonçuların adlarını ləkələməyə çalışmışlar. Amma XX əsrin əvvəllərindən milli oyanışın artdığı şəraitdə mesenatlar millətin yaddaşında elə dərin izlər buraxmış, öz xidmətlərilə millət qarşısında elə şöhrət qazanmışlar ki, onları tarixdən silmək və ya ləkələmək sovet ideologiyasına nəsib olmadı.

**K**imdir Ağa Musa Nağıyev? Bu sual hamını maraqlandıra bilər. Cavab budur: -

**1**900-cü ildə Binəqədi mədənlərində hasil edilən 10 mln. pud neftin 4-5 il ərzində 13 milyona çatması və eləcə də mədənlərdə 800 fəhləyə çörək vermək məhz Ağa Musaya aid olub. Bu izlər tariximizin bir parçası, yaşanılan çətin illərin əks-sədasıdır desək, fikrimizdə yanılmarıq.

**D**ilarə xanım itirdiklərinin çoxunu ictimai fəaliyyətində, yazdıqlarında, ailə çərçivəsinin istisində tapdığını etiraf edir.

**N**eft mədənlərindən gələn gəlir hesabına saya-hesaba gəlməz qədər binalar tikdirmələ, "Qaraşəhər"də neft emalı zavodunu quraşdırmaqla, 49 yaşlı Ağa Musa Bakının məşhur milyonçusuna çevrilib. Var- dövlətini şəxsi mənafeinin reallaşmasına deyil, vətəninin- xalqının rifahı uğrunda xeyirxah işlər görməklə bu günün tarixinə dərin iz salmağı bacarıb.

**A**ğa Musa Nağıyev nəslinin davamçısı olmağı ilə fəxr edən Dilarə xanım bəxt, tale, qismət deyilən anlamlara inanmayanlara belə bir məsləhət verir:

"Neft milyonçusu Ağa Musa Nağıyevin zəngin həyat tarixçəsinə nəzər salsınlar! Yoxsul ailədə dünyaya göz açan Musanın, sonradan varlanıb, başına gələn bəlaların qarşısını almağa hətta milyonları da çarə etməyir. Çünki bu həmin gün onun alnına yazılmış tale qisməti idi!

**X**eyirxahlığı və ziyalı milli təfəkkürü ilə zəmanəsinin mesenatları arasında bilavasitə özünəməxsus yer tutanlardan olub, zamanla böyüyən insan - Ağa Musa - sonradan Bakının şərəfinə, şöhrətinə, parlaq simasına çevrilib.

**K**eçmişə hörmətlə yanaşmaq, Azərbaycanın tarixini, onun dəyərli səhifələrini övladlarımıza, gələcək nəslə ötürmək hər birimizin müqəddəs borcudur".
**D**ilarə xanımın bu mövzuya müraciət etməyi onun qısa zaman kəsiyində qazandığı nailiyyətlərdən, vətənpərlik hisslərindən, humanizmindən, nəcib – milli duyğularından irəli gəlir.
**Ə**ldə etdiyi arxiv materiallarından dəyərli Vətən övladının, Bakı milyonçusunun işıqlı surəti boylanır. Tikdirdiyi binaların sayını sıralayan rəqəmlərin arxasında bu fenoman şəxsiyyətin dəyərli ları dayanır.
**A**ğa Musa Nağıyevin məqsədi 100 bina tikmək olub. Arzusuna çatmasına tikmədiyi iki bina qaldı. Bu arzunun reallaşması onu çox düşündürdüyündən, imkan daxilində iki bina tikdirib, Ağa Musa Nağıyevi tarixə 100 bina tikdirən milyonçu kimi gətirmək bu gününün düşüncəsidir. **Bu gün ictimaiyyət onu "98 + 2" forumun müəllifi kimi tanıyır.**
**A.**M.Nağıyevin vaxtı ilə **"Bakı gecələri" a**dı ilə keçirdiyi layihəyə əsaslanaraq, məhz bu layihə çərçivəsində bu günkü tədbir onun məntiqi davamıdır.

**P.S.** **M**əhz "Zamanın sorağında" kitabına görə Dilarə xanım Akademiyanın Milli **"HUMAY"** mükafatına layiq görülüb.
**D**esəm ki, uşaq kimi sevinirəm, inanın! Bu mənim ümdə arzularımdan biri idi – deyir Dilarə xanım.
**2**013-cü il mayın 7-də möhtəşəm "BELLUTO"sarayında, Bakının say-seçmə ziyalıların əhatəsində bu mükafatı alarkən çıxışımda dedim ki, Ağa Musa Nağıyev ətrafında görmədiyim hələ çox işlər var. Onları yerinə yetirməyincə, ölməyəcəyəm.
**S**onradan məndə bir fikir yarandı- bəlkə mən də babam kimi 100 yaş yaşayıb, istədiklərimi həyata keçirməkdir arzum? Deməli nəslimə çəkmişəm. Çünki Ağa Musanın etdiklərinə mən əməllərimlə, yəni, Ağa Musa Nağıyevə həsr etdiyim mövzu və kitablarımla ona həyat verirəm. Belə deyim də var ki, "yazını balta da çapa bilməz"!

## ZAMANIN TARİX UCALIĞI

**Z**amanın ziyalı həqiqətləri bu gün ictimai- fəlsəfi düçüncəmizə müsbət təsiri ilə diqqəti çəkir. Tanınmış xeyriyyəçi –mesenat, ömrünü xalqa xidmətə sərf etmiş Ağa Musa Nağıyevin ziyalı gerçəkliyi bu məntiqi prosesin davamıdır.
**"Z**amanın sorağında" kitabında xalqımızın tarixi –ictimai əsaslarını, ziyalı gerçəkliyini özündə əks etdirən ədəbi-bədiiliyə rast gəlirik. Dilarə xanımın qələmə aldığı bu kitab ictimai ruha, soy-kök ənənəsinə, tarixi proseslərə əsl vətəndaş baxışı geniş anlam kəsb edən əsərlər sırasındadır. Tarixi köklərə nüfuz, dövlət müstəqilliyi fonunda fədakarlıq proseslərinə müəllif yanaşması, insanlıq fəlsəfəsi əhatəli şəkilldə təqdir edilir. Ağa Musa xalq üçün yanmış, xalq üçün yaşamışdır.
**B**akını qurub yaradan neftxudalardan biri olmuş, Azərbaycanı təkrar olunmaz arxitektur binaları ilə dünyaya tanıtdırmışdır. O binalar ki, bu gün də paytaxtımızın ən dəyərli memarlıq abidələrindəndir. Bakıya su kəmərinin çəkilişində qoyduğu vəsait bir daha onun yaşadığı ömrü xalq yolunda xərclədiyini təsdiqləyir.
**T**arixi sənədlərdən və faktlardan qaynaqlanaraq yazılmış bu kitabda tarixin zaman

ehkamı və zamanın tarix ucalığı obrazlı verilib. Xalq ənənələri, tarixi qaynarlığın qabarıldığı müşahidə olunur.
**K**itab hər birimizdə tarixi köklərə məhəbbət hissi oyadır. Baş obraz fonunda -Ağa Musa Nağıyevin simasında insansevərlik meyli hiss olunur. Xalq ənənələrinə müasir baxış, tarixi köklərə məhəbbət, xeyriyyəçi- mesenat faktorları yaxın keçmişimizin real təsviridir.
**D**ilarə xanım əsas obrazın taleyindəki müxtəlifliyi özünün fərqli yanaşma müxtəlifliyi ilə artırıb. Belə ictimai zərurət onun təfəkküründəki dərinlik və ədəbi güc hesabına yaranıb. Onun təfəkkür dərinliyi tarixi köklərə sitayiş edə bildiyi hiss olunur. O, dövr-zaman təsirlərini ən xırda detallaradək incələyib, torpaq, yurd faktorlarına isti-doğmalıq gətirə bilib. Bunların hamısı müəllifin vətənə məhəbbətindən, yurd sevgisindən, ən nəhayət vətəndaş yanğısından irəli gəlir. Kitabda diqqət çəkən əsas məqamlardan biri də keçmişin qarışıq hadisələrinə siyasi zəmin verən müqayisədir.
**Ə**sas sfera Dilarə xanımın dünyabaxışı ilə əhatədə öz inkişafını tapa bilməsidir. Kitabı hər bir oxucuda vətənpərvərlik ruhunu qüvvətləndirən bir əsər kimi qəbul edib, cəmiyyətdə belə kitablara ehtiyac duyulduğunun lehinə olacağına əminəm.

**“Dövlət və qanun” qəzetinin Baş redaktoru**
**Yasəmən Möhübbətqızı 20.02.2013.**

## ETDİKLƏRİ ONA ƏBƏDİLİK QAZANDIRDI

**“Z**əka və ülviyyət” jurnalının baş redaktoru Elmira xanım Nüsrətqızı Ağa Musa Nağıyevin vəfatının 94 ilinə həsr olunmuş elmi konfransda iştirak edib, jurnalın 2013-cü il mart tarixində çapdan çıxan sayında **“Ağa Musa Nağıyevin xaldı üçün qoyub getdikləri ona əbədilik qazandırdı”** başlığı altında məşhur neft milyonçusunun həyat və fəaliyyətindən geniş məqalə dərc edib.
**S**ovet hakimiyyəti dövründə qəbr yerinin məcburi olaraq 3 dəfə dəyişildiyini bir daha vurğulayan Elmira Nüsrətqızı, ötən il milyonçunun qəbri üstündən götürülən torpağı Kərbəlada, oğlu İsmayılın qəbri ilə qovuşdurmaqla ,90 ildən yuxarı etdiyi vəsiyyətinə əməl olunduğunu da qeyd etməyi vacib sayıb.
**T**əkrara yol verməmək niyyəti ilə Elmira xanımın dərc etdiyi məqaləni ixtisarla nəzərinizə çatdırıb, sonunu isə olduğu kimi qeyd edərək, oxucu kütləsinin marağına səbəb olacağına inamlıyam.
**E**lmira xanım - Ağa Musa Nağıyevin adını daşıyan İctimai Birliyinin sədri olaraq apardığım araşdırmalarda Ağa Musa irsini lazımı səviyyədə aşıladığıma və göstərdiyim nəvə etimadına görə bu sahədə çalışdığımı nəzərə alaraq uğurlar diləyib, Ağa Musa Nağıyevin məzarının yenidən bərpa olma işlərində Ulu Tanrıdan mənə kömək diləyib, yazır: “ Əhsən, oğul qeyrətli, mərd, mübariz Dilarə xanım!”

P.S. 2012-ci ildən Binəqədi İcra Hakimiyyəyinin başçısı bu vəzifəyə başladığı ilk gündən Ağa Musa Nağıyevin Biləcəridəki məzarını yenidən bərpa işləri aparılması haqda verdiyi qərarı ilə bu işi bir nömrəli işlər siyahısına salmağı vacib bildi. Düşünürəm ki, yaxın zamanda qəbu işin təməli qoyulacaq.

## AĞA MUSA NAĞIYEV ANILDI

**N**izami Gəncəvi adına Ədəbiyyat Muzeyində 2013-cü ilin mart ayında keçirilən seminar Bakı milyonçusu Ağa Musa Nağıyevin fəaliyyətinə və xeyriyyəçiliyinə həsr olunmuşdur. Mövzu ətrafında aparılan müzakirələr zamanı iştirakçılar mesenat, neft sahibkarı haqqında dəyərli məlumatlar əldə etmişlər.
**A**ğa Musa Nağıyevin paytaxt Bakıya yaraşıq verən və bu gün bir çox inzibati idarələr xüsusiyyəti daşıyan binaların tarixindən və ümumuiyyətlə tikililərlə bağlı maraqlı təfərrüatlar seminar iştirakçılarının diqqətinə çatdırıldı.
**S**eminar iştirakçıları Dilarə xanımın babasının şəxsiyyəti, zəhmət və mübarizələri, xeyriyyəçilik işlərinin təbliği yolundakı yorulmaz çalışmaları xüsusi qeyd etdi.

**"Elm"qəzeti, 15.03.2013.**
**Sevinc Paşayeva**

**P.S.** Millət vəkili, muzeyin direktoru Rəfail Hüseynov Ağa Musa Fəaliyyətinə böyük maraq göstərir. Muzeydə bu mövzu ətrafında keçirilən seminarın təşkilinə görə, eləcə də Ağa Musa Nağıyevə həsr edilmiş guşənin yaradılmasına görə rəhbərliyə təşəkkürümü bildirirəm.

## NEFT SƏNAYEÇİSİ AĞA MUSA NAĞIYEV

**"**SOCAR" neft şirkətinin 2013-cü ildə -20 illik yubilleyi münasibətilə "SOCAR *plyus"* jurnalında neft milyonçusu Ağa Musa Nağıyev haqqında geniş məqalə dərc olunub. Təkrara yol verməmək məqsədi ilə məqalənin əsas məqamları diqqətə çatdırılır:
... **A**ğaMusa Nağıyev fəaliyyəti ilə bərabər istehsalın təkmilləşdirilməsi məsələsini də unutmayırdı. Başqa neft sənayeçilərindən nümunə götürən Ağa Musa Nağıyev Qaraşəhərdə (Çornıy qorod) əvvəlcə kiçik neft emalı zavodu tikdirib, sonradan onu genişləndirib. Bir müddət sonra Xəzərdə onun ilk gəmisi peyda olub.
**R**əsmi məlumatlara görə, o illərdə A.M.Nağıyevin Balaxanı, Ramana və Sabunçu

kəndlərindəki neft mədənlərində 45 məhsuldar, həm də texniki baxımdan yaxşı təchiz edilmiş neft quyuları var idi. Burada 800-dən artıq fəhlə çörək pulu qazanırdı. Uğurun əldə edilməsində şirkətin müdüri Fətulla bəy Rüstəmbəyovun və mədənlərin rəhbəri mühəndis- geoloq Hüseynxan Talışxanovun rolu da olub.
A.M.Nağıyevin çoxsaylı binaları ilə yanaşı onlarla gəmiləri olub.
Varidatı 1914-cü ilə qədər 70 mln. qızıl pul təşkil edib. Daşınan və daşınmaz əmlakı daha yüksək məbləğdə qiymətləndirilib.
1908-ci ildə Ağa Musa Nağıyevin mədənlərində 12.328.300 pud xam neft istehsal olunaraq, rekord səviyyə göstəricisi əldə edib. Beş il ərzində, yəni 1913-cü ilə dək isə onun müəssisələri artıq ən iri Azərbaycan şirkətlərinin ilk onluğuna daxil olub, sonrakı illərdə isə 6-7-ci yerləri tutur.
Neftin hesabına qısa müddətdə varlanan Ağa Musa sərmayəsini daşınmaz əmlaka yatırmağa yönəldib. Bu yatır ona az gəlir gətirsə də, etibarlı qaynaq sayılırdı. Tikintiyə olan meylini atasının vəsiyyəti ilə bağlayan A.M.Nağıyevin gəlir gətirdiyi binalarını "Qasımov qardaşları və Ko" şirkəti tikirdi. Müxtəlif qaynaqlardan məlum olur ki, ümumilikdə A.M.Nağıyev Bakıda müxtəlif tipli 98 bina tikdirib. Bir binanın tikintisi başa çatmamış başqa binanın tikintisinə başlayıb. Bu işdə onunla hətta H.Z.Tağıyev də ayaqlaşa bilmirdi.
1905-1908-ci illərdə maariflənmə və xeyriyyə cəmiyyətlərin fəaliyyəti aktivləşmişdi. Bu, hansısa bir vahid müsəlman xeyriyyə və mədəni mərkəzin yaradılmasını tələb edirdi. Ağa Musa Nağıyevin oğlu İsmayılın xatirəsinə tikdirdiyi "İsmailiyyə" binası belə bir mərkəzə çevrilir. Onun zallarında "Nəşri-Maarif" cəmiyyəti tərəfindən çay süfrəsi arxasında xeyriyyə axşamları təşkil olunurdu. Zaman keçdikcə, burada siyasi müzakirələr aparılırdı. 1917-ci aprelin 26-da binada xalq müəllimlərinin iştirakı ilə tələbə koinfransı keçirilir.
Ağa Musa Nağıyev 1908-1913 illərdə istedadlı mülki mühəndis N.Q. Bayevin layihəsi üzrə şəhər xəstəxanası tikdirib. Təsadüfi deyil ki, bina"H" (kiril əlifbası ilə Nağıyevin soyadının baş hərfi) formasındadır. Bina 1913-cü ildə istifadəyə verilib. O, çox istəyirdi ki, bu xəstəxanada ağır xəstəliklərin profilaktikası həyata keçirilsin və effektiv müalicə işləri aparılsın ki, insanlar onun oğlu İsmayıl kimi həyatı vaxtsız tərk etməsinlər.
Ağa Musa Nağıyevin tikdirdiyi binaların içərisində ən çox seçilənlərdən: "İsmailiyyə", 28 may küçəsindəki "Əkiz binalar", həmin küçədə daha 14 bina, "Qış evi" -hazırda Zabitlər evi, "Novaya Yevropa" mehmanxanası – hazırda LUKOYL –ın binasıdır.
28 may küçəsindəki əkiz binaların üç küçəyə çıxışı var.
Böyük xeyriyyəçi Ağa Musa Nağıyev hər il müxtəlif ali təhsil müəssisələrində oxuyan tələbələrin təhsilinə də vəsait ayırıb. 1898-ci ildə Bakıda yetim uşaqlar üçün binanın tikintisinə iri məbləğdə ianə verənlər siyahısında A.M. Nağıyev in və Şəmsi Əsədullayevin adı birinci yerdə olub.`
Ağa Musa Nağıyev vərəmlə mübarizə üzrə Qafqaz cəmiyyətinin ən aktiv iştirakçısı olub. Neft sənayesinin inkişafına, Qaraşəhərdə zavod tikintisinə sərmayə qoyduğuna, eləcə də "qara qızıl"ın hasilatı üçün yeni mexaniki üsulun tədbiqinə görə İmperator II Nikolayın qızıl medal və ordeni ilə təltif olunub.

**A**ğa Musa Nağıyev pulunun qədrini bilən olduğundan xalq arasında onun xəsisliyi barədə şayələrin yayılmasına səbəb olmuşdur. Amma yeri gələndə qəpiyinin hesabını aparan Ağa Musanın adı məhz ən çox iri ianə verənlər siyahısında olub.
**D**eyilənlərə görə Ağa Musa Nağıyev ikinci həyat yoldaşı – milliyyətcə gürcü yəhudisi Yelizaveta Cankorova ilə cəmiyyət arasına çıxarmış. Liza xanım Bəhayi dininə itaət etdiyindən, Ağa Musa bu dinin inkişafına maraqlı olub və pul ilə də köməklik göstərib. Bəhayilər ruhun və bədənin ölməzliyinə etiqad ediblər. Görünür bu səbəbdən o səmimi şəkildə inanırdı ki, heç vaxt ölməyəcək.

## HACI ƏVƏZ - SƏRRAF

**H**acı Əvəz 1951-ci il aprelin 22-də, özü dediyi kimi dahilərin anadan olduğu gündə Bakının Xırdalan qəsəbəsində Baba kişinin ailəsində dünyaya göz açıb. Beş oğul, üç qız övladının ilkidir Hacı Əvəz.
**U**şaqlıqdan zərgər işinə çox həvəsli olub. Atasının arzusunu yerinə yetirib, ali məktəbə daxil olan Hacı Əvəz "Mədəni maarif işçisi" ixtisasına yiyələnsə də, sevdiyi peşəsindən - zərgərlikdən əl çəkməyib. Bu sahədə çalışıb və bu sənətdən da təqaüdə çıxıb. Bəlkə də bu zərif iş onun sonradan məşhurlaşıb, Hacı Sərraf kimi şeirlərilə aləmə car çəkməsinə səbəb olub.
**O**nun sərraflığı təkcə zərgərlikdə deyil. O, həm də söz aləminin sərrafıdır.
**O**, ədəbi aləmdə sərraf təxəllüsünü götürüb, qəzəllərini bu imza altında yazır. Zərgar və Sərraf! Hər iki sənət zərifliyin əlamətidir.
**B**ütün bunlarla yanaşı Hacı Əvəz hər zaman dinə böyük həvəs göstərib. İmadəddin Nəsiminin sözlərilə desək: "Onda sığar iki cahan, o bu cahana sığa bilmir".
**H**acı Əvəzin varlığında elm, müsiqi, söz, mədəniyyət və şeir dühası biri-birinə üstün gəlir. Elə bu dühalar onun İslam Universitetinə daxil olmasına səbəb olur və beləcə o, ikinci ali savada yiyələnir. "İslamşünas - Axund" ixtisasına layiq görülən Hacı Əvəz şeirlərini dinə - islama həsr edib. İslam mədəniyyətini şeirlərində əks etdirən Hacı Sərrafın yazdıqları dinləyici yaddaşına ana laylası kimi həkk olur.
**H**ələ uşaqlıqdan Baba kişinin əlinin verimli olmasına adət etmiş Hacı üçün "Əl tutmaq Əlidən qalıb" şüarı onun həyat kredosuna çevrilmişdir. Bu sözlər bu günədək sırqa kimi asılıb onun qulaqlarından.
**U**zun illər fəaliyyətdən qalmış və 1992-ci ildə Hacı Əvəzin fəal iştirakı ilə təmir olunmuş Xırdalan məscidinin açılışı Ramazan ayı ərəfəsinə təsadüf edib. Azan səsinə həsrət qalmış məsciddən Hacı Əvəzin gözəl avazı ilə oxunan Quranın sədaları bütün qəsəbəyə yayıldı. Hacı Əvəzin özü kimi səsi də qeyri adidir – həzindir.
**O** zaman Hacının bu məsciddə ilk niyyəti Həcc ziyarətinə getmək oldu. Elə həmin ili Həcc ziyarətinə çıxan Hacı Əvəz Kərbəlada "Samirə" məscidində dua edib, Allahdan sağlamlıq diləyib, o zaman 40 günlük olan oğlu Varisin 16 yaşına çatanda bu məkanı birgə ziyarət etməyi niyyət edir.
**Y**enicə ağır cərrahi əməliyyat (qara ciyər əməliyyatı) keçirmiş Hacı Əvəz, 1995-ci ildə Məşhəd və Kərbəlanı ziyarət edir. Bu ziyarət zamanı "Samirə" məscidində Hacı üzünü Allaha tutub, deyir: - "Ya Rəbb! Verdin sağlam səhhət, yenə gəldim!";

Mədinədə isə üzünü Perqəmbərin qəbrinə tutub deyir: - "Ya Rəsul Allah! Etmədim vədə xəyanət, yenə gəldim"!

**O**, 1995 –ci ildə Övliyaları- 14 Məsumların ziyarətini başa vurub, zəvvarlar arasında "Yüksək rütbə" qazanıb, bayram şərəfinə "Çahardə Məsuma"ya ehsanat verib.

**2**007-ci ilin may ayında İstanbul şəhərində ayağından ağır cərrahi əməliyyat keçirməsinə baxmayaraq, əhdinə vəfalı çıxıb, vərəsəsi Varis ilə niyyət etdiyi Həcc ziyarətinə gedir.

**A**llah-Təala hər şeyi görür. Hacının dediyi kimi yaxşı və pis əməllər – hamısı insanların əməl dəftərinə yazılır. Bu gün Hacı Sərraf kimi o, dini şeirlərilə insanların ruhunu oxşayıb, onları Allaha daha da yaxınlaşdırır. Onun şeirlərinə həyəcansız, qibtəsiz qulaq asmaq mümkün deyil. Həqiqətən o, bu cahana sığmayır. Onun cahanı başqa bir aləmdir. 30 ildən yuxarıdır ki, İslam dininin fəlsəfəsini araşdırmaqla məşğuldur. O, müsəlman ölkələri ilə bərabər başqa ölkələrdə də İslam dininin sonuncu - axırıncı olması, bəşəri din olması haqqında təbliğat aparır.
O deyir: "Gün gələr gözlə, Bəşər, la ilahə illəllah,
Ayə, vardır Quranda, bunu təsdiq edən bir neçə ayə!"

**H**acı Əvəz müharibə vaxtı pərakəndə düşmüş çox böyük və möcüzəli Seyidlərdən olan Xırdalanlı Seyid Mir Əbül Həsən Ağa (Mir Mövsüm Ağanın əmisi oğlu) ilə yanaşı daha bir Seyidin və iki uşağın qəbrlərini Xırdalan qəbiristanlığında ziyarətgaha çevirmişdir. Məzarın üzərinə qoyduğu qara mərmərin dörd bir tərəfində dəvə karvanlarını əks etdirmişdir. Sinədaşı üzərində onlara həsr etdiyi şeirdə insan yaşayarkən qeyri-adi hisslər keçirdiyi və düşünmədikləri aydın olur:
-" Ömür gedir karvan kimi, yaşa ömrü insan kimi. Qocalanda cavan kimi, istəsən sən yeriyə bilməzsən..."

**İ**slamşünas şair, alim Hacı Əvəz bu gün bu aləmdə yekdir! Şeirlərində fəlsəfi, tarixi – elmi fikirlər bildirən Hacı Sərraf, insanın yaranışını Allah ilə bağlayıb, taxtı umman olsan da, ölümün qarşısında acizsən - deyir. Çünki həyatı verən də Allahdır, alan da!

İki şey, iki şeyi görmək istəmə
Yaradıb Tanrı özü əşrəfi insan,
Vermiş hər bir kəsə bir can.
Alacaq verdiyin hər an,
Olasan taxtı Süleyman.
Xeyri yox, zərrəcə bundan,
Alacaq! Sənə qalmaz!

**M**usiqi, söz və mədəniyyət bu insanın daxili aləmidir. Dilindən çıxan hər bir kəlamın arxasında böyük bir yük dayanır. Belə ki:
-"Axmaq agıllını gormək istəməz, kasıb- varlını; Alim varlı yanına gedər,varlı alimin yox. Çunki dovlətlinin elmə ehtiyacı yoxdur"!
"Əl tutmaq –Əlidən, ev yıxmaq - dəlidən qalıb", deyən Hacı Əvəz xəstələrə yardım əlini uzadıb, onların müalicəsinə etdiyi yardımla bərabər xəstəxanada təmir işlərinə də köməklik etməkdən boyun qaçırmayır.

**H**ər il Ramazan bayramında iftar süfrəsi , məhərrəmilikdə böyük ehsan süfrəsi verib, kimsəsizlərə əl tutur, onlara toy edir.
**Ş**eirlərilə insanlara mənəvi qida verən Hacı Əvəz xeyriyyəçilik fəaliyyətini günü-gündən genişləndirib, onlara maaddi qida verməkdən də xüsusi zövq alır.
İslamşünas şair Hacı Əvəz – Sərraf 60 illik yubileyi münasibətilə "Dədə Qorqud" Milli Xeyriyyə Fondunun "Qızıl Ürək" Medalı ilə təltif olunub.
**Q**ısa ömür yolunda böyük işlər görmuş; İslam dininin fəlsəfəsini araşdırmaqla məşğul olub; vücudunda musiqi, söz və mədəniyyət üçlüyünin heç zaman tükənmədiyini diləyib; Şeirlərilə insanlara mənəvi qida verib, xeyriyyəçilik fəaliyyətini günü-gündən genişləndirib, xeyriyyəçi əməllərindən usanmayan; Haci Əvəz Sərraf 60 illik yubileyi münasibətilə Ağa Musa Nağiyev Diplomu ilə təltif edilib.
**B**u münasibət ilə Hacı Əvəz "Zirvə" Ziyalılar Təşkilatının, eləcə də "Dövlət və Qanun" qəzetinin Diplomları ilə də təltif edilib.
**Q**əzəlxan Gülara Munis, qəzəlxan Məhəmməd Hadinin : - "Elmin, biliyin, məərifətin varsa, buyur, gəl! Yoxdursa, həyat aləminə olma bir əngəl!" - sözləri ilə çıxışına başlayıb, Hacı Əvəzi bu kəlamın bariz nümunəsi adlandırdı. Onunla bir neçə kəlmə danışmaq, kifayət edir. İnsan ruhən dinclik tapır. Dəfələrlə Dilarə xanımın babası Ağa Musa Nağıyevin fəaliyyətinə həsr etdiyi tədbirlərdə iştirak edərkən, Hacı Əvəzin qiymətli kəlamlarını dinləyib, bəhrələnənlərdən olduğunu qeyd edib, onu qəzəllərilə təbrik etmişdir.
**X**eyriyyə ənənəsinə münasibətini bildirib, bir çox xeyriyyə işlləri görmüş, kimsəsizlərə toy etmiş, yetimlərə maaddi dayaq olmuş, İmişli rayonunda Məscid tikdirən xeyriyyəçi Gülnarə xanım Əhmədova Hacı Əvəzə xoş sözlər ünvanlayıb, uğurlar dilədi.
**Ş**air-aşıq Hacı Loğman sözü və sazı ilə məclisə xüsusi gözəllik verdi.
**Q**afqaz Media İB-nin sədri Hacı Azadə xanım, ADİU-nun Dosenti Nailə xanım, AMEA-nın I Vitse Prezidentin köməkçisi Zibaxanım Cəfərzadə, şair Musa Ələkbərli - xeyriyəçi Hacı Əvəzi - Hacı Sərraf kimi tanıdıqlarından duyğulandıqlarını vurğulayıb, 60 illik yubileyini və medal ilə təltif olunmasını təbrik etdilər.

**İki şey var ki, onu bilmək olmaz!**
**Hacı Əvəz- Sərraf qəzəllərindən**
(qısaldılmış)

İki şey var ki, onu bilmək olmaz,
İki şey var ki, ona gülmək olmaz.
Biri axirət, biri aqibət, kimsə bilməz!
İki şey iki şeyin altında yatar,
Xəstəlik başın altında,
Ölüm isə çox yaxındur, qaşın atlındadur.
İki şey iki şeydən zövq alar,
Alim elmindən, zalim zülmundən.
İki şeyə tez-tez dəy, bir kasıba,
Bir də xəstəyə - gözü yolda olar.

İki şeyə dəyməyəsən, qəlbi kövrək olar,
Bir xəstənin bir də kasıbın.
Xəstə yanında – sağlam səhhətindən,
Kasıb yanında - varından, dövlətindən.
İki şeyi oğurlasan halaldır,
Söz ilə qabiliyyəti, göz ilə də sənəti.
İki şeyi oğurlasan haramdır,
Möminin imanını, kasıbın gümanını,
Çünki imansız mömin, müqavvadur,
Gümansız kasıbsa, ölüdən bətərdir.
Ümid kasıbların çörəyidir ancaq!...

## TALE, QİSMƏT, ALIN YAZISI

**"Ş**əmsi Əsədullayevin" xeyriyyə cəmiyyətinin sədri Həsən Baba oğlu Məmmədov, Ş.Əsədullayevin Məmmədbəy əmisinin nəvəsi, mənimlə tanışlıqdan sonra və Ağa Musa Nağıyev fəaliyyəti ətrafında apardığım tədqiqatların şahidi olub, mənə **"Qafqazın xanımı"** titulunu verib. Bu Cəmiyyət milli məhsulların elektron bazasını yaratmaqla bərabər sahibkarlar üçün elektron mətbuat xidməti layihələrini də həyata keçirib.

Həsən Baba oğlu ilə birlikdə Ağa Musanın qəbrini ziyarət etdik. Bir neçə saatlıq ekskursiya zamanı xatirələrə baş vurmaq, onu röyalara qərq etdi...

Hər dəfə olduğu kimi, qəbri ziyarət edənlərin qarşısında tarixin səhifələri açılır...

**M**əndə nədənsə hər zaman inanm olub ki, vaxt gələcək Ağa Musanı olduğu kimi tanıyıb, qəbul edəcəklər. Yarandığından bir əsr yarımdan çox, yoxluğundan bir əsrə yaxın zaman keçsə də, bu belə də oldu! Bu illər onun həyata keçirdiklərinə böyük nida işarəsi qoydu. **S**ənə nəfəs verdim, etdiklərini yaddaşlarda təzələdim, etdiklərimə rəğmən hörmət qazandım. Buna görə ruhun qarşısında baş əyirəm. Hər zaman belə də olacaq!

**D**ünya dedikdə hərə öz əqidəsində müxtəlif ideyalar mülahizə edir. Kimsə üçün dünya aldadıcı, kimsə üçün burulğanlı həyat, kimsə üçün yalan, kim üçünsə - ədalətsiz görünür.

**A**mma dünya müdrüklik üzərində qurulduğundan bütün bunlara dözür. Hər kəs bu dünyaya eyni gəlir, saf və günahsız. Uşaqlıq illərimiz bir quş sürətilə ötüb tez keçsə də, o illər həmişə xoş anlarla yadda qalıb xatırlanır. Zamana nə var ki, gözünü yumub – açıb görürsən ki, illər qanadında bir yel kimi səni bu günə çatdırıb. Amma ötən günləri çoxlarımız layiqincə yaşamışıqmı? Bax, elə əsl məsələ də budur!

**İ**nsanın formalaşmasında, Allah- Təlanın ona yazmış olduğu taleyin və tutduğu ömür yolunun böyük rolu olur.

**H**əyatda insan özünü dərk edəndən hansısa bir zirvəyə ucalmaq eşqiylə yaşayır. Bu zirvələrin ən çətini sayılan ali insanlıq zirvəsini aşılamaqdır ki, bu da hər kəsə nəsib olmur. Düşünürəm ki, əməllərimlə bu zirvənin ən uca nöqtəsində hesab etmək hüququnu qazanmışam desəm, təvəzökarlıq olar.

**B**u yolda qazandıqlarım mənə haqq verir ki, özümü dünyanın xoşbəxti sanım. Mənalı bir ömür yaşamaq, müqəddəs peşə sahibi olmaq doğrudan da böyük səadətdir. Elə bu səbəbdən ömrümə ailə, ata və babaya bağlanmaq payı düşüb. **M**əni tanıyanlar tərcümeyi halımı vərəqlədikcə, zərif duyğulu olduğumu vurğulayıb deyirlər ki, XXI əsrin rəmzi kimi parlayıb bu günə Ağamusa işığı saçan bir xanım dayanır qarşımızda.
**H**əyatın çətinlikləri çox vaxt məni sınağa çəksə də, bu sınaqlardan hər zaman qalib çıxmışam. Çoxları deyir ki, məndən nəyi bacarmadığımı sormaq daha düzgün olar. Yeni zirvələr fəth etməkdəm yorulmayıram. Daima Ağa Musa axtarışındayam. İndi məni Ağa Musanın tədqiqatçısı adlandırırlar. Uzun illər babamın və atamın etdiklərini aşkarlayıb, gündəmə çıxarmaqda göstərdiyim səyimi bu gün də davam edirəm.

**P.S.** Leyla xaınm Əliyevanın təsisçisi və baş redaktoru olduğu "Baкy" jurnalının 2014-cü ilin birinci sayında : "Миллионер, сын саманчи" (Milyonçu, samançı oğlu) başlığı altında yazılmış məqalənin "Bakılı; İş və hissiyyat" rubrikasında Ağa Musa Nağıyev irsinin taleyi haqqında geniş məlumat verilib. Orada bir fikiri nəzərinizə çatdırmağı vacib bilirəm: "Əsrin dörddə bir hissəsidir ki, Dilarə Nağıyeva babası Ağa Musanın keçdiyi ömür yolunu, haqqı, damla-damla bərpa edir. Tarix boyu Ağa Musanın həyat və fəaliyyətini faktlar əsasında deyil, söz-söhbətlərlər, şaiyələr əsasında nəzərə şatdırmaqla insanları çaşdırmaq istəsələr də, Dilarə xanım babasının tarixini demək olar ki, bir dedektiv kimi bütünlüklə araşdırır".

Bunu bütünlükdə Ağa Musa Nağıyevin fəaliyyətinə verilən qiymət kimi qəbul edirəm.

### Qəlbində həyat eşqi

**K**önlündə həyat eşqi, qolunda güc-qüvvəsi,
Sonsuz axtarışların gözəldir nəticəsi.
**Ə**məllərin sehirlə düşüb xeyli öncəyə,
Xeyirxah milyonçular sehrinə düşdük yenə,

**Ö**z incə qələminlə xariqə yaradırsan,
Xalqın dəyərlərilə sən birgə ucalırsan.
Zəhmətini gözündə ucuz tutma sən heç də,
Tunc heykəl ucaldırsan xalqa, gələcək nəslə,
Gözəl miras qoyursan.

**M**illətə bir dayaqdır, arxadır övladları,
El sevər, el ucaldar el üçün yananları,

Xalq gözündə ucalar elin mərd övladları.
Yaraşıqsan elinə öz xeyirxah işinlə.

Gecə-gündüz axtardın elin yüksək adını,
"Dəyərlərlə" ucaltdın "Milli" dəyər içində
İnan, Dilarə xanım, sən bu gözəl biçimdə
Bur sərvətsən, özün də!

**İlahiyyətçi Məşədi Qönçə xanım**

## Əbədi həyat - əbədi sənət!

**Mən sənin qonağın ola bilmədim,**
**Bilmirəm bu gün kimdir qonağın?**
**Ən birinci arzum idin, itirdim,**
**Ən sonuncu ruzum idin, itirdim...**

**110 yaşın mübarək , ata!**
Sənətkar dünya ilə vidalaşandan sonra da onun sənəti yaşamaqda davam edir. Yaşasaydı, bu il Fərəc Nağıyevin 110 yaşı tamam olacaqdı. Vəfatından 40 il keçir. Amansız xəstəlik 1973–cü ildə, 70 yaşında onu haqq dünyasına qovuşdurdu. Ancaq yaşadığı dövrdə o, çox işlər gördü. İncəsənətə, ələlxüsus teatr sənətinə çox töhfələr verdi.
1903–cü ilin dekabrında Ağa Əli Nağıyevin ailəsində Ələsgər adlı bir uşaq dünyaya göz aç dı.
Övladlarını - qızı Ümmül Banunu və oğlu İsmayılı erkən itirən xeyriyyəçi-mesenat Ağa Musa, qardaşı Ağa Əlidən yeni doğulmuş bu uşağı hədiyyə istəyir və adını kədərdən sonra gələn sevinc mənasını daşıyan - Fərəc qoyur. O vaxtlar balaca Fərəc heç təsəvvürünə də gətirməzdi ki, Ağa Musanın vərəsəsi olmaqla, ömrü boyu təqiblərə məruz qalacaq.
Teatr ilə maraqlanmağa başlayan gənc, 18 yaşından gələcəkdə həyatını bütövlükdə bu sənətə həsr edəcəyini qərara alır. O, Respublikada savadsızlıq hökm sürdüyü bir dövrdə Teatr texnikumunun aktyor və rejissor, eləcə də təsviri incəsənətin rəssamlıq ixtisaslarına yiyələnir. 30 yaşlı Fərəc hər üç ixtisası mükəmməl mənimsəyib, bu sahədə püxtələşir.
Hələ 12 yaşında ikən Fərəc nişanlandığı zümrüd rəngli gözlü Zəhra xanımla 1928-ci ildə ailə qurur. Tez bir zamanda Fərəc həyat yoldaşı ilə birlikdə Bakını tərk edərək Orta Asiyanı, Dağıstanı, Aşqabadı və sonradan Azərbaycanın rayonlarını qarış-qarış gəzib, Nağıyev soyadlı kapitalizmin qaçaq varisinin acı taleyini mətanətlə paylaşır. Şayələrdən, söz-söhbətdən, hədə-qorxudan uzaq olmaqdan,

Sibirə sürgündən qorunmaq məqsədini güdən Fərəc Nağiyev yaşayış yerini tez-tez dəyişməli olur. 1952-ci ildə Bakıya "qayıdarkən", onu Fərəc Nağı kimi tanıyırlar...
**T**eatr sənətinin ən cəfakeş təbliğatçısına çevrilən Fərəc, uzun müddət, daha doğrusu 23 il ailəsi ilə birgə bu ömrü yaşamağa məcbur olur. Elə bu səbəbdən onun övladları müxtəlif şəhər və rayonlarda dünyaya göz açmışlar.
İlk oğlu Rauf 1930-cu ildə, 1931-ci ildə qızı Solmaz, 1934-cü ildə Aşqabadda oğlu Ağa Əli, 1938-ci ildə Nuxada oğlu Çingiz, 1940-cı ildə isə Dərbənddə ailənin son beşik qızı Dilarə (mən) dünyaya göz açır.
**S**ənətdə ilk addımlarını1921–ci ildə "Satirikon" teatrında başlayan Fərəc, 1921-1928 –ci illərdə Milli teatrın tamaşalarında baş rolların ifaçısına çevrilir. Sonradan "Səyyar kəndli", daha sonralar "Türk işçi" teatrlarında çalışır.
**Q**uba, Sabirabad, Neftçala və Səlyanda teatr sənətinin inkişafında böyük rol oynamış Fərəc Nağıyev 1940-cı ildə Dərbənd Dram teatrının təməl daşını qoymuş, bu teatrın direktoru olmaqla bərabər, baş rejissor və bədii rəhbər vəzifələrini də icra etmişdir. Bununla yanaşı Fərəc işlədiyi teatrlarda afişaların və proqramların tərtibatı ilə də məşğul olub.
**Ç**alışdığı məkandan asılı olmayaraq o, hər yerdə özünü ilk növbədə aktyor, rejissor, rəssam və nəhayət sənətinin fədaisi kimi göstərə bilib.
**1**923-cü ildən rejissor kimi fəaliyyətə başlayıb. "Qanlı səhra", "Qana-qan" tamaşalarında isə özünü istedadlı rəssam kimi də göstərib.
**B**elə bir həyat tərzi ona 1938-1943-cü illərdə vaxtı ilə Ağa Musa Nağıyev tərəfindən İsveçrə bankına qoyulmuş hesabdan gələn mirasdan imtina etmək qərarını qəbul etməyə məcbur edir.
**Q**eyd olunan məlumatlar ilk baxışda bəlkə də sadə görünə bilər, lakin bu taleyin ağrı və acısını yalnız onu yaşayaraq anlamaq olar.
**F**ərəc qarşısına çıxan bütün çətinliklərə sinə gələn, yorulmadan yaradıcılıqla məşğul olan insan olub. Ona Fərəc adını verən Ağa Musa, sanki onun həyat trayektoriyasını əvvəldən cızmışdı – kədərdən sonra gələn savinc. Bu adın bir mənası da xeyir –dua deməkdir. Uzaq yola çıxanlara - Allah işinə fərəc versin deyirlər. Görünür elə buna görə idi ki, Fərəc incəsənət yollarında yeni cığırlar açmaqdan usanmırdı.
**H**əyatının ən böyük sevinci də, istəkli övladları və yaradıcılığı ilə bağlı olub. Amma bu yolda o tək deyildi, bütün haqsızlıqlara onunla birlikdə ömür gün yoldaşı Zəhra xanım da məruz qalıb. Dekabristlərin həyat yoldaşı kimi, Zəhra xanım çətin vaxtlarda beş övladı ilə birgə teatr sənətinin fanatı olan Fərəcin, yaradıcı insanın ardınca gedib, ona arxa olmağa çalışıb.
**B**u gün Dövlət Ədəbiyyat və İncəsənət arxivində (475 saylı fond) qorunan 200-dən artıq satirik poema və şeirlərin, "Yuri", "Qazi", "Allah adamı və yoxsul" hekayələrin, "Utanıram", "Meyxana", "Ehtiyatlı ol", "Seçim" kimi intermediyaların müəllifi olub Fərəc Nağıyev .
**O**, Azərbaycan estradasında şifahi janrda çıxış edən aktyorlardan birincisi olub. Uzun illər onun diqqətini vaxtı ilə küçələrdə səhnələşdirilən, artıq yaddaşlardan silinən, xalq yaradıcılığına aid olan "Qaravəlli" xalq meydan oyunları cəlb edirdi. Soyadının səbəbindən Fərəc gənc yaşlarında yazdığı "Qaravəlli"nin 70 səhifəlik ssenarisini aşkara çıxara bilməmişdir.

Çox illər sonra SSSRİ-də incəsənətin bütün sahələrini istiqamətləndirən Mərkəzi Komitənin manelərinə baxmayaraq, 1969-cu ildə Fərəc Nağıyev "Qaravəlli" ssenarisini Şıxəli Qurbanovun katibliyi dövründə təstiq etməyə nail olmuşdur.
O, afişaları, dəvətnamələri şəxsən tərtib etmişdir. Tamaşada Kos-Kosa rolunun da ifaçısı olmuşdur.
Sonradan "Qaravəlli" tamaşası Bakıda və ətraf rayonlarda dəfələrlə oynanılmışdır. "Qaravəlli" tamaşası Fərəc Nağıyevin ömür kitabının yeni bir səhifəsi olsa da, həyat albomunun son şəkli - gerçəkləşmiş arzusunun rəmzi oldu.
1973-cü ildə çəkiləcək "Yeddi oğul istərəm" filminin ssenarisinə daxil edilmiş Novruz bayramı səhnəsində filmin ssenari müəllifi Yusif Səmədoğlu məhz bu Qaravəllidən istifadə etmişdir.
Dövlət Dram teatrının baş rejissoru, professor Adil İsgəndərovun təklifi ilə "Xırs quldurbasan" tamaşasına satirik şeirlə yazdığı proloq və epiloqda Fərəc Nağıyevin yaşadığı dövrün qayda – qanunlarından narazılığı hiss olunurdu.
1969-1970 ci illərdə Fərəc Nağının təşəbbüsü və böyük səyi nəticəsində Xalq Yaradıcılıq Evi - "Qaravəlli Xalq Teatrı" adlandırılmış və o, bu teatrın direktoru təyin olunmuşdur.
O, "Şeyx Sənan", "Küləklər şəhəri", "Evliykən subay", "Yuri" tamaşalarında baş rollarda çıxış etmiş, "Od gəlini", "Hacı Qara" tamaşaları onun rejissorluğu ilə səhnələşdirilmişdir.
Fərəc Nağı qocalmaqdan heç vaxt qorxmayıb. O, qocalığı mütləq kimi qəbul edib deyib ki, dünya cavanalaşır, biz yaşlaşırıq. Yaşanmış ömür isə nə qocalır, nə də ölür. Qocalıq insana yaraşıq verən yaş dövrüdür. Onun qədrini bilin!
Xatirələrində yazırdı: "Həyat axarının mənası iki məhfumdan ibarətdir – doğum və ölüm. Həyatı zənginləşdirən insandır. Həyatdan köçəndən sonra başqaları onu xatirələrdə yaşadır... Amma necə? Bax, elə əsas məsələ də budur"

## HEKAYƏTİ – XIRS – QULDURBASAN

**Müəllif – Fərəc (Ələsgər) Nağı**
(Xalq folklorundan istifadə olunmuşdur)

### P R O L O Q

İştirakçılar: **Carçı, Mükaliməçi, Meydan bəyi, Nağaraçı, Məzhəkəçilər.**

(Təbil vurulur. Carç ı car çəkir, kəndin adamlarını meydana dəvər edir.)

**Carçı:**

Ehey, ehey!... Ey yatanlar ayılın, kim ki, oyaqdır, buyurun. Toplasın meydana tez, yer tutun, dövrə vurun. Sinni (ağ saqqal), qoca, ortabab, arvad, uşaq, qız, gəlin, tes gəlin. Yubanmayın, tez gəlin.

Oyunçıxardan gəlir. (Hamı yığışır. Personajlar - Bayram, Rəşad, Zalxa, Namaz, Tanrıverdi, dostlar və başqaları bir-birinin yanında əyləşirlər). ("Mehmani" rəqsi zurnada səsləndirilir, məzhəkəçilər meydana daxil olurlar).

**Carçı:**

Çarığı möhkəm edib, şad eləyin halımızı,
Göstərək xəlqimizə sənəti və varımızı,
Hamı cəm oldu daha, başlayın karımızı.

Mükaliməçi, başla görək!

**Mükaliməçi: -** Arif bir işarəniz kifayət. Cənabi məclis bəyiyə, alğış və hörmət!

Məclis bəyi, icazə ver şənlənək,
Xoş söz deyib, xoşhal olub, əylənək.
Tərif edim, bu gözəl camaəti,
Təsvir edim, sərvətini millətin!

**Meydan bəyi:**

Olur, olur, de gəlsin,
Düşmən gözü bərəlsin!

**Mükaliməçi :**

Xahişim var, lap balaca, bir silə,
Rüsxətin ver, nağara gəsin dilə.

(**Meydan bəyi** icazə verir, nağaraçı atlama vurur, hamı çırtma çalır)

Ay bərəkallah, belədi, bax belə,
Qismət olsun, həmişə xoş gün elə,
"Vəsilli", "Dirikko"," Ciritdo"! (hamı təkrar edir). **(Bu sözlər bədahən gəlib)**
Yaxşı vur, bərkdən vur nağaranı,
Paxıllıqdan çıxsın düşmənin canı (bu 2 misranı hamı təkrar edir).

Sevinc, fərəh, duruldubdur halımı,
Nə söyləyim, qırmızımı, alımı,
Müəllim, mühəndis, həkim, alimi
Kamalıyla mat qoyubdur dünyanı
Paxıllıqdan çıxır düşmənin canı. (təkrar)
Qız, oğlanlar bürünmüşdür qumaşa,
Görən deyir, bir də edim tamaşa.
Polad, Toğrul, Anar, Azəri-Paşa,
Dünyaya tanıdıb Azərbaycanı,
Paxıllıqdan çıxır düşmənin canı. (təkrar)

Nizamilər, Füzulilər, varrımdır,

Nəsimilər, Nəimilər canımdır,
Qoç Koroğlum bir igid dastanımdır.
Məhsətiyə, Natəvana tay hanı,
Paxıllıqdan çıxır düşmənin canı. (təkrar)

Nə sirridir, nə gizlidir, nə xəlvət,
O fabriklər, o zavodlar, imarət,
Ustad əliylə yaranıbdır əlbət,
Yaradan əllərdən varıdı, hanı?
Paxıllıqdan çıxır düşmənin canı. (təkrar)

Tamaşa eyləyin Bakı şəhrinə,
Ruh verici, gülümsəyən təhrinə,
Behişt misal, Bulvarına, bəhrinə.
Bu cənnətin çoxdur, şöhrəti, şanı,
Paxıllıqdan çıxır düşmənin canı. (təkrar)

Məclis bəyi, sən bizə yar olginən,
Hamı cəm olub, aşikar olginən,
Səbuhinin xiridarı olginən,
Sözləri düz məharətlə yan-yanı,
Paxıllıqdan, çıxsın düşmənin canı. (təkrar)

**<u>Məclis bəyi:</u>**

Əmman, royan, şəkkəri tudiyan,
Ərəbəyə vurdum təkan, iki fındıq, bir girdəkan.
Belə rəvayət eyləyirlər ki, Mizələr- mirzəsi,
Mirzə Fətəli bir məclis yazmışdı, adı Xırs Qildurbasan.
Vəsfini söyləmək deyildir asan, nəql eyləməkdənsə görmək yaxşıdır.
Gözünüzlə görün, məsləhət budur. Təqdim edim sizə əhli məclisi.
Əvvəla mən.
Mən mahal üzrə tanınmış, qoca divanbəyiyəm,
İndi meydan babası, bunlara Sərdarı mənəm.
Mən mənəm, tuti mənəm, kaman mənəm, tar mənəm.
Aş da mənəm, baş da mənəm, qazanda bozbaş da mənəm.
Çərən-pərən, yaxşı-yaman, hamısı mənəm.
Bax, bu oğlan Bayramdır, mərdü-mərdanə
Tayın, bərabərin doğmayıb, ana
El içində çatıb şöhrətə, sana
İgidlər bir yana, Bayram bir yana,
Ay, igid Bayram xeyli fərasətlidir
Göz dəyməsin, maşallah! (hamı)
Pəhləvandır, xeyli şücaətlidir
Göz dəyməsin, maşallah! (hamı)

El tanıyır bu Pərzadı,
Paklıqda çıxmışdır adı.
Anası qurban boyuna
Tez yetişsin muradına.

A...a...Qurbanın oğlu Tarıverdi bala,
Kölgəsini görcək, çəkilər dala
Qışqıraraq ucadan, ayharay, aman!
Hıqq eləyər, çıxar canı o zaman. (təkrar iki dəfə)

Kürd atına, boz inəyə
Gözü düşdü, ər-arvadın.
Hiylə qurub cavanlara
Söylədilər – "Çıxsın adın!"

Bu kim, bu kim, bu kim, bu kim, (hamı)
Zalxa – namaz, gözü doymaz.
Zalxa – namaz, gözü doymaz! (hamı)

Hekayəti – Xırsidə vəsf edibdir:
Məşəd Qurban Nəcəfi,
Yasovulu, Matveyi,
Həm Orucu, Vəlini,
Həm Sonanı, Kərimi
Bu kim, bu kim, bu kim, bu kim, (hamı)
Mirzələrin- mirzəsi, bizim Mirzə Fətəli!
Mirzələrin- mirzəsi, Səbuhimiz Fətəli!

(Mehmani rəqsinin sədaları altında məzhəkəçilərrəqs edə-edə səhnədən çıxırlar.)

## EPİLOQ

Bunları tədliq etməkçin artislər girmişdi dona.
Endir ayinə pərdəsin məclisimiz yetdi sona!

(Xalq folklorundan istifadə edilmişdir).

**P.S.** Yazını mənə çatdıran, vaxtı ilə atam ilə bir səhnəni bölüşdürən, aktyor Zeynal Kərimə minnətdarlığımı bildirirəm.

## Fərəc - kədərdən sonra gələn sevinc

**A**tam Fərəc Nağı (Nağıyev) sənət fədaisi olub. Onun etdiklərini yada saldıqca, düşünürəm: -Hayıf ki, dünyanı çox tez tərk etdi. Bu gün ona çox ehtiyacım var. Yoxluğunu indi daha artıq hiss edirəm.
**V**axtı ilə söylədikləri bir-bir yadıma düşür. Mənim qədrimi mən öləndən sonra biləcəklər, deyirdi. Bu sözlərin mənasını çox sonralar, arxiv materialları ilə tanış olandan sonra başa düşdüm.
**O**, övladlarına hər zaman dost, qardaş, sirdaş olub. Nəslinin, ailəsinin dərd daşıyıcısı olub. Atam öz aləminə sığmadı. Yazdı, yaratdı, yatmış "Qaravəlli"ni (xalq meydan oyunları)70 ildən sonra oyatdı, «Xırs quldurbasan»a başlanğıc və sönluq (epiloq-proloq), «Spartak» əsərinə isə səhnə həyatı verdi. Şeirləri ilə elə bil Mirzə Ələkbər Sabiri yaddaşlarda təzələdi. Mədəniyyətindən, tərbiyəsindən və savadından pay verdi ətrafdakılara. Mehribanlıq, məhəbbət toxumunu səpdi bizlərə. Aktyor sənəti ilə çoxlarını sevindirdi, rejissorluq istedadı ilə çoxlarını heyrətləndirdi,
**D**anışıq tərzi və səsinin ahəngi ilə çoxlarından fərqlənirdi. Rəsmləri ilə ağ kağız üzərində qoyduğu izlər indi də qorunub, saxlanır. Bir sözlə o, zamanının fenomeni olub.
**O**nun müsbət xüsusiyyətlərini artıq neçə illərdir ki zühura çıxardıqca, sənət dostları, qohumlar, onu sevənlərlə görüşüb söhbətləşdikcə, yeni səhifələr açılır gözümün önündə. Ölümündən 40 il keçsə də, etdiklərini yada salıb, gündəmə gətirməyi vacib saydım. Baxmayaraq ki, o, diri ikən ölü idi. Soyadının, varisliyinin vurduğu zərbə ona ömür boyu od vurub. Düz sözü deməyə, hətta qəlbinin dərinliklərində belə fikirlərini bölüşməyə haqqı yox idi.
**B**unları həyata keçirməyi məqsəd qoydum qarşıma. Bu illər ərzində keçirdiyim tədbirlər, qəzet və jurnallarda dərc etdiyim məqalələr, haqqında paylaşdığım məlumatlar, radio və televiziya ilə çıxışlarım hələ məni qane etməyir.

## Tarixi teatrlar haqqında xatirələrindən

**A**zərbaycanda Sovet Hakimiyyəti qurulandan etibarən əhaliyə mədəni xidmət etmək məqsədilə şəhərdə, kənd və qəsəbələrdə qırmızı guşə, mədəniyyət klubları (Mədəniyyət evləri), kitabxanalar təşkil olunurdu. Elə mədəniyyət ocaqlarına gələnlərin əsasını uzun illər arzusunda olan kasıb kütlə axını təşkil edirdi. Savadsızlığı ləğv etmək məqsədilə kurslar da açılırdı. Savadlanmaq istəyənlər bu Mədəniyyət ocaqlarında təşkil edilən məruzə və mühazirələri dinləyirdi.
**B**urjua sinfindən alınıb xalqa verilən evlərin salon və otaqlarında təşkil olunmuş mədəniyyət klublarının qapıları təbəqədən asılı olmayaraq hamının üzünə açıq idi. gələnlər arasında kişilərdən əlavə qadın və gənclərə rast gəlmək olurdu.
**M**əscidlərdə İslam dininin təziqindən yaxa qurtarıb, istehsalata üz tutanların sayı da çoxalmaqda idi. Bayaqdan dindarların "qondarma söhbətlərinə" qulaq asanlar, yaxalarını bundan qurtarıb, mədəni həyata qədəm qoyurdular.
**A**prel inqilabından əvvəl çümə günlərində və hər hansı bir bayram günlərində göstərilən tamaşalar əhalinin gündəlik məşğələsinə çevrilmişdi. Artıq fitri istedada

malik olan gənclər öz məharətini göstərdikcə, bu istedadların qarşısında aciz olan din xadimləri də öz təbliğatını gücləndirirdi.
**O** zaman Şamaxı yolunda Quba meydanının qarşısında yerləşən "Zəmxanlılar" məscidinə namaz qılan kütlə, Şeyx Qəni axundun dini mühazirələrinə qulaq asan bir qrup ara alverçisi, fırıldaqçı və tüfeylidən ibarət olan İslam mübəlliqləri təbliğat apardıqları vaxtda zamanın qabaqcıl ziyalıları və mədəniyyət xadimləri öz fəaliyyətlərini dayandırmırdılar.
**A**ktyorlardan Əbülhəsən Ananlı, Əhmədiyyə Anatollu və Ələkbər Süheylinin məzhəkəli sözlərinə gülüşən əhalinin səsi çox yerdən eşidilirdi.
**Q**uba meydanında (indiki Füzuli bağı) qurulmuş estrada səhnəsi ətrafında toplaşan qoca və gənclər rəqs edənlərə, müğənnilərə, meyxana deyənlərə tamaşa edirdi. Əhməd Anatollunun söylədiyi : -Götür məni qulluğa tovariş, Düşmüşəm yoxsulluğa tovariş – beyitləri varlıların kin və qəzəbinə səbəb olsa da, yoxsul kütlının qəh-qəhələrinə səbəb olurdu.
**1**921-ci ilin axırlarında Xalq artisti Hacıağa Abasovun təşəbbüsü əsasında təşkil olunlmuş "Azad Təbliğ -Tənqid" teatrının səhnəsində oynanılan bir pərdəli əsərlərin tamaşası göstərilməzdən əvvəl "Hacı Marzın" (Hacı ağa – Mirzə ağa):

Biz buna ümüdvarıq, heç kəs bundan inciməz,
Həqiqəti deyəndə, insan olan inciməz.

**S**az ilə tənqidi xarakterli bu şeiri söyləyərkən, tamaşa salonundan qopan alqış sədaları Bulvarda (Sahil parkı) eşidilirdi.
**B**u zaman din xadimləri də mübarizədən çəkinmirdilər. Hər iki cəbhənin təbliqatçıları mübarizəni artırdıqca, din zəifləyir, azadlıq qələbə çalırdı. Səhnə həvəskarlarının sayı günü-gündən artırdı.
**S**infi mübarizə gücləndikcə, teatrlarda sinfi düşmənləri ifşa etmək və üzlükləri yırtmaq məqsədilə teatr yeni repertuarla çıxış edib, gənclərin mübarizə cəbhəsini qüvvətləndirirdi.
**İ**nqilabadək iki həvəskar bədii dərnəyi olan Bakıda bir neçə il ərzində rus və azərbaycan dillərində bir çox teatrlar: -"Azad tənqid və təbliğ", "Azərbaycan dram teatrı","Erməni dram teatrı", "Fəhlə - gənclər teatrı", "Gənc tamaşaçılar teatrı", rus "Sımi bluza" (canlı qəzet), Azərbaycan "Damğa" miniatyur (canlı qəzet) teatrları təşkil olunur.
**"D**amğa" teatrın təşkilatçısı – Xəlil Hüseynov, rejissor – Yunis Nərimanov; Aktyor heyətinə: (həvəskar aktyorlardan) Qüdrət Kərimov, Abdulla Günəşli, Mir Abdulla Mirinski, Şirvanski, Musa Hacıyev, Sara Derbenskaya, Həqiqət Rzayeva, Hüseyn Rzayev, Şəfiqə Əliyeva, Poqosyan Jenya və **Nağıyev Fərəc** daxil idi.
**A**ktyorluqdan əlavə - **Fərəc Nağıyevə** – səhnəyə tələb olan geyimləri biçib-tikməyi, həmçinin də butafor əşyaları və yüngül dekorları hazırlamaq tapşırılırdı. Daha doğrusu bu onun işindən gəlirdi. Aldığı əmək haqqını bu yolda xərcləyirdi. Hətta bunun müqabilində evdə söz-söhbət də düşürdü. Çünki ailəyə maddi ziyan dəyirdi.
**"D**amğa" teatrı üçün əsər yazan müəlliflərdən: C.Cabbarlı – "Kurorta gedir"; Mürşüd Səttar oğlu – "Lotu Məlik", "Alverçilər"; Məmməd Əbülfəz - "Savadsızlıq"; Əhməd Qəmərli – "Orucluq", "İftara"; Əliağa Vahid – "Küçə baqqalı", "Damğa meyxanası" və "Orucluq mahnısı".

**S**infi böhran artıq kənd və rayonları bürümüşdir. Din xadimləri kənd qolçomaqları ilə birləşirdi.
**1**929-cu ildə qolçomaqlardan alınan torpaqlardan yoxsul və ortabab kəndlilərin istifadə etmək məqsədilə SSSRİ XKS tərəfindən qəbul olunmuş dekret təsdiq olunmuşdu. Son günlərini yaşayan kənd qolçamaqlarına vurulan bu zərbə onları narahat etməyə bilməzdi. Bunu nəzərə alaraq bir çox partiya və fəhlə nümayəndələrini regionlara göndərməklə yanaşı Azərbaycan Ali Siyasi Maarif İdarəsi (ASMİ) orada təbliğatı gücləndirmək məqsədilə yeni "Səyyar Kəndli Teatrı" təşkil edilir. Rejissoru Yunis Nərimanov, rejissor müavini **Fərəc Nağıyev** təyin edilir. Yaxşı təşkilatçılıq xüsusiyyətləri ilə fərqlənən Abbas Sadıqov sonralar Bakıda Oktyabr r-nun İK Sədri vəzifəsində, daha sonra isə Bakı Maliyyə şöbəsində işləmişdir.
**A**ktyor heyəti: Şəfiqə Əliyeva, Sara Derbenskaya,Töhrə Zeynalova, Mirmahmud Kazımovski, Əhməd Qəmərlinski olub. Əhmədin bir neçə ləğəbi olub–Ə. Fəxri, Ə. Hacızadə, Ə. Məlikov. Onlar həmçinin də "Tənqid- Təbliğ" teatrının aktyorları hesab edilirdi.
**M**irmahmud Kazımovskinin xoş rəftarı, sədaqətli dostluğu dillər əzbəri olmuşdur. Gəncliyində qıvrım saçı, dolğun sifətilə başqalarından fərqlənirdi. Yaşa dolduqca vüqarını, qürurunu pozmayırdı. Məzəli danışıqları ilə bərabər bəzən inqilabdan əvvəlki xatirələrindən də söz açardı. O, nə qədər təvəzökar idisə, bir o qədər də baməzə idi. Təkiyəyi kəlamı (tez-tez dediyi) "Bəradır aki məsmu deyil" (ərəbcə eşidilmiş, eşidilib bəyənilmiş) kəlmələrini yeri gələndə deyib, dodaq büzərdi. Hər hansı bir fikir haqqında rəyini çox düşünüb, sonra cavab verərdi.

## Ağa Musa Nağıyevin nəsli haqında məlumat

## I. Ağa Musa Nağıyev Hacı Nağı oğlu – (1849-1919)

- Həyat yoldaşı - Ümmə Səlmə Kərbəlayi Cəfər qızı (1846 – 1923)

Övladları:

1.Ümmül Banu – qızı (1874-1900). Həyat yoldaşı – Şəmsi Əsədullayevin oğlu – Mirzə Əsədullayev. Övladı Ümmül Banu (1900-1992). Doğuş zamanı anası dünyasını dəyişdiyindən ona bu adı veriblər. Nəvə Ümmül Banu **A.M.Nağıyevin qız nəvəsi, Ş.Əsədullayevin oğul nəvəsi** sayılıb.19 yaşından Fransaya mühacirət olub, orada yaşayıb, ədəbi yaradıcılıq ilə məşğul olub, yazıçı kimi **Banin təxəllüsü** ilə məşhurlaşıb. 18 yaşında Bakıda yaşca çox böyük olan Balabəy Qocayev ilə ailə həyatı qurub, qısa müddətdə ondan ondan ayrılıb. Fransada yaşayarkən ailə qurmayıb, övladı olmayıb.

2. A.M.Nağıyevin və Ümmə Səlmənin oğlu - **İsmayıl (1875-1902). Ailəli olmayıb**, 27 yaşında xəstəlikdən vəfat edib.

- Ağa Musanın özündən <u>çox kiçik olan,</u> kəbinsiz bir qadını da olub – gürcü yəhudisi Yelizaveta Qriqoryevna Cankorova (<u>1889 – 1968), </u>( Ağa Musa ona gah Liza, gah da Amal deyə müraciət edib) övladı olmayıb.

II. **A.M.Nağıyevin qardaşları:**
1. Zərbalı Nağıyev Hacı Nağı oğlu – (1857 – vəfatı haqqında məlumat yoxdur).
2. Ağa Yusif Nağıyev Hacı Nağı oğlu (1867- 1909). Həyat yoldaşı Şəmsi Əsədullayevin qızı - Xədicə xanım Əsədullayeva, bir qız və bir oğlan övladları olub. Yusif erkən vəfat edib. Xədicə xanımı Ağa Əlinin oğlu Ağa Tağıya ərə veriblər **(III-2-yə bax!).**

III. **Ağa Əli Nağıyev Hacı Nağı oğlu** – (!855 - 1932), Həyat yoldaşı Məşədi Balacaxanım ( 1865- 1952) –övladları:
1. Haman Nağıyev Ağa Əli oğlu –(1889- 1950) Ailəsi haqda məlumat yoxdur.
2. Ağa Tağı Nağıyev Ağa Əli oğlu (1881-1933) – Xədicə Əsədullayevanın 2-ci həyat yoldaşı. Onların Murad adında övladı olub –Murad (1910-1943) Müharibədə həlak olub.
3. Zeynalabdin Nağıyev Ağa Əli oğlu (1883-1952). Həyat yoldaşı milliyyətcə polyak olan Nina Antonovna – övladları olmayıb.
4. Abdulla Nağıyev Ağa Əli oğlu (1885-1949). Həyat yoldaşı Məryəm. (başqa məlumat yoxdur).

5. **Əliəsgər Nağıyev Ağa Əli oğlu (Fərəc) –(1903 -1973)**
(haqqında əlavə – IV bax!)
6. Həmid Nağıyev Ağa Əli oğlu 1906-1941 ailəv olmayıb, müharibədə həlak olub.

Qısa şərh: - **Əliəsgər Nağıyev** bütün sənədlərində (Dövlət Arxiv "Ədəbiyyat və İncəsənət" 475 fondu) **Fərəc Nağıyev kimi tanınıb.** Səbəb: – Ağa Musa oğlu İsmayılın vəfatıdan sonra, qardaşı Ağa Əlinin 5-ci övladını oğulluğa götürüb və ona Fərəc adı verib.

**IV. Əliəsgər -Fərəcin övladları:**
1. Rauf Nağıyev (1930 -1999)
**2. Siolmaz Nağıyeva – Ağayeva 1931**
3. Ağa Əli Nağıyev (1934-1983)
4. Çingiz Nağıyev (1938-1993)
**5. Dilarə Nağıyeva – Muxtarova 1940**

## Ağa Musa Nağiyevin ölümündən sonra əmlak bölgüsü

Maraqlı faktdır ki, Ağa Musanın əmlakının bölgüsünə aid məhkməyə baxış vəfatının 4-cü günü başlamışdır.
Məhkəmə sənədlərindən məlum olur ki, Ağa Musa Nağıyevin özündən sonra qoyduğu müxtəlif daşınar və daşınmaz əmlakının cəmi 200.000 rubl qiymətləndirilib.

Məhkəməni Dairə Məhkəməsi üzrə Fəxri hakim – Ağa Hüseyn Tağıyev aparıb. Varisi A.M.Nağıyevin həyat yoldaşı Ümma Səlmə Kərbəlayi Cəfər qızı hesab edilib.O, vəfat edənini əmlakına vərəsəlik hüququnu almaq məqsədilə 1919 –cu ilin martın 8-də məhkəməyə müraciət edib. Müsəlman qanunlarına - "İslam " dininə əsasən vəfat edənin dul qalmış həyat yoldaşına bütün əmlakın 8-də 1 hissəsi, 8-də 7 hissəsi qeyri bir kəslər ortaya çıxarsa, qalan 32-də 7 hissəsi isə bütün vərəsələrə çatır.
Sənədlərdən məlum olur ki, məhkəmə zamanı Ağa Musanın əmlakına çoxları iddialı olub: Bakının Dairə Məhkəməsinin (29 aprel 1919-cu il) qərarına əsasən Ümma Səlmə Kərbəlayi Cəfər qızının varisliyi sübut olunmuşdur. Əvvəlcə Ümma Səlmə başqa varislərin olmadığı haqda məhkəməyə dəlillər təqdim etsə də, 1919 –cu il dekabrın 2-də ikinci bir şəxs simasında Yelizaveta Qriqoryevna - Ağa Musanın qadını olaraq vərəsəlik hüquqlarının müdafiə olunması haqda məhkəməyə müraciət etmişdir.Təqdim etdiyi sənədlərə əsasən milliyyətcə gürcü yəhudisi və Bəhayi dininə sitayiş edən Yelizaveta Qriqoryevna Cankorova (Starapoliseyskaya küçəsi 14-də yaşayıb) - 30 il, yəni 1889 –cu ildən 1919-cu ilədək Ağa Musa Nağıyev ilə bir yerdə yaşayıb, yalnız 1907-ci ildə Bəhayi Cəmiyyəti onların birgə kəbinini kəsib.
Ağa Musanın qardaşı Ağa Əli də məhkəməyə müraciət edib, Ağa Musanın vəfatından sonra qalmış daşınar və daşınmaz əmlakına qanunu haqqını almağa iddialı olduğunu bildirmişdir.
Ağa Musanın qardaşı Yusif 1865 ci il təvəllüdlü, Şəmsi Əsədullayevin qızı Xədicə xanım ilə birgə nigahlarından Rüqiyə adlı qızı və Sadıx adlı oğlu olmuşdur. Yusif 34 yaşında (23 may 1899-cu ildə) vəfat edərkən Rüqiyə iki yaşında, Sadıx isə iki aylıq olub. Ağa Musa uşaqları himayəsinə götürmiüşdür. Buna bir səbəb də o idi ki, həmin qıza analarının adını vermişdilər.
Mənkəmə zamanı aşkar edilmişdir ki, A.M.Nağıyev dünyasını dəyişənədək heç bir vəsiyyətnamə qoymayıb.
Yelizaveta Qriqoryevna Ağa Musa ilə kəbini haqda məhkəməyə təqdim etdiyi arayışdan aydın olur ki, 28 mart 1907-ci ildə onların arasında "Bəhayi qanununa" əsasən şahidlərin iştirakı ilə molla Həci Qələndarın kəsdiyi kəbinə görə o, vəfat edənin qanunu arvadı sayılır. Bu baxımdan bəhayi qanununa əsasən vərəsəliyin 390-nın 2520 -yə nisbəti Yelizavetaya aiddir.
Məhkəmə bu kəbini sənəd kimi qəbul etmir. Buna baxmayaraq, Dairə məhkəməsi hər iki qadının eyni hüquqa malik olub, ümumilikdə vərəsəliyin 16-da bir hissəsinin onlara düşdüyünü qərara almışdır.
Bir ildən çox sürən məhkəmə (02.03. 1920-ci ilədə) çıxardığı Qərara görə: - Kəbin sənədinə əsasən və boşanmaları haqda heç bir sənəd olmadığı nəzərə alınaraq, Ümma Səlmə həyat yoldaşı Ağa Musadan sonra vərəsəlik hüququna malikdir. Yelizaveta Qriqoryevna da həyat yoldaşı olaraq, bu hüququ qazanmışdır. Beləliklə, hər iki həyat yoldaşına vərəsəliyin 16-da 1 hissəsi; nəvəsinə 32-də 7 hissəsi təsdiq edilmiş, qalanlarının vərəsəlik iddiaları isə rədd edilmişdir. Qeyd etmək lazımdır ki, məhkəmə vərəsəlik hüquqlarını müsəlman qanununa uyğun təsdiq etmişdir.
Arxiv sənədlərində Ağa Musanın vəfatından sonra gedən "Əmlak bölgüsü" məhkəməsində bir neçə protokollara rast gəlmək olur. Belə ki, Şəriət

arayışlarından görünür ki, Ağa Musa "Hacı Qasımbəy" məscidinə xidmət edib. Bir ildən artıq gedən məhkəmə, iş boyu Ağa Musa Nağıyevin Bəhayi Cəmiyyətinin üzvü olduğu, "Bəhayi " dininə itaət etməsi vurğulanıbsa da, eynilə dəfələrlə onun müsəlman olduğunu xüsusi vurğulanmışdır. Arxiv sənədlərindən göründüyü kimi onun ölümü və dəfni müsəlman adəti üzrə keçirilib.
Dəfələrlə məhkəmənin gedişatı zamanı bəhayi kəbinli olduğuna görə Yelizaveta Qriqoryevna vərəsə hesab edilməyib. Belə ki, Ümmə Səlmənin məhkəməyə təqdim etdiyi Şəriət sənədlərindən aydın olur ki, "Bəhayi" dininin İslam dininə aidəti yoxdur. Bəhayilərin kəsdiyi kəbin müsəlman şəriətində qəbul edilmir. Əyər vəfat edənin müsəlman arvadı yoxsa, bu halda da bəhayi qadını vərəsəlikdən məhrum olur. Bu zaman hətta bəhayi vərəsələri də vərəsəlikdən məhrum olur.
Sonda arayışda bildirilir ki, Bəhayi "Ruhaniə" Cəmiyyətinin kəbin kəsməyə və bu haqda arayış verməyə ixtiyarı yoxdur. Bunu təsdiqləmək Dölətin səlahiyyətindədir.
Və Dövlətin qərarına əsasən Yelizaveta Qriqoryevna Cankorova bu bölgüyə şərik çıxıb, əmlakın 16-da1 hissəsinə nail olur.

## ŞƏCƏRƏ UĞRUNDA ÇIRPINAN KÖNÜL

***İbadət etmək və günahdan uzaq olmaq,***
***vacib və daha vacib sayılır.***
***Qiyamət və ölüm, yaxşı və daha yaxşıdır.***
***Dünya və dünyadan yapışmaq, təəccüblü və daha təəccüblüdir.***
***Qəbr və qəbrə əli boş getmək, çətin və daha çətindir!Məhəmməd Peyqəmbər***

Daima özümə qarşı tələbkar olub ömrümü axtarışlara həsr etmişəm. Bu yolda büdrəsəm də, iradəm mənə kömək olub. Gördüyüm işlərin əvvəlində Ağa Musanın "qəbir problemi" dayanırdı.

Aldığım bəhrələri bir ömrə zəngin izlərin saldığı naxışlar kimi diqqətə çatdırdıqca, fərəhim artır.

Maneələri dəf edərək, ağıl və idrakla bağlı qapıların açılmasına doğru qətiyyətli addımlar atmağım bu gün diqqət mərkəzindədir. Zaman məsafəsində qazandığım nailiyyətlər vətənpərvərlik hisslərimdən, humanizliyimdən, incə, nəcib duyğularımdan gələn əməllərimdir.

Xeyriyyəçilik prinsiplərimlə tanınıb, insanlara maddi və mənəvi dayaq olmağım ürəyimin genişliyindən, ətrafımda olan insanlara sevgi hisslərimi aşılaya bildiyimdən irəli gəlir. Xalq üçün yaşanan ömrün davamçısı olub bu yolda məsuliyyət və qətiyyət sərf etmişəm. Qazandığım mükafatlara məhz bunun müqabilində nail olmuşam.

Məlum səbəbdən başqa şəhərdə dünyaya gəldiyimə baxmayaraq, milli ənənələri, azərbaycançılıq meyillərini daxili dünyamda yaşadıb, babamın yolunun

davamçısı olaraq, onun qoyduğu amala, tutduğu həyat yolunun cığırlarını addamağa çalışıram. Bu yolda etdiklərimdən və eləcə də ailə tərbiyəmdən irəli gələrək cəmiyyətdə nüfuz qazanmışam.

XIX əsrin sonu XX əsrin əvvəllərində qurub yaradan Bakı milyonçusu, xeyriyyəçi, məşhur neft kralı Ağa Musa Nağıyevin nəslindən olduğumla fəxr edirəm.

40 ildən artıq çalışdığım əmək fəaliyyəti dövründə gənc kadrların seçimində əməyim az olmayıb.

Son 20 ildə fəaliyyətim Ağa Musa Nağıyevin həyatını, xeyriyyəçilik və ictimai fəaliyyətini, acı sürgünlük taleyi yaşayan oğulluğu (qardaşı oğlu) – atam Fərəc Nağıyevin incəsənət sahəsindəki xidmətlərini araşdırmağa həsr etmişəm.

Torpağına, millətinə bağlı olan Ağa Musa Nağıyevin həyat və fəaliyyətinə aid faktlar və xatirələr əsasında kitablar yazmaqla onların borcundan azacıqda olsa, çıxmışam.

Bu sahədə əməyim ölkə prezidenti Cənab İlham Əliyev tərəfindən və eləcə də ictimaiyyət tərəfindən qiymətləndirib.

İnanıram ki, kitabları vərəqlədikcə Ağa Musa Nağıyevin saysız-hesabsız möhtəşəm tikililərinin, maariflənməyə və səhiyyənin inkişafına yönəltdiyi işlərinin, hətta bolşeviklər tərəfindən oğurlanarkən pullarını göyə sovurmayan anların şahidi olacaq; İmkansızlara əl tutmasının, vəfatının dördüncü günündə əmlakının qohumları arasında bölüşdürməsi sənədləri ilə tanış olduqca – onun insani keyfiyyətlərini qiymətləndirib, hər biriniz ürəyinizdə Ağa Musa Nağıyevə xüsusi yer ayıracağınıza əminəm.

"A.M.Nağıyevin xeyriyyəçilik və ictimai fəaliyəti"nə həsr etdiyim elmi işimin bu gün diqqət mərkəzində olmasından dürur duyuram.

Bu baxımdan Ağa Musa Nağıyevin Azərbaycan neft sənayesinin inkişafında xidmətlərinin tədbiq etməklə həm tarixin qaranlıq səhifəsinə həqiqət işığı salmaq baxımından, həm də bu insanın xeyirxah əməllərin qarşısında heç olmasa mənəvi borcu ödədiyimi hesab edirəm.

Gənclərin milli vətənpərvərlik tərbiyəsində fəal iştirakıma görə Ağsaqqallar Şurasının Sədr müavini pofessor Əli Həsənovun "Vətənə Xidmət" Fəxri diplomu ilə təltif edilmişəm. Mükafatlarım sırasında bu diplom hələlik axarıncıdır.

## Milyonçunun ictimai fəaliyyəti

Milyonçunun ictimai fəaliyyətini 1992-ci ildən gündəmə gətirirəm. Nəvə nigarançılığı ömür payıma düşdüyündən, düşündüm ki, öhdəmə götürdüyüm bu yükü sona qədər daşımalıyam. Ağa Musa Nağıyevin hansı yollarla milyonlara çatması böyük sual altında olub, 11 yaşından, fəqərə sütunu hələ tam bərkiməmiş belində daşıdığı palanın ağırlığının 1 pud (16 kq) olduğu bu vaxtaqək heç kəsə bəlli deyildi.

Bu yönümdə fəaliyyətə başladığım vaxtdan, babam Ağa Musa Nağıyevin adını gündəmə gətirməyi qarşıma məqsəd qoyub, milyonçunun xalq üçün etdiklərini araşdırmaqla məşğulam.

Neft milyonçusu Ağa Musa və 22 il soyadının sürgünü olan yeganə vərəsəsi, oğlu Fərəc Nağıyevlərin qaranlıq talelərinə işıq saçıb, əldə etdiyim nailiyyətləri işıqlandırıram.

Arxivdə əldə etdiyim çox maraqlı sənədlərdən bəlli oldu ki, o zaman Bakıda bir çox xeyriyyə təşkilatları və maarifpərvər qüvvələr birləşərək "Bakı gecələri" adı altında müxtəlif xeyriyyə tədbirləri keçiriblər. Ağa Musa Nağıyevin fəaliyyətinə dair və digər milli dəyərləri təqdim etmə mərasimlərini keçirərkən, bu ənənəni davam etdirmək qərarına gəldim.

Vətənə, xalqına və milli dövlətçiliyimizin inkişafına böyük məhəbbət bəsləyən Ağa Musa, Azərbaycanın tarixi salnaməsində dərin iz buraxmışdır.

Ağa Musa Nağıyevin xalqına göstərdiyi xidmətlərini yaşatmaq məqsədilə Azərbaycan televiziyası Moskva kanallarının sifarişilə Ağa Musa Nağıyevin zaman məsafəsində qazandığı nailiyyətlərdən, vətənpərlik hisslərindən, humanistliyindən, incə, nəcib duyğularından bəhs edən telefilmlər çəkib. Bu işi eləcə də İctimai və ANS televizia kanalları, İnter Az, Güney Azərbaycan və Qazaxstan televiziya kanalları həyatakeçirib də görüb; Hər il anım günündə Ağa Musa Nağıyevin həyatından və bu yolda etdiklərimdən bəhs edən video çarxlar hazırlyıb, diqqətlərə çatdırıram.

Bütün bu görüntülər tamaşaçını Ağa Musa Nağıyevin saysız-hesbsız möhtəşəm tikililərinin, maariflənməyə və səhiyyənin inkişafına yönəltdiyi işlərinin, hətta bolşeviklər tərəfindən oğurlanarkən pullarını göyə sovurmayan anların şahidinə çevirib, yüzlərlə qəzet və jurnallarda çap olunan məqalələr, habelə yeni çapdan çıxan ensiklopediyalarda haqqında tariximizi yaşatmaq baxımından əks edən bioqrafik şərhlərlə tanış edir. Belə şəxsiyyətlərin fəaliyyətini öyrənib yaddaşlara köçürməy əslində günümüzün reallığıdır.

Beynəlxalq Sülh Federasiyası Ağa Musa Nağıyevin adının əbədiləşdirilməsi sahəsindəki fəaliyyətimi nəzərə alaraq, Ağa Musa Nağıyevi, eləcə də məni **"Sülh Səfiri" Diplomları** ilə təltif etdiyi yeganə haldır.

## PETRBURQ TOPLUSU
## "RUSİYA imperiyasının fabrik-zavod müəssisələri"

XX əsrin əvvəllərində Ağa Musa Nağıyevin əmlakı təkcə Şimali Azərbaycan deyil, Qafqaz və bütövlükdə Rusiya imperiyasının iqtisadi həyatında seçilirdi. Bu haqda Peterburqda (Petroqradda) çap olunan «Rusiya imperiyasının fabrik-zavod müəssisələri» adlı topluda onun müəssisələri haqqında dəqiq və qiymətli məlumatlar verilir.

1909-cu ildə Z.K.Yezioranskinin tərtib etdiyi və çap olunmuş (A 385 saylı) məlumatında göstərilir:

- 1887-ci ildə əsası qoyulmuş «Musa Nağıyev» neft firmasının neft mədənləri Bakı, Balaxanı, Sabunçu və Ramanada olub (teleqraf ünvanı: Bakı, Musa Nağıyev).

- Ümumi gücü 560 a. g. olan 16 buxar maşını;
- Quyuların sayı 42; onlardan 19-u işləkdir;
- İllik hasilatı 12286.460 mld.

Neftayırma zavodu barəsində aşağıdakı məlumatlar verilir:

- Zavodun əsası 1898-ci ildə qoyulub (ünvaı: Sahil (Naberejnaya);
- Zavodda 308 a. g. olan 10 buxar maşını; fəhlələrin sayı – 60 nəfər olub,
- İstehsalı: - 3.839.100 pud distillə edilmiş kerosin;
  - 3.769.100 pud təmizlənmiş kerosin;
  - 6.918000 pud neft qalıqları;
  413000 pud qazolin.

Cəmi 12 mln. puddan çox hasilat və 15 mln. pud emal-istehsal olunub.

- 1887-ci ildə əsası qoyulmuş «Musa Nağıyev» neft-mədən firması, firmanın neft mədənləri və neftayırma zavodu olub;
- Mədənləri: - Bakı şəhərində, Sabunçuda 13 və23 saylı sahələr; Ramanada 107saylı sahə; Suraxanıda 13 saylı sahə; Binəqədidə 13 saylı sahə (ünvan: Bakı şəhəri, Kolyubakinski və Mariinski küçələri 49) olub.
- Ümumi gücü 1890 a.g.- 35 buxar, 7 qaz və 1 neft mühərriki; Quyularının sayı: - cəmi 65;

Çalışan fəhlələrin sayı – 512 nəfər olub;

- Hasil olunan neftin miqdarı - 8.060.927 pud olub.

Neft emalı zavodu haqqında:

- Əsası 1898-ci ildə qoyulmuş «Nağıyev Musa» neftayırma zavodunda (Bakı ş., Qara şəhər, 2-ci Zavod küçəsi) buxar və benzin mühərrikli maşınlarının ümumi gücü - 150 a. g. olub;
- Buxar qazanları - 9 (4527 kv. pud);
- Fəhlələrinin sayı - 60 nəfər;
- İstehsalı: - təmizlənmiş kerosin - 4.861.238 pud; neft qalıqları - 9.914894 pud; İllik istehsalın ümumi həcmi 5000.000 rubl təşkil edib.

Ağa Musanın iqtisadi cəhətdən qüdrəti həmin rəqəmlərdə aydın görünür.

## SOCAR jurnalının yubiley nömrəsində

## Neft sənayesi, milyonçu, xeyriyyəçi Ağa Musa Nağıyev

**O, istehsalın təkmilləşdirilməsi məsələsini unutmurdu. Başqa neft sənayeçilərindən nümunə götürən A.M. Nağıyev Qara şəhərdə əvvəlcə kiçik neft emalı zavodu tikdirib, sonradan onu genişləndirir. Bir müddət sonra Xəzərdə onun ilk gəmisi peyda olur.**

**Rəsmi məlumatlara görə o illərdə A.M.Nağıyevin Balaxanı, Ramana və Sabunçu kəndlərindəki neft mədənlərində texniki baxımdan yaxşı təchiz edilmiş 45 məhsuldar, həm də cquyu var idi və orada 800-dən artıq fəhlə işləyib. Uğurun əldə edilməsində şirkətin müdiri Fətulla bəy Rüstəmbəyovun və mədənlərin rəhbəri mühəndis-geoloq Hüseyn xan Talışxanovun da rolu olub.**

**Artıq 1908-ci ildə Ağa Musa Nağıyev 12.328.300 pud xam neft hasil etməklə rekord səviyyə göstərmişdi. Beş il ərzində, 1913-cü ilədək isə onun müəssisələri artıq ən iri Azərbaycan şirkətlərinin ilk onluğuna daxil olmuş, sonradan müxtəlif illərdə 6-7-ci yerləri tutmuşdur. Neftin hesabına qısa müddətdə varlanan A.M. Nağıyev sərmayəni daşınmaz əmlaka yatırıb. O, bu sahənin az gəlirli olduğunu bilsə da, amma etibarlı qaynaq sayıb.**
Tikintiyə olan meylini atasının vəsiyyəti ilə bağlayıb Ağa Musa Nağıyev.

A.M.NAĞIYEVİN VƏFATININ 94 İLİNƏ HAZIRLANMIŞ

### ÇARXIN MƏTNİ

**A**ğa Musa! Hər zaman **i**nanırdım ki, vaxt gələcək səni olduğun kimi qəbul edəcəklər. Yarandığından bir əsr yarımdan çox, yoxluğundan bir əsrə yaxın keçsə də, bu belə də oldu –deyir Dilarə xanım!

**B**u böyük zaman kəsiyində sənin xeyriyxah işlərinə nöqtəni də o qoydu. Sənin etdiklərinə nəfəs verdi, gördüyün işlərini kitab kimi vərəqlədi. Sənin fəaliyyətini işıqlandırdıqca Dilarə xanım hörmət qazandı. Buna görə o, sənə hər zaman minnətdar olub, ruhun qarşısında baş əyir.

Düz deyiblər ki, dünya müdrüklük üzərində qurulub, o bütün çətinliklərə dözür. Zamana nə var ki, gözünü yumub – açıb görürsən ki, illər quş qanadında bir yel kimi səni bu günə çatdırır. Amma ötən günləri çoxumuz layiqincə yaşamışıqmı? Bax, əsl məsələ də budur!

Taleyini özü də hiss etmədən məhz tarixə - Bakı milyonçusu, babası Ağa Musa və atası Fərəc Nağıyevlərin talesiz talelərinə bağlayaraq, bu günədək görünməyən tərəflərini, istedad və bilgisini aləmə car çəkmək, etdikləri əməllərindən, gördükləri işlərdən zövq almaq qisməti oldu alın yazısı Dilarə xanımın.

Mənalı bir ömür yaşamaq, müqəddəs peşə sahibi olmaq doğrudan da böyük səadətdir. Elə bu səbəbdən ailəsinə, atasına və babasına bağlanmaq payı onun ömrünə düşüb. Həyatın çətinlikləri çox vaxt onu sarsıtsa da, bu sınaqlardan hər zaman qalib çıxır.

Beləcə Dilarə xanım Ağa Musa və Fərəc Nağıyevlərin tablosunu fırçasız yarada bildi.

Yüksək əxlaqi keyfiyyətlərilə həyatda yerini tutmuş, yaddaşlarda yaşamaqla özünə əbədi iz qoymuş neft milyonçusu Ağa Musa Nağıyev Bakının 11 milyonçularından birincisi olub.

Dilarə xanım son 20 ildə Ağa Musa Nağıyevin həyatını, xeyriyyəçilik və ictimai fəaliyyətini, eləcə də 22 illik acı sürgünlük taleyi yaşayan atası Fərəc Nağıyevin incəsənət sahəsindəki xidmətlərini araşdırmağa həsr edib. Torpağına, millətinə bağlı olan Ağa Musa Nağıyevin həyat və fəaliyyətinə aid faktlar və xatirələr əsasında: "Xalq üçün ömrünü şam kimi əridən...", "Ömrün səhifələri" və "Zamanın sorağında" adlı kitablarını və eləcə də elmi monoqrafiyasını yazıb. Adını daşıyan "Milli Dəyərlərin Qorunması"Təşkilatını yaradıb, saytını açmaqla, babasının və atasının borcundan az da olsa çıxdığını hesab edir.

Dilarə xanımın yazdığı kitablar insan taleyinə naxış salan illərin məcmuəsi əsasında yaranıb. Bu sətirlərdə ömür kitabının ən yadda qalan və unudulmaz səhifələri əks olub.

Yaranan hər bir nümunədə Azərbaycanın dövlətçilik prinsipləri, onun coğrafiyası, tarixi, tanınmış simaların portret cizgiləri əsas xətt olaraq təqdim olur.

Neçə illərdir ki, eşitdiklərinizdən onun insani keyfiyyətlərini qiymətləndirib, hər birinizin ürəyində Ağa Musa Nağıyevə yer ayıracağınıza əminliyini bildirir Dilarə xanım.

Mədənlərindən gələn gəlir hesabına saya-hesaba gəlməz binalar tikdirməsi, "Qaraşəhər"də neft emalı zavodunu salması, 49 yaşlı Ağa Musanı igidlik, mərdlik səltənətinin məşhur milyonçusuna çevirdi.

Sovet təbliğatının tədbiqini qadağan edən mövzulardan biri də Azərbaycanda neft milyonçularının, onların xeyriyyəçilik hərəkatında rolunun öyrənilməsi, millətin görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini araşdırmaq olmuşdur. Uzun illiklər boyunca onların üzərinə «burjua» damğası vurularaq adlarını ləkələməyə çalışmışlar.

Ancaq XX əsrin əvvəllərindən milli oyanışın artdığı şəraitdə neftxudalar - mesenatlar millətin yaddaşında elə dərin izlər buraxmış, öz xidmətlərilə millət qarşısında qazandıqları şöhrətin nətucəsidir ki, onları tarixdən silmək və ya ləkələmək sovet ideologiyasına nəsib olmadı.

Kimdir Ağa Musa? Onun haqqında nə bilirik? Gələcək nəsil nə biləcək? Bu vaxtadək onun şəxsi keyfiyyətlərindən çox az bilib, gördüyü böyük işlər haqqında düşünməmişik.

1900-cü ildə Binəqədi mədənlərində hasil edilən 10 mln. pud neftin 4-5 il ərzində 13 milyona çatması və eləcədə mədənlərdə 800 fəhlənin çalışmasına, çoxsaylı mülklərin sahibkarı olmaq, məhz Ağa Musaya nəsib olub.

Bu izlər tariximizin bir parçası, yaşanılan illərin əks-sədasıdır desək, fikrimizdə yanılmarıq. Çünki neçə əsrlik tariximiz daş kitabələr vasitəsilə bizlərə əxz olunmaqdadır.

Nəvə Dilarə İtirdiklərinin çoxunu ictimai fəaliyyətində, yazdıqlarında, ailə çərçivəsinin istisində tapdığını hər zaman etiraf edir .

Var dövlətini şəxsi mənafeinin reallaşmasına deyil, vətənin- xalqın rifahı uğrunda işlərin görülməsinə sərf etməklə bu günün tarixinə dərin iz salmışdır bu böyük xeyriyyəçi.

Ağa Musa Nağıyev nəslinin davamçısı olmaqla fəxr edən Dilarə xanımın bəxt, tale, qismət deyilən anlamlara inanmayanlara bir məsləhəti var- Neft milyonçusu Ağa Musa Nağıyevin həyat tarixçəsinə nəzər salsınlar.

Çünki şaxtanın bıçaq kimi sümüyə işlədiyi qış axşamlarının birində dünyaya gələn Ağa Musanın sonradan başına gələn hadisələrin qarşısını almağa hətta milyonları da çarə edə bilməyəcək. Bu, həmin gün onun alnına yazılmış tale qisməti idi.

Xeyirxahlığı və ziyalı təfəkkürü ilə zəmanəsinin mesenatları arasında özünə məxsus yer tutanlardan olan və zamanla böyüyən insan - Ağa Musa Bakının simasına çevrildi.

Keçmişə hörmətlə yanaşmaq, Azərbaycanın tarixini, onun dəyərli səhifələrini övladlarımıza, gələcək nəslə ötürmək hər birimizin borcudur.

Nəvə Dilarənin bu mövzuya müraciət etməsi, zaman məsafəsində qazandığı nailiyətlər, vətənpərlik hisslərindən, humanizmindən, nəcib duyğularından irəli gəlir.

Əldə etdiyi arxiv materiallarından Vətən övladının, Bakı milyonçusunun işıqlı surəti boylanır. Tikdirdiyi binaların sayını sıralayan rəqəmlərin arxasında bu fenomen şəxsiyyətin dəyərli xidmətləri dayanır.

Məqsəd və arzusu 100 bina tikmək olan Ağa Musanın arzusuna çatmasına tikmədiyi iki bina qaldı.

Dilarə xanımı bu arzunun reallaşması çox düşündürür.

Bu gün o, “98 üstəgəl 2” formulun müəllifidir.

## Hər dövranın bir gərdişi var

Arxiv materiallarına sitaiş edərkən Ağa Musa Nağıyevin xəsis deyil, qənaətcil olduğuna şübhə qalmır. Pulunu hara və nəyə xərcləməyi dəqiq hesablaya bilib.

Milyonçunun nəvəsi Dilarə xanım ilə söhbət zamanı təqdim etdiyi sənədlərdən bir Vətən övladının, unudulmaz Bakı milyonçusunun işıqlı obrazı boylanır. Töhfələrinin sayını sıralayan rəqəmlərin, faktların arxasında fenomen bir şəxsiyyətin dəyərli xidmətləri dayanır.

Əgər Ağa Musa Nağıyev tərəfindən tikilən və Bakı memarlığının qızıl fonduna daxil olan binalarını saysaq, uzun bir siyahı əmələ gələr. Bakıya klassikalıq gətirən, onun hüsnünə Qərb və Şərq memarlıq koloritini bəxş edən binalar.

Bakının ilk neftxudalarından olan mesenat, milyonçu Ağa Musa Nağıyev böyük səxavətlə imkansız ailələrin dayağı olub.

Dilarə Nağıyeva təəssüflə söyləyir: "Şükür, indi Hacı Zeynalabdin Tağıyev barəsində ədalət bərpa olunub, amma hələ də Ağa Musa Nağıyev haqqında bunu tamamilə demək mümkün deyil".

Dilarə Nağıyeva böyük cəfakeşlik və övlad yanğısı ilə illər uzunu topladığı xatirələr, arxiv sənədləri və faktlar əsasında yazdığı "Xalq üçün ömrünü şam kimi əridən..." kitabında məşhur milyonçunun həyatından, millət üçün gördüyü işlərdən söhbət açır.

Düşünürəm ki, Ağa Musa Nağıyevin haqqının qaytarılması uğrunda onun apardığ ı mübarizəyə dəstək verilməlidir. Bunu bizdən Ağa Musanın əməl sahibi olması tələb edir.

Ağa Musanın fəaliyyətilə tanışlıq zamanı halal zəhmət sayəsində milyonçu olmasının şahidinə çevrilirik. Zər qədrini zərgər bilən kimi, pulunun da qədrini bilən varlana bilər deyib, Ağa Musaya haqq qazandırmaq olar.

Tikililəri ilə hətta Bakı milyonçularını lərzəyə gətirən Ağa Musanın nəslinin başına gələn zülmün həddi olmayıb. Nəinki yaxın adamlarını, övladlarını, hətta ən uzaq qohumlarını da Vətəndən sürgün edib, zindanlara atıblar. gördüyü işlərin üstündən xətt çəkərək az qala gülüş hədəfinə çevirməyə çalışıblar.

Amma unutmaq ollmaz ki, həqiqət deyilən bir inci var ki, bu inci min arşın quyunun dibinə salınsada, nə vaxtsa üzə çıxır.

Günəşin üzündən qara buludun çəkiləsi vaxt yetir. Bax, onda deyirlər ki, hər dövranın bir gərdişi var!

*Azərbaycan qəzitinin şöbə müdiri,*
***Flora Xəlilzadə***

## *70 İLLİK ÖMRÜN İŞIĞINDA*

Gənc Tamaşaçılar Teatrında yubileyimə həsr olunmuş tədbirdə - ictimaiyyətdə fəaliyyətimdən, bu illərdə keçdiyim ömür yolunun keşməkeşliyindən, bu zaman məsafəsində araşdırma və axtarışlarımdan danışaraq, yaşadığım ömrün işığına toplaşan qonaqların məhəbbətini mənə olan sevginin nümunəsi kimi qəbul etdim.

Həyat yolunda daima mübarizələr qoynunda olduğumdan və bu mübarizədə qələbəni çətinliklə də olsa qazandığımdan söhbət açıb, mətinlikdə, qeyrətdə Azərbaycan xanımına məxsus olan xüsusiyyətlərim ali dəyər kimi qiymətləndirildi.

Çıxışları böyük sevgi ilə təqdim edib, fəaliyyətimi əzmkarlıqla davam etdiyimi vurğulayanlara hər zaman minnətdaram.

## PRESS RELİS

Mədəniyyət və Turizm Nazirliyinin, Ağa Musa Nağıyev adına "Milli DəyərləriQorunması" İB və Dünya Azərbaycanları Konqresinin Qadın Şurasının təşkilatçılığı ilə Gənc Tamaşaçılar Teatrında Dilarə xanıma həsr edilən yubiley gecəsi 2010-cu ilin noyabrında keçirilir.

Dilarə xanım A.M.Nağıyevin həyat və fəaliyyəti haqqında kitablar yazıb. Akademiyanın Tarix institutunun dissertantıdır. Elmi mövzusunu da A.M. Nağıyevin həyat və xeyriyyəçiliyinə həsr edib. Azərbaycan Respublikası Əsilzadələr Məclisinin, Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, çox saylı mükafatların sahibidir. Beynəlxalq Sülh Federasiyasının "Sülh Səfiri" Diplomuna və Milli Humay mükafatına layiq görülüb.

Azərbaycanın Tacirləri, Kimi yaşadacaq dünya, Ömrün ziyası, XXI əsrin Elitar Qadınları, Fətulla bəy Rüstəmbəyov, Azərbaycanın Ziyalıları – kitablarında və yeni çapdan çıxmış ensiklopediyalarda Dilarə xanımın ictimai fəaliyyəti haqda yazılar dərc olunub.

Özünə qarşı tələbkardır. Ömrünü axtarışlara həsr edib. Həyata keçirdiyi işlərin əvvəlində babası Ağa Musanın "qəbir problemi" dayanırdı. Ağa Musa Nağıyevin 80 il "əmanət" qalmış qəbrinin 1998-ci il tarixində qəbri daimiləşdirilməsi, əlçatmaz saydığı bu arzunun həyata keçirilməsi, onu daha böyük işlər görməyə şövq edir.

Həyatını babası Bakı milyonçusu Ağa Musa və atası Fərəc Nağıyevlərin istedadını, bilgisini aləmə car çəkmək, oldu alın yazısı Dilarə xanımın.

Neft sənayesinin inkişafında, maariflənmədə, xeyriyyə əməllərinin və ən əsası çox saylı binaların sahibi olan Ağa Musa babasının fəaliyyətini araşdırdıqca yeni səhifələr yazır Dilarə xanım.

Fərəc Nağıyevin incəsənət sahəsində gördüyü işləri- Qaravəlli xalq meydan oyununa yeni nəfəs verdiyini, bu günü əks etdirən satira üslubunda yazdığı şeirləri gündəmə gətirmək, incənətdə göstərdiyi fəaliyyətini işıqlandırmaq onun əsas məqsədidir .

Dilarə xanımın bu sahədə göstərdiyi fəaliyyəti Respublikanın Prezidenti Cənab İlham Əliyev tərəfindən nəzərə alınıb, o, Ölkə Prezidentinin fərdi təqaüdünə və başqa mükafatlarına layiq görülüb.

Sədri olduğu **“Milli Dəyərlərin Qorunması”** təşkilatı da babasının adı ilə bağlıdır. Babası haqqında yazdığı “Xalq üçün ömrünü şam kimi əridən...” kitabı ilə dünyaya mesaj göndərən Dilarə xanımın ikinci mesajı **Musanaqiyev. Az** saytı oldu. “Ömrün səhifələri” adlı kitabı elə yubiley ərərfəsində işıq üzü gördü.

Mənalı bir ömür yaşamaq, müqəddəs peşə sahibi olmaq doğrudan da böyük səadətdir deyən, Dilarə xanımın ömrünə onu nəslinə bağlayan bir pay düşüb.

Dilarə xanımın tərcümeyi halını vərəqlədikcə, onun necə zərif duyğulu olduğu hiss olunur. XXI əsrin rəmzi kimi parlayıb bu günə Ağamusa işığı saçan bir xanım dayanır qarşımızda.

Boya-başa çatdıqca o milli ənənələri, azərbaycançılıq meyillərini daxili dünyasında yaşadıb, babasının davamçısı olaraq onun qoyduğu amalı, sanki həyat yolunu davam etmişdir. Bu yol onun nüfuzunu cəmiyyətdə möhkəmlətmişdir.

Yaratdığı hər bir nümunədə Azərbaycanın dövlətçilik prinsipləri əsas xətt olaraq təqdim olunur.

Ağa Musa Nağıyev nəvəsi olaraq geniş və şaxəli fəaliyyəti sovet imperiyasına təsadüf etsə də, Dilarə xanım bu yolda mənəvi sarsıntılara tuş gəlmiş, Azərbaycan qadınına məxsus dəyanət və dözümü ilə sərt buxovları dəf edə bilmişdir. Ağa Musa Nağıyevin imperiyanın qanunları qarşısında hüquqlarının əlindən alınması və vətənpərvərliyinin şübhə altına alınması - zamanla barışmayan mövqelərində ona güc gəlmişdir.

“Ömrün səhifələri” kitabında babasının vaxtı ilə tapdanmış haqqının müdafiəsinə qalxan Dilarə xanım ümumilikdə tarixə, jurnalistikaya, publisistik ədəbiyyata bir növ yeniliklər gətirib.

Dilarə xanım ona verilən ömür payını şərəflə, ləyaqətlə, qürurla yaşayanlardandır. O, zirvənin ən uca nöqtəsinə yüksələn, qadın adına şan-şöhrət gətirəndir. Onun ömür payından hərəyə bir nur pay düşür. O, baba adına layiqli nəvə, ata adına layiqli övlad olması ilə bu yolun mübarizi olduğunu sübuta yetirib.

## MƏNALI ÖMÜR

**M**ənalı bir ömür yaşayaraq, yüksək əxlaqi keyfiyyətləri ilə həyatda öz yerini tutmuş, yaddaşlarda yaşamaqla özünə əbədi iz qoymuş neft milyonçusu Ağa Musa Nağıyevin nəvəsi Dilarə xanım 70 illik yubileyinə toplaşmışdıq.

Hər insanın öz taleyi, öz ömür yolu var.

Taleyini Bakı milyonçusu, babası Ağa Musa və atası Farəc Nağıyevlərin talelərinə bağlayaraq, onların istedadını, bilgisini aləmə car çəkərək, əməllərindən, işindən zövq almaq qisməti oldu amalı Dilarə xanımın.

Aldığı savad və mənəvi keyfiyyətlərinə görə o, başqalarından çox fərqlidir.

İctimai işlərdə fəal olduğu ilə bərabər 20 ildən artıqdır ki, Ağa Musa Nağıyev yolunun ixtiraçısıdır. A.M.Nağıyevin fəaliyyətinə həsr etdiyi kitabları ilə bərabər elmi monoqrafiyası da işıq üzü görüb. Dilarə xanım Akademiyanın Tarix institutunun dissertantıdır. Sədri olduğu təşkilat da babasının adı ilə bağlıdır. Beləcə Ağa Musa və Fərəc Nağıyevlərin Tablolarını qələmilə yarada bilib.

Həyatda insan özünü dərk edəndən ucalmaq eşqilə yaşayır. Bu zirvələrin ən çətini - ali insanlıq zirvəsini aşmaqdır ki, bu da hər kəsə nəsib olmayır. Xanım xatınlığı ilə, əməlləri və mədəni rəftarı ilə ucalıqları fəth edən Dilarə xanım bu zirvənin əvvəlindədir.

Dilarə xanım həyatda yaxşı insan kimi sevilir, misilsiz ana və qaynana rolunun öhdəsindən qəhrəmanlıqla gəlir. O, Nənə sevgisi ilə bir tarix yaradıb desəm, yanılmaram.

70 ildə keçdiyi yolun məqsəd və amalına nəzər salsaq, Dilarə xanımı fədakar insan, cəfakeş ana və səfakeş övlad adlandırmaq olar. O bütün bu məfhumları özündə birləşdirməyə cəsarət tapır .

**Millət vəkili,**
**Jalə xanım Əliyeva**

## Ömrü yazan izlər

Yaranan hər bir nümunədə Azərbaycanın dövlətçilik prinsipləri, tariximizin bir parçası, yaşanılan illərin əks-sədasıdır desək, fikrimizdə yanılmarıq. Neçə əsrlik tariximiz daş kitabələr vasitəsilə bizlərə əxz olunmaqdadır.

Müəllif Dilarə Nağıyevanın yubileyi ərəfəsində işıq üzü görmüş "Ömrün səhifələri" kitabı da məhz Azərbaycanın ictimai həyatını və tarixi məqamları bizlərə təqdim edən bir nümunədir.

Bu kitab bir insan taleyinə nəzər salan uzun illərin əsasında yaranıb.

70 illik ömrün səhifələrini vərəqləyərkən, Dilarə xanımın keçdiyi yaradıcılıq yolu, ictimai fəaliyyəti ilə tanış oluruq. Yazdığı sətirlərdə ömür kitabının ən yaddaqalan və unudulmaz səhifələri ilə tanış oluruq.

İtirdiklərinin çoxunu ictimai fəaliyyətində, müsahibləri ilə görüşlərində, ailə çərçivəsinin istisində tapdığını səmimi etiraf edən Dilarə xanım, kitabı da bu məhəbbətin əlaməti olaraq Həcər hünərli, Nigar qeyrətli anası Zəhra xanıma ithaf edib.

Kitabda xeyriyyəçilik ənənələri, yüksək əxlaqi keyfiyyətləri ilə həyatda öz yerini tutmuş, başqaları üçün nümunə olmaqla yaddaşlarda özünə əbədi iz qoymuş neft milyonçusu Ağa Musa Nağıyevin çox şaxəli fəaliyyəti sovet imperiyası dövrünə təsadüf etdiyi qeyd edilir.

Akademik, professor
Arif Həşimov

### Milyonçunun yazar nəvəsi

Azərbaycanda ötən əsrin əvvəllərində Bakının tanınmış milyonçularından olan neft sənayeçisi Ağa Musa Nağıyevi tanımayan çox az adam tapılar.

Ən azından Bakının küçələrindən keçən hər kəs onun tikdirdiyi 98 binadan

birini görür və binanı qoyub gedənə rəhmət oxuyur. Hələ Bakıya çəkdirdiyi su kəmərindən söz açmıram.

Məqsədim başqadır.

Günümüzə əski milyonçularımız haqda çatan məlumatlar qane edici olmadığı kimi, onların varisləri haqda da çox bilmirik.

Buna bariz misal – Ağa Musa Nağıyevin varisi-nəvəsi Dlarə xanım Nağıyevadır. Onun "Ömrün səhifələri" kitabını oxuyub, Ağa Musa Nağıyevin vaxtı ilə tapdanmış haqqının müdafiəsinə qalxan Dilarə xanım təkcə onun üçün deyil, ümumilikdə Azərbaycan tarixi, jurnalistikası, publisistik ədəbiyyatı üçün çox işlər görür və bu yönümdə fəaliyyətini davam edir.

Dilarə xanımın Gənc Tamaşaçılar Teatrında keçirilən yubileyinə toplaşanlar məhz onun yaradıcılığından, ictimai fəaliyyətindən danışır, gözəl insani keyfiyyətlərini xüsusi vurğuladılar.

"Ömrün səhifələri" kitabına ön söz yazmış yazıçı-publisist Musa Ələkbərli demişkən, "Gözəl xanımlar üçün ad günü var, ildönümü yoxdur".

Bu baxımdan mən də yubilyarın yaşını açıqlamayacaq, sadəcə qeyd edəcəyəm ki, Azərbaycan publisistikasında özünəməxsus duyum və ifadə tərzi ilə seçilən, insanlarla ünsiyyət qurmağı bacaran, zəhmətkeşliyi və prinsipiallığı ilə hamının hörmətini qazanan, Dilarə xanımın doğum günü çox möhtəşəm səviyyədə qeyd olundu.

Yubilyarın ünvanına söylənilən xoş sözləri eşitdikcə - onun böyük hərifli insan, dözümlü və iradəli qadın, cəsarətli yazar olduğuna bir daha əmin oluruq.

Söylənilən xoş ifadələr Dilarə xanım haqqında hamıda daha geniş məlumat yaratdı. Bir daha Dilarə xanımın əsl xanım –xatınlığı qoruyub saxlayan, məğrur, qürurlu qadın olduğu vurğulandı.

Kitabın annotasiyasında müəllif Dilarə xanımın işlətdiyi bir ifadə: - "Hər kəsin bəxtinə bir ömür payı düşür. Hərə bu ömrü bir cürə yaşayır. Ömür zirvəsinin ən uca nöqtəsini də hərə öz arşını ilə ölçür" – kəlmələri oxucunu düşündürür.

Bəli, Dilarə xanım Tanrının ömür payını şərəflə, ləyaqətlə, qürurla yaşayanlardandır. O, zirvənin ucalığına yüksələn, qadın adına şan-şöhrət gətirəndir. O, ən ali mükafatlara, ən layiqli sözlərə layiq bir ömür yaşayır. Onun ömür payından hər birimizə bir nur pay düşür.

Ona olan arzum: - xalqını, millətini sevən, qazandıqlarını xalqın yolunda xərcləyən babası Ağa Musa Nağıyevin ruhunun şad olması üçün uca Yaradanın onu daima var etməsidir!

**"Dövlət və Qanun" qəzetinin Baş redaktoru,**
**Yasəmən Möhübbətqızı**

**_70_ yaşın olsun mübarək!**
**Dilarə xanım Ağa Musa Nağıyevin itən-batan əməllərini kəşf etmisdir!**

Bir büsat qurulub adına layiq,
Xeyir-dua verib bu günə Xaliq.

Məclisin önündə durub səbəbkar,
Onun görüşünə hamı intizar.

Çırpınır ürəyi, titrəyir donu,
Çiçək dəstələri bürüyüb onu.

Gözlərində sevinc, üzdə səadət,
Onu təbrik etmək bizə şərafət.

Bir əsər yazıb o, salnamə kimi,

Allahdan çin olsun hər arzu-dilək,
70-ci yaşın olsun mübarək.

Möhtərəm nəslini qorusun Xuda,
"Amin" kəlmələri versin əks-səda.

Göstərib nəslinə hörmət-ehtiram.
Munis, sözlərini eylədi tamam.

**Şairə -publisist, Gülarə Munis**

**Zirvənin ən uca nöqtəsində**

Neft sənayesinin inkişafında, maariflənmədə, xeyriyyəçilikdə milli mənafelər naminə böyük xidmətlərini araşdırıb, Ağa Musa Nağıyevin fəaliyyətini işıqlandırdıqca sanki həyatında yeni səhifələr açır Dilarə xanım.

Milyonçu babasının həyat və fəaliyyətinə həsr etdiyi "Xalq üçün ömrünü şam kimi əridən..."- kitabını o, sanki qaranlıqdan saçan bir parıltı sanır.

Yubileyi ərəfəsində işıq üzü görən "Ömrün səhifələri" adlı kitabın annotasiyasında Dilarə xanım belə bir ifadə işlədib:
- "Hər kəsin bəxtinə bir ömür payı düşür. Hərə bu ömrü bir cürə yaşayır. Zirvənin ən uca nöqtəsini hərə öz arşını ilə ölçür".

Bu ömür payını ləyaqətlə yaşayan Dilarə xanım bir azərbaycanlı xanımı olaraq, baba uğrunda mübarizədə yorulmaq bilmir. Ağa Musa Nağıyevin Tanrının ona verdiyi ömür payını şərəflə, ləyaqətlə, qürurla yaşayanlardan olduğunu sübuta yetirə bilir.

**Azərbaycan Respublikası**
**yanında QHT-rə Dövlət dəstəyi Şurasının**
**Vətəndaş jurnalı, 2011 –il, 7ci buraxılış**

### O L U B

Dönüb bir geri bax, Dularə xanım
Sənin baban ləngərində dağ olub.
Onun xoş işini mən necə danım?
Əməli işilə ölməz, sağ olub.

Əsiri olmadı, yadın, yaltağın,
Qalibi olmuşdu ağır sınağın.
Haqqın dərgahında o üzü ağın,
Milyonçu olub, üzü ağ olub.

Şərəfli ömr edib,yaradıb, qurub,
Fəqirin, kasıbın halını sorub.
Xalqına havadar, bir dayaq olub,
Onun elçün əhvalı daim çağ olub.

Musa Nağıyevdən qurulan qaldı,
Əməyi, əməli sorulan qaldı.
Mərcan el gözündə durulan qaldı,
Ünvanı cənnətdə güllü bağ olub.

**Publisist, Şairə**
**Mərcan Şahbuzlu**

### BABASININ ÖMRÜNÜ YAŞADAN ZİYALI

Səni məndən alan oldu,
Məni dərdə salan oldu.
Dünya kimi yalan oldu,
Şam tək yandırdı, yaxdı.

Ötən 2010-cu ili hərə bir cürə xatırlayır. Yazdığı dörd fəsildən ibarət olan “Ömrün səhifələri” kitabındakı xoş cümlələr oxucunun əhval-ruhiyyəsini oxşadığına biz də sevindik.

Ömrün hər il təkrarlanan xoş səhifələrindən biri də ad günüdür. Elə insanlar var ki, özləri kimi ad günləri də ictimai əhəmiyyət daşıyır.

Dilarə xanım belə insanlardandır.

Onun yubileyi ölkənin ictimai həyatında əlamətdar hadisələrdən biri oldu. Cəmiyyətin ziyalı zümrələri bir yerə toplanmışdı. Çıxış edənlər Dilarə xanımın mübariz olduğundan danışıb, babasının yolunu gedən bir insan olduğunu, qədirşünas nəvə amalını, məqsədini daışdığını vurğuladılar.

Yaratdığı təşkilatı da həmin məqsəd və amallara xidmət edir.

Yubileyi ərəfəsində işıq üzü görmüş "Ömrün səhifələri" (sayca ikinci) kitabı da babası Ağa Musa və atası Fərəc Nağıyevlərin zəngin irsini araşdırdığı yolda şam kimi ərisə də, sönmədiyimdən söhbət açır. Milyonçu babasının və sənətkar atasının arxivini yaradıb, bir çox həll olunmamış məqamların üzə çıxmasına nail olub bu illər ərzində.

Ağa Musa Nağıyev irsini araşdırmaq, onun xatirəsini əbədiləşdirmək uğrunda illərlə apardığı mübarizə ona gizli qalan yatırlarını qazandırmasa da, axtardığı və tapdığı nadir sənədlər və faktlar olmuşdur mükafatı .

Əlbəttə ki, o, bu yolda qazandıqlarından əlçatmaz Həcc və Məşhəd ziyarətlərini ən ali mükafat sayır.

Xeyriyyəçiliyi ilə tarixdə silinməz iz qoymuş Ağa Musa Nağıyevin yadda qalan əməllərini nəvə olaraq yaşatdığına görə o, "Əsilzadə xanım" diplomuna layiq görülüb. Aldığı ödüllərdən ən möhtəşəmi budur deyən Dilarə xanım, bununla əsl əsilzadəliyini təsdiqləyir.

Babasının adını təxəllüs götürmüş Dilarə Ağamusanın bu kitabı həm də Azərbaycan tarixinə və mədəniyyətinə töhfədir. Kitabın gələcəkdə tarixçilər, tədqiqatçılar üçün etibarlı mənbə kimi xidmət edəcəyinə şübhə qalmayır.

**"Mubariz qadın" qəzeti**
**Jurnalist Xalidə Yaqubqızı**

### Dünənin, bu günün, sabahın azərbaycan qadını

**M**illi mənəvi dəyərlərimizin yaranmasında və inkişafında böyük xidmətləri olan, bir çox böyük və dövlət əhəmiyyətli binaların sahibkarı, tikdirdiyi 98 binanı xalqın istifadəsinə verən, tanınmış milyonçu Ağa Musa Nağıyevin nəvəsi dir Dilarə xanım.

**Ö**mrünü, gününü, milyonlar səltənətini xalqın, vətənin xoş gələcəyi naminə əsirgəmədən xərcləyənlər, şair demişkən: -"Nə bəxtiyardır!.."

**B**u gün Azğrbaycan xalqının sağlam rifahı, mədəni-maarif sahəsindəki yüksək xidmətləri naminə nəsillərdən - nəsillərə nümunə ola biləcək böyük şəxsiyyət, tərəqqipərvər insanın adını hörmətlə anmaq, ona rəhmət diləmək hər bir Azərbaycan vətəndaşının mənəvi borcudur.

"**O**t kökü üstündə bitər!" kəlamı bütövlükdə Dilarə xanıma aiddir.

**S**özü gedən xanımın, Müstəqil Azərbaycanın daha da qüdrətlənməsi naminə nələrə qatıldığını, hansı fədakarlıqları göstərdiyini, qədirbilən xalqımız, ictimaiyyətimiz yaxşı bilir.

**D**ilarə xanımın geniş fəaliyyətinin bələdçisi keçirdiyi görüşlər, tədbirlər yaşadığı daxili aləmidir. O, göründüyündən qat-qat artıq, həm gözəl bir

Azərbaycan qadını, cəfakeş bacı, həm də milli təəssübkeş, ziyalı bir xanımlarımızdandır. Simasında heç bir yanlışlıq olmadığı kimi, sözündə, əməlində də heç bir saxtalıq yoxdur.

**O,** saf əqidəli, sözün əsl mənasında nəslinin fədaisidir.

Soyadının uzun müddət kölgədə qalmasına görə həmişə narahat hisslər keçirən bu xanım, babasının yolunu davam edərək xeyriyyəçilik və maarifçilik fəaliyyətini davam etmək məqsədilə babasının adını daşıyan təşkilatı təsis edib.

Ağa Musa Nağıyevin xeyirxahlığını, insanpərvərliyini, alicənablığını yüksək qiymətləndirən Dilarə xanımın Respublikanın ictimai – siyasi həyatında da xidmətləri böyükdür.

Azərbaycanın fədakar qadını, iki vətənpərvər övlad anası, ömrünün hər zaman bahar ətrini sağlam yaşamağı bacaranlardandır.

**Ensiklopediya 2010 il,**
**Baş redaktor, Elmira Nüsrətqızı**

## MÜKAFATLARIM

1990 və 2010 ildə - **Məşhəd ziyarəti;**
2006 ildə - **Həcc ziyarəti;**
1999 ildən - **Əsilzadələr Məclisinin üzvü**;
2011 ildən - **Azərbaycan Respublika Qadınlar Cəmiyyətininsədr müavini;**
**Respublika Qadınlarının III, IV və Diaspora Qyrultaylarının** nümayəndəsi;
2009 ildə - **Beynəlxalq Sülh Federasiyasının "Sülh səfiri"** Diplomu;
2009 ildə – **Azərbaycan Respublikası "Oskar" Mədəniyyət qəzeti "İlin adamı"** Fəxri Diplomu;
2009 ildən **-Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin** üzvü;
**"Qafqaz Media" İB-nin Sədr müavini, "Qafqaz Press" qəzetinin baş redaktor müavini, "Altun Ləyaqət medalı və Diplomu"nun Protokol Komissiya Heyətinin** üzvü;
**"Simurq" Mədəniyyət Assosiasiyasının, Akademik Zərifə Əliyevanın** anadan olmasına həsr edilmiş konfransın nümayəndəsi olaraq, **Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin - "Fəxri Fərman"** ları;
**Ağa Musa Nağıyevə həsr etdiyim "Xalq üçün ömrünü şam kimi əridən..." kitab**ına görə **"Könül" ictimai- siyasi qəzeti**nin, **elm sahəsində fəal iştirakıma görə -"Zirvə" Ziyalıların, "Kitab evi"** İB –nin **"Vətən Naminə" Fəxri Diplomları;**
**Ulu Öndər Heydər Əliyev ideyalarının təbliğində fəal mövqeyimə görə Təhsil Mərkəzinin diplomu**, **"Abdulla Şaiq" Fəxri mükafatı**na, Ziyalılığımı -yüksək mənəvi keyfiyyətlərimi nəzərə alaraq: **"Əsilzadə Xanım" və "Xan qızı Natəvan"**

, Milli dəyərlərə etirdiyim diqqət və qayğıya görə - Məhsəti Şairlər İB-nin **“Məhsəti Gəncəvi” Fəxri Diplomları**;
**Musa Nağıyev fəaliyyətinin araşdırıcısı**, müasir gənclər arasında vətənpərvərlik duyğularının aşılanmasında, xeyriyyə marafonunda fəal iştirakına görə **“Məlhəm” İB-nin Əsilzadə xanım Diplomu**;
Xeyriyyəçiliyi ilə tarixdə silinməz iz buraxmış milyonçu **Ağa Musa Nağıyevin** əməllərini daima yaşatdığıma görə **“Zirvə” Ziyalılar İB-nin “Ali” Əsilzadə** “Qafqaz Media” İB-nin: **“Qafqaz” Diplomları;**
Qafqazda mədəni əlaqələrin inkişafına görə **“Qafqaz” mükafatı**;
Anadan olmağımın **70 illiyim münasibətilə**:“Qafqaz Media” İB –nin **“Cəsarətli Qələm”** ; İlin ziyalısı – xeyriyyəçi, Milli mətbuatın mənəvi dayağı və **Ağa Musanın nəvəsi** olaraq, **“Əsrin Ziyalıları” İB-nin Fəxri Diplomları**na layiq görülmüşəm.
**Xeyirxah əməllərimi nəzərə alaraq**: “Qafqaz Media” İB, Suraxanı r-n 7 saylı internat məktəbinin direktorunun **“Təşəkkürnamə”**ləri.
2006-ildə **“Xalq üçün ömrünü şam kimi əridən...”.**, 2011- ildə **“Ömrün səhifələri”.**, 2012- ildə **“Zamanın sorağında”,** 2012-ildə **“A.M.Nağıyevin xeyriyyəçiliyi və ictimai fəaliyyəti” monoqrafiyam işıq üzü görüb.**
2013 ildə **“Zamanın sorağında”,** kitabına görə Akademiyanın Milli **“HUMAY”** Mükafatına layiq görülmüşəm.Bu mükafat ümdə arzularımdan biri olub.
Bakının qaymaq ziyalılarının əhatəsində bu mükafatı alarkən çıxışımda:- Ağa Musa Nağıyev ətrafında görmədiyim hələ çox işlər var. Onları yerinə yetirməyincə, ölməyəcəyəm! “ Mən də babam kimi 100 yaş yaşamağı arzuladım. Axı onun haqqında həyata keçirmədiyim arzular çoxdur”... Çünki Ağa Musanın etdiklərinə mən əməllərim və kitablarda yazdıqlarım ilə həyat verirəm. Belə deyim də var ki, “yazını balta da şapa bilməz”!
2014-cü ildə Ağa musa Nağıyevin Torpağına, millətinə bağlı olan milyonçu Ağa Musa Nağıyevin həyat və fəaliyyətinin tədqiqatçısı, xeyiyyəçilik əməllərini davam edib, ictimai fəaliyyətinə dəyər verən; yazdığı kitabları və elmi mövzusu ilə, keçirdiyi tədbirlərilə babasının ruhunu daima qəlblərdə yaşadan vəfalı- cəfakeş nəvə və alim kimi-Ağa Musa Nağıyev adına “Milli Dəyərlərin Qorunması” İB-in təsis etdiyi **“BAKI GECƏLƏRİ” Diplomuna** layiq görüldüm;
Həyata keçirdiyim bu əməllərimə görə **“Dədə Qorqud”** fondunun **“MEHRİBAN ANA”** medalı ilə təltif edildim.

## BİR KİTAB BARƏSİNDƏ XOŞ TƏƏSSÜRAT

**M**üəllifin“Ömrün səhifələri” adlı kitabı öz əhatə dairəsi, məzmunu, toxunan mövzuların oxucuya çatdırılması forması ilə çox cəlb edicidir. Kitab insanda bizdən əvvəl yaşamış və iz qoyub getmiş tarixi şəxsiyyətlərin taleyi haqda təəssürat yaradır .

**D**ilarə xanımın babası və şəcərəsi haqqında yazdığı bu dəyərli inci diqqətə layiqdir.

**Ə**n əsası Bakıya sayı 100-ə çatacaq binalar töhfə vermiş Ağa Musa Nağıyevi indiki nəsillərə sevdirə bilmişdir.

**K**itab bir bilik mənbəyi kimi səciyyəvi xüsusiyyətə malikdir. Kitabda qeyd olunan ulu öndər Heydər Əliyevin sözləri ilə desək, doğrudan da: -"Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil".

**Ə**n əsas məna – "Bu həyatda yerini tutmaq, mövqeyini müəyyən etmək başqaları üçün nümunə olmaqdır " –desək, Ağa Musa Nağıyev kimi nəvəsi Dilarə xanım buna nail olub.

**M**üəllif kitabı anasına ithaf edir. Doğru deyiblər ki, "Cənnət anaların ayaqları altındadır". Ananın qiymətini verə bilənlərə eşq olsun!

**M**ən Dilarə xanımın düşüncələrini duyduğuma görə, onunla tanışlığıma görə minnətdarlığımı bildirib, bu döyüş yolunda ona səbr və yaradıcılıq uğurları arzulayıram.

**Dövlət Arxivinin Direktoru,**
**Emin Sərdarov**

## Sən elə aləmə apardın məni..

**D**ahilərin fikrinə görə iki dünya var: "Biri bu fani dünya, o biri isə başqa dünya. Yəni üqba..."
Bu dünyadan az-çox məlumatımız var. Amma...

**H**aqq dünyası barədə müqəddəs "Qurani- Kərim"də kifayət qədər məlumat verilir. Bunu oxuyub dərk etmək, idrakı dərin olanların işidir. Hərdən o aləmə - gənclik, uşaqlıq aləminə qayıtmaq arzusunda oluruq. O aləm ki, xəyal köhləninin qanadlarında gəzir, uşaqlaşı, kövrəlirik. Və acılı-şirinli nə varsa onu yenidən yaşamaq istəyirik.

**S**öhbət oxumaqdan doymadığım Dilarə Ağamusanın yazdığı "Ömrün səhifələri" kitab haqqındadır. Kitabı oxuduqca ötən illərimi xatırladım.

**M**üəllif, Neft Kralı Ağa Musa Nağıyevin layiqli davamçısı, keçmişə baş vuraraq çox çətin işin öhdəsindən şərəflə gələ bilib. Orada verdiyi nəsl şəcərəsinə diqqətlə baxdıqda, insan bu nəslin nümayəndələrinin hər zaman Allahın nəzarəti altında olduğunun bir daha şahidinə çevrilir. Doğrudan da Allahın iltifatı Nağıyevlər nəslinin üzərində olub. Qəribədir ki, Ağa Musa Nağıyevin nəslindən kim dünyadan köçübsə, həmin il yeni bir insan dünyaya göz açıb:
-1900-cü ildə Ağa Musanın qızı **Ümmül Banu** dünyasını dəyişib, nəvə **Ümmül Banu** doğulub;
-1934-cü ildə Ağa Musanın həyat yoldaşı **Ümmə Səlmə** dünyasını dəyişib, **Fərəcin oğlu Ağa Əli** doğulub;

-1940-cı ildə Ağa Tağının oğlu **Murad** dünyasını dəyişib, Fərəcin qızı **Dilarə** doğulub;
-1953-cü ildə Ağa Əlinin oğlu **Zeynalabdin** dünyasını dəyişib, **Solmazın qızı Gülşən** doğulub.
-1973-cü ildə Ağa Musanın varisi **Fərəc** dünyasını dəyişib, **Çingizin qızı Fərəh** doğulub.
-1992-ci ildə **Ümmül Banu (Banin )** dünyasını dəyişib, Dilarənin nəvəsi **Nərmin** doğulub.

**"Ö**mrün səhifələri" kitabını oxuduqca insan gah şaxtaya düşən zərif çiçək kimi titrəyib-üşüyür, gah da yayın qızmar istisinə düşən buz kimi əriyir. Oxucunun ruhunu cismindən ayırıb uzaq bir aləmə aparır. Elə bir aləmə ki, orada arzular çin olur, röyalar gerçəkləşir. Sanki xəyalında yaratdığın səadətə çatırsan.

**D**ilarə Ağamusanın maraqlı və keşməkeşli həyat yolu, zəngin daxili aləmi, valideynlərinə və dostlarına olan ehtiramı göz önündə canlanır.

**M**üəllifi xeyriyyəçi və aktiv bir xanım kimi deyil, eyni zamanda gözəl bir ana, ömür-gün yoldaşına ehtibarlı dost, sirdaş, bacı-qardaşları üçün hər şeydən keçməyi bacaran, təvazökar və eyni zamanda özünə qarşı tələbkar bir insan kimi tanıyırıq.

**O**nun yaradıcılığı çox şaxəlidir. Dilarə xanım həm tarixi, həm sənədli, həm də publisist yazıları ilə oxucularını heyrətdə qoymağı bacarır.

**"X**alq üçün ömrünü şam kimi əridən..." adlı kitabında Bakının keçmişi, arxitekturası, Ağa Musa Nağıyevin həyatı və xeyriyyəçiliyindən bəhs olunursa, "Ömrün səhifələri" kitabında Hacı Dilarə xanım özü barədə verdiyi maraqlı məlumatlarla yanaşı, Ağa Musa və Fərəc Nağıyevlərin, eyni zamanda Azərbaycanın digər dəyərli oğul və qızları barədə qələmə aldığı məqalələri ilə də oxucunu tanış edir.

**X**eyirxahlığı və səmimiyyəti ilə insanların qəlbində özünə yer tutan mərhum professor Rövşən Mustafayevin barəsində olan yazı oxucunu çox mətləblərdən hali edir.

**M**üəllifin ömür-gün yoldaşına həsr etdiyi elegiyanı oxuduqca göz yaşını saxlamaq mümkün deyil. Mətin və fədakar xanımın təmiz və ülvi məhəbbətinə yaxşı mənada həsəd aparırsan.

**A**nasına, qardaşlarına ünvanladığı yazılarda isə onun qəlbinin genişliyinə heyrət edirsən. Axı bu qədər sevgi necə sığır bu zərif qadın qəlbinə? Hələ orada dostlar, rəfiqələr üçün də yer tapılır.

**İ**randa olarkən Ömər Xəyyamın məzarını ziyarət edərkən, mənim Xəyyamın aşiqi olduğumu da unutmayıb. Oradan gətirdiyi hədiyyə vasitəsilə onun qəlbinin gözəlliyinə yenidən vuruldum.

**H**örmətli qələm dostuma, ictimaiyyətçi - xeyriyyəçi qadına, kölgəsindən də sevgi səpilən Dilarə xanıma - yeni yaradıcılıq uğurları və yorulmaz fəaliyyətində tükənməz enerji arzulayıb, bu şeirimi ona həsr edirəm.

**Sən** elə aləmə apardın məni,
Unutdum orada qəmi, möhnəti.
Sən elə aləmə apardın məni,
Tapdım o aləmdə mən səadəti.

Sən elə aləmə apardın məni,
Xəyali məhəbbət həqiqət oldu.
Sən elə aləmə apardın məni,
O aləm mənimçün bir cənnət oldu.

Sən elə aləmə apardın məni,
Orda çiçək açdı qönçə arzular.
Sən elə aləmə apardın məni,
Orda çin olurmuş demə, yuxular!!!

**Şairə, publisist**
**Gülarə Munis**

## XEYRİYYƏÇİLİK İLAHİ BİR MİSSİYADIR

"Ya olduğun kimi görün, ya da göründüyün kimi ol!"
Bu böyük mütəfəkkir Mövlana Ruminin fikridir. Amma bunu bütövlükdə Azərbaycanın 11 milyonçularından biri, Bakıya 98 bina bəxş edən xeyriyyəçi "Neft kralı" -Ağa Musa Nağıyevin varisi Dilarə xanım Ağamusaya şamil etmək olar.

Dilarə xanımın yubiley tədbirində iştirakçıların ona qarşı olan sevgisi bu sözlərin təsdiqidir.

Dilarə xanım ilə ilk tanışlıqan gendən gəlmə bir xeyirxahlıq, nəciblik, ziyalılıq, eləcə də vüqar və əzəmət hiss edilir.

Sanki bu insanın ürəyində xeyirxahlıq bulağı qaynayır, xoş təbəssümünü hamı ilə paylaşmağa çalışır.

Dilarə xanım orta tibb təhsilinə və iki ali təhsilə yiyələnib. Uzun müddət məsul vəzifələrdə çalışıb, Ağa Musa Nağıyev adına təşkilat yaradıb. Baba adını ucaldıb, "Neft Kralı"nın yorulmaz tədqiqatçısına çevrilib.

Bu mözuda elmi mövzu işləmək onun arzularından ən ümdəsi kimi qiymətləndirilir. Apardığı səmərəli araşdırmaların və fitri istedadının nəticəsidir onun işıq üzü gördüyü kitabları.
"Ömrün səhifələri" kitabını oxuyarkan, keçirilən həyacan hisslərini kağız üzərinə köçürmək mümkün deyil...
Kitabı vərəqlədikcə Dilarə xanımın babaya, ata-anaya, övlada, bacı və qardaşlara olan sevgisinə heyran qalır, həyat yoldaşına və dostlarına olan məhəbbətinə, mənəviyyatına qibtə edirsən.

Hacıxanım Dilarə kitabda xatirə-memuar şəkildə qələmə aldığı həyat hekayələrini o qədər səmimi, inandırıcı təsvir edir ki, sanki oxucunun əlindən tutub, hadisələrin canlı iştirakçısına çevirir, düşündürür, güldürür, ağladır. Ümumiyyətlə Dilarə xanım güclü auraya malikdir. Onunla adi danışıq zamanı insan bir növ sakitləşir, problemlərin həll olunacağına inam yaranır.

Allah insanları yer üzərində özünə xəlifə, yarananların əşrəfi kimi yaradıb. Peyğəmbərlər insanların əşrəfi, sonuncu Peyğəmbər Məhəmməd (S) isə Peyğəmbərlərin əşrəfidir.
Əşrəfül-Əmbiyə deyib ki, səvab (ehsanat) təkcə pul və mal ilə edilmir.
Bir yetimin başına sığal çəkmək, bir xoş baxış, bir şirin söz də ehsanatdır.
Üzündən xoş təbəssüm, danışığından xoş sözlər eşitdyimiz bu xanımın Allah yanında Həcci qəbul olunanlar cərgəsindədir desək, bu Allaha da xoş gələr.
Ürəyi saf, üzü nurlu, ziyalı görkəmilə seçilən Dilarə xanıma uzun ömür, elmi axtarışlarında uğur, xeyriyyə işlərində fəallıq arzulayıb, öz istədiyi kimi- Ağa Musa babasının tikililərin 100-ə çatdıracağını bir yerdə bayram edək.

Böyük Musa Nağıya,
Bir varissən, soncusan.
Tükənməz şəfqətinlə,
Sən də bir milyonçusan.

Belə "milyonçu" olar?
Səmimi, həssas, fağır.
Gözündən nur tökülür,
Üzündən sevinc yağır.

İnsana hörmət, ehtiram,
Buna həsr edib həyatı.
Varı olsa, paylayardı,
Mənəviyyat mesenat.

**Həkim, şair,publisist**
**Zakir Ağdamlı**

## Mesajlar

**T**əhsil qəzetinə veridyim müsabiqədən: "Milli vətənpərvərlik tərbiyəsi başlıca vəzifədir" – ətrafında aparılan sorğuya cavabım:
- Ulu Öndərimiz Heydər Əliyev vətəndaşlıq, vətənpərvərlik hisslərinin genişlənməsində daima bizə örnək olmuşdur.
Hər bir sənət sahibi öz işində, əməllərində, fəaliyyətində milli adət-ənənələrimizə bağlı olmalı, onları yaşatmalıdır. Böyük keçmişə, tarixə, ədəbiyyata, incəsənətə malik olan Azərbaycan xalqında milli-mənəvi dəyərlərə bağlılıq, vətənə məhəbbət daha dərin olmalıdır.

**X -2007-il.**

**Z**əhmətkeş ana, cəfakeş qadın. Bu sözlərin arxasında nəcib bir qadın dayanır. Bu Dilarə xanımdır. Babası uğrunda fəaliyyəti və araşdırmaları ilə sözün əsl mənasında həlak olan insan.

**Millət vəkili - Jalə Əliyeva**

**K**ölgəsindən də səmimiyyət süzülən könül sirdaşım, incə ruhlu Dilarə xanım! O, kübarlığını və əsilzadəliyini qoruyub saxlayan, xanımlığı ilə hamını heyran edən, son dərəcədə nəzakətli və məlahətli, övlad kimi, nəvə kimi nəsillərə nümunədir.

**Qəzəlxan Gülara Munis**

**O**, mənim üçün çox yaxın rəfiqə, qiymətli bir yadigardır. Yek Ağa Musamızın bir danəsidir sevgili Dilarəm!

**Şairə Nurəngiz Gün**

**D**ilarə xanım, yaşınızı heç kimə deməyin. Sizə baxanda həyata segi artır.

**“Azyaşlıların hüquqi maariflənməsi”**
**İB sədri – Nazlı xanım**

**İ**nsan bu qadına baxanda şənlənmək istəyir. Onda olan enerjiyə qibtə edirsən.

**Şəmistan Əlzamanlı –hərbi müxbir**

**D**ilarə xanım Azərbaycan elitasının kübar bir ailənin varisidir. Biz onunla fəxr edirik. O, böyük bir nəslin layiqli davamçısı olmaqla bir daha kübarlığını təsdiqləyir. Dilarə xanım bir ləyaqətli azərbaycanlı qadın simvoludur. Onu dinləmək özü bir fərəhdir.
Ad gününü təbrik edib, uzun ömür, can sağlığı arulayıram. Azərbaycan qadınlığı onun kimi nəcib insanların çiyinlərində bərqərardır. Bu zərif, kövrək varlığa ulu Tanrıdan dözüm və səbr arzulayıram.

Respublikanın sabiq prokuroru **İlyas İsmayılov**
“Geopolitika” qəzeti

**D**ilarə xanıma Nağıyevlər şəcərəsi uğrunda apardığı mübarizənin sevinclərinə qoşulmasını arzulayıram.

**Şair Nizami Muradoğlu**

**M**ərd, şücaətli və işgüzar olmağını vurğulayıb, hər zaman məhz belə də davam etməyi arzulayır.e

**H.Z.Tağıyevin nəticəsi,**
**Sara xanımın nəvəsi Nailə xanım**

**A**ğa Musa Nağıyev irsinin öyrənilməsində çox zəhməti olan əmiğızı Dilarəyə ən xoş arzularla

**AMEA-nın elmi işçisi,**
**əminəvəsi Ofelya Nağıyeva**

**Ə**ziz, sevimli, hər zaman gözəl təbəssümü ilə fərqlənən Dilarə xanıma sükanı belə saxlamağı arzulayıram!

**Şairə, Polis mayoru**

**Aidə Şirin**

Əzizimiz, sevimlimiz, canımız-ciyərimiz, Əsrin bibisi! Nəslimizin vizit kartı! Əsrin bibisi - üstümüzdən heç vaxt əskik olma – deyirik.

**Rauf qardaşının övladları və nəvələri**

**D**ilarə xanım bir məktəbdir. Bu məktəbin sirrlərini ondan öyrənməyi tövsiyə edirəm. O, insanları qiymətdirməyi, onları yüksəltməyi bacarır. Onda həyata olan eşqə, həvəsə yaxşı mənada dibtə etmək olar. Ona iki bina tikib, Ağa Musa babasını tarixdə 100 bina tikən kimi məşhurlaşdırmasını və özünün 100 yaş yaşamasını arzu edirəm.

**Respublika Qadınlar Cəmçiyyətinin Sədri**
**Bahar xanım**

**G**ördüyüm qadınların içində ən gözəli və milyonçu qızımızın kişi xüsusiyyətlərilə fəxr etdiyimiz Dilarə xanım.

**Rejissor, professor Ramiz Əzizbəyli**

**D**ilarə xanımla tanışlıq mənə bir çox keyfiyyətlər aşıladı: dözümlülük, səbr, təmkinlik və bir də xoş rəftar.
Onun hissləri mənə çox yaxındır, səbəb ana nəslimin başı müsibətlər çəkmiş Cavanşirlər (Qarabağın xan nəsli) nəslindən olduğudur.
Ağa Musa Nağıyevin ruhuna İsmayılın ruhuna qovuşdura bilən Dilarə xanıma Deyirəm: -Kaş ki, bütün müqəddəs insanların Sizin kimi varisi olardı…

**”Zamanın sorağında” kitabın**
**korrektoru, Aliyə Qabilqızı**

## TƏLƏBKAR QADIN

**A**dətən bir yazını yazmaq üçün ilk cümlə daha çətin tapılan, daha məsuliyyətli olur. Ümumən hər hansı fikrin ifadəsi müqəddimədən çox asılıdır. Gərək düşünüb-daşınasan ən müqabil cümləni arayasan, ən əlverişli fikri önə çəkəsən.
**M**ən özümü bu çətinlikdən xilas edib sözümü bir başa, elə ürəyim deyən kimi başlamaq istəyirəm. Çünki haqqında söhbət açacağım adam elə ürək adamıdır. Alicənablığı, ləyaqəti, eyni zamanda cəsurluğu, fədakarlığı və ən əsası inadkarlığı ilə seçilən, tanınan bir xanımdır. Adını, imzasını, soyadı uğrunda apardığı mübarizədə, mən deyərdim ki, mücadilədə tanıda bilib. Məşhur milyonçu Ağa Musa Nağıyevin varisi kimi o kişinin vaxtı ilə tapdanmış hüquqlarının müdaafiəsinə qalxıb.
**B**u sahədə gərgin zəhməti, çabaları yavaş-yavaş öz bəhrəsini verməkdədir. Bakı tarixinə 98 məşhur tikili ilə qızıl həriflərlə yazılan milyonçunun 99 və 100-cü tikilisi onun varisi Dilarə xanım Nağıyevanın (Ağamusa) bu yolda çəkdiyi ağrı-acılar, ortaya qoyduğu bu kitablardır.
Dilarə xanım özünə, sözünə qiymət qoyan bir xanımdır.
Milyonçu nəvəsi olmaq, tarixdə silinməz izləri qalan bir şəxsiyyətin varisi sayılmaq o milyonçunun indi əldə olmayan varidatından da çox qürur hissi yaradır.

Dilarə xanım elə bu qüruru yaşadığı üçün, soyadı uğrunda fədakarlıqla qazandığı uğurları ilə xoşbəxtdir. Bu xanımın canındakı yazıb-yaratmaq yanğısı, həyat eşqi istər-istəməz onunla təmasda olan aadamlara da sirayət edir.
Ədəbi məclislərin birində tanış olmuşuq. İlk tanışlıqdan öz isti, doğma münasibətilə ürəyimdə ayrıca yer tutub. "Ömrün səhifələri" kitabını oxuduqca, onu daha yaxından tanıdım. Bu kitaba ön sözü yazan da mən oldum. Nəcib təbiətinə, böyük ürəyinə bələd oldum. Yazdıqlarının hamısında sanki ürəyinin döyüntülərini eşidirəm. Doğmalara, dostlara həsr olunmuş bu essavari yazılar inanıram ki, hər bir oxucunun ürəyindən olacaq.
Belə xanımlar üçün ad günü var, ildönümü yoxdur.

**Yazıçı, "Ömrün səhifələri" kitabının**
**redaktoru Musa Ələkbərli**

## Ağa Musa Nağıyevdən bir yadigar

Tarixi abidələri, neft səltənəti, sərvətli Xəzəri, gözəl abı-bəhrəli bağları, xəzrisi-gilavarı ilə məşhur şəhərimiz xeyriyyəçiləri bütün varidatını xalqı, vətəni yolunda xərcləyərək ölməzliyə qovuşan milyonçular məhz Abşeronun yetirmələri olmuşlar. Belələrindən olub Ağa Musa Nağıyev.

Onun vətən qarşısındakı xidmətləri göz qabağındadır. Biz yazırıq ki, yadigar qalacaq kitablar gələgək nəsillər tərəfindən oxuyub, öyrənilsin.
Xalqın maariflənməsinə, möhtəşəm binaların tikilməsinə, ölkədə mədəniyyəti səviyyəsinin yüksəlməsinə, ehtiyaclı təbəqəyə maddi yardım ayrılması kimi önəmli sahələrə xüsusi diqqət yetirib Ağa Musa Nağıyev.

Ağa Musa Nağıyevin gördüyü bu işlər əsrlər boyu yaşayacaqdır həyatda. Tiflisdə Mədrəsə, Bakıda Politexniki məktəb tikdirən, Uzaq qərbə çəkilən yola küllü miqdarda vəsait xərcləyən, mexaniki emalatxanalar və Neftayırma zavodunun salınması - onun əməyinin bəhrəsi olub.

Sovetlər dövrünün qanunları milyonçu sahibkarı mənfi obraz kimi yaratmağa çalışsa da, buna nail ola bilmədi. Çünki "xalqın gözü tərəzidir" – demişdir atalar. Xalq heç bir zaman yaxşılıqları, ömrünü xalqın inkişafına sərf edərək əzmlə yaşadanları heç vaxt unuda bilməz.

Ağa Musa bir ömür yaşadı, həyatında keşməkeşli yollar çox oldu. Davamçısı olan nəvəsi Dilarə xanım onun yolunu uğurla davam etdirərək babasını yaşadır həyatda. O, cəmiyyyətdə alim, ziyalı, yüksək mədəniyyətli və alicənab insan kimi qəbul edilir. O, Nağıyevlər nəslinin və Azərbaycanın əsl vətənpərvər, nəcib bir ziyalısı olaraq ölkənin ictimai həyatında qəbul olunacaq bir şəxsiyyətdir.

Gözəl xanım sən həmişə baharsan,

Ağa Musa Nağıyevdən bir yadigarsan.
Nə deyim ki, sənə layiqli olsun,
Gərəkdir ki, misralar qızıldan olsun.

Ey yurdumun nəzakətli xanımı,
Ölkəmizin yaradıcı alimi.
Xeyriyyəçi - milyonçu nəvəsisən,
Candan artıq sevirsən vətənini sən.

Xalqımız da sevir səni ürəkdən,
Baban kimi gözəldir hər əməlin.
Çünki belə qurulmuşdur təməlin,
Sən şəxsiyyət övladısan, fəxr elə.

Deyək - yurdun şərafətli xanımı,
Azərbaycanın ləyaqətli alimi.
Yaz ətrinlə dalğalansın qoy Xəzər,
Yüz il yaşa, xöşbəxt ömür sür, gözəl!

**Azərbaycan Ziyalıları - II hissə, 2011il**
**Baş redaktor, Maral Əliqızı**

## SEVİNCİNİ SEVİNCLƏ BÖLÜŞDÜRƏN...

(Mərcan Şahbuzlunun yubileyinə həsr olunur)

Neçə illərdir ki, Mərcan xanım ilə tanışam. “Qurbani” ədəbi məclislərinin birində şərəfinə verilən ziyafət zamanı onu daha yaxından tanıdım.

Aramızdakı isti münasibət, sözün əsl mənasında “məhəbbətə” çevrildi. Övladlarına, ən əsası ciyərparəsi Araza olan qayğı və sevgisi onu mənə lap yaxınlaşdırdı.

Ana qayğısı ilə dolub - daşan qəlbin döyüntülərini şeirlərində hiss etdim:

Gülər gülsən həyatım,
Sevinc qolum-qanadım,
Bu dünyam-kainatım,
Səmam, Arazım mənim.

Qorxmaz, cəsarətli bir xanım dayanır qarşımda. Adətən qadın-başqa qadını tərif etməyi və onun böyüklüyünü göstərməyə qısqanclıqla yanaşır. Mən isə bundan qürur duyuram.

Qələm və ürək sahibi olan Mərcan xanım yazıları ilə özünü təsdiqləyənlərdəndir. Düşünürəm ki, qələmə aldığı misralar onun insani xüsusiyyətini təsdiqləyir.

Naxçıvanın Şahbuz kəndində anadan olan bu cılız qadının yazdıqlarını

“Nəqşi cahan” adlandırsam, yanılmaram. Şahbuzlu təxəllüsü ona çox yaraşır. Vətənpərvərlik hissiyatı ilə coşub – daşan Mərcan Şahbuzlunun saçlarına düşən qar danələri də vətəpərvərlik nişanəsidir. Mərcan xanımın hünər və azadlıq ruhda yazıları Bakıda da çoxlarının diqqətini cəlb etdiyindən, onun kimlər tərəfindən sevildiyi hesaba gəlməzdir.

Azərbaycanın döyünən ürəyi olan, işğal altında əzilən torpaqların azad olunacağına əmin olan Mərcan Şahbuzlu, hamını səfərbərliyə çağırır sevgi dolu şeirlərilə.

Azərbaycanın bayrağına həsr etdiyi: -Üç rəngdə təmsil olan, sayı var - deyən, Mərcan xanım hər birimizi düşünməyə səy edir.

Bəlkə də bütün bunların nəticəsidir ki, indi tədbirlərdə onun şeirləri sevilə-sevilə oxunur, bəstəkarlar ona musiqi bəstələyir, ictimai təşkilatlar isə onun ürəyini mükafatları ilə oxşayır.

O, yaxınlarda daha bir şərəfli ada layiq görülüb: Beynəlxalq Sülh Federasiyasının “Sülh Səfiri” Diplomu ilə mükafatlandırlıb.

Deyirlər ki, qadının yaşını sormazlar.
Mərcan xanım isə 55-dən qürur duyur. Çünki qar da uca dağlara yağır. Mərcan xanımın ucalığı onun saçlarına düşən “qardır”.
Varını verən utanmaz, deyiblər.

Vətənpəvər, dilini və dinini sevib, bunları gənclərə aşılayan Mərcan Şahbuzlunu -Yubileyi münasibətilə - “Vətən naminə” Ağa Musa Nağıyev Diplomu ilə təltif etdiyimdən qürur duyub, ona “Vətən ruhu” nun hər zaman cavan qalmasını diləyirəm.

## Çətinlikdən qorxmadan...

(Dilarə xanıma həsr olunur)

Baba yoluna doğru
Dönmədən yol gedirsən.
Çətinlikdən qorxmadan,
Min sınaqdan keçirsən.

Dəyəri qorumaqçın,
Ömrünü şam edirsən.
Ay sözləri lətafət,
İşin – gücün şərafət.

O, işdə - əməlində
Sevindirir hamını.
Müqəddəs addımıdır,
Babasının davamı.

Şair Mərcanın elə

Coşdu ürək ilhamı
Bacısı Dilarəyə
Verdi xeyir – duanı.

**Şairə-Publisist, Mərcan Şahbuzlu**

## Yalnız bir telefon zəngi

– "Alo! Aloooo! Eşidirəm, danışın!
Salam! Bağışlayın, Dilarə Nağıyevadır?
Bəli. Kimdir danışan?
Danışan Turaldır. Köməyinizə ehtiyacım var, Dilarə xanım....
Oğlum, kömək etməyə hazıram. Cavanlara əl tutmaq hər birimizin borcudur!
Bu səmimi dialoq bir qədər sürdü. Kim bilirdi ki, bunun nəticəsi olaraq yaranan münasibət gələcəkdə əsl ana-bala sevgisinə çevriləcək?"

Tural deyir: Altı ildir ki, tanıdığım Dilarə xanım mənim çətin və şad günlərimdə yanımda olur, məni dəstəkləyir, çətinlikləri mənimlə birgə fəth edir. Mənəvi borcumu bildirmək üçün adi sözlər kifayət deyil! Gözəl balaları Samir və Könülü mənim üçün qardaş və bacı edən bu Anaya – mamoçkaya təşəkkürümü bildirirəm!

Anacan, Sizin ad gününüzü təbrik edirəm! Uzun ömür, can sağlığı arzulayıram! Hər zaman var olun! Səsiniz ucalardan gəlsin! Yaşayın, sevin, sevinin. Biz sizinləyik! Ad gününüz mübarək!!!

... Artıq 20 ildən yuxarıdır ki, mənim bir amalım var, bu Ağa Musa amalıdır! Söhbətimin əvvəli də axırı da onunla bağlıdır. Ailə üzvlərim uzun müddət susmağa məcbur oldu. Unudurduq tariximizə təkan verən, eli-obası üçün varlığından keçən Ağa Musa Nağıyevi.
İndi onun etdiklərini qabartdıqca, hörmətimin də artdığını hiss edirəm.
6-7 il bundan öncə bir gənc mənə telefon zəngi açdı. Çox həyəcanlı idi. Dedi ki, 3 gündür məni axtarır, ona Azad Azərbaycan tele şirkətindən Ağa Musanın nəvəsi Dilarə xanımı tapmaq və babası haqqında yazı hazırlamağı tapşırıblar. Bayram günlərinə düşdüyündən iş günü cəmi 2 gün olduğundan və məni tapmaq üçün qısa vaxt məhdudluğu onu çox narahat etdiyini söylədi. Danışıq zamanı onun necə məsuliyyətli olduğnu hiss etdim.
Görüşdük. Yeniyetmə bu gənc ilk görüşdən çox xoşuma gəldi. Bu Tural Orucov idi. Onun hündür boylu, mavi rəngli gözləri , utancaq, lakin ötkəmliyi məni ilk görüşdən özünə cəlb etdi. Özü haqqında məlumat verdi ki, Milli Aviasiya Akademiyasının 3-cü kurs tələbəsidir, əlaçıdır, tam rus dillidir, lakin jurnalistikaya və televiziyaya böyük həvəsi olduğundan, azərbaycan dilində çətinlik çəksə də, müsabiqəyə qoşulub, televiziyada işləmək üçün Ağa Musa Nağıyev haqqında müsahibə hazırlamalıdır. Söhbətləşdik, mənə verəcəyi sualları hazırlayıb, cavblandırdım. Müsahibəni diktafona yazandan sonra şəklimi də onunla çəkdirdim ki, əlində əsas olsun. Mən artıq başa düşmüşdüm ki, "dayısı" olmadığından bu

boyda Bakıda məni axtarmağı ona həvalə ediblər ki, sonda rədd cavabı vermək asan olsun.
Amma tale onun üzünə güldü və yol açdı. Bilmirəm bəlkə də şeirdə deyilmiş kimi - bütün bunlar yarı görmək üçün bir bəhanə idi. Çünki bizim görüşümüz gəncin taleini bütövlükdə dəyişdi.
Müsahibənin tam hazır olmasına baxmayaraq, onu çox incitdilər. Onun bu sənəti nə qədər sevdiyini anlatdımsa da, Turalın bu şirkətdə işləməyi uzun çəkmədi. Oradakı hərc-mərclikdən sözün əsl mənasında şoka düşdüm.
Tural isə gecələr yatmayıb, efir haqqında düşünür, özünü ancaq tele ekranda görürdü.
Özüm də hiss etmədən ona “dayılıq” etməyə başladım. Onu bu işdən uzaqlaşdırmaq üçün çox çalışıb başa saldım ki, tutduğu mövqe intriqalar ilə bağlıdır, çətinliklər çox olacaq. Amma o fikrindən dönmədi, mən də onunla addımlayıb, ona dayaq olub, ona azarkeşlik və hamillik etdim...
Anasına mama, mənə isə mamoçka deyir o gündən Tural. Ailəmin, qohumlarımın sevimlisinə çevrilib bu gənc. Mənim mənəvi övladımdır.
İctimai tele şirkətinə işə düzəltdim onu. Məsləhətlərimə qulaq asıb, qısa müddətdə hamının hörmətini qazandı. Turalın bəxti gətirdi, buradan seçim -müsabiqə yolu ilə Azərbaycan Dövlət Televiziyasına - böyük yola dəvət aldı. “Xəbərlər” verilişlərində ilk dəfə onu görəndə, həyəcandan qulaqlarım tutulsa da, dodaqlarının tərpənişindən nə danışdığını başa düşürdüm. Hər ikimizin sevincinin həddi-hüdudu yox idi. Beləcə Dövlət televiziyasında ona yol açıldı. Yeri gəlmişkən qeyd etməliyəm ki, müsabiqə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilirdi.
Amma intriqalar, göz götürməmək burada da baş alıb, gedirdi. Söhbət əsnasında Tural bəzi məqamları məndən gizlətsə də, nəzarətimi onun üzərindən çəkmirdim. Qulağıma çatdı ki, onu efirdən uzaqlaışdırıblar. Qanadı sınmış quşa bənzər Turala indi mətn hazıralamaq tapşırılmışdı. Tələffüzün ekran üçün deyil! –deyilər ona. Bunu da sübuta yetirdim. Xalq artisti, aparıcı diktor, professor Rafiq Hüseynov onun nitqinin qüsursuz olduğunu təsdiqləyəndə, əvvəlki fikrimə qayıdıb, Turala intriqalar quyusuna düşdüyünü bir də başa saldım. Hayıf ki, hər zaman ürəy ilə bacarmaq olmayır. Tural başqa yol görməyirdi. Ancaq televiziya!
İnadından dönmədi. Düz də etdi. Çünki bu onun uşaqlıqdan arzusu olub.
Anası Tamara xanım ilə söhbət edərkən bidim ki, Tural hələ kiçik ikən həyətin uşaqlarını başına yığıb, səhnə düzəldib, şou təşkil edirdi. Vay o gündən ki, uşaqlardan kimsə ona ya irad tutar, ya da ki, qulaq asmazdı. Hə, onda nələr baş verirdi, təsəvvürünüzə özünüz gətirin....
Azərbaycan Televiziyasının rəhbərliyinə ona qarşı olan haqsız münasibətləri başa salanda artıq geç idi, onu sevdiyi işindən uzaqlaşdırmışdılar.
Bu proseslərlə yanaşı Tural Ali Aviasiya Akademiyasını “Qırmızı Diplom” ilə bitirib, Kömrük işinin təşkili ixtisasına yiyələndi. İndi o, əsgəri xidmətə gedib, Vətənə borcunu verməyə hazırlaşırdı. Məni isə vicdanım rahat buraxmayırdı ki, bu qədər haqsızlıqlar görən Tural vətəndən uzaq düşərkən, vətənsiz olduğunu hiss edə bilər.

Tural inadkarlıq etsə də, bütün bu işlərdən bixəbər olan Tele şirkətin Baş direktoru –Arif Alışanov ilə görüşdüm. Axı televiziyanın kiçik rəhbərliyinin sözlərinə görə Tural böyük məbləğdə borc edib, 2 kostyum, 5-6 köynək, saysız-hesabsız qalstuklar almışdı ki, hər verilişin gedişatına görə diktorun görkəmi "gözəl" olmalıdır. Amma aldığı əmək haqqı borcu ödəməyə deyil, gündəlik çörəyə və yol puluna da çatmayırdı.

Burada Mirzə Ələkbər Sabirin sözlərinin lap yeridir: - "Millət necə tarac olur, olsun, nə işim var, düşmənlərə möhtac olur-olsun, nə işim var"!

Sevdiyi işindən uzaqalşdırıan, maddi zərər çəkən, əsgəri xidmətə gedəcək Turalı yaxşı başa düşürdüm. Mən doğrudan da indi iki deyil, üç övlad anasıyam.
Nə yaxşı ki, şirkətə getdim. Düz deyiblər, gəzən ayağa daş dəyər.

Turalın fəaliyyətini izləmək artıq qanıma işləmişdi. Məni belə bir addım atmağa onun tərbiyəsi, inadkarlığı, bacarığı, mədəniyyəti və savadlı olması məcbur edirdi.

Ümumiyyətlə mənim belə bir şüarım var ki, kimsə mənim ürəyimə yatırsa, istərəm ki, hamı onu sevsin.
Amma telestudiyaya getməyimə heç cürə razılıq vermirdi Tural. Alçalmağımı istəmirdi. Başa düşmək istəmirdi ki, haqqı nahaq edənləri cəzalandırmaq lazımdır.

Gəncə qabiliyyət və istedadına görə "bəraət" qazandırdım. Rəhbərlik ona vurulan maddi ziyanın kompensasiyanı ödətdirib, Turalın çoxdan həsrətində olduğu - "Azərbaycan televiziyasının aparıcı diktoru – jurnalist" vəsiqəsini də ona təqdim etdı.
Tural indi göylərdə uçurdu. Bu da bizim qələbəmiz! Doğru deyiblər, haqq nazilər, amma üzülməz!
Tural əsgəri xidmətdən qayıdıb, Az TV-də işini davam etdi. Yenidən bəxt ulduzu onun üzünə güldü...
2011-ci ilin yayında, Novxanı bağında istirahət edirdim. Telefon zəngi gəldi, danışan Tural idi. Çox həyəcanlı idi. Düşündüm ki, yenə nə isə olub.
"Mamoçka, Moskva Ali Jurnalistlər məktəbində təhsil almaq üçün seçilənlər siyahısında altı nəfərdən birincisiyəm, nə edim, çaşıb qalmışam"- dedi.
Bir kəlmə ilə qərar verdib, həm də onu ürəyləndirdib, dedim – "UÇ"! Yəni düşünmədən razılıq ver! Tural, bu bir şahlıq quşudur, qonub sənin çiyninə -dedim.
O, belə də etdi. Yeri gəlmişkən qeyd edim ki, seçim və qərar yenə də Ölkənin birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilirdi.
Allah hər şeyi görür və özü hər işi düzüb, qoşur. Yetimin Allahı isə hər zaman başının üstündədir. Qismət, tale ancaq Allahın əlindədir! Özünün dediyi kimi yerdə də mən ona dayaq oldum. Yaxşılara yaxşılıq etmək, hətta pislərə də yol göstərmək mənim amalımdır. Tural isə mənim çox istədiklərimdəndir.
Tural bu təhsilini də əla qiymətlərlə başa vurdu və Bakıdan gedən tələbələrin seçilmiş diplom işləri əsasında böyük səs-küyə (sözün yaxşı mənasında) səbəb olan Gennadiy Bordyuqovun redaktorluğu ilə "Современное Медиапространство Азербайджана" kitabı da Moskvada işıq üzü gördü. Tural Orucovun yazdığı fəsil- "Азербайджанское телевидение: Итоги независимого существования" adlanır. Kitabın təqdimatı keçirilən Bakı Beynəlxalq Mətbuat Mərkəzinə Azərbaycanın Moskvadakı Fövqəladə Səfiri Polad Bülbül oğlu, Rusiyanın Azərbaycandakı Səfiri Vladimir Doroxin , kitabın sponsoru Rusiyada –

“Azərbaycan Milli Mədəniyyət Təşkilatı”nın Sədri- Rəhimov Əlizaman Sabir oğlu da dəvətli idi. Turalın mənəvi anası kimi mən də dəvətlilər sırasında idim. Çətinliklərlə dağ yaran mənim Turalımın səsi görün indi haralardan gəlir. Hələ bu harasıdır? Mən onu mütləq daha yüksək zirvələrdə görəcəyəm! ...

## ÇİNAR HƏSRƏTLİ GÜLNAR

Prezident apparatında 3-4 il bundan əvvəl rastlaşdım Hicran xanımla. Haqqının tapdalandığından şikayətlənirdi. Çox maraqlıdır, biz həkim şikayətinə öyrənməmişik. Çünki onlar hər zaman bizim şikayətlərimizə çarə tapır.
Amma onun da dərdinə çarə tapıldı.Hicran xanımın haqqını tapdalayanlar cəzalarını aldılar. Mən isə özümə bir dost da tapdım. Özü kimi səsi də, danışığı da, söhbətləri də məlhəm kimi insanın beyninə hopan bir dost!
Qarabağdan olduğunu bisəm də, amma bu qədər dərdli olduğunu bilmirdim...
Hicran xanım, qoruyun özünüzü gözdən,dedim!
Allah da deyir ki, gözdən xəbərim yoxdur. Bəxt, tale, qismət deyilən anlamalara inanın!
Hicran xanımın həyatı qədər, həyati də gözəl olub. Onun Həsən müəllimlə olan sevgi-məhəbbətinə çoxları həsəd aparırdı. Hələ ucu-bucağı ölçüyə gələ bilməyən bağlarından söhbət açmıram.
Həsən müəllim deyəndə, yalnız bir insan, məhz bu ailədə yaşayan insan nəzərdə tutulurdu. Onun qazandığı hörmət artıq Ağdamdan kənarlara çıxırdı.
Beləcə Ağdamda,məhəbbət dolu evdə, mehriban birailəçox qısa bir ömür yaşadı. Həsənli Hicran və bir də ciyərparələri Arzu və Gülnar qızları.
Düz deyirlər, qorxun gözdən, ondan Allahın xəbəri yoxdur!
Naz-nemət içində boy atan Gülnar, Həsənin yadigarı, bu gün ərkəsöyünlü günləri üçün çox darıxır. Ağdamda bağça -bağlarındakı quşların cəh-cəhi üçün darıxır. O, bu gün Bakı bağlarında, parklarda da “Çinar”ları axtarır, 1992-ci ildə itirdiyi çinarları. Arzu isə yaşca bacısından fərqli olduğundan özlüyündə bu hissləri boğmağa güc tapırdı. Balaca Gülnar bu dəhşətləri heç cürə unuda bilmirdi.
1992-ci ildə fevralın 26-daXocalıya təcavüz oldu , həmin gün Ağdam boşaldı...
Bu ayda Həsən müəllim həyatı ilə vidalaşdı.
Bütün bu unudulmaz yaralar balaca Gülnarın qəlbində çox dərin izlər buraxdı. Onun dünyaya göz açması da, atası ilə vidalaşması da didərginliyi də fevral ayına təsadüf etdi. Fərq, yalnız illərdə idi.
Qızı Gülnara: – Bağımızda təkcə “Xarı bülbül” yetişdirilməyib, əyər ömür vəfa etsə, sənin eşqinə bu çiçəyi də mütləq yetişdirəcəyini- deyən Həsən müəllim, yurdlarından didərgin düşəcəyini sanki duyurmuş.
Ağrılı günlərin birində atasının sevinərək :–“ Nə yaxşı ki, bağçamızda Şuşanın Şah çiçəyi bitmədi, onu da Ağdam kimi itirsəydim, bu ən ağır zərbə olardı mənim üçün” - dediyi bu sözlər, Gülnarın qəlb dəftərindən bu gün də silinməyib.
Həsən müəllimi xəstəlik deyil,Vətən dərdi yıxdı. Gözünün önündə Qarabağın Cənnət guşələri bir-birinin ardınca əldən gedirdi. Həsən müəllim dözür,bədən zəifləsə də döyüşürdü. O, torpaqların geri qaytarılacağına çox inamlı idi. Xəyalən

bağlarını, səmada sanki vəfalı çinarların budaqların sıxlığından yaratdığı tavana baxır,onların elə bil biri-birinə gözaydınlıq verib, öpüşdüyünü təsəvvür edirdi. Beləcə o, hər dəfə səmalara baxdıqca,vəfalı çinarlar gözünün önündən çəkilmirdi. Əsgəranın abu-havasını, ətrini duyurdu. Arzu qızından da nigaran idi. Elçilər qapını kəsdirdikcə Həsən müəllimin də elə bil nəfəsi kəsilirdi. Bəzən ona elə gəlirdi ki, Arzu qızına həsrət qalacaq.
Vətən və ailə onun üçün danılmaz bir varlıq idi. 1997-ci ilin fevralın 13-də bütün bu xəyallara və fikirlərə son qoyuldu. Bu tarixdə Həsən müəllimin ruhu xəyallara qərq oldu.

Beləcə, gənc yaşlarında ailə xoşbəxtliyinin simvolu olan Hicran xanım tək özü deyil, Arzusu və Gülnarı da başsız qaldı. İndi balaca Gülnar məktəbdə “atasızlar” cərgəsində boynu bükülü dayanır...
...Hicran xanım! Yeriniz, yurdunuz dəyişsə də, amma nostalji hissləriniz dəyişməzdir.
Hicran xanım bu gün də öz ailəsi haqqında söylədiyi hər hansı bir cümləsinin axırı –olub, ya da ki, vardı” - kəlmələrilə bitir.
13 yaşında olduğu kimi Gülnar bu gün dəAğdamı xatırlayarkən quşların cəh-cəhini orkestrin ifasına bənzədir, çayların şırıltısını – simfonik əsərə oxşadır, xəyallardan ayrılarkən təəssüflənir.
Axı Gülnar istəsə də dəyişə bilməzdi. Gördüklərini bütün uşaqlar kimi kağıza, mürəkkəbə etibar edib, yazmadı, hafizə dəftərinə qələmsiz həkk etdi. Sözün əsl mənasında xatirələrə çevirib, zamanla yaşatdı.
Belə bir deyim var ki, zaman özü də müalicədir. Amma ... Hicran xanım nə qədər çalışdısa da...
Gülnar böyüdü, amma o dəhşətli fevralları unuda bilmədi. Bəli, həkim müalicə edir, zaman isə unutqanlığı sevməyir!
Burada Mikayıl Müşfiqin sözlərinin yeridir:

Yenə o bağ olaydı, yenə yığışaraq siz,
O bağa köçəydiniz.
Biz də muradımızca fələkdən kam alaydıq!

Gülnar anadan olduğunu, Ağdamın zəbtini, atasını itirdiyini məhz fevral ayına təsadüf etdiyini yenə də təəssüflə vurğulayır.
O, 13 yaşında ikən fevralın 13-də atasını itirdiyindən, bu rəqəmdən həyəcanla danışıb, el arasında işlənən “nəs rəqəm”in düşərsiz olduğunu vurğulayır.Dəfələrlə keçmişindən, acılı – ağrılı günlərdən danışarkən, Ağdam ilə Ağcabədi arasında olan30-40 dəqiqəlik yolu 4 saata gəldiklərini həyəcanla qeyd edir. Hadisədən 20 il keçsə də, beyninə həkk olmuş və heç bir vasitə ilə silinməz uşaqlıq xatirəsini bu gün də həyəcansız yad edə bilmir Gülnar.
Gülnar! Bəlkə də Allah-Taala bütün bu hadisələri eyni aya salıb ki, hər dəfə ad gününü qeyd edəndə -atan kimi doğma yurdun da heç vaxt yaddan çıxmasın. Əvvəldə nahaq yerdən qeyd etmədim ki, qorxun gözdən , Allah-Taalanın gözdən xəbəri yoxdur. Özünüzü gözdən qoruyun! Gülnarla söhbət edərkən elə bil gözlərindən oxudum bu yazını. O, sanki deyirdi: - “Torpaqlar qaytarılarsa, Bakıdan Ağdama pay-piyada yol gedərəm , təki Çinarların öpüşüb, pıçıltılarını eşidim”. Əminəm ki, sevinərək onlar da deyəcəklər: - “ Biz inanırdıq ki, Gülnar qayıdacaq.

O zamankı balaca qızcığaz indi həkimdir. O, bizi də müalicə edəcək, çünki o hələ 13 yaşında ikən bizimlə danışıb, halımıza yanırdı."
Birdən Gülnara baxdım, gözlərindən oxudum : - "Bəli, o zaman atamın ruhən yaşadığını hiss edərəm".
Hicran xanım! Bir anlığa düşünün ki, bu gün əldə etdiyiniz nailiyyətlər, işinizdə çaldığınız qələbə, Arzu qızınızdan gördüyünüz bəhrəniz - həddi buluğa çatmış nəvələriniz, Gülnarın sizə olan sevgisi-məhəbbəti, xoşbəxtliyi, ən nəhayət artıq bir ildir ki, bir ulduz kimi parlayan Aylanız - Çinar həsrətlinizə son qoymasa da, yeni həyatın başlanğıcıdır. Artıq hər işinizin əvvəli kimi sonu da Ayla ilə bağlıdır.Ayla incə çiçəyiniz, gülünüz, dövlətiniz, bu gününüzün və sabahınızın simvoldur. O, mütləq ulularının yolunu davam edəcək, ağıllı və zəkalı olub, anası Gülnar kimi doktoranturanın pillələrini fəth edəcək.
Çünki onun ana babası, Qarabağın Cənnət guşəsi olan Ağdam həsrətli Həsən müəllimin ruhu bu ailəni bütövlükdə izləyir və qoruyur.
Bu yazı da 2013-cü ildə yazıldı. İnanıram ki, bundan sonrakı 13-lər Sizin ailəyə ancaq uğur gətirəcək. Nəsdən çıxmağınızı arzulayıram.

## MÜASİR DÖVRÜN "NABAT XANIMI"

**Böyük düşüncələr böyüklük iddiasında olmasalar da,**
**zaman onları böyüdür! Nə yaxşı ki, həyatda yaxşı insanlar var,**
**yoxsa tək olardıq yaman əlindən-deyir, ondan xeyir-dua alanlar.**

**H**əyatımızı yaxşı insanların siması daha da bəzəyir. Gülnarə xanımın həyatda tutduğu amalı buna xidmət edir.
**X**eyirxah insan, ali hisslərlə yaşayan nəcib azərbaycanlı xanımı, iş adamı Gülnarə Əhmədovanın dünyasını müxtəliflik və təzadlar bəzəyir.
**S**anki onun ömür kitabının səhifələrini vərəqlədikcə zaman-zaman etdiklərinin şahidi olursan. Düşünürsən ki, bunlar onun insanlara olan sevgi-məhəbbətindən irəli gəlir? Bəlkə də...
**Ş**ahidi olduğum anları xəyal sanıb, inanmadım. Düşündüm ki, cavan da olsa, əməllərinə görə ona 60-70 yaş vermək olar. Sən demə cəmi-cümlətanı 47-dir yaşı.
**O,** xeyirxahlıq etdiyi insanların yaşantılarını özününki kimi qəbul edir.
Gülnarə xanım həyat hadisələrinə münasibətdə çox hökmlüdür. İnsanların həyat qayğıları, həyat tərzi onu hər zaman düşündürür. Bu onun həyatının ali amalı-həyat kredosudur.
**K**önül oxşamaq, qəlb sevindirmək onun həyatının ana xəttidir. Belə cümlələrə əsərlərdə rast gəlmək olur. Mən isə onun məhz "ana xətti" lə üz-üzə -gəlib, bəzi hadisələrin şahidi oldum.
**N**ə yaxşı ki, həyatda yaxşı insanlar var, yoxsa tək olardıq yaman əlindən-deyir ondan xeyir-dua alanlar.
**O,** əməllərilə insanı düşündürə bilir. Əyər gördüyi işlər saya-hesaba gəlmirsə, deməli o fərqli bir insandır. Etdiklərini reklam etməyə qadağa qoysa da, 2013-cü il Məhərrəmilikdə "Aşura" günüdə İmişlinin Telişli kəndində məsciddə gördüklərim röya deyildi. Gerçək idi.
Elə gördüklərim məni bu yazıya əyilməyə yönəltdi.

**1**993-cü ildə İmişlinin Telişli kəndində tikdirdiyi məsciddən gələn gəlir əhalinin ehtiyacına sərf olunur.
1995 –ci ildə Gülnarə xanım Məşhəd ziyarətində olub. İslam dünyasına bağlılıq onun soy kökündən gəlir. Nümunəvi ailə başçısıdır.
**S**ahibkar, xeyriyyəçi, milli mədəni dəyərlərin tədqiqatçısı, elin-obanın yanında olan bir xanımdır. Zərif cinsin nümayəndəsi olub, belə bir yükü çiynində gəzdirə biləcək qabiliyyətə malikdir. Sinəsini "Mehriban ana" medalı bəzəyən bu qadın doğulduğu torpağı və buranın insanlarını çox sevir. Bu sevgini bizlərlə də paylaşır. Valideyin himayəsindən məhrum olan uşaqlar, qüsurlu uşaqlar, kimsəsiz-tənha insanların taleyi onu çox düşündürür. Qocalar və kimsəsizlər evində onu görənlər doğmaları kimi qarşılayır.
**B**u yeni il axşamını da Gülnarə xanım ailəsi ilə birlikdə onların yanında keçirdi.
**İ**nanıram ki, saat 12-ni vuranda onların gözlərində gördüyü sevinc Gülnarə xanımı bütün il boyu müşayət edəcək...
**O,** çoxşaxəli düşüncələri ilə böyüklük iddiasında olmasa da, zaman onu böyüdür!
**G**ülnarə xanımın **"Dədə Qorqud"** Fondunun mükafatına layiq görülməsi də geniş dünya məkanında azərbaycanlıların və həmvətənlərimizin birləşməsi kimi xeyriyyəçi bir məqsədə xidmət etdiyini təsdiqləyir. Belə mükafatların uzun ömürlü və axarıncı olmasını arzuladım. Çünki onun arzuları tükənməzdir, sonsuzdur.
**B**elə bir istəy keçdi içimdən - Gülnarə xanım müasir dövrümüzün əsl "Nabat xanımı"dır.

## İtalyansayağı həyət

**B**akını tərk etdiyi vaxtdan 15 ildən şox keçsə də, onun cənazəsi vətəninə gətirildi. Həyat yoldaşı Sədaqət xanımın açdığı telefon zəngindən Vəli müəllimin vəfatı haqda xəbər tutdum. Xəbər məni sarsıtsa da, cəsədin Bakıya gətirilməsinə sevindim. Sordum:- Sədaqət, çox yaxşı iş görmüsən, çətin deyildimi sənin üçün? Dedi: Başqa qərarım ola da bilməzdi! Onun vətəni Azərbaycandır. Burada böyüyüb, boya-başa çatıb, suyunu içib, çörəyini yeyib, həyatda yüksəlib. Dedim:- Əhsən sənə! Ananın südü sənə halal olsun! Əlavə etdi ki, anamın qəbrinin yanında, Buzovna kəndində onu dəfn edəcək, axı Vəli müəllimin heç kəsi yoxdur. Tək qalmasın. Dedim: Əhsən sənə, Sədaqət!

Bir anda gözümün önündə birgə yaşadığımız həyətimiz canlandı. Keçmişləri xatırladım. Yaddaşımda xatirələri varaqladım....

Həyətimiz köhnə tikililərdəndir. İki mərtəbəli binada çox otaqlı mənzillər vardır. Hələ 1960-1970-ci illərdə məşhur Sovetski küçəsinin dağlıq məhəlləsindən 2 tin aşağı Ketsxoveli 28 antikvar (qeyri-adi) sakinlərilə bu ətrafda çox məşhurlaşmışdı. Binanın özü –özlüyündə qəribə tarixi var. Bu barədə az sonra...
Köhnə sakinlərdən anam Zəhra, əmidostum Kürsüm xala, hamının bibi deyə müraciət etdiyimiz Sona xala və Ağa Musanın vaxtı ilə xadimələrindən olan Dora

İvanovna bu həyətdə yaşayıb. Sonradan həyətimizdə Səmayə və Dilşad müəllimə, Tosya (Yefrosinya), Şura (Aleksandra), Dusya (Antonina) və Jenya və bir də əsərin aparıcı qəhrəmanları Mələk və Firəngiz xalalar yaşayırdı.

Zəhra ilə Kürsüm xanımlar hərdən qohum olduqlarını unudur, biri-biri ilə gah dalaşır, gah da dostlaşırdılar. Zəhra xanım milyonçu Ağa Musa Nağıyevin gəlini olması ilə öyünürdi. Kürsüm xanım isə qaynanası milyonçu Şəmsi Əsədullayevin qızı Xədicə xanım və qaynatası Ağa Musa Nağıyevin qardaşı oğlu Ağa Tağı ilə öyünürdi. Atalar misalı var ki, qayın arvadlarının (qayınxatınların) hətta sandıqdakı paltarları da dalaşır. Amma bu xanımların dava-dalaşlları uzun sürməyirdi. Çünki onlar can bir, qan bir idilər. Beləcə bu qayınarvadları nə az, nə də çox düz 50 il birlikdə yol getdilər, bir həyətdə yaşadılar.

Mən böyüyəndə başa düşdüm ki, onların arasında "dava -dalaşları" salmaqda baş rolun ifaçısı Şura xala idi. O, milliyyətcə rus olduğundan və guya "mədəniyyəti" yüksək olduğundan, mədəni dildə desəm, saman altından su yeridirdi. Şura xala həyətdəkilərlə ayrı-ayrılıqda iş aparırdı. Sonra isə iş planının baş tutduğuna sevinir kənardan onları müşahidə edib, yalandan başını bulayıb, guya narazıçılığını bildirirdi ki, görün, heç bir şeiyn üstündə dava salırlar. Amma bütün bunlara baxmayaraq, bizim həyətdə hər zaman qaynar – gözəl həyat hökm sürürdü.

Bu binanı Ağa Musa Nağıyev 1903-cü ildə oğulluğu Fərəcin – atamın anadan olması münasibətilə tikdirmişdi. O, hər iki övladını - qızı Ümmül Banunu və oğlu İsmayıl erkən itirən Ağa Musaya qardaşı Ağa Əli yenicə anadan olmuş oğlu Fərəci pay vermişdi. Məhz bu səbəbdən anam Zəhra xanım (Fərəcin həyat yoldaşı) həyətdəkilərin başında necə deyərlər "qoz sındırırdı".

Düşünməyin ki, "qırğınlar" nə isə mühüm bir məsələ üstündə düşürdü, xeyir, əsl məsələ də elə onda idi ki, çox cüzi bir şeyin üstündə düşən qalmaqallar idi. Məsələn: paltar qurudulan zivə (ip) üstündə qır-sındır salan qonşuları 1-2 saatdan sonra tanımaq olmurdu. Axşam üstü, ələlxüsus yay günlərində küsülülərdən kimisi samavar qoyub, kömür salır, kimisi meyvə-şirniyyat, kimisi mürəbbə və bişmiş gətirirdi. sonra süfrə salınır, çay dəstgahı başlanırdı. Bir də görürdün ki, bir süfrə azlıq edir. Mələk xanımın həyat yoldaşı, həyətimizin qaymaq kişilərindən olan- Nadir həyətə televizor çıxarırdı (bu nadir hal sayılırdı). Şən zarafatlar, söhbətlər gecə yarısınadək davam edirdi. Səhərki əhvalatdan əsər-əlamət qalmırdı. Belə vaxtlarda qardaşım Çingiz deyirdi ki, küy-kələyli qonşulardan ibarət olan bir italyan filmini xatırladır həyətimiz. Sonradan gənc nəsil həyətimizi "İtalyansayağ həyət" adlandırırdı.

Bütün buhlara baxmayaraq, həyətin sakinlərində kin-küdurət yox idi. Daha çox saflıq hiss olunurdu. Allah eləməmiş əyər birinin atalar demişkən burnu qanayardısa, o zaman hamı birləşib, biri-birilərinə kömək əlini uzadırdılar.

O zaman bizim nəsildən (1930-1945) olanlar qonşuların səhfini görür, hərə öz valideyninin taqsırını ona başa salmağa çalışırdı.

Mən işdən qayıdarkən Mələk xanım ( 15 ildən artıqdır ki, o, ailəsilə birlikdə Hollandiyada yaşasa da, bizimlə əlaqə saxlayır) qarşımı kəsib, anamdan şikayət edəndə, hər ikisində nələr olduğunu bilərəkdən, məndən inciməsin deyə, anamın yaşca ondan böyük olmasını vurğulayıb, "taqsırından keçməsini" məsləhət

görürdüm. Səhərdən yolumu gözləyən və məsələnin sülh yolu ilə həll olduğunu görən Zəhra xanım belə hallarda daha da coşurdu. Ərkəsöyün anam Ağa Musanın gəlini olduğundan qürur duyurdu, öyünürdü. Oğul istərdim ki, onun qarşısına şıxsın. Bax, beləcə bu həyətdə həyat öz axarı ilə gedirdi.

**Vəli müəllimin bu həyətə gəlişi**

**H**əyətdə yaşayan Sona bibi axır vaxtlar həyatdan küskün idi. Yeganə oğlu Arif Almaniyada dünyasını dəyişdiyi gündən, yaşamaq istəmirdi. 1970-72-ci illər idi. Tale Vəli adlı bir gənci kirayədə qalmaq üçün bu həyətə -Sona bibinin yanına gətirib çıxarması onu həyata qaytardı. O, sanki yenidən oğul tapdı. Onun gülər üzünü görən qonşular da sevinirdi. Çünki Sona bibi indi tək deyildi. Doğrudan da Vəli tərbiyəsi və mədəniyyətilə dısa bir vaxtda "İtalyansayağı həyətin" bütün sakinlərinin hörmətini qazandı. Vəli səhər işə gedib, axşam evə döndükdə təhsilini artırmaqla məşğul olurdu. Qonşular isə "öz işlərilə" məşğul idilər. Qısa bir zamanda Vəlinin haqqında çox geniş dosye – məlumat yığıb,indiki dil ilə desək, "Sivi" hazırladılar:

**V**əli Şirinov, ali savadlı, İnşaat-mühəndis institutunda dərs deyir, aspirantdır, doktorluq müdafiəsi ərəfəsindədir, subaydır. Elə qonşuları da əsas bu məsələ maraqlandırırdı.

İndi həyətin sakinləri Vəlidən xəbərsiz onun üçün qız axtarışına başlayır. Onlardan hər bir öz seçimi üzərində dayanır, amma heç biri cürət edib, bu haqda ona bir söz deyə bilmirdi. Çünki Vəli müəllim özünü çox ciddi aparırdı.

Amma... Sən demə... Vəli öz Sədaqətini axtarırmış...

Atalar misalı var ki, -"Sən saydığını say, gör fələk nə sayır"! Bizdən iki küçə solda indiki Ç,Mustafayev küçəsində bir qız da bu taleyi yaşayırdı. Sədaqət həkimlik ixtisasına yiyələnib, mərkəzi univermağın yanındakı "Stomotoloji Poliklinikada" dental həkim işləyirdi. Kirayədə olduğu evin sahibəsi də ona isti münasibət bəsləyib, Sədaqəti öz qızı kimi sevirdi. Sədaqət də təhsilini davam etmək, müdafiə edib, daha elmli olmağı arzulayıb, gəncliyini bu yolda xırdalayırdı. Ailə qurmaq haqqında düşünməyə vaxt ayırmırdı.

"İtalyansayağı həyətin" sakinləri Vəli müəllimə qız axtarışını davam edir, fələk isə öz işini görürdü...

Günlərin bir günüündə hər iki qəhrəman tamamilə neytral bir küçədə rastlaşır oxumaq yaddan çıxır, Vəli ilə Sədaqətin ulduzları barışır və tale onları birləşdirir. Sən demə, Vəli öz sədaqətli Sədaqətini axtarırmış.

Bəli, indi Sədaqət təhsilini artırmaqdan vaz keçməli olur. Çünki o, ana olmağa hazırlaşırdı.

Vəli müəllimin də məsuliyyəti artmışdı. Onu düşündürən ilk övladının qız və yaxud oğlan olacağı deyildi. Onu düşündürən məsələ ailə qurmaqda gecikməsi idi. Xeyir, Vəli müəllim, gecikməmisiz. Əyər belə olmasaydı, elm aləmi çox şey itirərdi.

38 yaşlı Vəli Şirinov artıq dissertasiyasını müdafiə edib, doktorluq dərəcəsini almaq zirvəsində idi. Bunu həyata keçirmək üçün o, Moskvaya ezamiyyə edilmişdi.

**Moskva sərgüzəştləri**

**V**əli müəllim evliliyindən az sonra alimlik dərəcəsini artırmaq üçün Moskvaya dəvət alır. "İtalyansayağı həyt"in sakinlərinin sevincinin həddi-hüdudu yox idi. Kimsəsiz, "dayısız" bir gəncin yüksəlməsi o zaman sensasiyaya çevrilmişdi saf həyətin saf sakinlərinin qəlbində. Bəli, elm və təhsilin yüksəliş pillələrini Vəli müəllim heç bir dirəyə söykənmədən bir-bir qalxıb. 1976-cı ildə Rusiyanın Moskva şəhərində onun ceyran gözlü Ceyran qızı xoşqədəmlərilə dünyaya təşrif gətirir. Bu qızcığazın gəlişi Vəli müəllimə böyük ruh yüksəkliyi bağışlayır. Təhsilini uğurla başa vuran Vəli müəllim – professor Vəli Şirinov Bakıya qayıdır. Dünən Mühəndis İnşaat İnstitutunun məzunu – bu gün say-seçmə professorlarından idi Vəli müəllim.

Sədaqət xanım isə Vəlisini ikinci dəfə ata etmək astanasında idi. 1978-ci ildə Vəli müəllim oğul atası oldu. Deyirlər ki, oğul düşmən çəpəridir, arxadır. Amma mən deyərdim ki, Vəli müəllimin düşməni olmadığı halda, dostları saya gəlməz idi. Bu onun sadəliyindən irəli gəlir. Əlavə etmək istərdim ki, onun arxası olmadığı halda Anar oğlu ona məhz arxa gəldi. Anar onun dayağı oldu.

**O, Azərbaycanı BMT-də təmsil edir**

**H**ələ kiçik yaşlarından oxumağa, xarici dilləri öyrənməyə, tarixə həvəsi olan Ceyran, həyətdəki uşaqlara çox qoşulmazdı. Bu bəlkə də atasının nəzarətinin daima onun üzərində olduğundan irəli gəlirdi. Həyətdəki uşaqların arasında həmsöhbəti qızım Könül idi. Ata-anası da Könülə qarşı məhəbbətli idilər. Mən də onlar kimi bu iki uşağın bir yerdə olmasından bir növ rahatlıq tapırdım. Bu qızların işi o biri uşaqlar kimi oynamaq deyil, oxumaq idi. Ələlxüsus ingilis dilini öyrənmək idi məqsədləri. Xasiyyətləri də biri-birinə uyğun gəldiyindən, saatlarla məşğuliyyətdən yorulmaq bilmirdilər. Ceyran Bakıda Türkiyənin "Qafqaz" universitetinə qəbul olanda, hələ məktəbi qurtarmasına 2 il qalmış Könül də bu Universitetə oxuyacağını qət etmişdi. Düz deyiblər ki, niyyətin hara, mənzilin də ora. Könül də bu Universitetin məzunu oldu. Hər ikisi Hüquqşünas ixtisasına yiyələndi. Və bu qızlar ayrıldılar. Çünki artıq Vəli müəllim Türkiyədə çalışdığından, 1998-ci ildə onun ailəsi də Türkiyəyə köçməli oldular.

Yeni məkan, yeni insanlar. Gənc Ceyranın qarşısında yeni bir həyat qapıları açıldı. Türkiyədə təhsilini davam edən Ceyranın səsi-sorağı bu gün İngiltərədən, Mozanbikdən gəlir.

Ağıllı, savadlı, çalışqan Ceyran artıq ailə qurub. Bu gün bizim "İtalyansayağı həyətin" sakini Ceyran xanım İngiltərədə Birləşmiş Millətlər Təşkilatında Azərbaycanı təmsil edir. İnanıram ki, onun səsi hələ çox yerlərdən gələcək. Çünki Azərbaycan torpağının, soy kökü Qarabağdan olan Vəli müəllimin övladı Ceyran belə də olmalıdır!

**Alim Vəli Şirinov**

**A**zərbaycanı - Moskva və Türkiyədə Vəli müəllim təmsil etdi; Ceyran qızı isə İngiltərədə və Mozanbikdə təmsil etdi .

**V**əli müəllim mənim təsəvvürümdə elə 57 yaşlı alim kimi qalacaq. Çünki o, bu yaşında Vətəni tərk edib, Türkiyəyə köçdü. Buna əsas səbəb Qarabağ yarası idi. O, hər şeydən uzaqlaşmaq, uşaqlıq illərində ləpirlərinin izi qalan Ağcabədini unutmaq

istəyirdi. Verdiyimiz şəhidləri, qana boyanmış Bakını unuda bilməsə də, uzaqlaşmaqda tapdı çıxış yolunu.
1995-ci illərdə Vəli Şirinov Türkiyəyə Universitetdə çalışmağa dəvət alanlar sırasında birincilərdən oldu.
Vaxtı ilə özünün dediyi kimi – bilik və savad hər zaman insanın köməyinə çatır. Məhz bu xüsusiyyətlər Vəli müəllimə xas idi. Həyətdəkilər onun uğurlarını eşitsələr də, dulaqlarına inanmırdılar. Sadə, kimsəsiz bir müəllimin bu pilləyə ucalması, bunun arxasında kimsə dayanır sualı ətrafında çox düşündülər... Amma Vəli müəllimin əməlləri sübut etdi ki, bilik-elmin açarıdır.
O, hər zaman öz üzərində çalışan olub. İstirahət, məzuniyyət anlamaları ona yad olub. Düz deyiblər ki, yetimin Allahı var!
Vəli müəllim Türkiyədə 20 ilə yaxın çalışdı. Amma ona savad verən, çörəyə çatdıran Vətənini heç vaxt unutmadı. Vətən eşqi, Qarabağ dərdi ona güc verirdi, inanırdı ki, Azərbaycanın səadətli günlərinə qoşulacaq.
Bütövlükdə varlığını elmə, sevdiyi peşəsinə həsr edən Vəli müəllimin cənazəsi Vətənə- Bakıya gətirildi. Beyninə qan sızmadan 21 gün apparat vasitəsilə”olum və ya ölüm” mübarizəsini aparan Vəli müəllimin ailəsi çox inamlı idi ki, o, həyata qayıdacaq. Amma nə etmək, yazıya-pozu yoxdur.
Düz deyiblər ki, aslanın erkəyi, dişisi olmaz. Çox ağır bir işin öhdəsindən onun ömür-gün yoldaşı Sədaqət xanım gəldi. Vətən həsrətli Vəli müəllimin cənazəsini Vətənə gətirdi. Burada deyiblər ki, gəzməyə qərib ölkə, ölməyə Vətən yaxşı!

**Aslan qüdrətli qadın**

**S**ədaqət xanım Bakıda stomotoloji Poliklinikada həkim dental işləyirdi. Analıq məzuniyyətindən qayıtdıqdan sonra da bu işini davam edir, antikvar həyətin sakinlərinin həkimə olan ehtiyacını ödəyirdi. Bir sölə o, bu sahədə həyətimizin “Ana Terezası” idi.
Ailə, iş, ev – bu oldu onun amalı 1975-ci ildən bu günədək. Vəli müəllim ilə nə az, nə də çox- düz 37 il ömür yolunu birgə addımladılar. Acıları da bir oldu, şirinləri də.İki övlad böyütdülər, hər ikisinə gözəl tərbiyə, ali savad verdilər.
Vəli müəllim Türkiyəyə dəvət alanda sevincdən və təəccübdən həyəcan keçirən Sədaqət xanım bir anlığa 5 bacısını, bir tək qardaşını, anasını və ələlxüsus doğma vətənini tərk edəcəyini gözü önünə gətirdi və Bakıda qalmağa qərar verdi. Beləcə o, bir-iki il Bakı ilə Türkiyə yolunda qaldı. Axı o Vəlisini də tək qoya bilməzdi. Sonradan qərara aldı ki, ailə bir yerdə olmalıdır. Beləcə onlar ailəliklə bir yerə yığışıb, Türkiyədə bir ömür yaşadılar.
Hələ Bakıda ikən Sədaqət xanım ailəsi ilə birlikdə Azərbaycanın bütövlüyündə xüsusi maraqlı olub.
Ulu Öndərimiz Heydər Əliyevin 1990-cı ildə Azərbaycana qayıdışı zamanı, Sədaqət xanım cürət edib, böyük bir iş görüb. O, Heydər Əliyev tərəfdarları olaraq– işlədiyi kollektivinin -həkimindən xadimələrədək imzalı siyahısını hazırlayıb, Prezident apparatına təqdim etməkdən razı qalmayır. O, telefon zəngi açıb, mümkünsə, Heydər Əliyev cənabları ilə danışmaq istədiyini bildirir.

Qulaqlarına inanmayır. Telefonda bu böyük insanın səsini eşidəndə, bir an özünü itirsə də, söylədiyi sözlər mənim qulaqlarımda bu gün də səslənir: -
"Əzizimiz cənab Heydər Əliyev, Azərbaycanın çiçəklənməsində biz yalnız Sizi görürük! Çoxsaylı kollektivimiz Sizin gələcək uğurlarınıza inanıb, imza toplayıb, vətənimizi düşmənlərdən qoruyacağınıza inanır, Ölkə Başçısı kimi yalnız Sizi görüb, dəstəkləyir!"

O zaman Sədaqət xanıma diqqətlə qulaq asan cənab Heydər Əliyev onun bu addımını alqışlayıb, təşəkkürünü bildirmişdi. Sədaqət xanımın yadındadır ki, bu söhbət 20-25 dəqiqə davam etmişdi. Sonradan o, hər dəfə o dəqiqələri yada salır, bundan qürur duyurdu.

Ailəsində çox ağır bir hadisə üz vüemişdi. Sədaqət xanımın çarxı fələyi tərsinə dövran etdiyi bir zamanda, qürbət ölkədə imdad gözlədiyi insanın olmadığı bir zamanda, yalnız Azərbaycanın Prezidenti Heydər Əliyev cənablarına ümid bağlayır. Amma ona çatmağı qeyri-mümkün sansa da, bu böyük İnsan məni eşidəcəkmi –sualı onu çox düşündürür. Telefon əlaqəsilə Sədaqət xanım gözlədiyindən daha yaxşı nəticə aldı. Düz deyiblər ki, sən elədiyini at dəryaya – balığ bilməsə də, Xaliq mütləq biləcək!

İrəlidə qeyd etdiyim söhbətdən çox illər keçsə də, o zaman məhz Cənab Heydər Əliyev ona kömək əlini uzatdı! Və çətin məsələ çox asanlıqla həllini tapdı. Sədaqət xanımın səsinə səs verdi Cənab Heydər Əliyev!

Bu belə də olmalı idi Sədaqət xanım ! Deyirlər ki, göl damla-damla yaranır. Vəli müəllim ilə birlikdə ailənizin uğurlarını böyük əziyyətlə, damla-damla əldə etmisiz. Allah hər şeyi görür. Pisi yaxşıdan ayırır. Sadəcə insanlar pislik edəndə sonrasını düşünməyirlər. Sədaqət xanım etdiyiniz yaxşılıqlardır çıxır hər zaman qarşınıza. Bu Allah-Taalanın ailənizə olan hədiyyəsidir.

**P.S.** Sədaqət xanım, aramızdakı məsafənin uzaqlığı bizi uzaqlaşdırmadı. Çünki biz bir həyatin- "İtalyansayağı həyat"in sakinləri olub, kədərimizi və sevincimizi bir paylaşmışıq. Azərbaycan Vətən olaraq qalır! Bunun sübutu Vəli müəllimin cənazəsini Bakıya gətirdiyindir. Sədaqət xanıma şəxsən mərdliyini, qürurunu qoruyub, hər zaman Allahın nəzərində olmasını arzulayıram. Ceyrana bir ana kimi ona olan məhəbbətim sonsuzdur. Onun nailiyyətlərinə sevinən, uğurlarını hər zaman alqışlayan, arzularına çatdıqca sevinənlərdən birincisi mənəm!
Şirinovlar ailəsinə neft milyonçusu Ağa Musa Nağıyevin nəsli adından təşəkkürümü bildirib, hər zaman sevinclərini izləyib, sevinənlərdən biri deyil, birincisi olduğuna əmin olmağınızı arzulayıram.
23 yanvar 2013-cü il.

## BAKI -TƏBRİZ KÖRPÜSÜ

**T**əbriz təsəvvürümdə tamamilə başqa idi bu şəhərə səfər edənədək. Bircə onu deyə bilərəm ki, Təbriz gözəllərinin İranın başqa şəhərlərindəki gözəllərdən fərqləndiyini bilirdim.

**B**akıda Milli Mətbuatın 135 illiyi ilə əlaqədar "Qafqaz Media" İctimai Birliyinin Sədri Azadə Talehin təşkilatçılığı ilə keçirilən tədbirə Gürcüstan, Qazaxstan, Ukrayna Respublikalarından nümayəndələr dəvət olunmuşdu.
**T**əbrizdən "Şəhriyar Ədəbi Birliyi"nin məclis üzvü – şairə Əzəm Rza Çayi dəvətli idi. Onun simasında gözəllik, tərbiyə, mədəniyyət və Azərbaycana qarşı böyük ehtiram gördüm. Təbriz mənim gözümdə daha da ğözəlləşdi və bunun şahidi oldum.
İrandan dəvət olunmuş şairə Əzəm Rza Çayi şeirləri və çıxışı ilə mənim yaddaş dəftərimdə xüsusi yer tutdu.
Yubiley ərəfəsində Təbrizdə "Şəhriyar Ədəbi Birliyi" nin Dövlət səviyyəsində keçirəcək Konfransa - İran İslam Respublikasına Azadə Taleh -"Qafqaz Media" İB Sədri başda olmaqla, 9 nəfər dəvət almışdı. Dəvətlilər siyahısında mən də var idim. Qrupu Əzəm xanım Rza Çayi müşayət edəcəkdi.
İranda 1990-1991-ci illərdə Məşhəd ziyarətində olmuşdum. Konfransda iştirakıma görə iki qat sevinirdim ki, bu yerləri bir də görəcəyəm.
İştirakçılar siyahısında: Azərtacın müxbiri -Zərəngiz Dəmirçi Qayalı, Mir Emin Həsənzadə, Hicran Qarabağlı həkim –şairə, yazıçı publisist- Nubar Hakimqızı, Gülnar – gənc həkim, İlham Əliyev –tələbə, Nəcəf Cahangir "Borçalı" qəzetinin foto müxbiri də var idi. Səfər iyulun 25 –dən avqustun 4-dək nəzərdə tutulmuşdu.
**Y**ol boyu İran Astarası, Ərdəbil, Nir, Sərab (qədim), Bostanabad şəhərləri bir-bir geridə qalırdı.

İlk dayanacaq Təbriz şəhəri oldu. Sərhəddi keçərkən bizi ayıran Araz çayına qibtə ilə baxdım. Məhz bu çay vaxtı ilə çoxlarının bir-birinin həsrətində olduğuna səbəb olmuşdu. Bir an müğənni Rubaba Muradovanın yanıqlı mahnısı, Ustad Şəhriyarın niskil dolu şeirləri, Yaqub Zurufçunun "Ayrılıq" mahnısı səsləndi qulaqlarımda. Bizi ayıran Arazın o tayında idim.

Toplandığımız şeir məclisində yaradıcılığı ilə hələ Arazın bu tayında tanış olduğumuz 84 yaşlı şair Əli Nəzminin qarşısında dayanmışdıq. Ustad Əli Nəzmi və Höccətül – İslam Rəsuli maraqlı söhbətləri ilə bizi heyran etmişdi.

Yeri gəlmişkən qeyd edim ki, onların hər ikisi Əzəm xanımım ustadı olmaqla bərabər, qazandığı uğurlarında da rolu böyük olub. Konfrans iştirakçısı həkim- Hicran xanım şəxsi kitabxanasında Əli Nəzminin kitablarının xüsusu yer tutduğunu qeyd etdi.

Çıxışlar bir daha sübut etdi ki, qanımız bir, fikirlərimiz eynidir. "Şəhriyar Ədəbi Məclisi" nin Sədri Ağayi Şahbazi bizimlə xoş təəssürat bağışlayan görüş təşkil etdi. O,Təbrizdə Məhəmməd Hüseyn Şəhriyarın məqbərəsini ziyarət etməyə imkan yaratdı və"Şəhriyarın divanı" kitabını bizə hədiyyə etdi.
Hər iki tərəfin ədəbiyyat və yaradıcı insanların iştirakı ilə olan görüşlər zamanı çıxışlar dolğun məna kəsb edirdi.
Belə bir deyim var: Qardaşın kimdir? Bilmirəm, yol getməmişəm .
Bu deyim bütövlükdə Azadə xanıma aiddir. Səfər zamanı Konfrans iştirakçılarına başçılıq edən Azadə xanımın səbrinə, mədəniyyətinə və ən başlıcası – Azərbaycanı lazımınca və ləyaqətlə təmsil edə bilməsinə heyran oldum. Hələ yol boyu həkim kimi insanlara göstərdiyi yardımdan söz açmıram.

Görüş Ərdəbil şəhərində davam etdi. Əzəm Çayının ustadı şair İsmayıl Nuzanı ilə Şeyx Səfiyəddin Ərdəbili xiyabanında görüşdük.
İran İslam inqilabının banisi Ayatullah Xomeyninin məqbərəsini ziyarət etdik. Çarşı şəhərində "Cəmkərəm" məscidində sözün əsl mənasında iynə atsaydın yerə düşməzdi. Sahibi Əl Zamanın mövludu idi. Bayram böyük ruh yüksəkliyi ilə keçirdi. Çarşı şəhərinin bütün sakinləri məscidə girməyə cəhd edirdı. "Nimeye Şaban" bayramı çox təntənəli keçirdi. İzdiham mənə bir anlıq Həcc ziyarətini xatırlatdı. Belə bir ziyarətdə iştirakımıza görə Əzəm xanıma minnətdaram.
O günü niyyət gecəsi idi. Sahibi Əl Zaman quyusuna atdığın yazılı niyyətin həyata keçməsi həqiqətdir, belə deyirlər. Ölkəmə əmin-amanlıq, zəbt olunmuş torpaqlarımızın qaytarılmasını, ən əsası Prezidentimizə can sağlığı arzulayıb, bu günümüzə, müstəqilliyimizə görə dualar etdim.
Oğlum Samir və qızım Könül üçün də niyyət etdim. Yazıları quyuya atmaq çox çətinlik törədirdi. İzdihamın ardı-arası kəsilmirdi. Bu işin də öhdəsindən Azadə xanım gəldi.

Qum şəhərində xanım Məsumənin qəbrini ziyarət etdik. Atalar deyib ki, "Həm ziyarət, həm ticarət". Biz iş adamlarının bu yolu isə həm iş, həm də ziyarət oldu. Yol boyu gecələdiyimiz yerlər məscid və mədrəsələr oldu.

Nişapur şəhərində rəssam Kamal Ül Mülkün, alim Əttar Nişapuri və eləcə də həm Şərqin, həm də Qərbin böyük filosofu - şairi Ömər Xəyyamın məqbərəsini ziyarət etdik.

Göyün yeddinci qatını gördüm desəm, inanın. Ömər Xəyyamın məcnunu saydığım rəfiqəm şairə Gülarə Munisin yerinə də məqbərəni ziyarət edib, burada olmağını arzuladım. Ürəyimdə keçirdiyim həyəcanı və xoşbəxtliyi onunla bölüşdüm. Onu bir an yanımda hiss etdim. Məqbərənin maketini ona hədiyyə gətirdim.

Məşhəd şəhərində İmam Rza hərəmini ziyarət etmək də qismətimizə düşdü. İmam Rzanın hərəminə yaxınlaşmaq qeyri mümkün idi. Burada da köməyimizə Əzəm xanım çatdı. Əzəm xanımın bacarığı sayəsində xüsusi yollarla başlanğıcı Hərəmin 3-cü qatında özümü görəndə həyəcanımın həddi-hüdudu yox idi. Burada da dualaəkrar etdim. Ən əsası ölkəmizə əmin-amanlıq dilədim.

İranın keçmiş mərkəzi sayılan Ərdəbildə ikən İslamın İranda yayılmasında böyük əməyi olan Şah İsmayıl Xətainin məzarı qarşısında dayanmışdım. Heyrətdən donub qalmışdım. Sarayın girəcəyində nənəsi Həlimə Bəyimin, baş otaqda isə ulu babası Şıx Səfinin məzarları xüsusi diqqət cəlb edir. Şah İsmayılın məzarı olan otağın divarında təxminən 50x50 ölçüdə əlinin izi qalıb. Sarayın təkrar olunmaz bəzəyi bu günədək görkəmini itirməyib. Tavanın şəbəkələri saxsıdan idi. Saray əvvəlki görkəmində muzey qoruğu kimi qorunub, saxlanılır.

Burada Əzəm xanımın ilk müəlimlərindən - alim İsmayıl Nuzanı ilə görüşdük. Əzəm xanımın böyüklüyündən danışan şair, onun haqqında bilmədiklərimizi söylədi. Əzəm xanım gözlərimiz qarşısında hər an ucalırdı. Təbrizin belə gözəli var! Şairə - Əzəm Rza Çayı!

Yol boyu bələdçilikdən usanmaq bilməyən Əzəm xanım gəzinti və ziyarətlərdə də bizi tək buraxmırdı. 54 yaşlı Əzəm xanım 8 ay idi ki, həyat yoldaşı Ağayi Məhəmmədi itirşə də, bununla heç cürə barışa bilməyib, təsəllini Məhəmmədinə

həsr etdiyi şeirlərində axtarırdı. Belə bir itkisi olan Əzəm xanım bizi bir dəqiqə belə diqqətdən kənar qoymayırdı.

Əzəm xanımın hər üç övladının qonaqpərvərliyi bizi valeh etdi. Əmisi oğlu iş adamı Maqsud Xeyirxah bizi Məşhədin yaxınlığındakı mənzərələrlə tanış edib, Tərqube qəsəbəsində "Qanad" istirahət mərkəzində şərəfimizə ziyafət verdi. Sonradan istirahətimizi "Çala dərə" gölündə təbiəti seyr edərək, davam etdik.

Görüşdüyimiz hər bir yaradıcı şəxsə Qafqaz Mediya İB-nin "Müqəddəs Qələm" diplomu, müəllifi olduğum və Ağa Musa Nağıyevə həsr etdiyim "Xalq üçün ömrünü şam kimi əridən..." kitabı və Milli Mətbuatımızı təmsil edən yazılarla çox saylı qəzetlər təqdim etdik.

Əzəm xanımın təşəbbüsü ilə gördüklərimin hamısını qələmə almaq qeyri mümkündür. Şəxsən özümün və konfrans iştirakçılarının adından şairə - bələdçi Əzəm xanıma dərin təşəkkürümü bildirib, belə görüşlərin axarıncı olmasını arzuladım.

## Qürbətdən gələn məktublar

**...**"Mən heç kimi yaddan çıxarmayıram. Hamınız mənim yadlmdasız. Doğulduğum şəhərimi, boya-başa çatdığım, ömrümün ən şirin çağlarını yaşadığım Bakımı, orada qalan əzizlərimi (anası və həyat yoldaşı) heç vaxt unutmayacağam. Mənə əziz olan Bakımın torpağına baş əyirəm. Bütün Azərbaycan xalqına, mənim Vətənimin əhalisinə sülh, əminamanlıq və xoşbəxtlik arzulayıram. Arzum odur ki, hamı hər zaman gülsün, qəm görməsin, ayrılıq olmasın.
....Hər il olduğu kimi, bu il də ad günümdə uşaqlarım və tanışlarım məni təbrik etməyə gəlmişdilər. Masanın arxasında ilk sağlıq bütün Bakılılara aid oldu. Kalininqradın Baltiyski şəhərində, mən yaşadığım şəhərdə Bakılılar çoxdur. Orada necə xoşbəxt yaşadığımızı hamı yad edir. Darıxdım. Bir anlığa özümü Bakıda, sizlərin yanında hiss etdim. Bizim üçün çox doğma olan Bakımızdan aralı düşmək çox çətindir. Hamı bir ağızdan Bakı və Bakılılar haqqında xoş sözlər danışdı. Bu sözləri eşitmək çox xoşdur. Mən hər dəfə işlədiyim səmimi kollektivimizi yada salıram. O günlər mənim yaddaşımdan heç vaxt silinməyəcək. Çox heyifslənirəm ki, insanlar didərgin düşdülər, kimlər haradadır, bunları düşündükcə, halım pisləşir.
... Mən çox darıxıram sizlər üçün, əziz Bakım üçün. Yazırsız ki, Bakı çox gözəlləşib, onu tanımaq mümkün deyil. Bir anlığa mənim üçün çox əziz olan Bakımın küçələrini gəzməyi arzuladım. Axı Bakı mənim vətənimdir, mənim həyatımdır. Burada isə mənim yeganə ümüdüm və sevincim övladlarım və nəvələrimdir. Başqa məni heç nə sevindirməyir, Bakıdan fərqli olaraq. Biri-birinə olan münasibətə, məhəbbətə, hörmətə burada rast gəlmədim. Hər şey bir yana, səxavət görməyirəm buradakı insanlarda. Axı mən buna öyənmişəm uzun illər. Sovetlər dağıldı, insanlar özlərindəm asılı olmayaraq pərakəndə düşdülər.
Tale yazısı – bir də ki, qismət!"

**Lyuba Bakıda yaşayarkən**

Ticarət Nazirlryinin nomenklatur işçi olaraq kadrların seçilib, ixtisaslarına uyğun yerləşdirilməsi məsələləri yerinə yetirmək vəzifə borcum idi.
1988-2000-ci illərdə ruslar da Azərbaycandan köçha-köçə düşəndə alicənablığı ilə çoxlarından fərqlənən İaşə Kombinatının Baş mühasibi -Lyubov İvanovna da köçməyə məcbur oldu. Çünki uşaqları artıq uzun müddət idi ki, Rusiyanın başqa-başqa şəhərlərində yaşayırdılar və anasının yaxınlıqda olmalarını istəyirdilər.
Nə isə, Lyubanın saqqızını çox çətinliklə "oğurladılar" və onun köçməyini qərarlaşdırdılar. Lyuba çox təkid etsə də, anasının və həyat yoldaşının məzarlarını qoyub getmək istəmədiyini bəhanə gətirdisə də, amma nə etmək, uşaqlarından dönə bilmədi və ağlaya-ağlaya Kalininqrada köçdü.
Azərbaycan milləti çörək verəndir. Nə olar, bir çörək yeyənimiz azalsa da, biz qədir bilən xalqıq və elə də olacağıq.

Mən onun tərcümeyi halını bir də nəzərədən keçirdim və onun Bakıda anadan olub, 15 yaşından əməyə qatılmaşı, şox az iş yeri dəyişib, Ticarət sistemində uzun müddət baş mühasibin müavini və sonradan baş mühasib vəzifələrində işlədiyi illərə nəzər saldım.

Onun halına yanıb, kağaz üzərində olsa da, qiymətini verməyi vacib saydım...

Lyubov İvanovna! Heç zaman unutmayın ki, küləklər şəhəri olan Bakıda anadan olub, xəmiriniz buranın havası, suyu və buğdası ilə yoğurulmuşdur!
Müharibədə həlak olmuş atasının üzünü görməyən balaca Lyubaşa, ailədə böyük bacı olduğuna görə anasına kömək etmək məqsədilə 15 yaşında işləməyə başlayır. Bu yaşda uşaqlar yataqlarında mışıl-mışıl yatarkən, kiçik, çox simpatik, yaşına uyğun olmayan cidiliyi və cəldliyilə fərqlənən, hər zaman gülərüz olan Lyubaşa əməyə qatılır. Uşaqlığına yox deyib, tale cızdığı yola yollanır.
Hələ də yuxudan doymayan gözlərini ovuşduran, bayırda yayın istisini hiss etmədən, yalnız iş haqqında, çörək pulu qazanmaq haqqında düşünürdü Lyubaşa. Beləcə işdə pillə-pillə yüksələn bu qızcığaz burada 6 il çalışdı. Bacarığı ilə hamının hörmətini qazandı.
Ona təklif olan hər bir işə "hə" - deyən Lyubaşa, vəzifə sahibi oldu, Baş mühasibliyə qədər ucaldı. Elə bu cəhətinə görə kollektivdə hər zaman sevilirdi.
Ailə həyatını da çox erkən qurdu. 1959-cu ildə, 19 yaşında ilk oğul övladını dünyaya gətirən Lyubaşa, ikinci övlad anası olması ilə bir qədər "gecikmişdi".
25 yaşlı Lyubaşanın dünyaya gətirdiyi oğlu da o biri qardaşı kimi sonradan bu ailəyə çox xoşbəxtlikər gətirdi, ata-anasını sevindirdi.
Biz ona Lyuba xanım, deyə müraciət edirdik. Lyuba xanım hər bir işin həllində hər kəsə kömək əlini uzadan bir insan oldu. O, insanların sevincini yaşayıb, kədərlərini özününkü bildi. Çətin vaxtlarda əlini uzadan oldu.

Azərbaycandan kənarda, Moskva, Leninqrad və eləcə də Azərbaycanın 15-dən artıq rayonlarında çoxşaxəli sistemə xidmət göstərən kollektiv çox şaxəli olduğdu kimi, onun işlədiyi sahə də çox böyük idi. O, bu cahana sığmağa çalışırdı. Vəzifənin sayəsində bu boyda kollektivin hörmət və rəğbətini qazandı.

İndi hər iki övladı onu Vətəni tərk edib, köçməyi məsləhət görürdü.
Bu adi haldır. Sizi qabaqda qocalıq gözləyir Lyuba xanım. Uşaqlara yaxın olmaq gözəl fikirdir.

Amma yaddan çıxarmayın ki, Bakının 40 dərəcə istisinə və insanların məhəbbətinin hərarətinə öyrənmiş bir xanım, sizi gözləyən şaxtalara dözə biləcəksənmi? Bakının dəhşətli istilərinə dözdüz, çünki bu ana vətəndir, amma qürbət ölkədə, bu yaşda, 20-30 dərəcə mənfi -sümüyə işləyən şaxtalara dözə biləcəksizmi? Əlbəttə hər iki övladın, tutduqları vəzifə, rütbələri, məhəbbəti şaxtanı sizin üçün bəlkə də əridə biləcək? Amma 60-yaşdan sonra bu addımı atmaq çətin deyilmi?
Hayıf ki, öz hərarətini sizdən əsirgəməyən , sevdiyiniz, isinişdiyiniz kollektiv yanınızda olmayacaq. Amma düşünürük ki, Qafqazın isti hərarəti hər yerdə sizi soyuqdan qoruyacaq, çünkü Bakılısız.
Bütün bunlarla yanaşı Lyuba xanım, salam və sabahınız xeyir müraciətləri üçün də darıxacaqsız. Amma nə etmək, Allah hər işi özü həll edir. Allah –Qadir Allahdır. Sevinirik ki, tək deyilsiz. Bəlkə övladların və nəvələrin sevgisi bütün bunları əvəz edə biləcək? Sizin simanızda onlar görəcəklər ki, Azərbaycan torpağı necə qadın, ana, nənə yetişdirib.
Bizim gözümüzdə isə torpağımızın yetişdirdiyi Lyuba xanım hər zaman olduğu kimi qalacaq.
Yer kürrəsi öz oxu ətrafında hərəkət edir. Bəlkə fələk yenə də sizləri bu tərəfə yönəltdi? Kim bilir? Bəlkə ox yenə Azərbaycanın üstündə dayandı? Ona görə xudaafiz demirik. Sadəcə deyirik-görüşənədək!

## “Bakı gecələri”
## adlı tədbirə start verildi

“Mən istərdim həyatda izlərim silinməz olsun.
Bir əsrlik yox, daha çox... ” Mendeleyev

Vaxtı ilə Ağa Musa Nağıyevin xeyriyyə təşkilatları və maarifpərvər qüvvələr birləşərək müxtəlif xeyriyyə tədbirləri “Bakı gecələri” adı ilə həyata keçirilib.
Bu ənənəni davam etməyi qərara alıb, Ağa Musa Nağıyevin fəaliyyətinə dair və eləcə də milli dəyərlərimizi təqdim etmə mərasimlərini həyata keçirərkən “Bakı gecələri” ilə görüşünüzə gəldim.
Bu məqsədlə Bakı neft milyonçusu Ağa Musa Nağıyevin fəaliyyətinə və vəfatının 93-cü ildönümünə həsr olunmuş “Bakı gecələri” konfransı Təzə Pir məscidində keçirildi.
Konfransda anılan Ağa Musa Nağıyevin Vətənə, milli dövlətçiliyin inkişafına və xalqa göstərdiyi xidmətilə Azərbaycan tarixinin salnaməsində xüsusi yeri olması haqqında fikirlər söylənildi.
Tarix zaman-zaman yetişdirdiyi görkəmli şəxsiyyətlərdən olan mesenat Ağa Musa Nağıyev böyük səxavətlə imkansız ailələrin dayağı olub. 1918 -ci ildə Bakıda ermənilərin törətdiyi Mart qırğınları zamanı 30.000 türk qoşununun işğalçılara

qarşı mübarizə aparması işinə küllü miqdarda vəsait sərf edən olub Ağa Musa Nağıyev .
Tikdirdiyi binaları tariximizin daş yaddaşıdır. Ağa Musa tikdi ki, özü yox, izi qalsın. Bu gün şəhərin mərkəzində - İstiqlaliyyət, 28 May, Səməd Vurğun, Xaqani, Nizami, R.Rza küçələrində; Z.Əliyeva və Neftçilər prospektlərindəki izləri silinməzdir.

## P R E S S   R E L İ Z
## A.M.Nağıyevin vəfatının 94-cü ildönümü

Ağa Musa Nağıyev 1849-cu ildə saman satan Hacı Nağının ailəsində dünyaya göz açıb. 1919-cu il martın 4-də 70 yaşında dünyasını dəyişib.
Bu il onun vəfatından 94 il keçir.
Tanrı onu kiçik yaşlarından özündən böyük yükün altına yıxır. O, zəhmətinin bəhrəsini – yalnız çörəyə və qəndə çatan pulu qazanıb, ona möhtac olan ailəsinə köməkdə görür. Uşaqlığını unudur.
Su əldə etmək məqsədilə qazdığı quyudan çıxan neft, onun sonrakı həyatında böyük rol oynayır. Məhz bu səbəbdəndir ki, yüksək əxlaqi keyfiyyətlərilə həyatda yerini tutmuş, yaddaşlarda yaşamaqla özünə əbədi iz qoymuş neft milyonçusu Ağa Musa Nağıyev Bakının 11 milyonçularından birincisinə çevrilir.
Ziyalılığı, alicənablığı və təvazökarlığı özündə cəmləşdirə bilən neft milyonçu Ağa Musa Nağıyev keçdiyi həyat yolunun məqamlarını özündə əks etməyi bacarıb. Sonradan xeyirxahlığı, ziyalı təfəkkürü ilə o, zəmanəsinin mesenatları arasında özünəməxsus yer tutanlardan olur.
Onun və digər mesenatların milyonları sayəsində Azərbaycanda qısa müddət ərzində bütöv bir ziyalılar nəsli təşəkkül tapıb.
Tarixə əfsanəvi milyonçu kimi daxil olan bu insanın varidatının ümumi miqdarı 413 mln. ( bəzi məlumatlara görə 690 mln.) məbləğində dəyərləndirilib.
Ağa Musa Nağıyev kapitalını o dövrdə cəhalət girdabında boğulan xalqın maariflənməsinə, onun dünya görüşünün ümumi mədəni səviyyəsinin yüksəldilməsi istiqamətinə sərf etməklə bərabər, bina tikintisinə yönəltmişdir.
Tikdirdiyi 98 bina (arzusu 100 bina tikmək olub) tariximizin daş yaddaşıdır. Bu yadigarların hər naxışında neft milyonçusunun saf əməlləri, vətənpərvərliyi, milli təəssübkeşliyi hiss olunur. Neçə əsrlik tariximiz elə bu daş kitabələr vasitəsilə bizlərə əxz olunmaqdadır.
Onun binaları memarlıq üslubu cəhətdən nadir tikililərdir. Tikdirdiyi Realnı məktəbin gənclərin püxtələşməsində böyük rolu olub. Bakıya Şollar suyunun çəkilmə xərcinin böyük hissəsini – 33mln. məbləğin 75 % Ağa Musa Nağıyev ödəyib. Maarifçilik məqsədilə həyata keçirdiyi işlərin və bu yolda verdiyi ianələrin sayı-hesaba gəlməzdir.
Ən ağrılı yerlərindən biri də səhiyyə sahəsindəki problemlər olub.
Sovet təbliğatının tədqiqini qadağan edən mövzulardan biri də Azərbaycanda neft milyonçularının, onların xeyriyyəçilik hərəkatında rolunun öyrənilməsi, millətin görkəmli şəxsiyyətlərinin həyat və fəaliyyətlərinin araşdırılması olmuşdur.

Uzun illiklər boyunca onların üzərinə «burjua» damğası vurularaq adlarını ləkələməyə çalışmışlar. Amma XX əsrin əvvəllərindən milli oyanışın artdığı şəraitdə neftxudalar - mesenatlar millətin yaddaşında elə dərin izlər buraxmış, öz xidmətlərilə millət qarşısında elə şöhrət qazanmışlar ki, onları tarixdən silmək və ya ləkələmək sovet ideologiyasına nəsib olmadı.
Dəfninin Kərbəlada oğlu İsmayılın yanında keçirilməsini vəsiyyət edən Ağa Musa arzusuna 2011-ci ilin Həcc ziyarəti zamanı, vəfatının 93 -cü il dönümündə çatdı. Qəbri üzərindən götürülən torpaq Kərbəlada "dəfn" edildi. İndi Kərbəlada dəfn olan oğlu İsmayılın ruhu atası ilə görüşür.
Kimdir Ağa Musa? Onun haqqında nə bilirik? Gələcək nəsil nə biləcək? Bu vaxtadək onun şəxsi keyfiyyətlərindən çox az bilib, gördüyü böyük işlər haqqında düşünməmişik.
1900-cü ildə Binəqədi mədənlərində hasil edilən 10 mln. pud neftin 4-5 il ərzində 13 milyona çatması və eləcədə mədənlərdə 800 fəhlənin çalışmasıyla bərabər çoxsaylı mülklərin sahibkarı olmaq, məhz Ağa Musaya nəsib olub. Bu izlər tariximizin bir parçası, yaşanılan illərin əks-sədasıdır. 49 yaşlı Ağa Musanı igidlik, mərdlik səltənətinin məşhur milyonçusuna çevirmişdir. Xalqın zəngin tarixi ilə maraqlanan, şərəfli keçmişimizə ehtiramla nəzər salan hər bir insanda qürur hissi oyadır onun adı.
Nəvə - Dilarə xanım, son 20 ildə fəaliyyətini Ağa Musa Nağıyevin həyatını, xeyriyyəçilik və ictimai fəaliyyətini, eləcə də 22 illik acı sürgünlük taleyi yaşayan atası Fərəc Nağıyevin incəsənət sahəsindəki xidmətlərini araşdırmağa həsr edib. Torpağına, millətinə bağlı olan Ağa Musa Nağıyevin həyat və fəaliyyətinə aid faktlar və xatirələr əsasında - "Xalq üçün ömrünü şam kimi əridən...", "Ömrün səhifələri" və "Zamanın sorağında" adlı kitablarını, "Xeyriyyəçilik və ictimai fəaliyyəti"nə aid elmi monoqrafiyasını yazıb, adını daşıyan "Milli Dəyərlərin Qorunması" təşkilatını yaradıb, sayt açıb.
Kitabın hər bir fəslində Azərbaycanın dövlətçilik prinsipləri, onun coğrafiyası, tarixi, tanınmış simaların portret cizgiləri əsas xətt olaraq tədim olunur.
Dilarə nəvənin əsas məqsədi neçə əsirlik tariximizi " Daş kitabə"lər vasitəsilə bizlərə əxz etməkdir.

## Keçmişə salam

Tarixi yaradanları, millətə böyük xidmət göstərən şəxsiyyətləri unutmaq olmaz. Vətənə, milli dövlətçiliyin inkişafına və xalqına göstərdiyi xidməti ilə Azərbaycan tarixinin salnaməsində dərin iz buraxmış Ağa Musa Nağıyevin vəfatının 93-cü ildönümünə və bu böyük insanın fəaliyyətinə həsr olunmuş **konfrans Təzə Pir** məscidində adını daşıyan "Milli Dəyərlərin Qorunması" təşkilatının dəstəyilə keçirildi.

Ağa Musa Nağıyevin tikdirdiyi binalar memarlıq üslubu cəhətdən nadir tikililərdir. Tikdirdiyi Realnı məktəbin gənclərin püxtələşməsində böyük rolu olmuşdur. Bakıya Şollar suyunun çəkilmə xərcinin böyük hissəsini Ağa Musa Nağıyev ödəyib. Maarifçilik məqsədilə həyata keçirdiyi işlərin və bu yolda verdiyi ianələrin sayı-hesabı yoxdur.
Ömrünün hələ gənclik çağını yaşayan Ağa Musanın qəlbi vətən eşqilə yanırdı. Xalqın zəngin tarixi ilə maraqlanan, şərəfli keçmişimizə ehtiramla nəzər salan hər bir insanda qürur hissi oyadır bu ad.
Neft milyonçusu Ağa Musa Nağıyevin fəaliyyətinə dair və digər milli dəyərləri təqdim etmə mərasimləri həyata keçirən nəvə Dilarə Nağıyeva "Bakı gecələri" silsilə tədbirlərinin reallaşdırılması ənənəsini davam etdi. Ağa Musa Nağıyevin vəfatının 93-cü ildönümünə həsr edilmiş konfrans bu adət ənənəni davam etdi. Konfrans mesenatın imkansız ailələrə dayaq olması, 1918-ci ildə ermənilərin Bakıda törətdikləri mart qırğınları zamanı 30 minlik türk əsgər və zabitin işğalçılara qarşı mübarizə aparmasına külli miqdarda vəsait sərf etdiyi, tikdirdiyi binaları tariximizin daş yaddaşına çevrilməsi milyonçu-xeyriyəçinin surətini bir daha yaddaşlarda canlandırdı. Modern üslubunda binalar tikdirməklə Bakının gözəlləşməsinə çalışıb.
Yaddaşlardan silinməyən milyonçu - xeyriyyəçi Ağa Musa Nağıyevin ən ağrılı yerlərindən biri səhiyyə sahəsindəki problemlər olduğu.
Bu gün ən azından susuzluğu yatırtmaq məqsədilə Şollar suyunu içərkən ona dualar edib, tikdirdiyi xəstəxanalarda şəfa tapan, Bakının küçələrindən keçərkən tikdirdiyi binalarından birini görüb ona rəhmət oxuduqları konfrans iştirakçıları tərəfindən çıxışlarda səsləndi.

**ARP-vanında QHT-rə DDŞ**
**"Vətəndaş Cəmiyyəti" jurnalı aprel 2012.**

## Zamana nə var ki
## Zaman öz axarı ilə gedir

Hər kəs bu dünyaya eyni gəlir, saf və günahsız. Gənclik illərimiz quş kimi ötüb keçsə də, o illər həmişə xoş anlarla yadda qalıb xatırlanır.
Zamana nə var ki, gözünü yumub – açıb görürsən ki, illər öz qanadında bir yel kimi səni bu günə çatdırıb. Amma ötən günləri layiqincə yaşamışıqmı? Bax, bu sual düşündürür insanı.

İnsanları biri- birinə sevdirən hər birinin fərdi əlamətləri və keyfiyyətləridir.
O keyfiyyətlər ki, əsl insan dəyanəti və təxəyyülü yüksəlir və bu uzun müddət yaddaşlardan silinmir.
Tarix zaman-zaman görkəmli şəxsiyyətlər yetişdirib. Belələrindən olub Bakı xeyriyyəçisi Ağa Musa Nağıyev!
Azərbaycanda ötən əsrin əvvəllərində yaşamış, Bakının tanınmış milyonçularından olub, neft sənayeçisi Ağa Musa Nağıyev. Onu tanımayan çox az adam tapılar.
Yaddaşlardan silinməyən insan!
Zaman məsafəsində qazandığı nailiyyətlər onun vətənpərvərlik husslərindən, humanistliyindən, incə- nəcib duyğularından irəli gəlib.
Vətənə, xalqa və milli dövlətçiliyimizin inkişafına böyük məhəbbət bəsləyən Ağa Musa, Azərbaycanın tarixi salnaməsində dərin iz buraxmışdır.
Tikdirdiyi mədəni məişət obyektləri, himayəyə götürdüyü yüzlərlə yoxsul ailə, 35 yoxsul ailə başçısının dəfnlərini Kərbəlada keçirən, şəxsi vəsaiti hesabına oxutduğu soydaşlarımız və sair bu kimi əməlləri bu gün də diqqət mərkəzindədir.
Təəssüflə qeyd etməliyik ki, Azərbaycan Demokratik Cəmiyyətinin devrilməsindən sonra yaranmış sosialist inqilabı Bakını qurub-yaradan H.Z.Tağıyev, A.M.Nağıyev, Ş.Əsədullayev, M.Muxtarov, İ.Hacınski və B.Aşurbəyov kimiləri səhv və yanlış təhlillər nəticəsində unutdurmağa çalışıb.
Varidatını xalqa, vətənə bəxş edərək ölməzliyə qovuşan adı çəkilən milyonçular məhz Bakının, Abşeron torpağının yetirmələri olub.
Ağa Musa Nağıyev yer üzündə cənnət axtarışında olub.
Mərdlik səltənətinin məşhur milyonçusuna çevrilən Ağa Musa Nağıyev kapitalını cəhalət girdabında boğulan xalqın maariflənməsinə, onun dünyagörüşünün və ümumi mədəni səviyyəsinin yüksəldilməsi istiqamətinə sərf etmişdir.
Belə işlərə imza atan Ağa Musa Nağıyev kimi nəslin təlim-tərbiyəsi Dilarə xanıma kiçik yaşlarından aşılanıb. Yaratdığı Ağa Musa Nağıyev adını daşıyan "Milli Dəyərlərin Qorunması" təşkilatı da həmin məqsəd və amallara xidmət edir. O, babasının tikdirdiyi 98 binadan bu gün 64-nü aşkar edib, siyahıya alıb.
Böyük şəxsiyyət, tərəqqipərvər insanın adını hörmətlə anmaq, ona rəhmət diləmək hər bir Azərbaycan vətəndaşının mənəvi borcudur.
Dilarə nəvə Ağa Musanın xalq üçün yaşanan ömrün davamçısı olaraq gördüyü işlərdə məsuliyyət və qətiyyət sərf etdiyini vurğulayıb, tarixdə xeyriyyəçiliyi ilə dərin iz qoymuş Nağıyevlər nəslinin davamçısı olması ilə fəxr edir. Milli mənafelər naminə Ağa Musa Nağıyevin xidmətlərini araşdırdıqca sanki həyatında yeni səhifələrin açıldlğını vurğulayır Dilarə xanım. Ona həsr olunan bu şeirdəki kimi:

Böyük Musa Nağıya,
Bir varissən, soncusan.
Tükənməz şəfqətinlə,
Sən də bir milyonçusan!

**Elm və Zəka jurnalı 2012il**
**Baş redaktor, Maral Əliqızı**

II FƏSİL

## E S S E L Ə R
## SAĞLIĞINDA QİYMƏT VERƏK İNSANLARA

Tanınmış ingilis alimi Darvin deyib: -"Əyər çəpər dibində acından ölən yoxsul görsən, ona yazığın gəlməsin. Deməli, o bundan artığına qadir deyil".
Həyatda insan bir şeyə nail olursa və yaxud yoxsulluğa uğrayırsa, bu onun bacarığından irəli gəlir..
Sədinin isə belə bir deyimi var: - "Qurdun balası böyüyəndə mütləq qurd olacaq. Əziyyət çəkən insanlara rəhm etmək yaxşılıqla bitməyir. Kiminsə dərdinə şərik oplmaq, kiməsə rəhm göstərmək heç vaxt yaxşı nəticə verməyir. Xarici görkəm də nəzərə alınır. Əyər qarşında balaca boylu, köksüz, nəsilsiz biri dayanırsa, rəis də olsa, onun dediklərinə əməl edən tapılmaz".

## Uşaq olmaq istəyirəm
## Samirimə ithaf edirəm

Bir etyuda baxdım internet səhifəsində...
Evlərinin qarşısındakı bağça - bağda əyləşib ağaca baxan ata, oğlundan soruşur, o nədir, oğlum? Mütaliə edən oğul başını qaldırıb ağaca baxıb, cavab verir –sərçədir, ata.
Sərçə yerini bir az dəyişir, ata oğlundan soruşur, bəs o nədir ağacda?
Oğlu mütaliədən ayrılıb, cavab verir –sərçədir.
Sərçə hər yerini dəyişdikcə və ata sualını təkrar etdikcə, oğul narazılıqla oxuduğundan gözünü çəkib, ataya eyni ahənglə sərt cavab verir.
Sərçənin bu dəfə də tamam başqa budağa qonduğunu görən ata sualını yenə təkrarlayanda, oğul ona eyni cavabı bir qədər yüksək tonda verir.
Beləcə, davam edən dialoq zamanı atanın altı və yeddinci sualına oğul bir qədər daha hirsli cavablandırır.
Səkkizinci sualına oğul daha dözməyib, atasına çox əsəbi halda birdəfəlik cavab verir: bu səçədir, sərçədir, sərçədir, ata! O sadəcə yerini dəyişir.
Ata dinməzcə ayağa qalxıb evə keçib, qısa bir vaxtdan sonra oğlunun əyləşdiyi skamyaya yan alıb, əlindəki dəftəri ona uzadıb, oxu, deyir.

Oğul oxuyur: - Oğlum çox kiçik idi. Onu o qədər istəyirdim ki, bir sözünü iki etməməyə çalışırdım. İstədiyi hər bir arzusunu canla-başla yerinə yetirirdim.
Bir gün sahildə onunla gəzişərkən, budağa qonan bir quş görüb, məndən soruşdu – ata, bu nədir? Cavab verdim, sərçədir, oğlum. Sərçə yerini dəyişdikcə, oğlum sualını təkrar etdikcə, mən ona sevə-sevə eyni cavabı verməkdən usanmırdım. Ona olan istəyimdən, sualın təkrar olmasının dərinliyinə getmədən, ona hər dəfə məhəbbətlə eyni cavabı təkrar etməkdən xüsusi zövq alırdım. Beləcə qısa bir vaxtda mən onun düz 21dəfə təkrar etdiyi eyni sualına çox təmkinlə cavab verdim.
Oğul 30 il əvvəl olan bu hadisəni xatırlamasa da, öz rəftarından xəcalət çəkib, atasının boynunu qucaqlayıb, düz 21 dəfə ondan üzr istəyir.
... Mən oğlum Samirin maşınında yol gedərkən hər dəfə çox narahat hisslər keçirirəm. Yol hərəkəti qaydalarını pozan piyadaların və yaxud qarşı avtomobillərin təhlükə yaradacaqlarından həyəcanlanıb, deyirəm:
-Ay oğlum, bu yolu piyada keçənlərdə olsun diqqətin. Ola bilər kimsə fikirli olduğundan qaydanı pozur.
Yaxud da deyirəm - eybi yoxdur, yol sənin də olsa, burax o maşını, qoy sürüb getsin, təki təhlükədən uzaq ol!
Belə söhbətlər zamanı oğlum mənə deyir: -Ana, mən sükan arxasında dörd gözlü oluram, sən narahat olma.
Neçə illər boyu bu söhbətin təkrar olmasından hərdən oğlum usansa da, cavabı təkrarlamaqdan usanmır. Çünki uşaq ikən onun mənə təkrar verdiyi suallarını mən də sevə-sevə 21 dəfə cavablandırmaqdan usanmamışam.
Bu günlərdə oğlum ilə yol gedirdik. Hər dəfə olduğu kimi yenə sakit yol gedə bilmirdim...
Arxada oturub bizi müşahidə edən Riad nəvəm mənə dedi:
- Ay nənə, niyə bu qədər həyacan keçirirsən, atam öz işini bilir. Sənin yerində anam da oturur, sakit yol gedir, heç narahat olmayır.
Mənim ona cavabım bu oldu: - İnşaallah, 5-6 ildən sonra sən sükan arxasında, anan isə mənim yerimdə oturanda bu gün yadına düşəndə, onda...

Aprel -2012 il

**P.S.** Riad nəvəm milyonçu Ağa Musa Nağıyev nəslinin davamçısıdır. Bu il mənim 73, Riadımın 10 yaşı tamam oldu. Riadın dünyaya gəlişi ailəmizə böyük səadət bəxş etdi. Düşmən çəpəri saydığım Riad, oğlumun üçüncü övladıdır. Oğlan övladı başqa bir aləmdir. Beşinci sinifə gedən Riadıma həyatın bütün şirin nemətlərini arzulayıram.
Bu gün ağlı, zəkası və biliyi ilə çoxlarını heyrətə salan Riadın gələcəyinə çox inamlıyam. Əla qiymətlərlə bizi sevindirən Riadıma Ulu babası Ağa Musa Nağıyev nəslinin layiqli davamçısı olmağı arzulayıram. Həyat yolunda əslinə, nəslinə, nəcabətinə layiqli oğul olmağını diləyib, məni də arzularıma çatdıracağına inanab, gözləyəcəyəm...

## Sənədli- tarixi nağıllar

### Ayağı qabarlı oğlanın nağılı

Biri var idi, biri yox idi. Dünyada uşaqlar çox idi. Kimi bəxtəvər, kimi qüssəli, kimi varlı, kimi isə kasıb idi. Varlı uşaqların güzəranı xoş, kasıb uşaqların isə həyatı əziyyətlə keçirdi. Belə əziyyət içində yaşayan balaca bir oğlan var idi. Onun adı Ağa Musa idi. Ağa Musanın ailəsi çox kasıb idi. Onun atası saman satıb ailəsini bir təhər dolandırırdı. Ailənin ehtiyac içində olduğunu görən on bir yaşlı Ağa Musa işləyib pul qazanmaq qərarına gəlir.

O, Bakının Biləcəri adlı kəndində yaşayırdı. Ağa Musa hər gün Biləcəridən Bakıya piyada gəlib limanda hamballıq etməyə başlayır. Onun ayaqqabısı olmadığından ayaqyalın gəzirdi. Belə uzaq yolu ayaqyalın və piyada gedib-gəldiyi üçün tez bir zamanda onun ayaqlarında qabarlar yaradır. Əvvəllər bu qabarlar onu çox incidirdi. O, ağır yükləri daşıyanda ayaqları göynəyirdi. Yükün sahibləri isə onu tələsdirib: ”Tez ol! Tez get!” deyirdilər. On bir yaşlı Ağa Musa dinib-danışa bilmir, ağrı-acını içində çəkirdi. O, yükü təhvil verib, geri qayıdanda küçədə əyləşib balaca əlləri ilə göynəyən ayaqlarını ovuşdurar, sonra yenə limana tərəf qaçardı. Bəzən o, küçədə qayğısız oynayan uşaqlara həsədlə baxardı. Axı o da uşaq olmaq istəyirdi. Əslində o, uşaq ikən böyüyüb ev qayğısı çəkməyə məcbur oldu.

O, atasının bir sözünü qulağında sırğa eləmişdi. Atası deyərdi: ”Qənaət etməyən, səxavətli ola bilməz.” Ağa Musa da hamballığa başlayan gündən hər gün qazancından 3-5 qəpik arxaya atıb dar gün üçün yığırdı. O, fikirləşirdi: “Nə vaxta qədər hamballıq edəcəyəm, bir az pul yığıb bir parça torpaq alaram. O torpaq sahəsində əkinçiliklə məşğul olub ailəyə kömək edərəm.”

Ağa Musanın qənaət etdiyi qəpiklər üst-üstə yığılıb manat olurdu. Amma o, nə özünə ayaqqabı, nə də bütün uşaqların sevdiyi çərəzlərdən almırdı. Əslində daha ona ayaqqabı lazım deyildi. Onun ayaqlarında olan qabarlar bərkiyib daş kimi olmuşdu. İndi bu qabarlar onun üçün ayaqqabını əvəz edirdi. Ağa Musanın məqsədi yalnız torpaq almaq idi. O, aclığa, susuzluğa da dözürdu. Amma qərarından dönmürdü.

On səkkiz yaşına qədər hamballıq edən Ağa Musa nəhayət ki, bir parça torpaq sahəsi ala bilir. Onun sevincinin həddi-hüdüdü olmur. Torpağı əkmək üçün birinci növbədə su lazım idi. Ağa Musa su quyusu qazdıranda quyudan su əvəzinə çox qiymətli neft çıxır. O, gözlərinə inanmır. Qara nefti ovcuna doldurub qoxulayır, görür ki, bu doğrudan da neftdir. Ağa Musa ilk neft quyusunun qarşısında and içir ki, torpaqdan çıxan bu sərvəti mən xalqın xeyri üçün xərcləyəcəyəm. O, belə də edir. Sonralar neftdən əldə etdiyi pullara xəstəxalar, məktəblər tikdirir. Şəhərə su çəkdirir. Bakıda 98 ədəd bəzəkli imarətlər tikdirir. İnsanların işləməsi üçün mədənlər və zavodlar tikdirir. Ağa Musa bütün kasıblara əl tutur ki, uşaqlar onun kimi hamballıq etməsinlər. Çünki o, həyatında çox çətinliklər görmüşdü.

İllər keçir.

Ağa Musa çox varlı bir adama çevrilir. Hamı ona milyonçu Ağa Musa deyir. O, nə qədər varlı olsa da atasının uşaq vaxtı ona dediyi sözləri heç vaxt unutmur.

Ağa Musa başa düşür ki, doğrudan da qənaət etməsən, səxavət göstərə bilməzsən. O, öz qənaəti nəticəsində həyatda hər şeyə nail oldu.

Yəqin atasının ürəyinə damışdl ki, oğlu bir vaxt miylonçu olacaq, ona görə də adını Ağa Musa qoymuşdu. Oğlu da atasının ona qoyduğu adı doğrultdu.

Əziz balalar, siz də çalışın ata-ananızın sizə verdiyi adı həmişə doğruldasınız. Çünki ad valideynin övladına verdiyi ilk və ömürlük hədiyyədir.

İllər keçəcək, balaca uşaqlar böyüyüb Ağa Musa Nağıyev barədə yazılan qalın-qalın kitabları oxuyacaq. Onda hamı biləcək ki, bir vaxt ayağında qabar olan oğlan öz xalqı, doğma vətəni üçün nələr edib.

Nağılımız sona çatdı, günəş də gedib batdı.

Birdən göy guruldadı, ildırım çaxdı. Göydən yerə çoxlu noğullar töküldü. Axı Ağa Musa uşaq vaxtı noğulu çox sevirdi. Amma kasıb olduğu üçün noğul ala bilmirdi. O, milyonçu olandan sonra həmişə çayı noğulla içirdi.

## 98 bina tikdirən kasıb oğlanın nağılı

Əziz oxucu, bu nağıl Bakının sayılıb - seçilən milyonçusu Ağa Musa Nağıyevə həsr etdiyim üçüncü nağıldır. Mən Ağa Musa Nağıyevi uşaq ədəbiyyatına gətirdiyimə görə fəxr duyuram. İndiyə qədər hələ heç bir milyonçu barədə uşaq ədəbiyyatında numünələr yox idi.

***

Biri var idi, biri yox idi. Bakının qədim kəndi olan Biləcəridə Nağı adlı bir kişi yaşayırdı. Onun dörd oğlu var idi. Onların arasında ən arıq və cılızı Ağa Musa idi. Ağa Musa uşaq yaşlarından zirəkliyi və hazırcavablığı ilə hamının diqqətini çəkirdi. Nağı kişi böyük ailəsini saman satmaqla güclə dolandırırdı. O, həmişə övladlarına deyərdi:

- Saman satmaq eyib deyil. Əksinə bu ruzi-bərəkət deməkdir. Axı, bu saman sünbülün küləşindən yaranır.

Balaca Ağa Musa atasının əziyyətini görür, ona kömək etmək üçün bir yol axtarırdı. 11 yaşı olanda Ağa Musa Bakı limanına gəlib yük daşımaqla pul qazanmağa başlayır. Bu kasıb oğlanın ayaqqabısı olmadığı üçün belə uzun yolu piyada və ayaqyalın gəlib-gedirdi. Onun özü üçün qoyduğu bir qanunu var idi:”Bir qəpik də hədər yerə xərcləməmək!” Qənaətcillik hələ çox kiçik yaşlarından onun həyat amalına çevrilmişdi. Qazandığını qəpik-qəpik yığar, gələcək həyatı üçün sərmayə toplayardı.

Günlər tez gəlib keçirdi, Ağa Musa böyüyürdü. Onun özü ilə birlikdə arzuları da böyüyürdü. Bakıya gələndə onun ilk diqqətini çəkən hündür və yaraşıqlı binalar oldu. Bəzən bu balaca oğlan gözəl bina görəndə təkrar-təkrar onun dövrəsinə hərlənir və ürəyində deyirdi:

-Kaş mənim də belə bir evim olaydı. Belə evdə bütün ailəmiz rahat yaşayardı...

Sonra da öz-özünə deyərdi:
-Ay yazıq, sən onu heç yuxuda da görməzsən. Sən hamballıqla qazandığın pula heç daxma da tikdirə bilməzsən.
Belə anlarda Ağa Musa çox məyus olar, kədər içində ağır yüklər daşıyardı.
O vaxt Ağa Musanın heç ağlına da gəlməzdi ki, bir gün tale onun üzünə güləcək. Allah ona o qədər sərvət verəcək ki, nəinki bir, hətta 98 belə bina tikdirəcək.
İllər keşdi, kasıb Ağa Musa yığdığı pulla kiçik bir torpaq sahəsi aldı. Onun məqsədi bu idi ki, orada göy-göyətri əkib-becərsin və satıb ata-anasına kömək etsin. Əkin əkmək üçün isə ilk növbədə su lazım idi. Ağa Musa aldığı kiçik torpaq sahəsində su quyusu qazımağa başlayır. Elə burada bəxt onun üzünə gülür. Allah bu balaca, kasıb oğlana misli-bərarəri olmayan sərvət bəxş edir. Quyudan su əvəzinə neft fəvvarə vurur. Gözlərinə inanmayan Ağa Musa əvvəlcə elə bilir ki, yuxu görür. Sonra qapqara nefti ovcuna doldurub burnuna yaxınlaşdırır. Görür ki, bu doğrudan da neftdir. O, sevincindən nefti üzünə sürtür və ürək dolusu Allaha şükür edir.
Bu xəbər bir an içində hər yerə yayılır. Varlı insanlar gəlib Ağa Musadan bu sahəni almaq istəyirlər. Amma, Ağa Musa son dərəcə ağıllı və uzaqgörən olduğuna görə öz torpaq sahəsini heç kimə satmadı. O, neft sahibkarları ilə məsləhətləşib, öz neftini özü satmaq qərarına gəldi. Qısa bir vaxtdan sonra Ağa Musaya milyonçu adı verildi.
Bakıya gələndə gördüyü yaraşıqlı binalar Ağa Musanın fikrindən çıxmırdı. Ağa Musa neftdən qazandığı pullarla Bakının ən gözəl yerlərində yaraşıqlı binalar tikdirməyə başladı. Onun tikdirdiyi binalar başqa milyonçuların binalarından fərqlənirdi. Ağa Musa Nağıyev binaları tikənlərə belə bir qərar vermişdi:"Bütün binaların ən uca yerində bir hambal çuvalı və iki sünbül hörüyü qoysunlar. Bu nişanın tən ortasında isə iri hərflərlə N və M hərfləri yazılsın." Çoxu, əvvəllər savadsız bir adam kimi tanıdığı Ağa Musanın ağlına sonralar heyran qalmışdılar. Binaların üstündə olan hambal çuvalı onun vaxtı ilə hamballıq etdiyinə, sünbüllər isə atasının saman satan olduğuna işarə idi. Sünbül bərəkətdir, ona görə də onun var-dövləti günü gündən artıb-çoxalırdı.
Ağa Musa Nağıyev Bakının ən dəyərli yerlərində 98 bina tikdirib gələcək nəsillərə yadigar qoydu. Bu binaların hər biri bir sənət əsəri, tarixi abidədir.
Əziz balalar, siz böyüyəndə Ağa Musa Nağıyev barədə çoxlu kitablar oxuyacaq, onun barəsində ətraflı məlumatlar öyrənəcəksiniz. Ağa Musanın nəvəsi Dilarə xanım onun barəsində çoxlu kitablar yazıb, siz o kitabları oxuduqca, Ağa Musaya həmişə rəhmət deyəcəksiniz.
Ağa Musa Nağıyevin həyat yolu hər birimiz üçün nümunədir. Kasıb bir oğlan öz qənaəti ilə milyonçu oldu və doğma vətənində 98 bina tikdirdi.
Nağılımız sona çatdı.
Göy guruldadı, ildırım çaxdı, güclü yağış yağdı. Yağış 98 binanı yuyub təmizlədi. Onlar Bakımızı daha da əzəmətli göstərdi.

**Şairə, publisist**
**Gülara Munis**

# NƏNƏ-NƏVƏ SEVGİSİ

2013-cü ildə Novxanıda bağda istirahət edirdik . İsti yay günündə axşam saat 11-i keçmişdi. Telefon zəngi gəldi. Danışan sözü gedəcək nəvə idi. Nənənin 10 nəvədən ən istəkli nəvəsi idi telefon açan. Anasının dili ilə o da mənə xala, deyə müraciət edir.

Xala, nənəm yatıb? Dedim – yox. Onda çalış yatmasın bir sürprizim var. Amma ona demə.

Elə bu səhər nənə nəvəsini artıq 21 gündür ki, görmədiyini deyəndə, müdaxilə etdim ki, iş adamıdır, hamını o cümlədən səni heç vaxt nəzərindən qaçırmayır. Görürsən vaxt ayıran kimi gəlir görüşünə.

Axı o mənim nəfəsimdir. Səsini eşidəndə bütün xəstəliklərim yadımdan çıxır. Bilirəm işi çox məsuliyyətlidir, amma yenə istəyirəm yanımda olsun deyə, nənə söhbətinə davam etdi.

Elə bu hadisədən 7-8 gün öncə nənənin halı pisləşmişdi. Həkimlərin və yaxınların köməyi sayəsində özünə gələn nənənin arzusu bu oldu: - " Əyər bir də halım pisləşsə, nəvəmə telefon açın, mən onun səsinin ahəngilə gözlərimi yumsam, yaşadığıma hayıfım gəlməz".

Nənəyə bildirəndə ki, nəvəsi bu gün gələcək, elə bil dünyanı ona bağışladılar. Amma sual dolu nəzərlərindən nigarançılıq hiss olunsa da sürpriz haqqında bir söz demədim. Gecənin bu vaxtında nəvənin gəlişi, nə isə... Allah xeyir eləsin- deyə, nənə düşüncələrə qərq oldu...

O, 40 il əvvəl ötüb keçənləri yada saldıqca, hətta dəqiqələrin biri-birini necə əvəz etdiyini izləyirdi. Kino lenti kimi nənənin gözü qarşısında nəvəsilə 40 ilə yaxın addımladığı yollar, necə deyərlər – bir igidin ömrü, bir anda canlandı gözünün önündə:

Nənənin üzündən sanki keçən illərin nastalji hisslərə baş vurduğu hiss olunurdu.

... Haqqında söhbət gedəcək nəvə, valideyinləri xaricdə işlədiklərindən dil açanda nənəsinə ana –deyə müraciət etdi. Nənə özü də hiss etmədən uşağa ana məhəbbəti bəsləyib, bütün ömrünü ona həsr etdi. 43 yaşında nənə olmaq özü bir sevinc idi. Bu sevincin şərbətini nənə çox erkən içsə də, bu badə ona problemlər yaratsa da, təkrarsız sevinci – nənə olmaq sevincini ona birinci nəvəsi bəxş etdiyindən hər çətinliyi tez unudurdu.

Doğru deyiblər ki, dövlətdə dəvə, övladda nəvə. Bu atalar misalı bütövlükdə bu nənəyə aiddir. Nənə nəvənin qayğısını, cəfasını, nazını çəkməyə o qədər adət etmişdi ki, onunla bağlı hətta hər hansı bir xırda işin həllini də o heç kəsə etibar etmirdi.

... Beləcə nəvə böyüyüb məktəbə getdi. Nənənin sevinci yeri-göyü tutmayırdı. Ata-ana sevinci başqa, nənə sevinci isə tam başqadır. Hətta nəvə toyu görən nənə üçün deyirlər ki, övlad toyu adətdirsə, nəvə toyu səadətdir.

Məktəb illəri başlanandan, bu şıltaq nəvənin sərgüzəştləri də başladı. Yayda nənə uşağı bağda bəsləyir, 9 ay isə şəhərdə ardınca gəzməkdən yorulmaq bilmirdi. Onu da qeyd edim ki, ailəsinin və əlalxüsus nəvənin qulluğunda duran bu nənə,

özünə qulluq etməyə da vaxt tapırdı. Son dəblə və zövqlə uşağı geyindirib-keçindirərkən özünü də unutmayırdı.
O, bütün varlığını nəvəyə həsr etdindən, ailədə nənə ilə baba arasında münaqişələr yaranıdrdı. Baba haqlı olaraq qısqanclığını büruzə verirdi. Çəkidə hamı bir tərəfdə idi, nəvə isə o biri tərəfdə. Nənə qayğısının o biri tərəfdəkilərə azlığı söz-söhbət yaradırdı. Amma bütün bunlar nənənin heç vecinə də deyildi.
Yerini bilən nəvənin böyüdükcə problemləri də artırdı.
Bir dəfə nənənin qulağına çatdı ki, nəvəsi dərslərindən geriləyib. Elə bil ilan çaldı nənəni. Mənim uşağım ancaq yaxşı qiymətlər ala bilər, deyə düşünən qəhrəman nənə, ertəsi günü səhər erkən heç kimin açmağa cürət etmədiyi qapını açıb, məktəb direktorunun otağında onunla qarşı-qarşıya əyləşmişdi. Nənə düşünürdü ki, bu söhbət babaya və uşağın anasına çatsa, birdən nəvəni onun əlindən ala bilərlər. Bunları gözünün önünə gətirən nənə xəyalən özünü gah "müğəssirlər kürsüsündə" görür, gah özünə qəsd edir, gah da ki, özünü məzarda görürdü.
Hə, nəvə barmağını hara uzatsaydı, nənə oranın əsgəri idi. Sözün əsl mənasında o, nənənin "gül balası" idi. Məktəbdə bu haqda çox söz-söhbətlər gedirdi, yaxşı mənada. Nənə sanki ov çalmış qartala bənzəyirdi, nəvəyə artıq bir söz deyiləndə. Bu sevgi get - gedə artır, şiddətlənirdi.
Yerini bilən nəvənin isə böyüdükcə, problemləri də artırdı.
Bir sözlə bu nəvə nənənin əsl "gül balası" idi. Amma nəvənin dəcəlliyinə baxmayaraq, o, ağıllı bir oğlana çevrildi.
O, böyüdü. Hündürboylu, bacarıqlı bir oğlana çevrildi. O zaman əlçatmaz ali məktəb sayılan "Neft və Kimya institutuna" qəbul olanda, nənənin sevinci yerə-göyə sığmayırdı. Çünki bu dəcəl oğlanın ali savad alacağına çoxları şübhə edirdi. Nənə bu instituta da yol tapdı. O zaman neft sahəsində ədəbiyyat az olduğundan tələbələr günlərini kitabxanalarda keçirirdi.
Nəvəsinin əziyyət çəkmədən dərslərə evdə hazırlaşması üçün çalışan nənə, institutun kitabxanasına da yol tapıb, kitabları evə gətizdirdi. Axı başqa cürə ola da bilməzdi. Çünki institutun kadrlar şöbəsinin rəisi- ehtiyatda olan polkovnik Zəkəriyyə Rəcəbli nənənin qapı qonşusu olmaqla yanaşı evin yaxın adamı sayılırdı.
Nənənin həyat yoldaşı da hərbiçi olub, yüksək vəzifələrdə çalışıb, mayor rütbəsilə təqaüdə çıxmışdı.
Nənə hərdən müəllimlərlə sıx əlaqə yaradır ki, nəvənin Allah eləməmiş heç bir kəsiri olmasın. Beləcə bir ili başa vurub, təhsilin ikinci ilində nənə tələbə yoldaşlarından nəvəsinin institutdan könüllü olaraq çıxdığından xəbər tutanda nə hallara düşdüyünu qələmə almaqda çətinklik çəkirəm. Evə qayıdan nənə, nəvəyə sual verməmişdən xəbər tutur ki, o, artıq Bakı Dövlət Universitetinin tələbəsidir.
Bu hadisədən xəbər tutan nənə ürəy xəstəliyinə tutulsa da, nəvə arzusuna yaxınlaşmışdı. Səbəb: – hələ orta məktəbdə bir sinifdə oxuduğu qızın, qızlar arasında incə qaməti, ceyran yerişi və gözəlliyi ilə seçilən qıza olan məhəbbəti idi. Onun sərt tonda dediyi sözlər bu gün də nənənin qulağlarında əks-səda verir: - "O qız harada olsa, mən də orada olmalıyam"!
O zaman nənə düşünməzdi ki, bu məhəbbətin bəhrəsi onların üç oğul övladları olacaq.

Çox nadir haldır ki, onların sinif yoldaşlarından üç cütlük xöşbəxt ailə qurub və bu cütlük bu gün də sıx dostluq əlaqələrini davam edib, ailəvi olaraq sevinclərini birgə bölüşürlər.
Sözü gedən nəvə iki dəfə ölüm ilə qarşılaşıb:
5-6 yaşında çox ağır xəstəliyə düçar olur. Xəstəliyin 7-ci günündə çağırışa gələn həkim uşağın həyatının təhlükə altında olduğundan narahat olub, onu infeksion xəstəliyinə tutulduğundan şübhələndiyini bildirib, nənənin təkidinə baxmayaraq, xəstəxanaya aparmağı məsləhət görürür. Nənə təslim olur.
Xəstəxanada nənə ilə həkimlər arasında mübahisə gedir. Nənə nəvəsini tək buraxmayacağını deyir, həkimlər isə bunun qeyri qanunu olduğunu ona başa salmağa çalışırlar. Sonda ona təslim olub, nəvəsi ilə bir çarpayılıq palatada qalmasına razılıq verilir.
Uşaq həyat ilə ölüm arasında mübarizə aparır, onun arıǧ bədəninin hər yerinə sancılmış iynələri görən nənənin ümidi isə tək bir Allaha dualar etmək idi. Yuxusuzluqdan əldən düşmüş, başının altında balış əvəzi olan ayaqqabıları, daş döşəmənin ystündə uzanan ümidsiz nənənin ovucunda tutduğu nəvənin əlini görən hər bir kəs kövrəlirdi. Kənardan bu mənzərəni seyr edənləri göz yaşları bourdu. Xəstəliyin 9-cu günündə nənənin gördüyü yuxu demə röya imiş.
Gözlərini açan nəvə, nənəsinin yerdə uzanıb, onun əlini ovucunda saxladığını görüb, mama - deyən çığırtısına, nənənin isə - can bala deməsi, xəstəxanadakı xəstələri və bütün tibb işçilərini lərzəyə gətirdi.
Nənənin sevincinin həddi-hüdudu yox idi. Ölüm-dirim ilə mübarizədə olan nənə və nəvənin narahatçılığına son qoyuldu. Həyat qalib gəldi. Xəstəxanada böyükdən kiçiyə qədər hamı bu nənə və nəvənin münasibətindən danışırdı. Nənə nəvənin iynələrədən dəlik-deşik olmuş bədəninə baxır, Allaha şükr edirdi ki, duaları müstəcəb oldu.
Nəvə həyata qayıtdı. Nənənin sevinci yerə-göyə sığmayırdı. O da, nəvəsi də xəstəliyə qalib gəldi. Fərq yalnız onda idi ki, nəvə həyata qayıtdı, nənə isə qismən sağlamlığını itirdi...
... 6-7 yaşlarında nəvə astma xəstəliyinə tutulmuşdu. Nənənin dərdi heç bir çərçivəyə sığmayırdı. Uşaq böyüdükcə, nənənin dərdi də böyüyürdi. Həkim qalmadı ki, o, müraciət edib, məsləhət almasın. Dava-dərman öz yerində, türkə çarəyə də əl atdı nənə. Xəstəlik isə öz işini görür, uşağın nəfəs tutmaları biri-birinin ardınca baş verirdi. Nəvənin nəfəsi tutulduqca, nənənin ürəyinə yeni xal düşür, o dünyanı görüb, qayıdırdı. Artıq özünü unudan nənə hərdən güzgüyə baxanda, saçlarına düşən ağ dənləri, üzünün cizgilərinin dəyişdiyini, qırışların əmələ gəldiyni heç hiss də etmirdi.
Onun bircə amalı var idi, nəvəni bu xəstəlikdən necə xilas etsin! Qarşısına qoyduğu yalnız məqsəd var id: - Uşağı xəstəlikdən xilas etməlidir, ya da ki, özü həyatda yaşamamalıdır...
O, uşağı heç kimə, hətta anasına belə etibar etmirdi. Özüm edəcəyəm, - deyə hamını kənarlaşdırırdı.
Nənənin gecəsi gündüzünə qarışdı. İndi o, necə deyərlər, nə yediyini bilir, nə də içdiyini. Türkə çarədən tutmuş həkimlərin dediklərini yerinə yetirir, uşağın xəstəliyi şiddətlənəndə, hər ikisi o dünyanı görüb, qayıdırdı.

Naxçıvandakı duzlağı ona məsləhət görəndə razılıq verdi və 7-8 il nəvənin sağlamlığını pərpa etmək üçün nənə Naxçıvan-Bakı yolunu "ağartdı".
Duzlağa valideyinləri buraxmayırdılar. Qayda belədir. Çünki sağlam insanlar burada xəstəlik qazana bilər. Amma nənə, qəhrəman nənə, bura da yol tapdı. Hətta özünə çarpayı da qoydurdu. Nəvə qalmışdı bir tərəfdə , hamı nənəyə, onun şücayətinə azarkeşlik edirdi. Həkim personalı xüsusilə onun xatirini istəyir, hər il onun yolunu gözləyirdilər. 8-ci ili nəvə xəstəliyə qalib gəldi və birdəfəlik xəstəliyinə son qoyuldu.
Yetkinlik yaşına çatan nəvə şəfa tapdı, sağlamlığı bərpa oldu. Nənə isə?... O, bu gün də duz xəstəliyindən əziyyət çəkir. Amma bu xoş əziyyətdir. Deyir ki, mən yaşlıyam. Yaşdaşanda hərə bir dərddən ömrünü dəyişir. Təki bu olsun mənim dərdim.
... Hə, beləcə nənə xəyallardan ayrılıb, sürpriz dolu nəvəsini qarşıladı Novxanı bağında. Gələn oğlanlar nəvənin məktəb dostları idi. Onlar indi böyüyüb, artıq hər biri ailə sahibidir.
Həmişə qaynayıb-coşan gördükləri nənənin yerində indi ahıl, yaşlı bir qadını görmək dostlar üçün ağır olsa da, bir azdan göz yaşları içində biri-birini əvəz edən uşaqlıq xatirələri elə bil nənəyə güc verdi.
Nənə, yadındadır o qədər bizə unlu məmulatlar yedizdirirdin, bağdan köçəndə valideyinlərimiz bizi tanımırdı. Çimərlikdən biz qayıdınca sənin çəkdiyin əzabları indi başa düşürük. Nigarançılıqdan özünə yer tapmasan da, bişir-düşüründən qalmırdın. Bizim salamat qayıtdığımızı görəndə rahat nəfəs alırdın. Hər zaman deyirdin ki, dənizlə zarafat etmək olmaz. Su insanı aldadır. Sən bizə də nənəlik edib, nazımızı çəkib, qeydimizə qalmısan.
Birinin yadına məzəli bir əhvalat düşdü: - Yadımdadır, çiyələyi çox sevdiyindən və bu meyvənin ömrünün qısa olduğunu nəzərə alaraq, nənə hər gün Sovetski küçəsindən Əhmədli qəsəbəsində məktəbdə təhsil alan nəvəsi üçün şirə səpdiyi çiyələyi gətirib, ətrafındakı uşaqları da qonaq edirdi. Buna görə də uşaqlar nənəni məktəbdə səbirsizliklə gözləyirdilər. Nənə gəldi, deməli nə isə dadlı yemək var. Bəs o biri yeməklərdən, buterbrodlardan, peraşkilərdən danışmırıq.
Dostlardan birinin yadına düşən daha bir əhvalatı danışmazdan əvvəl gülməkdən uğundu, gözlərindən yaş töküldü. Axırı başa düşdük:
Yaxşı oxuyan şagirdlərdən Moskvaya göndəriləcəklər siyahısında nənənin "gül balası"da var idi. Bütün məktəb biri-birinə dəymişdi, axı bu necə ola bilər? Nəvənin vurulduğu əlaçı qız bu siyahıya düşməmişdi. Amma nəvənin adı siyahıda idi. Cavab bir idi - çünki heç kimin belə nənəsi yox idi. Çox söz-söhbət getdi məktəbdə. Məktəb direktoru bu nənəyə "yox" və yaxud "olmaz" kəlmələrini deməyə cürət etmirdi.
Nəvə siyahıya düşdü - amma Moskva səfəri baş tutmadı. Dostlar nənəni çox çətinliklə başa saldılar ki, nənənin onunla getmədiyinə görə o bu səfərdən imtina edib.
Nəvə bu səfərin baş tutmamasından heç də mütəəssir olmadı, amma nənə şok keçirdi. Məşədi İbad demişkən o, siyahının tutulmasına bir ətək pul tökmüş, əziyyət çəkmişdi.

Onlar nədən danışsalar, nəyi yada salsalar, hər söhbətin axırında hər üç dost bir söz ilə danışıqlarını bitirirdilər – bunun hamısı sənin adınla bağlıdır, nənə.
İndi hər üç dost iş adamlarıdır. Bu gün yığışmaqlarının səbəbi nənənin nəvəsinin yüksək vəzifəyə təsdiq edilməsi idi.
Qarşısında diz çöküb, -"Mama sevin ki, nəvənin yüksək vəzifəyə layiq olma Sərəncamını Ölkə Prezidenti imzalayıb. Bu pilləyə qalxmağım da, vəzifə də hər şey səninlə bağlıdır. Mama Sənin ömrünü əyər bir saat da uzadıramsa, o günü yediyim çörəyi özümə halal bilirəm"!- deyən nəvə kövrəldi.
Hamı kövrəldi. Sevinc yaşları məni də boğurdu. Üç dost, bir nənə və bir nəvənin xoş xatirələri neçə saat davam etdiyi hiss olunmadı.
Ancaq yayın cırha-cırında üşüdüyümü hiss etdim.

**P.S.** Bu belə də olmalı idi. Çünki nəvənin dünyaya göz açması - sentyabr ayında - Müqəddəss Məryəm ananın mövludu gününə təsadüf edir. Mən bunu təsadüf deyil, zərurət hesab edirəm. Tarixdə birinci və sonuncu qadındır ki, kişisiz övlad dünyaya gətirib. Bu insanın nurundan nəvəyə də pay düşüb. Onun saflığından bəhrələnib bu nəvə. Bunun nəticəsidir ki, o, tərbiyəsi, mədəniyyəti və savadı ilə hamıdan fərqlənir. Əlbəttə bunun üçün o, anasına minnətdar olmalıdır. Nənənin arzuları tək bu nəvə ilə bitməyir. İndi o, bu nəvənin üç oğlunun toyunu görmək həvəsilə yaşayır. O biri nəvələrdən 14 nəticə sahibi olan nənələr-nənəsi, bu adı 2013-cü ildə qazandı. Dörd nəticəsi bu ildə dünyaya göz açdı. Onu nəsdən, yəni 13 rəqəmindən şıxaran oğlana isə Ağa Musanın ruhu naminə - nakam dünyasını dəyişmiş oğlu İsmayılın adını verdilər.

Avqust-sentyabr 2013.

## PRESS RELİZ

**Şəkidə dünyaya göz açıb, Bakıda yaşayıb- yaradan Səidə xanım üçün bütöv Azərbaycan azlıq edib.**

Ağa Musa Nağıyev adına "Milli Dəyərlərin Qorunması" İctimai Birliyi və Respublika Qadınlar Cəmiyyətinin birgə təşəbbüsü ilə görkəmli alim Səidə xanım İmanzadənin anadan olmasının 100 illiyinə həsr edilmiş yubiley gecəsi 2010-cu ilin dekabr ayında "İsmailiyyə" (AMEA) binasında keçirilib.
Səidə İmanzadə ilk təhsilini mədrəsədə almış, Türk Qadın Sənaye məktəbini ailə qurandan sonra, 20 yaşında bitirmişdir.
33 yaşında Səidə xanım "Əməkdar müəllim" adına layiq görülüb. 26 yaşından məktəb direktoru, 46 yaşından təqaüdə çıxanadək Bakı Dövlət Universitetində (BDU) dekan vəzifəsində çalışıb.

Uzun müddət BDU- də fəaliyyət göstərən Səidə xanım İmanzadənin adı Həmid Araslı, Məmmədcəfər Cəfərov, Feyzulla Qasımzadə və Mir Cəlal Paşayev kimi akademiklərin sırasında bir çəkilib.
Öz erudisiyası ilə Azərbaycan tarixində qadınların rolunu aşkarlayıb, İslamın Azərbaycanda yayılmasının spesifik xüsusiyyətlərini açıqlaya bilən Səidə xanım bu ideyaları ustalıqla həyata keçirə bilir. Məhz bu baxımdan o monoqrafiyalarından birini "İslam və Azərbaycan qadını" mövzusuna həsr edir.
Səidə xanım fəaliyyəti nəticəsində özünü Azərbaycan qadınının mücəssəməsi, Şərq qadınının simvolu, Alim, Pedaqoq kimi sübut edə bilmişdir. Əsərlərinin əksəriyyətini "Qadın və mübarizə" mövzusuna həsr etmişdir.
20-30-cu illərdə azərbaycanlı qadınların ictimai həyata qoşulması savadsızlığın ləğvi kimi qarşılanır. Səidə xanımın uzun müddət Bakı şəhər Qadınlar Şurasının Sədri vəzifəsində çalışması məhz bunun buna sübutudur.
Səidə xanım Əbilov adına Mədəniyyət evində "İsmət" və İçəri şəhərdəki xalçaçılıq sexinin "Ləyaqət" qızlar klubuna da başçılıq edib.
Əməkdə fərqli olub, 11 dəfə Azərbaycan SSRİ Ali Sovetinin "Fəxri Fərmanı" ilə təltif edilib; "Əməkdar elm xadimi"nə və keçmiş SSRİ-nin Lenin ordeninə layiq görülüb. Arxa cəbhədə fəaliyyətinə görə aldığı mükafatları isə həyatının bəhrəsi hesab edib.
Bu nəcib və xeyirxah qadın, görkəmli alim və ictimai xadim bütövlükdə həyatını Azərbaycan qadını tərəqqisinə həsr edib.
Səidə xanımın müsbət keyfiyyətlərini aşılayıb, onun gözəl insan, mehriban həyat yoldaşı, əvəzedilməz ana, ictimaiyyətçi xanım olduğunu, XX əsrin təlatümlü hadisələrlə yadda qalan 40-50-ci illərində dünyaya göz açanların diqqətinə çatdırmaq vacibdir.

***28 dekabr 2010 il***

## SƏİDƏ NƏBİ qızı İMANZADƏ

**Şəxsiyyətlər, yaxşılar heç vaxt unudulmur!**

Çoxşaxəli yaradıcılığı ilə rastlaşdığım alim Səidə İmanzadənin tarix üçün etdikləri və onun qeyri-adiliyi diqqətimi cəlb etdi.
Aldığım təəssüratdan belə qənaətə gəldim ki, özündən sonra izinin qalması Səidə xanımım elm üçün etdiklərinin nəticəsidir.
Onun gözəl insan, mehriban həyat yoldaşı, əvəzedilməz ana, ictimai xadim olduğunu bu günə çatdırmaq məqsədilə qardaşı qızı həkim-şairə Sədaqət Rəşad və nəvəsi Afaq xanım Məmmədova ilə söhbət zamanı Səidə xanımın 100 illik yubileyinin keçirilməsinə hazırlıq işlərinə başlamağı qət etdik.
Bunumla əlaqədar Səidə xanımın işdə və ailədə nələr etdiyi barədə çoxlu suallara cavab almaqla bərabər şəxsi gündəliyindən daha nələr oxudum, nələr...

Səidə xanımın illərlə qələmə aldığı və bu vaxtadək heç bir yerdə çap edilməmiş şeir toplusu nəvəsi Afaq xanım tərəfindən aşkar edilərkən, qələmə aldıqlarını oxuduqca, insan Səidə xanımı tamamilə fərqli bir aspektdən kəşf edir. Nastalji hisslərə qatılır.
Dəyəri və orijinallığı ilə rahat həzm oluna biləcək bu şeirlərdə həyat eşqi, ailəyə sevgi, dosta sədaqət, gənc qadınlara tövsiyə ilə coşub-daşan sətirlərin arxasında ağbirçək xanım, nəvaziş dolu ana dayanır.
İctimai işlərilə tanışlıqda isə, ictimaiyyət üçün çalışmaq həvəsinə düşürsən. Səidə xanımın surətində Azərbaycan qadınının mücəssiməsi canlanır göz önündə.
Alimin 100 illik yubileyini Ağa Musa Nağıyevin oğlu İsmayılın xatirəsinə ucaltdığı “İsmailiyyə” binasında keçirilən tədbir yüksək səviyyədə baş tutdu.
Çox maraqlı idi onun həyatı. 1910-cu ildə Şəkidə dünyaya göz açıb, 15 yaşından Bakıda yaşayıb.
1910- cu ildə kübar, zəngin şəcərəsi olan ziyalı bir ailədə doğulmuş Səidə ilk təhsilini mədrəsədə almış, Türk Qadın Sənaye məktəbini artıq ailə qurduqdan sonra, 20 yaşında ikən bitirmişdir.
21 yaşlı Səidə molla-axund qızı olduğu səbəbindən təhsil aldığı Tibb İnstitutundan xaric edildiyindən həkim olmaq arzusuna çata bilməyib, ali pedoqoji təhsilə yiyələnib.
Cəncliyin şıltaqlığını hələ yaşamayan, 14 yaşlı Səidə ailə qurub. Sonralar sevgisinin aşıb-coşan zaman özünü ən xoşbəxt qadın sanıb. Ömür-gün yoldaşı Şakir həyatının mənası olub.
O, məktəb direktoru, Az.Dövlət Universitetində dekan vəzifələrində çalışıb.
... 33 yaşlı Səidə xanım çətin müharibə illərində “Əməkdar müəllim” adına layiq görülüb. Səidə xanım Əbilov adına ”İsmət” mədəniyyət evinə, daha sonra isə İçəri şəhərdə xalçaçılıq sexinin “Ləyaqət” qızlar klubuna da başçılıq edib.
1942-ci ildə Zaqafqaziya ziyalılarının antifaşist mitinqində Səməd Vurğun və Mirzə İbrahimov ilə Səidə xanım da Azərbaycanı təmsil edənlərdən olub. O dövrdə 32 yaşlı xanımın bu şücaəti böyük rezonansa səbəb olmuşdur.
Zəngin şəcərəsi olan ziyalı, kübar ailədə dünyaya göz açıb, məsul vəzifələrdə çalışıb, alimlik dərəcəsinə yüksəlib. Ulu öndər Heydər Əliyevə dərs deməkdən hər zaman qürur duyub.
Sinəsini bəzəyən medallar ona xüsusi ruh yüksəkliyi verirdi. Bunu o, yuxusuz geçələrinin, ağrılı-acılı günlərinin, çətin illərinin bəhrəsi sanırdı. Özünün dediyi kimi: “Qınayan olmasaydı, medallar bəzədiyi bu geyimi, çəkdiyi əziyyətlərin bəhrəsini gecə də əynindən çıxarmazdı”.
Həyatda davamçısı olub, ruhunu yaşadan sevimli övladları – Mübariz və Talehə, nəvə və nəticəsi oldu Səidə xanımın. Mübariz oğlunu uşaqlıqdan yüksək kürsüdə görürdü. Xəyalların həqiqətə çevriləcəyinə hər zaman ümüdlü olub ...
Etdiklərinə rəğmən Səidə xanım üçün bütöv Azərbaycan azlıq edib. O, həyatını bütövlükdə Azərbaycan qadınının tərəqqisi işinə həsr etmişdir.
Səidə İmanzadənin məzarı Fəxri Xiyabandadır. Elə bil o, doğma Bakının ən ucqar nöqtəsindən baxıb, həyata keçirə bildiyi arzularının çiçəklənməsinə sevinir. Sevinir ki, onun yaşayıb-yaratdığı Dövlət Müstəqillik əldə edib.
Onun haqqında dərc olunan nekroloq da qeyri adi idi:

“Səidə Nəbiqızı 82 yaşında dünyaya əlvida dedi. O, hər sahədə olduğu kimi, elmi-tədqiqat sahəsində də özünü sınamışdır. Onun “Qadın və mübarizə” mövzusuna həsr edilmiş əsərləri 20-30-cu illərdə azərbaycanlı qadınlarının ictimai həyata qoşulması, savadsızlığın ləğvi kimi qarşılanmışdır. Bunun sübutu -Səidə xanımın uzun müddət Bakı şəhər Qadınlar Şurasının Sədri vəzifəsində çalışmasıdır”...

**Onun mübahisə oluna bilməz keyfiyyətləri:**

Səidə xanım həyatda çox tələsən olub. 82 il ömür sürən bu qadın illərin tez keçdiyini düşünürdü. Hər nəyə isə nail olan bu xanım – hər dəfə giley-güzar edib:-nə etmişəm ki, hələ arzularımın çoxunu həyata keçirməmişəm- deyirdi.

**Övladlarına tövsiyyəsi:** “Həyat imtahandır, biz isə onun tələbələri. Bu günün işini sabaha qoymayın. Çünki hər günün öz hökmü var. Çalışın əməllərinizlə izlərinizi dərinləşdirəsiz. Çünki bu izlər İmanzadələrin izidir. Yaşadığınızın, yaratdığınızın qədrini bilin. Siz xoşbəxt ölkədə, xöşbəxt zamanda yaşayırsız. Həyatda hər zaman ümüdlə yaşayın”!

**Sədaqət Rəşadın (qardaşı qızı) ürək sözləri:**

Zəngin ailə şəcərəsilə seçilən, məşhur ilahiyyətçi – axund nəslinin nurlu simalardan olan Səidə İmanzadənin 100 illik yubileyi XXI əsrin ilk 10 iliyinin sonuna təsadüf etdi. Fərqli insan, görkəmli alim, ictimai xanımın qeyd olunacağı yubiley tədbirinin təşkilatçılarından biri olmaqdan qürur duyuram.

Məqsədim Səidə xanımın müsbət keyfiyətlərini aşılayıb, ictimai xadim olduğunu, XX əsrin təlatümlü hadisələrilə yadda qalan 40-50-ci illərində dünyaya göz açanların, yəni nəslin davamçılarının diqqətinə çatdırmaqdır.

Səidə xanımın şeir toplusunu oxuduqca keçirdiyim nastalji hisslər mənə doğma insanların gözüm önündə canlanmasına görə Səidə xalanın (mən ona belə müraciət edərdim) ruhuna dualar edirəm. Həyat eşqi, ailəyə sevgi, dosta sədaqət, gənc qadınlara tövsiyə ilə coşub-daşan sətirlərin arxasından sanki nəvaziş dolu bir ana surəti boylanır.

**P.S.** Respublikanın elmi-ictimaiyyəti onu fəal, işgüzar, bacarıqlı bir insan kimi qəbul edib.

Həyatını gənc nəslin təlim və tərbiyəsinə həsr etmiş İmanzadənin parlaq xatirəsi Səidəsevərlərin qəlbində əbədi yaşayacaq.

Səidə İmanzadə öz erudisiyası ilə Azərbaycan tarixində qadınların rolunu aşkarlayıb, İslamın Azərbaycanda yayılmasının spesifik xüsusiyyətlərini açıqlayaraq, bütün bunları ustalıqla həyata keçirib.

Səidə xanımın adını çəkərkən, Azərbaycan qadınının mücəssiməsi, Şərq qadınının simvolu canlanır insanın gözü önündə.

O, hər sahədə olduğu kimi, elmi-tədqiqat sahəsində də özünü sınayıb, elmi əsərlərinin əksəriyyətini də “Qadın və mübarizə” mövzusuna həsr edib.

Bütün təltiflərini, əməkdə fərqləndiyini və arxa cəbhədə göstərdiyi fəaliyyətini həyatının mənası sayıb.

Səidə xanımın illərlə qələmə aldığı və bu vaxtadək heç bir yerdə çap edilməmiş şeir toplusu bu günün tapıntısı saymaq olar.

Həyatda uduşu - qurduğu xoşbəxt ailə, ruhunu oxşayan sevimli övladları Mübariz və Taleha oldu. Üç nəvə və dörd nəticəsi (adının daşıyıcısı Səidə nəticəsi) - Səidə Nəbiqızının davamçılarıdır.
Səidə xanımın arzularına rəğmən ,bu gün onun oğlu Mübarizin sədaları xaricdən gəlir. **O, Tunisdə Azərbaycanın Fövqəlada Səfiridir.**
Elmi tədqiqat sayəsində məhsuldar işlər görüb. "İslam və Şərq qadını" əsəri ilə müsəlman qadınlarına mesaj göndərən Səidə xanım İmanzadə 100 illik yubileyi münasibətilə **" Ağa Musa Nağıyev " diplomu ilə təltif edilib.**

## P R E S S R E L İ Z

Azərbaycan radiosu fəaliyyətə başladığı zamandan xeyli diktorlar yetişdirib.
Onların hər birinin öz dəsti -xətti, öz mövqeyi olub.
Belə diktorlardan olan - Ofeliya xanım hələ məktəb illərindən radionun ilk diktorlarından olan Fatma xanım Cabbarlının yaradıcılığından bəhrələnib.
İşə başlarkən özünü diktor Gültəkin Cabbarlının yetişdirməsi sayıb.
Sənətdə 50 il şərəfli və uğurlu yol qət edən Xalq artisti, Prezident təqaüdçüsü Qfeliya Sənani 1941-ci ildə Bakıda ziyalı ailəsində dünyaya göz açıb. Atası Hacıağa Bağırzadə sistem işçisi, anası Gülnaz xanım orta tibb işçisi olub.
16 yaşında radioya işləməyə dəvət alan Ofeliya xanım, elə bu andan ömrünü bu sənətə həsr edib.
Sənətdə püxtələşməsinə onun Sənani ocağının gəlini olmaqdan irəli gəlib.
Görkəmli sənətkar, xalq artisti Mövsüm Sənani və Azərbaycan televiziyası, "Lider", "Speys" Televiziya kanallarında redaktor və Baş redaktor vəzifələrində çalışan, uzun müddət futbol şərhçisi kimi azarkeşlərin ürəyində yaşayan həyat yoldaşı – Valid Sənani ona dəstək olub bu yolda.
Ofeliya xanım özünü "Mavi işıq" verilişində də sınayır. Düz 33 ildən sonra özünün dediyi kimi radio ilə vidalaşır.
Bu müddətdə Ofeliya Sənani "Kino Yaradıcılıq Birliyi" ndə də özünü göstərir.
"Cırtdan" kinozalı verilişi ilə o, həyat vəsiqəsini qazanır və bu sevdiyi işini 2006-cı ilədək davam edir.
Onun ömür səhifələrini vərəqləyərkən, Ofeliya xanımın yaradıcılıq yolunun rəngarəngliyinin, sənətdə pillə-pillə yetişdiyinin, ilbəil püxtələşdiyinin sahidi oluruq.
Yüksək və məlahətli səsə malik olan Ofeliya xanım "Azərbaycanfilm" Kinostudiyasında çəkilən filmlərin səsləndirilməsində fəal iştirak etməklə bərabər başqa ölkələrin çəkdiyi filmlərin azərbaycan dilinə dublyaj edilməsində də məharətini göstərmişdir.
Peşəkar diktor kimi formalaşmasında böyük rolu olan və artıq dünyasını dəyişmiş diktorların işıqlı xatirələrini Ofelya xanım bu gün də qəlbində yaşadır. Ofeliya xanım yaradıcılığında qazandığı uğurlarını və əldə etdiyi müvəffəqiyyətlərini həyat yoldaşı – istedadlı diktor –Valid Sənani ilə bağlayır.

**Ecaskar səsin hekayəsi**

Ağlımız kəsəndən, özümüzü tanıyandan radio və televiziya həyatımızın tərkib hissəsi kimi daima bizi müşayət edib. Etiraf edək ki, nə qədər qəzet və kitab oxusaq da, obyektiv və qaynar məlumatların çatdırılmasında radio və televiziyanın rolu danılmazdır.

Azərbaycan radiosu fəaliyyətə başladığı vaxtdan xeyli sayda diktor yetişdirib. Onların hər birinin öz yeri, öz dəsti xətti var. Yaddaşlarda dərin iz buraxan diktorlardandır sözü gedəcək Ofeliya xanım.

Ofeliya Sənani hələ məktəb illərindən radionun ilk diktorlarından olan Fatma Cabbarlının yaradıcılığının vurğunu olub, ondan bəhrələnib. 16 yaşından radioya diktor işləməyə dəvət alıb və həyatını bu sənətlə bağlayıb. İşə başlayanda isə özünü Gültəkin Cabbarlının yetirməsi hesab edib.

Uzun illər radioda diktor kimi çalışan və səsinin mehri, məlahətilə dinləyicilərin qəlbini ovsunlayan Ofeliya Sənani o vaxtlar hər yeni il axşamı keçirilən "Mavi işıq" verilişində aparıcı kimi də özünü sınayır və müvəffəqiyyət qazanır.

Beləcə, radio və həm də televiziyada aparıcı kimi tanınan Ofeliya xanım 33 ildən sonra radio ilə vidalaşmalı olur.

Bir müddət "Kino Yaradıcılıq Birliyi"ndə "Cırtdan" kinozalı verilişində özünü sınayan sənətkar, 2006-cı ilədək bu sahədə fəaliyyətini davam edir.

Ofeliya xanımın ömür səhifələrini vərəqlədikcə onun günbəgün, ilbəil necə püxtələşdiyinin, sənət pillələrində uca zirvələr fəth etdiyinin şahidi olur insan.

Ofeliya Sənani bəxtini kinofilmlərdə də sınayıb. Onun aktyorluq bacarığı sənətkarın sonrakı həyatına böyük təsiri olur. O, "Dağlarda döyüş", "O qızı tapın" bədii filmlərində rol alır, "Mücrü" qısametrajlı filminə çəkilir. Məlahətli və gur, eyni zamanda ürəyə yatımlı səsə malik olan Ofeliya Sənani həm də onlarla filmin səsləndirilməsində iştirak etmişdir. Onun təkrar olunmaz səsini minlərlə səs arasından seçmək mümkündür.

Könülləri səsinin məlahəti, mehribanlığı, yüksək insani keyfiyyətlərilə fəth edən Ofeliya Sənaninin yaradıcılığı hər zaman yüksək qiymətləndirilib. Ömrünün 50 ildən çoxunu sənətə həsr edən istedadlı sənətkarın fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilib. O, Azərbaycan Respublikasının "Xalq artisti" Fəxri adına layiq görülüb, Prezident təqaüdçisidir.

Anadan olmasının 70, yaradıcılığının 50 illiyinə həsr olunmuş "Bakı gecələri" rubrikası adı altında Azərbaycan Milli Tarixi Muzeyində keçirilən tədbir zamanı çıxış edənlər onun Azərbaycanın mədəni həyatındakı rolundan danışmaqla keçdiyi yaradıcılıq yoluna nəzər salırdı.

Təşkilatın təşəbbüsü ilə hazırlanmış - Ofeliya xanımın yaradıcılığından bəhs edən qısa metrajlı çarxın nümayişi ilə tədbirə start verildi. Onun yaradıcılığını geniş şərh edən bu çarx vasitəsilə Ofeliya xanımın keçdiyi həyat yoluna bir də diqqət yetirildi. Milli dəyərlərimizin qorunub-saxlanılmasındakı rolu bir anda göz qarşısında canlandı.

Dilarə Nağıyeva tədbirin məhz bu tarixi binada keçirilməsinin səbəbini belə aydınlaşdırdı. Vaxtı ilə H.Z.Tağıyevin və A.M.Nağıyevin onlarca belə saraylarında xeyriyyə günlərini keçirdiklərini söyləyib, bu gün bu ənənəni davam

edərək, nastalji hisslərlə silsilə “Bakı gecələri” adlı layihəsini gələcəkdə də həyata keçirməkdə davam edəcəyini diqqətə yetirdi. Lahiyə çərçivəsində gələcəkdə milli dəyərlərimizin aşkarlanması, unudulanları yada salmaq nəzərdə tutulub.
Tədbirdə QHT- nümayəndələri, teleradio əməkdaşları, Respublika Qadınlar Cəmiyyəti, yazıçılar, media və televiziya əməkdaşları iştirak edirdilər.
Xalq artisti, professor Rafiq Hüseynov Ofeliya xanımın diktorluq istedadından geniş danışıb, Fatma xanım Cabbarlının yaradıcılığından bəhrələndiyini söylədi.
O, sənətdə püxtələşmiş Ofeliya xanımın mətni oxuyarkən, üzünün cizgiləri və tam fərqli səsilə bərabər mətni daxili süzgəcindən keçirdikdən sonra mikrafon arxasına keçdiyini xüsusi olaraq vurğuladı. Ofeliya xanımı televiziyanın emblemi və bəzəyi kimi dəyərləndirdi.
Tədbir iştirakçılarından şair Oqtay Rza, İncəsənət Akademiyasının dekanı, professor Aydın Dadaşov, “MDQ” təşkilatının mətbuat katibi Aliyə Qabilqızı, diktorlardan- Xalq artisti Şərqiyə Hüseynova və Xalidə Dəmral – Əhmədova, radio diktoru Sevil xanım, şairə Mərcan Şahbuzlu, RQC-nin sədr əvəzi Bahar Qasımova, qəzəlxan Gülarə Munis və Əbilov adına Mədəniyyət Mərkəzinin Bədii rəhbəri Mirəhməd Əskərovun çıxışları biri-birindən tam fərqli oldu.
Sonda Xalq tərəfindən sevilən sənətkar Ofeliya xanım - A.M.Nağıyev adına “Milli Dəyərlərin Qorunması” təşkilatının təsis etdiyi “Vətən Naminə” dipplomu ilə; eləcə də “Qafqaz Media” və “Əsrin Ziyalıları” İctimai Birliylərinin diplomları ilə mükafatlandırıldı.

## Diktor, aparıcı, aktyor -ev xanımı

Atası Hacıağa Bağırzadənin daxildən gələn zil səsi, aktyorluq istedadı olub. Hələ uşaq ikən Rusiyada keçirilən festivalda “Azərbaycan mədəniyyəti günlərində” çıxış edərkən, səsinin çox fərqli olduğunu duyan Stalin demişdir: - Bu gənc yaxşı opera müğənnisi ola bilər.
Amma ailədə olan narazıçılıq onun bu sənətin ardınca getməsinə maneçilik törədir. Əmisi Hacıağanın müğənni olmasına pis baxdığından, onun tamamilə fərqli bir ixtisas sahibi olmasına çalışır. Beləcə, hüquqşünas Hacıağa uzun müddət sistemdə işləyir. Anası Gülnaz xanım orta tibb ixtisaslı olsa da, işləməyib, ailəsinin xidmətində olub.
O zaman Hacıağa kişi heç düşünməzdi ki, onun ailəsində qız övladı, ilahi səsli bir qız gələcək dünyaya və o da çalışacaq ki, qızı bu sənətin ardınca getməsin. Lakin... Sonradan sənətdə 50 il şərəfli və uğurlu yol gedəcək Respublikanın Xalq artisti, Prezident təqaüdçüsü Qfeliya Bağırzadə 1941-ci ildə Bakıda belə bir ziyalı ailədə dünyaya göz açıb. İllər ötəcək və bu tanrı payı şahanə görkəmi, ilahi səsilə bütün Azərbaycanın sevimlisinə çevriləcək.
Hələ 12-13 yaşlı Ofeliyanın - taleyin onu hara aparcağı haqqda heç bir düşüncəsi olmadan, məktəbdən evə qayıdarkən radio qəbuledicisini yandırıb, saatlarla verilişlərə qulaq asıb, aydın tələffüzlərə, gözəl səslərə diqqət yetirib, klassik poeziyanı qida kimi qəbul edirdi. Özü də hiss etmədən şeirləri əzbərləyir, xəyalən özünü onların sırasında görürdü.

İlk baxışdan insanın diqqətini cəlb edən bu qızcığaz, özü də hiss etmədən efir-ekran həyatına atılır.
Mikrafona bənzər hər nə görürdüsə, onu əlinə alıb, elə bil “tamaşaçı” qarşısındakı kimi çıxış edirdi. Bu vaxt valideyinləri onun bu hərəktindən narazı olsalar da, -balaca olsa da, amma yaxşı alınır, deyirdilər. O vaxt onlar heç düşünməzdilər ki, həmin qızcığaz gözəl diksiyası və təkrarsız məlahətli nitqilə bütün Azərbaycanı riqqətə gətirəcək.
Ofeliya 1959-cu ildə “diktor müsabiqəsi” nə qatılır. Müsabiqədə birincilik qazanan10-cu sinif şagirdi Ofeliya, radioya işləməyə dəvət alarkən ata-anası bir -birinin üzünə baxıb, narazı olsalar da, qələbədən ruhlanıb, bir ağızdan dedilər: -Alındı! Elə bil bu bir kəlmə ilə onlar qızlarının istedadlı olmasını təsdiqlədilər.
Sonradan Ofeliya xanım eşitmişdi ki, münsiflər heyətinin sədri, artıq dinləyicilərin rəğbəitni qazanmış istedadlı diktor – Soltan Nəcəfov demişdir: - Bu qızcığaz hazır diktordur!

**Ofeliya Sənaninin xatirələrindən mesaj**
Məktəbdə tələbə dostları və rəfiqələri ona bir növ qibtə etsələr də, sevinclərini gizləmirdilər. Sovetlər dönəmində məktəb yaşlı şagirdin işə qəbul edilməsi böyük marağa səbəb olmuşdur. Ona püxtələşmiş diktor kimi müxtəlif səpgili verilişlər aparmaq tapşırılırdı.
Beləcə şagird Ofeliya sənətə atılsa da, əmri qanun çərçivəsində -məktəbi bitirdikdən sonra verildi.
İlk əmək haqqına Ofeliya anasına güzgü, özünə isə palto almışdı. O çox istəyirdi ki, anası hər əzab-əziyyətdən qurtulub, güzgüyə baxıb özünə sığal versin.
Paltosunu təzələməkdə isə məqsədi dəb dalınca qaçmaq deyildi. Sadəcə artıq paltosunun qollarının qısaldığından –yenisini almışdı Ofeliya.
Ofeliya xanım danışır ki, əlimə pul gəldiyindən sevinib, palto, ayaqqabı və baş yaylığını tamamilə biri-birinə zidd olan əlvan rənglərdə aldığımı çox sonralar başa düşdüyümdən, bu gün də gülməkdən uğunuram.
Bütün bunlara səbəb, ailədə çörək pulu qazananın tək atası olması idi. Ofeliya xanım bu əqidəni – qədir bilməyi sonradan ər evində də davam edir. Söhbət əsnasında o deyir ki, evliliyimizdən sonra qazancımız az, ev şəraitimiz xoşagəlməz olsa da, məhəbbətimiz hər şeyi üstələyirdi. 3 kv.m.sahəsi olan otaqımızda özümüzü saraydakı kimi hiss edirdik.
... Elçilər qapını erkən döyməsinə baxmayaraq, neçəsinə -xeyir, mənim qızım hələ balacadlr, deyən Hacıağa kişi özü də hiss etmədən – incə ruhlu Valid Sənaniyə razılıq verir.
Beləki, Universitetin Filologiya fakultəsinin 3-cü kurs tələbəsi olan Ofeliya, ali məktəb pillələrini qalxıb - enərkən, bu dəfə də taleyində dəyişiklik haqda düşünməsə də, o, istedadı ilə Respublikanı və ondan kənar ölkələri fəth etmiş ustad aktyor Mövsün Sənaninin ocağına çox gənc ikən gəlin köçür.
İki istedadlı gəncin hekayəti belə başlayır. Ofeliya və Valid!
Evlilikdən sonra Ofeliya görkəmli sənətkar, xalq artisti Mövsüm Sənani ilə birlikdə “Azəbaycanfilm” kinoctudiyasının istehsalı olan “Dağlarda döyüş” (1967) bədii filminə çəkilir. Çəkiliş müddətində Ofeliya xanım - Rza Əfqanlı, Şahmar

Ələkbərov, Məlik Dadaşov, Kamal Xudaverdiyev kimi nəhəng aktyorlarla bir səhnəni bölüşür.
Həyat yoldaşı Valid Sənani Ofeliya xanımı sevdiyi işindən uzaqlaşdırmağa nəinki çalışmırdı,hətta ona dəstək də olurdu.
Daha sonra Ofeliya xanım "Mücrü"qısa metrajlı filminə və "O qızı tapın" bədii filmlərində rol alır. Tam fərqli rollarda: gah şıltaq qız, gah adi kənd qızı, gah da ki, yaşlı qadın obrazlarının öhdəsindən necə gəldiyi sualı onu bu gün də düşündürür. Sualın cavabı isə budur – istedad, həyat eşqi, sənətə məhəbbət!!!
"Dağlarda döyüş" filminin əks sədası Moskva, Türkmənistan və Özbəkistan Respublikalarına çatsa da, Ofeliya onların çəkəcəyi filmə dəvəti qəbul etməyə cürət etməyir. Artıq Ofeliya xanım Sənani ana idi.
Ofeliya xanım iş prosesində bu sənətin nəhəngləri sayılan diktorlardan: Sabutay Quliyev, Züleyxa Hacıyeva, Fatma Cabbarova kimi korifeylərlə çalışmasına baxmayaraq, işində ona istiqamət və təsəlli verən, müvəffəqiyyətlərinə sevinən Validini hər zaman, hər yerdə hamıdan üstün tutduğunu bu gün də davam edir.
Keçmişləri yada salan Ofeliya xanım sənətdə ilk olaraq Gültəkin Cabbarlının yolunu tutduğunu və özünü ona oxşatmağa çalışdığını bu gün də inkar etməyir.
Həzin və məlahətli səsilə Ofeliya xanım bir çox Azərbaycan filimlərini də səsləndirirdi. O, ekran arxasında böyük həvəslə müxtəlif səpgili obrazlar yaradırdı. İşinin öhdəsindən məharətlə gəlməsində əlbəttə onun kinoda çəkilisinin rolu az olmayıb. Bir tərəfdən aktyor Mövsün Sənani, o biri tərəfdən isə sonradan Azərbaycan Televiziyasında, daha sonra isə "Lider" və "Speys" Televiziya kanallarında redaktor və Baş redaktor vəzifələrində çalışan həyat yoldaşı – Valid Sənani bu yolda ona dəstək olub.
Azərbaycan Dövlət Radio və Televiziyanın fonoteka və filmotekasında Ofeliya Sənaninin səsilə müxtəlif çeşidli verilişlər qorunub, saxlanılır.

## TELE APARICI OLMAQ İDİ ARZUSU

Ofelya Sənani radioda uzun illər Eldost Bayram ilə birgə "Natəvan qızlar" klubunun "Ədəbi dünyamız", "Şer dünyası" ədəbi veirlişlərin aparıcısı olub.
Eldost Bayram Ofeliya xanımın haqqında bir xatirə söylədi: Ofeliya xanım sirrli bir xanım olduğu kimi, nurlu siması heç vaxt dəyişmirdi. Qəlbi təmiz, yüksək mədəniyyət sahibi, gözəl ev xanımı, sədaqətli həyat yoldaşı, nümunəvi ana və səmimi dost kimi hər zaman başqalarından fərqlənib.
Xatirələr yada düşərkən Ofeliya xanım deyir: - Soltan Nəcəfov ilə veriliş aparırdım. O, qəzəl oxuyur, mən isə yazıçı haqda məlumat verirdim, çox lirik bir səhnə alınırdı. Belə hallarda Soltan müəllim məni tərifləyəndə, qanadım olsaydı quş tək göylərdə pərvaz edərdim.
Bundan fərqli olaraq, Aydın Qaradağlı ilə (o mənə məllimə - deyərək, müraciət edirdi) birgə verilişdə olarkən, mənə irad tuturdu ki, xəbərləri bədiiləşdirmə, bir az sərt oxu. Beləcə o məni mətindən qorxmamağı öyrətdi, bir sözlə, mətinləşdirdi məni.
"Kəndimiz bu gün", "Poeziya buketi, nəğmə çələngi" verilişlərində hərdən vaxt qıtlığından, material ilə tanış olmadan, Ofeliya Sənani işə başlayırdı. Elə bil təbiət

onu imtahana çəkirdi. Axı görün sənət aləmində sözün əsl mənasında o, kimlərin əlindən su içib?
Diktor üçün ən çətini son xəbərləri oxumaq idi. Materialların təqdimatına başlayarkən, yeni alınmış xəbərlər qarşıma qəfildən qoyularkən, hiss etmədən özümü gözümün önündə olan korifeylərə oxşadıb, vəziyyətdən çıxırdım.
Artıq sənətdə püxtələşmiş Ofeliya xanım mətni oxuyarkən, üzünün cizgiləri və tam fərqli səsilə bərabər mətni daxili süzgəcindən keçirdikdən sonra özünküləşdirib, sonra mikrafon arxasına keçirdi.
"Yurdumuza bahar gəldi" şerini söyləyərkən, Ofeliya xanım ecazkar səsilə könülləri riqqətə gətirirdi.
Səməd Vurğun, Mikayıl Müşfiq, Cabir Novruz poeziyasını oxumaqda məqsədi doğma dilimizi gənclərimizin mənimsəməsi və sevməsi olub.
Diktor Züleyxa Hacıyeva deyir ki, Ofeliya xanım uşaq verilişlərini çox gözəl oxuyurdu. Məntiqi vurğunun yerini bilirdi.
Radio məktəbindən bəhrələnən Ofeliya xanım, efir vasitəsilə kadr arxasında roldan-rola girən, ilahi səsilə bir aləm yaradan, gözə görünməyən sənətçi xanımı nədənsə hər zaman bir sual düşündürürdü - axı dinləyici onun həyəcandan döyünən ürəyini və məhəbbətdən coşan hisslərini görə bilmir?
Nəhayət bu düşüncələr sona yetir. Sən demə Ofelya xanımın daha bir alın yazısı da olub - aparıcı olmaq! Çünki artıq buna onun haqqı çatırdı.
Ofeliya xanımın ekran istedadını görərək onu Azərbaycan Dövlət Televiziyasına işləməyə dəvət alarkən, o, radioda da işləməyi davam edir. Hər iki sahədə çalışmaq ona xüsusi ləzzət verir.
Gülşən Əkbərova – televiziyanın aparıcı xanımı bu sözləri əbəs deməyib: -Mən onunla həmkarlıq etməkdən rahatlıq tapırdım, ekran həyatını birgə bölüşdürməyi özümə xoşbəxtlik sanırdım.
Dövlət Televiziyasında həcmli və eləcə də uşaq verilişlərinin aparıcısı olan Ofeliya xanım, sonradan "Mavi işıq" verilişində də özünü sınayır. Beləcə o, düz 33 ildən sonra radio ilə vidalaşır.
Ofelya Sənani "Kino Yaradıcılıq Birliyi" ndə də məharətini nümayiş edə bilir. "Cırtdan" kinozalı verilişi ilə o, özünün dediyi kimi həyata vəsiqə qazanır və bu sevdiyi işini 2006-cı ilədək davam edir.
Ofeliya xanımın həyat yoldaçı Valid Sənani özü də say-seçmə diktorlardan olub. O da yiyələndiyi peşəsinin tam əksinə olaraq, ali məktəbi bitirdiyi ildən – 23 yaşından radioda diktor kimi əmək fəaliyyətinə başlayıb və "Xəbər" lər proqramında adi işçidən Direktor vəzifəsinədək yüksəlib. İlk futbol şərhçisi kimi Valid Sənaninin xüsusi yeri olub.
Söz ilə demək asan olsa da, bunu yaşamaq çox çətindir, deyir Ofeliya xanım: - 40 ildən artıq səhəri bir açıb, bir yol getmək; Sənət uğurlarını birgə bölüşdürmək, hərdən...., hərdən isə haqsızlıqdan şikayət edəndə - bir sözlə, Valid bəy hər zaman, hər yerdə mənimlə olub.
Ofeliya xanım bu gün də o yadda qalan unudulmaz vaxtların dühası ilə yaşayır. Sevdiyi övladlarının bəhrəsini bu gün nəvələrində görür bu xanım.
El məsəli var:"Natiqlər yetişir, şairlər isə doğulur". Belə yetişdirmələrdən olub Mövsüm Sənani ocağını bu gün də isindirən, Valid Sənaninin qeyrətini qoruyub-

saxlayan, bu gün də gözəllik təravətini itirməyən gəlin, həyat yoldaşı, ana, nənə, istedadlı diktor. Ən əsası xalqın istəkli Ofeliyası.
Döğrudan da diktor olması üçün ömür səhifələrini vərəqləyərkən, Ofeliya xanımın hansı yollardan keçdiyinin, sənətdə pillə-pillə yetişdiyinin, ilbəil püxtələşdiyinin sahidi oluruq. Onu tamaşaçıya sevdirən diktorluq sənətinə heyran olmasıdır.
Deyirlər ki, insan peşəni deyil, peşə insanı seçir. Buradan belə qənaətə gəlmək olur ki, sənət özü Ofeliya xanımı seçib.
Xalqın sevimlisi olmaq çətindir. Ofeliya Sənani bunu bacardı.
O, böyüklərlə bərabər, kiçiklərin də rəğbət və məhəbbətini qazandı. Onları sənətinin gücü ilə ovsunladı.
Ofeliya Sənani Azərbaycan Radio və Televiziyasının ulduzu oldu. Həmin ulduz bu gün də parlayıb, şəfəqlərini hər tərəfə paylayır.

## Əziz Ofeliya xanım

Onunla yaxınlıq etdiyim vaxtdan başlayaraq, iç dünyasına daha yaxın olaraq, sirli aləminə az da olsa daxil olaraq, düşündüm:
- Nə yaxşı ki, mən Ofeliya Sənanini tanıyıram, onun xoş xasiyyətindən bəhrələnib, bu töhfəni başqaları ilə paylaşa bilirəm. Ömrünün bahar çağında ona şərəfli ömrünün hər zaman uğurlu olmasını diləyib, sonrakı illərinin günəş kimi parlamasını arzulayıram.

İnsanlığın, comərdliyin baş tacısan,
El-obada, könüllərdə taxt qurmusan.
Qədimdən-qədim, soyun-kökün var,
Dinim, dilim, mehribanım Ofeliya.

Kasıblara ana təki dayaqsan,
Sönmüş ocaqlarda yanan Çıraqsan.
Uşaqdan böyüyə ana-bacısan,
Gözəl, mərhəmətli Ofeliya xanım.

Millətin şən səsi, həm qürurusan,
Bulaqlardan axan duru suyusan.
Valid Sənaninin can yoldaşısan,
Gözəl, sədaqətli Ofeliya xanım.

Mərcan deyər, canı şad görək,
Peşəkar nitqin gənclərə örnək.
Əzizim, yubileyin mübarək,
Gözəl, məlahətli Ofeliya xanım.

**Publisist, şairə - Mərcan Şahbuzlu**

# Həyat səsi

(40 il sənətdə)

Eldost Bayramın yaradıcılığına həsr olunmuş tədbir A.M.Nağıyev adına İB təşəbbüsü ilə "İsmailiyyə" (AMEA-da) binasında keçirildi. Xalq tərəfindən sevilən sənətkar Eldost Bayram - A.M.Nağıyev adına "Milli Dəyərlərin Qorunması" təşkilatının təsis etdiyi "Vətən Naminə" dipplomu ilə təltif olundu....

1947-ci ildə Azərbaycanın səfalı guşələrindən birində - Kürdəmir rayonunda sadə bir ailədə dünyaya göz açan uşağın alnına səfərli bir ömür yolu yazıldı.
Adına Eldost deyilən bu gənc illər keçəcək, Tanrıdan sevgisi və vergisi olanlar cərgəsində "möcüzələr adasının sakininə" çevriləcək.
Bütün uşaqlar kimi o da valideyin itaətində olub. Amma başqalarından fərqli olaraq, kiçik yaşlarından yaxşı oxuyub, mütləq paytaxata getmək idi onun arzusu. Radioda işləmək, aparıcılıq etmək istəyi onu rahat buraxmırdı.
Elə bil bu gəncin diktor olmaq alın yazısına çevrildi.
Uşaqlığından danışarkən, xatirələrinə baş vurub, deyir:- Kürdəmirə radio xətti çəkilərkən və ilk dəfə efirdən aparıcının səsini dinləyərkən , özüm də hiss etmədən həsədlə düşündüm görəsən nə vaxt isə mənə bu xoşbəxtlik nəsib olacaqmı?
Eldost Əlövsət oğlu Bayramov 1969-cu ildə Tusi adına Azərbaycan Pedoqoji İnstitutunun Tarix fakultəsini bitirsə də...
Belə bir deyim var: "Niyyətin hara, mənzilin ora". Elə bu niyyət tez bir zamanda onu tarix müəllimliyindən – Bakıya diktorluğa apardı.
Orta məktəbdə tarix müəllimi kimi əmək fəaliyyətinə başlayan Eldost Əlövsət oğlunun gözəl diksiyası və təkrarsız məlahətli nitqi artıq çoxlarını heyrətdə qoyurdu.
Tale onun üzünə gülür və alın yazısı onun həyat simvoluna çevrilir.
Elə bunun nəticəsidir ki, o, çox gənc ikən - 25 yaşında Azərbaycan SSR Nazirlər Soveti nəzdində Teleradio Verilişləri Komitəsinə Diktor işləməyə dəvət alır. Və bu sevdiyi işini bu gün də davam edir.
Özünə ləğəb götürən, say-seçmə aparıcılardan olan Eldost Bayram "Ali dərəcəli" diktor dərəcəsinə qədər yüksəlib.
Respublikanın "Əməkdar Artisti" adına layiq görülməsi və "Tərəqqi" medalı ilə mükafat landırılması Eldost Bayramın əməkdə 40 illik ömrünün bəhrəsidir.
Artıq o, Eldost Bayram kimi tanınıb, sevilən diktor, sənətdə çox mənalı və maraqlı yol addımlayıb.
Bu gün Azərbaycan Teleradio Verilişləri QSC-nin fonoteka və filmotekasında onun səsi ilə yazılan müxtəlif çeşidli verilişlər qorunub, saxlanılır.
Yazıçı-publisist, millət vəkili Rəfail Hüseynov, maraqlı faktlar əsasında Eldost Bayramın istedadından, ilahi səsindən, iş təcrübəsindən danışarkən, hər bir dinləyicidə ona qarşı olan maraq daha da artır.
Doğrudan da Eldost Bayramın səsi Allah vergisidir.

Eldost Bayram – “Nadir Səslər Silsiləsi”ndən olan -Soltan Nəcəfov, Aydın Qaradağlı, Ramiz Mustafayev kimi diktorların danışıq tərzindən bəhrələnən diktor sayılır!
40 il bu sənətdə külüng vuran Eldost Bayram – Fərhad kimi dağ yarmasa da, səsinin ahəngilə sayı hesaba gəlməyən enişli dağları qalxıb - enib.
Bu yolda ona həmrəy olan, azarkeşlik edən, hər şıltaqlıqlarına dözən həyat yoldaşı azəri qeyrətli Minarə xanım ona iki övlad bəxş edib.
Övladlarının bəhrəsini bu gün nəvələrində görür baba Eldost.
Bu məlahətli səsin aşiqləri, nitqindən qidalananlar, Eldost Bayramaın hər zaman səsinin sədalrı altında maraqlı verilişlərin dinləyicisi olmağı arzulayır.
Həyatda ayaq tutandan sehrli kəşflərdən sayılan sözlü qutu, səs möcüzəsinin sirli aləmi sayılan Azərbaycan radiosunun artıq 85 ildir ki, heyranlarıyıq.
Möcüzələrdən boylanan bu “Səs” ilə böyüyüb boya-başa çatanlardan biridir Eldost Bayram!
Səsimi kökləyib ədəbi parçaları oxumaqdan həzz alıram deyən Eldost, efir sirlərini korifeylərdən öyrəndiyini qürurla vurğulayır. İlk dinləyicilərinin 0 güllər, çiçəklər, səmanın özü olduğunu da gizlətmir Eldost Bayram.
Etiraf edək ki, hər birimiz Eldost Bayrama qulaq asanda bu səsin sehirlərində ənginliklərə dalırıq. İnsan elə bil göyün yeddinci qatına qalxır, bəzən də bu səsi laylay bilib, uşaqlıq aləminə köçür.
Ömür gün yoldaşı rəssam Minarə xanım yeni fikir və duyğuları haqda dinləyicilərlə paylaşanda yaşadığını deyir. Onun xalça üzərində yaratdığı əsərlərində Eldost yaşayır . Onun səsinin məlahətindən qaynaqlandığını da gizlətmir Minarə xanım. O deyir ki, hər ikimiz sənət fədailəriyik. Bu bizim biri-birimizi başa düşməyimizdən və qarşılıqlı münasibətimizdən yaranır.
Eldost Bayramın səsinin ahənginə düşənlər dərdlərinə ortaqlıq tapır, sevgiyə də uğrayır.
Azərbaycan radiosunun tanınmış diktorları ilə söhbətlərindən hiss olunur ki, o, dostluğa çox qadir bir insandır.
.... Azərbaycanın Əməkdar artisti və “Tərəqqi” medalının sahibinin, zəhmətsevər insanın sevgisinin bəhrəsində millətimiz dayanır. Kiçik bir seir parçası onu xalqına yaxınlaşdırıb sevdirir.
Dilimizin təbliğinə çalışmaq, tələffüzündə yanlışığa yol verməmək –budur onun şüarı!
Möcüzəli səs, zülmətin ay işığıdır. Eldost Bayram bu ənginliklərə hələ çox baş vuracaq.
Azərbaycan Respublikası Prezidenti İlham Əliyev cənablarının Sərəncamı ilə Azərbaycan Radio və Televiziyanın inkişafındakı xidmətlərinə görə Bayramov Eldost Əlövsət oğluna “Əməkdar artist” Fəxri adı verilib və “Tərəqqi” medalı ilə təltif edilib.

**Oxu, bülbül**

İşinə böyük məsuliyyətlə yanaşan diktor, oxuduğu mətnin mənasını duyub, Tanrının ona bəxş etdiyi həlim səsilə sözlərə həyat verən sənətkardır. Hər

verilişdən sonra dinləyicinin qarşısında açılan yeni bir səhifədir Eldost Bayram. Onun səsindəki istilik sənətinə bəslədiyi məhəbbətdən güc alır.

Əzizim min ayə dəyər,
Qaşların minayə dəyər,
İl var, bir günə dəyməz,
Gün var, min ayə dəyər.

Bu bayatını söyləyən Eldost Bayram, sanki radioda keçirdiyi uzun illərin hər gününü min ayə dəyişmədiyini bildirir. Çünki o, hər günün, hətta hər saatın dəyərini bilib, dəqiqələrin belə əvəzsiz olduğunu söyləyir. O, bu illər ərzində oxuduğu müxtəlif mətnlərdə öz yerini tapan bir insandır.

Eldostu qələbəyə aparan yol heç də asan olmayıb, amma sevdiyi peşənin zirvəsinə doğru hər zaman inamla addımlayıb.

O, füsunkar səsilə müxtəlif obrazılar yaradıb. Oxuduğu hər bir mətni yaşayır. Bu sənətə olan məhəbbətindən irəli gəlir. Rəsmi xəbərlərdə nə qədər ciddidirsə, bədii mətnləri səsləndirərkən bir o qədər incə və həssas duyğulu olur.Keçdiyi mənalı həyat yolu hər kəsdə iftixar hissi oyadır.

Hələ Pedoqoji İnstitutunun tələbəsi ikən müsabiqədən keçən Eldost, Azərbaycanfilm Kinostudiyasında Adil İsgəndərovun rəhbərliyilə açılmış aktyor kurslarına qəbul olur. Diktorlar cərgəsinə qoşulmasında Adil İsgəndərovun rolu olduğundan çox sonralar xəbər tutsa da, bu gün də onun ruhuna minnətdar olduğunu bildirir Eldost Bayram.

Ədəbi jurnalların səhifələrində və “Şeir dünyası” verilişlərində Eldost Bayramın xüsusi dəsti-xətti var. Onun təravətli səsi dinləyicinin ruhunu oxşayıb gah xəyallara aparır, gah da həyata qaytarır. Düşündürən bu səs uzun müddət yadda qalır. Bu o səsdir ki, ona etinasız qulaq asmaq qeyri-mümkündür. Bu səsdə onun xasiyyəti, danışıq tərzi, insanlarla ünsiyyəti - bir vəhdət təşkil edir.

Onu Aydın Qaradağlının yadigarı adlandırırlar. Bu səslər eyni olmasa da, dinləyiciyə iki yarpağın biri-birinə oxşamadığı təəssürat bağışlayır. Vaxtı ilə Aydın Qaradağlının ona: - Mənim təsirimdən çıxsan, sən yaxşı diktor olacaqsan, dediyi bu sözlərə qulaq verən Eldost sənətdə öz yolunu tapa bilib.

Ümdə arzusu televiziya verilişlərinin aparıcısı olmaqdır. İnanırıq ki, bu çox gözəl alınar!

O, müsahibələrində deyir: - Gözələ gözəlliyini bildirməsən, onu fərəhləndirməsən, bu gözəllik kimə lazımdır?!”

Əmək fəaliyyəti dövründə qarşılaşdığı insanlardan öyrənmək həvəsi olub. 40 il mikrofona söykənib, onunla mübarizə etmək hər kişinin işi deyil.

Bu yalnız nər kişi - Eldost Bayrama aiddir! Eldost Bayram xoşbəxtdir!

Çünki sənətdə öz yerini tapıb!

## “SƏS” QƏZETININ 20 YAŞI TAMAM OLDU

**“SƏS”** qəzetinin əməkdaşları ilə neçə illərdir ki, sıx əlaqədəyəm. Ağa Musa Nağıyev ilə bağlı apardığım tədqiqatlar mütəmadil olaraq bu qəzet vasitəsilə oxuculara çatdırılır.
Qəzetin fəaliyyətinin 20 ili münasibətilə “Bakı Əyləncə Mərkəzində” keçirilən möhtəşəm tədbirdə iştirak edib, redaksiya heyətinə təbriklərimi təqdim etdim.

**YNVAN:** - Hörmətli Bəhruz müəllim! Başçılıq etdiyiniz mətbuatın 20 illik fəaliiyyətinin 5 ili Sizin rəhbərliyiniz altında keçib. Bu müddət az olsa da, amma çox söz deyir.
Əvvəllər olduğu kimi bu gün də, yəni Sizin işlədiyiniz dövrdə Azərbaycan mediyasında xüsusi yer tutan “SƏS” qəzeti milli azadlıq hərəkatının meydanlarından biri sayılır.
Məhz bu qəzet vasitəsilə çoxsaylı oxucular maariflənir, operativ məlumatlar və milli vəzifələrin izahı ilə tanış olur.
Haqq-ədalət uğrunda mücadilənin önündə olmaq, “SƏS” qəzeti populyarlaşdıqca oxucu auditoriyasının formalaşmasında xüsusi yer tutmaq, bu olub redaksiya heyətinin amalı.
Qəzet yarandığı vaxtdan etibarən Azərbaycanın ictimai fikrinə əsaslanaraq, öz səsini xalqa çatdırmağı bacarıb.
“Əlincə” Xeyriyyə Cəmiyyətinin “SƏS” qəzeti 1991-ci ildən başlayaraq ölkədə cərəyan edən siyasi proseslərin, Qarabağ mücadiləsinin, müstəqillik və demokratiya yolunda ardıcıl mübarizənin birbaşa iştirakçısı sayılıb.
**HEYDƏR ƏLİYEV** siyasətinin və ideyalarının xalq arasında yayılmasında “SƏS”in qələminin mətbuat tarixində xidmətləri danılmazdır.
“SƏS” qəzeti hər zaman ehtiyac duyulacaq yeni bir səsin eşidilməsi deməkdir. Artıq 20 ildir ki, davamlı fəaliyyət göstərən, öz dəsti-xəttini qoruyub saxlayan “SƏS”in əks-sədalarını hər gün eşidirik.
İnanırıq ki, bu mətbuatın izi ilə Azərbaycanda bundan sonra da peşəkar səviyyəsi ilə hadisələrə ədalətli yanaşmanın şahidi olacağıq. “SƏS” in yubileyi bütövlükdə milli mətbuatın bayramıdır.
Yubileyiniz mübarək! Qələminizin iti, həmişəki kimi ədalətli olmasını arzulayırıq! Mübariz çağırışa çevrilən “ Qoy ədalət zəfər çalsın” şüarına sadiq qalmış mətbuatınıza “Qarabağın zəfəri”ni bayram etməyi, qələbənizin süngüyə çevrilərək qızğın mübarizənizin davamını görməyi arzulayırıq.
Xalqın azadlıq arzularına SƏS verən “SƏS” qəzetinin zəhmət sevərlərinin bayramını təbrik edib, deyirik: - **Həmişə “SƏS”iniz gur gəlsin və eşidilsin!**

**11 yanvar 2011 il**

Azərbaycan mediyasında xüsusi yer tutan “SƏS” qəzeti milli azadlıq hərəkatının meydanlarından biri olub. Ulu Öndər HEYDƏR ƏLİYEV siyasətinin kursunu əsas götürən “SƏS”, onun ideyalarının carçısı olub. “SƏS”in qələminin mətbuat tarixində xidmətləri danılmazdır. Qəzetin fəaliyyəti bu gün uğurla davam edir. Redaksiya heyətinin bir amalı olub “Qəzet populyarlaşdıqca oxucu

auditoriyasının formalaşmasında xüsusi yer tutmaq" !
"SƏS" qəzeti hər zaman ehtiyac duyulacaq yeni bir səsin eşidilməsi deməkdir. Cəmiyyətin aynasıdır.
Kollektiv əməyinin məhsulu sayılan "SƏS" qəzetinin fəaliiyyətinin 20 illik yubileyi münasibətilə ***"Ağa Musa Nağıyev " Diplomu*** ilə təltif edilib.

Azərbaycan mediyasında xüsusi yer tutan "SƏS" qəzeti milli azadlıq hərəkatının meydanlarındandır. Bu səs Azərbaycan xalqının "SƏS" idir!
Qəzet vasitəsilə Ümummilli Liderimiz Heydər Əliyev ideyalarına sadiq olan yaradıcı heyət ilə tanışlıq çox söz deyir. Dövlətçiliyə bağlılığın mahiyyəti qəzetin mədəniyyət səhifəsində daha aydın görünür. Şöbənin müdiri olmaqla bərabər redaksiyanın ilk "**qaranquş**" u sayılan, ona döğma olan "SƏS" qəzetinin yubileyi münasibətilə -Zümrüd xanım Bayramova ***"AĞA Musa Nağıyev"*** Diplomu ilə təltif edilib.

## Mənalı ömür yolu

Bu günkü ədəbi mühit – yeni müasir yaradıcılıq faktoruna əsaslı keçid etməkdədir. Elə yazarlar var ki, onlar daxili dünyalarını ədəbi mahiyyət üzrə poetik ruha kökləyir, hisslərini qələmə alır. Belələrindəndir 50 yaşı qeyd edilən şair- jurnalist Zərəngiz Qayalı.
Ağa Musa Nağıyev adına "Milli Dəyərlərin Qorunması" təşkilatı ilə "Qafqaz Media" İctimai Birliylinin birgə keçirilən (Dünya Azərbaycanlıları qərargahında) tədbir bu xanıma həsr olunmuşdur.
Z. Dəmirçi Qayalı zəngin mənəviyyata malik olan ziyalı xanımlarımızdandır. İstedadı və bacarığı ilə diqqət cəlb edən Zərəngiz xanımın əsərlərində örnək yolu, həyat məktəbi hiss olunur. Yetişməkdə olan gələcək nəsli kamilliyə səsləyərək, düzgün seçim etməyə çalışan yazıçı, oxucuda həyata məhəbbət, haqqa sevgi oyatmağı bacarır.
Müqəddəs ana adını ləyaqətlə daşıyan, işinin öhdəsindən əzmkarlıqla gəlməyi bacaran Zərəngiz xanım şeiriyyət dünyasının vurğunu olmaqla qələmə aldığı bütün mövzular sanki haqqa - ədalətə köklənib.
Qazax bölgəsinin Daş Salahlı kəndində tanınmış şəcərədən sayılıb, represiya bəlasından qorunmaq məqsədilə götürülmüş "Qayalı" soyadı ilə tanınmış bəy nəslindən olan insanların layiqli davamçısıdır Zərəngiz xanım. Kitablarında süjet xətti kimi doğulduğu yurdun həyat mücəssəməsini real ömür fəlsəfəsi ilə sıx əlaqə yarada bilib. Tale ağırlığı yazar karvanına çox erkən yükləmiş bu qələm sahibinin fəaliyyətində emosionallıq hiss olunur.
Uşaq yaşlarından mütaliəni sevən, bədii sözə könül verən Zərəngiz xanımın ilk şeiri 17 yaşında çap olunub. Bundan sonra o, bir sıra uğurlara imza atıb.

2006-cı ildə artıq yaradıcılığı ilə tanınmış Zərəngiz xanım "Qadın şairi" adına layiq görülüb. Qarabağ mövzusunda yazdığı Güllələnmişlər və Vəfam mənim kitablarına görə "İlin Qarabağ mövzusunda yazan şairin kitabı"; Qayalı kitabına görə qadın şairinin kitabı nomenasiyasının qalibidir. Zərəngiz xanım ictimaiyyətdə də xüssi yer tutub. Dədə Qorqudun 1300 illiyinə həsr edilmiş yubileyin iştirakçısı; Türk Xalqlarının XIV Şeir Şölənində, Türk Xalqları Şairlərinin IV Forumunun nümayəndəsi olub.
Zərəngiz xanım "Cavab ver" poeması əsasında səhnələşdirilmiş "Xocalı" tamaşası ilə də müvəffəqiyyət qazanmışdır. Süjetdə bir dərd, bir niskillik hiss olunur. Tamaşaçını ürək çırpıntılarına şərik edə bilən Zərəngiz xanımın həyat kredosundan çıxış etdiyi hiss olunur.
Dörd övlad anası Zərəngiz xanım yaradıcılıqla bərabər cəbhə bölgələrində əsgərlərlə görüşməyə də vaxt tapır. O xidməti əsgərlərin hər birinə bir ana məhəbbəti bəxş edir. Buna əsaslanaraq yaşanan ömrünü - əsrin yarısını "Şah yaşı" adlandıran Zərəngiz Qayalı, xoş günlərini ailəsi və yaradıcılığı ilə bağlayır. Qəlbə dəniz tək dolmaq istəyən Zərəngiz xanım sarı simin köklənməsində görür özünü. Görünür bu onun Azərbaycanın Qazax bölgəsindən olduğundan irəli gəlir.
Şeirlərində dediyi kimi gördüklərini bir tamaşa sayır:
Ömür tamaşadır, həyat səhnədir,
Dünya dəyirmandır, çarxı köhnədir,
Suyu selləmədir, arxı dəhnədir,
Zərəngiz, de bəxtin qəminə gəlsin!
Ömrünün xoş günü səninlə gəlsin!

Hadisələri realistcəsinə təhlil edib, sanki oxucunu ürək çırpıntılarına qulaq verməyə çağırır.
Onu tanıyanları Zərəngiz xanımın həyatı, varlığı, yaşadığı kəndin adamlarını sevməyi tərənnüm etmək cəhdi düşündürür. Qələmə aldıqlarını oxuyanda belə bir fikir yaranır ki, şeirin ocağı heç vaxt sönməyəcək. Şeirlərində dolğun bir ifadənin yaranması üçün bütün varlığını əritməyə cəhd edir.
Dünyaya qucaq açmaq, hər kəsə yaxşılıq etmək heç də asan iş deyil. Buna mənəviyyatca o qədər zəngin olmaq lazımdır ki, hər kəsi öz dilində danışdırmağı bacarasan. Bu xüsusiyyət Zərəngiz xanıma məxsusdur.
Vətənə bağlı fikirlərini oxucuya poetik çalarlarla çatdıra bilən bu xanım ifadısinə canlılıq verir.
Zərəngiz xanım müxbir olaraq ədəbiyyatı, yeni və klassik yazıçı- şairləri, ədəbi-bədii gecələri, yubileyləri, aşıqlarımızın uğurlarını informasiya vasitəsilə ləyaqətlə təbliğ etməyi bacarır.
Yaşanan ömrün bəhrəsini şeirlərində görən şairə Zərəngiz xanım 50 illik yubileyi münasibətilə Ağa Musa Nağıyev adına "Milli Dəyərlərin Qorunması" İB-nin "İti Qələm" Fəxri Fərmanı və "Qafqaz Media" İB-nin "Zərif Qələm" Diplomu ilə mükafatlandırılıb.

**P.S.** Zərəngiz xanımın yubileyini qeyd etməyə məni özü "məcbur" etdi. Onunla 11 gün yol yoldaşı oldum Məşhəd ziyarəti zamanı. İncə qəlbinin, ailəsinə

başlədiyi saf məhəbbətinin şahidi oldum. Hamıya kiçiklik edib, yaşca özündən kiçik olana da əyilirdi. Hamı yedikdən sonra süfrəyə əl atırdı. Məzəli və maraqlı söhbətləri isə bitmək bilmirdi. Oteldə əl-üzünü yuyarkən üzüyünü barmağından çıxarıb, yadına düşəndə axtarsa da, üzük yoxa çıxdı. Hamı narahat idi. Vicdan əzabı çəkirdi hamı bir yerdə. Niyə belə oldu? Zərəngizi narahat edən əsas məsələ "Bəxt üzüyünün" –ilk məhəbbət simvolu olması idi.
Çox narahat idi. Biz də narahat idik baş vermiş yol əhvalatından. Özümüzdən asılı olmadan elə bil biri-birimizdən şübhələnirdik. Zərəngiz xanımdan qiymətini soruşmadan pul yığıb, ona üzüy almağa qərarlaşdıq. Bundan xəbərsiz olan Zərəngiz xanım şəhərdə ciblərini boşaldarkən üzüyü tapdığını xəbər verəndə, yol yoldaşları onun saflığına yenidən aşiq oldular. O bizim gözümüzdə daha da böyüdü.
Zərəngiz xanımın buna oxşar bir çox xüsusiyyətləri məni "məcbur" etdi onun yadda qalan yubileyini keçirməyə. Zərəngiz xanım buna layiq insandır.

## *AĞA MUSA!*

**"98+2" forumunun müəllifi Dilarə xanıma ithaf olunur**

Dilarə xanımı düşündürən bir məsələ var. Ağa Musanın yatırları tapılarsa, 2 bina tikdirib, **onu arzusuna yetirib, tarixdə 100 bina tikdirən kimi tanıtdırmaq.**

*Məzarı didərgin, ruhu didərgin,*
*Addan başqa varı, yoxu didərgin.*
*Yığdığı dövlətin çoxu didərgin,*
*Dərdi ağır, neft kralı Ağa Musa.*

*Sənə simic deyir, səndən xəbərsiz,*
*İncidir ruhunu gendən, xəbərsiz.*
*Biz bir yol gedirik öndən xəbərsiz.*
*Kaş biləsən, neft kralı Ağa Musa.*

*Axirət istərdin Kərbəlada sən,*
*Kərbəla zülmünü gördün burda sən.*
*Düz dörd dəfə şəhid oldun yurdda sən*
*Səhib kişi, neft kralı Ağa Musa.*

*Binalar tikdirdin, bitcisi çatmır,*
*Yüzə çatmaq üçün ikisi çatmır.*

*Nəvən Dilarənin yetkisi çatmır,*
*Gəl, hardasan neft kralı Ağa Musa*
***Nizami Muradoğlu - şair***

## Ayan ailəyə nur saçdı

**B**u ailənin binövrəsi artıq 13 ildir ki, qoyulmuşdu. Deyirlər ki, 13 rəqəmi "nəhs" sayılır və bu rəqəmdən çoxları ehtiyat edir.
Ailə qurulandan sevinc içində yaşasa da, bir ildən sonra baş verən hadisə və sonrakı zaman məsafəsində baş verən hadisələr bu xoşbəxtliyin davam etməsini onlara çox gördü.
Evliliklərinin 13-cü ilində Ayan adlı bir ulduz bu evə nur saçdı.
... Artıq yetkinlik yaşına şatmış Farizə ata-anası evlənməyi təklif edib, hər hansı bir qız haqqında söhbət açanda, o, boyun qaçırıb deyirdi, siz narahat olmayın, vaxtı gələndə deyəcəyəm.
Fariz düşüncələrində tələssə də, hisslərini biruzə vermirdi. Yalnız bir peşəyə yiyələnib, ev və iş ilə təmin olduqdan sonra evlənmək olar, deyə düşünürdü. Amma...
Bir məhəllədə yaşadıqlarından uşaq yaşlarından bir qızı gözaltı etmişdi Fariz. Uşaq bağçasından başlamışdı bu "məhəbbət əfsanəsi". Özü də bunu hiss etmədən. Qızcığaz bağçaya gələndə özündən 4 yaş böyük olan Farizə baxıb, naz edir, hərdən bağçanın həyətində oynayarkən çəkməsinin açılmış bağlarını bağlamağı ancaq ona etibar edirdi.
Beləcə onlar böyüdülər, Fariz məktəbə getdisə də, məktəbdən sonra uşaq bağçasına gedib, hasarın o tayından gözləri çoxlarının arasında o balaca, şıltaq qızı axtarırdı. Beləcə dörd il də keçdi.
Fariz 4-cü sinifə gedəndə məhlə qızı 1-ci sinifə qədəm qoydu. Artıq bu qızcığaz çəkmələrinin bağını özü bağlayırdı. Tənəffüs zamnı Fariz onu izləyir, qızın boyu piştaxtaya çatmadığından, bufetçi qadından bulkanı alıb, ona uzadanda, elə bil dünya gözündə çiçəklənirdi. Qız isə naz-qəmzə ilə bulkanı ondan alır, hələ məhəbbətin nə olduğunu bilmədən, gözlərini süzüb gedirdi.
Fariz məktəbi bitirib, sənət ardınca gedəndə onların yolları ayrıldı.
Hə... deyəsən nigaransız ki,bu əhvalatın axırı nə olacaq?
Axı əvvəldə mən bir cümlə işlətdim ki, 13-cü ildə Ayan adlı bir ulduz onlara gəlib, evlərinə nur saçdı. Tələsməyin, hadisədən xəbərdar olacaqsız.
Bir az nigarançılıq çəkin, amma çox intizarda qoymayacağam sizi. Bilin və agah olun ki, sonda sevinc, xoşbəxtlik gözləyir onları.
15-17 ildən sonra onların rastlaşacaqları, ömür yollarını bir yerdə addımlayacaqları, taleyin onları birləşdirəcəyi hələ böyük sual altında idi.
Farizin atası Ramiz kişi heç bir övladının toyunu görmədən, cavan yaşlarında dünyasını dəyişdi. Ondan sonra ailənin yükünü çiynində gəzdirən Qızxanım ana uşaqlarının boya-başa çatıb, hələ də evlənmədikləri üçün çox narahat idi. Gah bir oğluna, gah da o birisinə deyirdi:

-Ay bala, mən nəvaxt çadramı başıma salıb, üz-gözümü bəzəyib, sizə elçi gedəcəyəm?
Günlərin bir günündə Fariz qız ilə rastlaşır. Artıq bu qızcığaz opta ixtisas təhsilinə yiyələnib, əvvəllər tərbiyə aldığı bağçada indi tərbiyəçi işləyirdi. Fariz gənc qızı görmək məqsədilə gəldiyi bağçanın həyətində uşaqların oynadığını görüb, uşaqlığını yada saldı. Təsadüfən qızlardan birinin çəkməsini geyməyə kömək edən oğlanın təsvirində özünü gördü.
Bir an gözləri önündə uşaqlıq və gənclik illəri təkrarlandı. Həmin gün işdən evə dönən tərbiyəçi qızı o, evlərinədək ötürdü.
Evə dönərkən onun sevincli gözlərindən çox şey oxuyan Qızxanım ana elə bil yuxudan ayılmış kimi soruşdu:
- Ay bala, deyəsən "Arşın mal alan"dakı kimi üz-gözümü bəzəməyin vaxtı çatıb axı. Onun qulağına çatmışdı ki, Fariz balası məhlədəki qıza vurulub.
Beləcə, toy-büsat quruldu, Fariz bəy və Bikə xanım ailə qurdular.
Qohumlar və qonşular bu izdivacı alqışladılar. Hər iki gəncə elə gəlirdi ki, onlardan xoşbəxti yoxdur yer üzündə.
İndi Farizi böyük bir sual düşündürürdü. O, oğul atası və ya qız atası olmağa tələsirdi. Doqquz ayın tamamında Bikə xanım onun arzusunu yerinə yetirib, oğul bəxş etdi həyat yoldaşına. Amma bu sevic çox az davam etdi.
Bəlkə göz dəydi onlara? Bəlkə Fariz uşağa nakam dünyasını dəyişmiş atası Ramizin adını verdiyinə görə belə oldu?
Fariz Bikə xanıma ürəy-dirəy verib, deyirdi: - Qəm yemə, hələ cavanıq, həyat irəlidədir, Allah qoysa oğlumuz da olacaq, qızımız da. Amma çox gözləməli oldular. İndi Bikə xanımın sağlamlığı onu daha çox düşündürürdi. Axı Fariz neçə illərdir ki, bu məhəbbətin ardınca gedib.
Beləcə, evlilikdən 13 il keçdikdən sonra onlar uşaq haqqında ciddi düşündülər və nağıllardakı kimi "Hacıleylək" onların ocağına Ayan kimi bir qız övladı bəxş etdi. Uşaq həyata gəlməmişdən onlar qərara almışdılar ki, nə baba, nə də nənə adlarını verməyəcəklər ona.
Ayan qoydular qızlarının adını. 13 il yol gələn bu qız Hovruz bayramı ərəfəsində gəldi dünyaya. Novruz hədiyyəsi oldu gənc ata-anaya.
Çocuq hələ dünyaya gəlməmişdən ona nələr aldıqlarının, necə sevindiklərinin şahidi oldu dostlar, qohumlar və qunşular.
Ayan bu evə işıq, səadət, xoşbəxtlik gətirdi. Artıq bir ildir ki, Fariz evə tələsir, bütün fikrini qızına yönəldib.
Ayanın 1 yaşı münasibətilə keçirilən məclisdəki iştirakçıların sevinci "Səma" Şadlıq Sarayına sığmırdı.
Fikrimi bu xoşbəxtliyin iştirakçısı Firəngiz xanım cəlb etdi. Qucağında gəlin kimi bəzədilmişAyanla salona daxil olan nənə Firəngizin sevincinin həddi-hüdudu yox idi. Bir anlığa Firəngiz xanımın belə bir nəvəni qızı Sitarədən gördüyini xəyalıma gətirdim. Çünki gözünün ağı-qarası saydığı Sitarə qızı da artıq yetkinlik yaşındadır.
Bir arzu keçdi qəlbimdən və sağlıq dedim: - Gün o gün olsun ki, onun nəvəsini mən gətirim belə məclisə!

O, Farizin ailəsinin xöşbəxtliyi üçün çox çalışıb, Ayanın dünyaya gəlişində göstərdiyi can-fəşanlıq Firəngiz xanımın iç dünyasının təsviri idi. Elə bil bu insan yalnız xeyriyyəçilik üçün yaranıb. O, insanların sevincini özününki kimi qəbul edənlər sırasında hər zaman öndədir.
Farizin ailəsinin böyük sevincinə şərik oldum. İstədim özümü bir qədər Firəngiz xanıma oxşadam. Amma alınmadı.
Bir an gözümün qarşısında Ayanı gəlin surətində gördüm və dedim: -Ayan bala sonralar başa düşəcək ki, onun çiyninə "Şahlıq Quşu" qonub. Çünki onun atası Fariz bəy, anası Bikə xanımdır. Mənəvi nənəsi isə Firəngiz xanımdır.

## TORPAQ O MILLƏTƏ VƏTƏN OLUR KI...

Xalqımız hər zaman bədii yaradıcılıqla məşğul olanlara hörmətlə yanaşıb, onlara yüksək qiymət verib. Onlardan biri də yaradıcılığında ölkənin ərazi bütövlüyü uğrunda mübarizəni tərənnüm edən Elxan Xəzərdir.
Elxan Xəzərin ölkəmizdə gedən ictimai-siyasi hadisələrin şahidi olub, qələmə aldığı "Azadlığın töhfəsi" kitabı ilə tanışlıqdan sonra fikrə gəldim.
Kitab bütövlükdə Elxan Xəzərin əsgəri xidmətindən başlayaraq, zabit rütbəsinədək döyüş arenasında keçdiyi döyüş meydanını xatırladır.
Kitabı oxuyarkən, Elxan Xəzərin həm vətəninin döyüşçüsü, həm də müxbir kimi qələmə aldığı anları, şahidi olduğu hadisələri ağ kağız üzərinə köçürərkən, çəkdiyi əzabları hiss etməmək mümkün deyil. Hadisələr ani olaraq insanın gözü önündə canlanır.
Elxan Xəzər şeirlərində coşub-daşan bir vətənpərvər insan, özü və sözü olub.
O yazır ki, azadlığın, müstəqilliyin insanlara güc verməsi torpaqdan, millətdən irəli gəlir.
Vətənini, xalqını ürəkdən sevib, qarşısında özünü borclu bildiyi üçün münaqişə bölgələrində çalışmağa can atan şairin qələmə aldığı hadisələri kənardan müşahidə etdiyinin sübutudur ki, onların uğurlarına dərin məhəbbətlə yanaşmasında sözün rolu az olmayıb.
Şairi tanımq üçün şeirlərinin sevilməsi, qulaq oxşaması bəs edər. Bu keyfiyyətləri onun qələbəsi sanmaq olar. Necə ki, Elxan Xəzərin yazdıqlarından hiss olunur ki, o, hamını sevir. Paxıllıq yoxdur onun xasiyyətində.
Onun ən əsas prinsipı – insanları düşünüb, onları qiymətləndiməkdir. Hiss olunur ki, oxucunun düşüncələri onu çox düşündürür. Sözün qüdrətini bildiyindən oxucunun rəyi onu çox maraqlandırır.
Şair şeirlərində insana müqəddəs vəzifənin öhdəsindən layiqincə gəlməyi - vətəni layiqincə qorumağı tövsiyə edir. Hərbi hissələrdə keçirilən tədbirlərdə və yaxud keçmiş döyüş dostları ilə görüş onun üçün çox böyük məna kəsb edir.
Bir vaxtlar sıravi əsgər olan birini bu gün zabit görmək - bunun şair üçün nə qədər fərəhli olması – şeirlərindəki sətiraltı mənalarda hiss olunur.

Ömrünün 50 yaşına – həyat zirvəsinin bahar çağına çatanda, həyatı sözün əsl mənasında dərk edən Elxan Xəzər: Müşfiqin -30, Abbas Səhhətin- 44, Əhməd Cavadın – 45, Sabirin - 49, Vurğunun – 50 il yaşayıb, bu qısa ömür çərçvəsində - yaratdıqlarından bəhrələndiyini, onlara baxıb, özü də 50 ilinin çox hissəsini vətənin xidmətində keçirdiyindən qürur duyur.
Elxan Xəzər yaddan çıxarır ki, 50 yaşınadək rast gəldiyi çətinliklərə sinə gərərkən – sinəsi sipər olub, qələmi - silah.
Ona "əmi" deyib, müraciət edərkən qocaldığını sanır, amma "baba" titulunu ona verən nəvənin hay-küyünü dünyasına yaraşıq sanır.
Şeirlərində yazdığı kimi dünya heç kimi saxlamır, sadəcə qarşılayır və yola salır. Yazdıqları böyük məna daşıyır. Günün-ayın qədrini bil ki, ömrün mənalı olsun. Haqqı- haqsızlıqla, suyu-susuzluqla, qurunu-nəmlə, birliyi-təkliklə, vüsalı-həsrətlə bağlayıb, nəticədə hamısını vətənlə birləşdirib, qürbətdə olanlara deyir:
-"Köçür insan ana torpağın qucağına. Onları həyata gələn yeni körpələrlə əvəz edib, torpağı yaşadır". Şeirlərindən hiss olunur ki, hər şeyin bir sonu var. Torpaq, Millət, Vətən! Budur onun amalı.
Elxan Xəzər! Hələ vaxt, ömür irəlidədir. Çalış ki, Mikayıl Müşfiq, Abbas Səhhət, Əhməd Cavad, Mirzə Ələkbər Sabir, Səməd Vurğun kimi dahilərin qouduğu izlər kimi sənin də saldığın izlər dərin olsun!
Elxan Xəzərə torpaqlarımızın qaytarılmasını bayram etməyi, millətinin seviləni, Vətənin hər zaman əsl əsgəri olmağını arzulayıram.

## Anam Zəhrayə ithaf edirəm

Məhəmməd Peyqəmbərdən (S) soruşanda ki, ən
çox hörmət ediləcək insan kimdir? – Ana demişdir.
Bəs ikinci insan? – Anadır demişdir,
üçüncü insanı da Ana deyən Məhəmməd Peyqəmbər,
yalnız dördüncü sualın cavabında – ata demişdir.
Və bu səbəbdəndir ki,
Cənnət anaların ayaqları altındadır demişdir.

**Q**adın insana həyat verir, ailəni qoruyur, istilik yaradır. Qadın həyatın əsas mənbəidir. Hər bir qadın ümumilikdə bir dünyadır. Sevgisi, bacarığı və məhəbbətilə yaratdığı bir dünya. Qəlbi ilə ocağını isidəndir.

Anam Zəhra xanım Bakının İçərişəhərinin "Ağşalvarlılar" nəslindən olub. Ata-babası Dadaşovlar çox varlı olublar. Atası Teymur bəy həyat yoldaşı Məşədi Xanımı naz-nemət içində saxlayıb. Teymur bəyin ata nənəsi Məsmə xanım dünya işığına həsrət qalmışların gözlərini türkə-çarə (dərmansız) ilə açmaq qabiliyyətinə malik olub. Onu hamı "Dava tökən Məsmə xanım" – ləğəbilə tanıyırdı.
Anam Zəhra xanım danışardı ki, uşaqlıqları çox möhtəşəm keçib. Ataları əti kilo ilə deyil, qoyunu bütöv alıb kəsdirərdi ki, evdəkilər ehtiyac duymasınlar. Eyin-başları isə sözün əsil mənasında daş-qaş içində olub. Bir qardaşları olub, o, 16 yaşında miningit deyilən xəstəlikdən vəfat edib.

Teymur kişi Məşədi Xanıma hər dünyaya gətirdiyi övlada görə diymətli hədiyyələr təqdim edib, qızlarının boynlarına qızıl beşliklərlə sapa düzülmüş mirvarı boyunbağları bağışlayardı.
Qızların donlarının ətəklərini qızıl pullar bəzəyirdi. Ətəyin altından görünən kənarları ağ krujevalı qısa (şortik kimi) tuman donlarına xüsusi yaraşıq verirdi. O zaman çox nadir sayılan laklı çəkmələr bacılara xüsusi yaraşıq və şıklıq gətirirdi. Dəb və zövq ilə geyinən mavi gözlü Məşədi Xanımın gözəlliyi, donunun üzərindəki və boynundakı daş-qaşlı silsilələr göz qamaşdırıcı olub. Başındakı qiymətli daşlarla bəzədilmiş araxçına bənzər cütqabaq ona xüsusi yaraşıq verir, xanım-xatınlığını bir daha qabardırdı.
Ana nənəm Məşədi Xanımın anası fransız, atası polşalı olduğundan, əsl adı Elizabet olub. Teymur bəyin atası Qəni böyük oğlu Ağa Dadaş ilə tacirlik edib, Bakı və Polşa arasında ticarət ilə məşğul olub. Səfərlərdən birində Ağaddaş 12 yaşlı xrisytian bir qızı gözaltı edir. Növbəti "səyahət" zamanı mavi gözlü, ağbəniz bu qızı qaçırdıb, Bakıya gətirirlər.
Ağa Dadaş evlənməyi qərara alsa da, Məsmə xanım bu izdivacın baş tutması üçün şərt qoyur. O, qızın çox kiçik olduğunu nəzərə alıb 2-3 il gözləməyi və qızın Məşhədi ziyarət edib, müsəlman dinini qəbul etdikdən sonra buna razılıq verəcəyini bildirir. Ailədə Məsmə xanımın sözü –söz olduğundan necə deyərlər - bu razılaşmaya imza atırlar.
Bu illər ərzində Dadaşovlar ailəsində çox hadisələr baş verir. Qız ilə Qəni kişinin kiçik oğlu Teymur arasında məhəbbət əfsanəsi yaşanır. Məsmə xanım Teymura Məşhəd ziyarətindən qayıdan Məşədi Xanım (Elizabet) ilə evlənməsinə razılıq verir.
Bütün bunlardan yetkinlik yaşımda məlumatlananda, nənəmin başı kəlağayı ilə örtülmüş, əynində isə qolları uzun və yaxası bağlı, dəblə və zövq ilə tikilmiş paltarda görürdüm.
Sonradan Teymur babam dünyasını erkən dəyişdiyindən, ailəni saxlamaq üçün nənəm işləməli olur. Bilmirəm təsadüfdən olub və yaxud zərurətdən, nənəm Ağa Musanın tikdirdiyi binada - İsmailiyyə binasının nəzdində olan bufetdə bufetçi işləyir.
...1958-1960-cı illərdə Starə xalam 28 may küçəsindəki əkiz binaların (Ağa Musanın tikilisi) 1-ci mərtəbəsində böyük qastronom deyilən şirniyyat mağazasında xəzinədar işləyirdi. Sovetin qanunlarına əsasən alıcını qəpik-quruşla hesabda aldadanı ticarətdə işləməkdəm məhrum etməklə həbs cəzası da gözləyirdi. Ya da ki, böyük məbləğdə cərimə ödənilməli idi. Xalam alıcıdan 30 qəpik artıq alanda müfəttiş tərəfindən yaxalanmışdı.
Çox çətin vəziyyət idi. Hərə bir tikə çörək pulu qazanıb, ailəsini güc-bəla ilə dolandırırdı. Xalam 7 övlad anası idi, qazancı ilə ailəni ancaq dolandırırdı. Cərimənin öhdəsindən gələ biləcəyi böyük şübhə altında idi. Gecəni səhərədək gözü açıq qalan xalam, səhər gördüklərinə inanmadı.
Əhvalatdan xəbər tutan nənəm Məşədi Xanım, əynindəki paltarın 10-12 ədəd üstü parçadan tikilmiş düymələrindən 2-ni qayçılayıb, içindəki qızıl beşlikləri xalama uzadanda onun gözləri bərələ qalmışdı.
Belə bir deyim var ki, dövlətli kasıblasa da, 40 il sonra da ondan dövlətli iyi gəlir.

Həyat yoldaşnı erkən itirən nənəmin övladlarını böyütmək üçün ehtiyac duyduğu günləru çox olsa da, 40 ildən sonra da möcüzə yaratdı.

P.S. Starə xalamın o zaman heç ağlına da gəirməzdi ki, işlədiyi qastronom da Ağa Musa Nağıyevin 28 may küçəsində tikdirdiyi əkiz binaların birində yerləşirdi.

Xalalarım hər zaman ata nəsli ilə fəxr etdikləri kimi, bacıları Zəhranın da Ağa Musa Nağıyev ocağının gəlini olması ilə öyünürdİlər .

## BİR ƏSR YAŞAYAN İNSAN

Bakıda İçərişəhərdə "ağşalvarlılar" nəslindən olub Teymur bəy. Varlı ailənin oğlu Teymur bəy 1909-cu ildə Məşədi xanım ilə ailə qurur. Artıq 1910-1916 -cı illərdə onların ailəsində dörd qız övladı - Xırdaxanım, Zəhra (anam), Starə və Humay böyüyürdü.
Söhbət, 96 illik ömrünün 48 ilini səhiyyədə çalışmış Mayor rütbəli Humay xanım Dadaşovlar ailəsinin son beşiyindən gedəcək.
Savadsızlığın hökm sürdüyü bir dövrdə, qızlar varlı ailədən olduqlarından musiqidən – piano dərsi alsalar da, amma Teymur bəy onlara ali savad vermək haqqında heç düşünməyirdi. Çünki dövrün tələbinə əsasən qızlar həddi-buluğa çatar-çatmaz elçilər qapını kəsdirəcək və onların yeganə vəzifələri ev xanımı olmaq sayılırdı. Ancaq Humay xanım o biri bacılarından fərqli olaraq təhsil barədə düşünürdü.
Ataları Teymur bəy dünyasını erkən yaşlarında (37 yaşında) dəyişdiyindən, var-dövlət azaldıqca, ailənin tələbatı artdıqca, anaları Məşədi Xanım ailəni dolandırmaq üçün işləməyə məcbur olur.
Humay xanımın orta məktəbi bitirdikdən sonra şəhərdən çox uzaq məsafədə olan Artyom adasında orta məktəbdə dərs deməkdə, bu uzaq məsafəni fəth etməkdə bir məqsədi var idi –ailəyə yardımçı olmaq.
Tez bir zamanda müəllimlər içərisində savadı və bacarığı ilə seçilən Humay xanım "Medrabfak"a ( tibbi hazırlıq kursu) daxil olur.
Ailənin maddi durumu qane edici olmasa da, arzusu oxumaq, həkim olmaq idi. Hərçənd ki, Tibb İnstitutuna daxil olmaq əlçatmaz zirvə sayılırdı.
Məqsədinə nail olan Humay xanım, 1939-cu ildə Tibb institutunu fərqlənmə diplomu ilə bitirir. O, Lökbatan qəsəbəsində sıravi həkim kimi işləməyə başlayır, bu dəfə də məsafənin uzaqlığı onu qorxutmayır.
Böyük Vətən Müharibəsinin başlanması ilə əlaqədar o da həkimlərin xüsusi hazırlıq kursunu təcili keçib, Hərbi Komissarlıqda siyahıya alınır. İndi hər an onun qaynar nöqtələrə göndərilməsi məsələsi müzakirə olunmaz idi.
O zaman Səhiyyə Nazirliyinin rəhbərliyi artıq Humay xanımın təşkilatçılıq keyfiyyətlərini görüb, onu1942 –ci ildə məhz belə savadlı həkimlərə ehtiyac duyulan Neftçala Rayon Səhiyyə Şöbəsinə (indiki Əlibayramlı rayohu) Rəis vəzifəsinə təyin edir. Buradan o, qısa bir zamanda təcrübəli təşkilatçı həkim kimi həmin vəzifə ilə Sumqayıt Səhiyyə Şöbəsinə göndərilir.

1949-cu ildə üç uşaq anası olan Humay xanım Hərbi Həkim Komissarlığı Komissiyasının Sədri təyin olunur. Müharibə zamanı silahların hazırlanmasında böyük rol oynamış Sumqayıt "Boru Prokat Zavodu"na göndəriləcək işçilər indi məhz bu komissiyanın qərarı ilə təsdiqlənirdi.
Humay xanım ictimai işlərdə də fəal olub. Belə ki, o, 1948-ci ildə Sumqayıt Səhiyyə Şöbəsinin ilk partya təşkilatı katibi olmaqla, 2-ci çağırışın Deputatı (millət vəkili) seçilib.
O, hər zaman rəhbər vəzifələrdə çalışıb. Sosial Təminat Komitəsində işləyərkən yetimxanalara və Həkimlər Komissiyasının (VTEK) işinə nəzarət etmək də ona həvalə olunur.
Humay xanımın uğurları hər zaman diqqət mərkəzində olduğundan, haqqında mətbuatda çox yazılar dərc olunub.
Belə təcrübəyə malik olan və ictimaiyyətdə fəallığı ilə özünü göstərə bilən 35 yaşlı Humay xanım, 1951-ci ildə Azərbaycan SSR-sı yanında Təşlükəsizlik Komitəsinə həkim, daha sonra isə bu Poliklinikanın Rəisi təyin olunur.
Çox zaman keçdikdən sonra Humay xanım vaxtı ilə Ulu Öndərimiz Heydər Əliyevə bu poliklinikada həkim kimi xidmət göstərəciyindən öyünəcəyini heç ağlına da gətirməzdi.
36 il Təhlükəsizlik Komitəsinin Poliklinikasında çalışan Humay xanım, iş qabiliyyəti nəzərə alınmadan, 1987 –ci ildə yaşına görə təqaüdə çıxarılır. Bu cür çalışqan insanlar üçün təqaüdə çıxmaq ölümə bərabər idi.
Amma o dözdü və bundan sonra 25 il də yaşadı, düz 2012-ci ilədək.
Onu yaşadan ictimai işinin davamı oldu. Təqaüdə çıxandan sonra o, tarixi ənənələri davam etdirib, yaratdığı "Təhlükəsizlik Komitəsinin Veteranlar Guşəsi"nə rəhbərlik etdi. Bu sırada keçirdiyi tədbirlərdə Təhlükəsizlik Komitəsində işləyib, təqaüdə çıxanları və eləcə də vəfat etmişləri yaddaşlara salır, həyatda yaşayanlara isə sevinc bəxş edirdi.
Həaytını belə başa vurdu 96 yaşlı Humay xanım 2012-ci ildə.
Təhlükəsizlik Komitəsində işlədiyi müddətdə Mayor rütbəsinədək yüksələn Humay xanımın sinəsini bəzəyən medal və ordenlər onun etdiklərindən söhbət açır: 1944-də «За Оборону Кавказа», 1941-1945 – də «За Доблестный Труд в Великой Отечестенной Войне», Müharibənin Qələbəsinin 30,40,50,60 illiyinə həsr edilmiş medallar və sairə.
Ailə qurmazdan əvvəl Mirzə Cəfərov Təhlükəsizlik Komitəsində kiçik leytenant rütbəsində idi. Həyat yoldaşının komitənin poliklinikasına rəis təyin olunmasından əvvəllər narazı olsa da (bu kişi işidir deyirdi), sonradan çiyin-çiyinə işləyib, ona dəstək oldu Mirzə əmi. Çünki başqa yolu yox idi. Humay xanım fədakarlıq üçün yaranmışdı. Bunu dərk etdi Mirzə əmi.
Humay xanım Mayor rütbəsinə bir qədər tez çatmışdı həyat yoldaşından. Mirzə əmi öz aralarında zarafatla deyirdi ki, mən nəkarəyəm ki, Humay xanımın bir sözünü iki edəm. Axı mən sadəcə leytenantam.
Humay xanım uzun müddət ilahi sənətdə işləyib, 48 il əmək fəaliyyətinin 36 ilini Təhlükəsizlik Komitəsi yanında Poliklinikanın rəisi vəzifəsində çalışdı, yüksəldi. O, "Əməkdar Həkim", "Əla Səhiyyə İşçisi" ad larına layiq görülüb, çox illik əmək stajına görə "Əmək Veteranı" medalı ilə mükafatlandırılıb.

Humay xanım bacıları arasında anamın- Zəhra xanımın milyonçu Ağa Musa Nğıyev ocağının gəlini olduğu ilə fəxr edirdi. 1952-ci ildə 22 ildən sonra atam Bakıya dönərkən, müsadirə olunmuş binada, vaxtı ilə Ağa Musanın atamın eşqinə tikdirdiyi binada, 1 otaqlı mənzilin ona verilməsində Humay xalamın və onun həyat yoldaşı Mirzə əminin böyük rolu olmuşdur.
O, bizim nəslin birinci və yeganə həkimi olub.
Bütün bunlarla yanaşı üç övlad, dörd nəvə tərbiyə edib, onların ali savad almalarına böyük qüvvə sərf edən bu insan, savadlı həkim, təkrarsız həyat yoldaşı, gözəl ana, fərqli nənə olub.
Humay xanım 96 yaşında dünyaya xudahafiz dedi. Özünün dediyi kimi fikri-zikri hələ yaşamaq, yaratmaq, insanlara yardım göstərmək idi.
Həyat çox şirindir. Heç kim ölüm haqqında düşünməyir. O da yaşamaq istəyirdi. Etdiklərini az bilib, yaşayıb, yenə də yaratmaq istəyirdi. Amma hər şeyin bir sonu olduğu kimi, yarananın da sonu ölümdür.
Əfsuslar olsun ki, Humay xanım bir əsri başa vurmağa dörd ili qalmış vəfat etdi. Buna ona haqq verən sevdiyi peşəsi, vəzifəsi, ictimai fəaliyyəti və ən əsası ağırlıqdan sinəsini bükən layiqli təltifləri idi.
Humay xanım övladlarının , onu sevənlərin, ona yaxşı mənada borclu olanların qəlbində hər zaman yaraşıqlı, mavi gözlü insan kimi yaşayacaq.

**“Zamanın sorağında” kitabı haqqında rəylər və düşüncələr**

## ZAMANLA DÖYÜŞƏNLƏR

**Ö**tən əsrin əvvəllərində varidatına görə məşhurlaşan on bir Bakı milnyonçuları sırasında birincilik qazanmış Ağa Musa Nağıyevə sovet hakimiyyəti illərində “istismarçı kapitalist” damğası vurulmuşdu. Hətta bəzi araşdırmalarda da kapitalistlər haqqında qeydlər aparanda nədənsə Ağa Musanın ünvanına “xəsis” deməkdən çəkinmədilər. Halbuki onun gördüyü xeyirxah işləri, tikdirdiyi binaları və digər qeyri-adi savab əməllərini saf-çürük etdikcə başqa cür düşünürsən. O,

xalqına, millətinə nə dərəcədə xidmət etmək mümkünsə, hamısını bacarıb. Bəlkə də taleyin qəzavü-qədərinə düçar olmasaydı, Ağa Musa Nağıyev daha nələr yaradacaqdı...

Təəssüf ki, bu cür güclü və təpərli şəxsiyyətin fəaliyyəti, doğma xalqına göstərdiyi xidmət uzun müddət kölgədə qaldı. Halbuki onun təkcə Bakı şəhərində tikdirdiyi binalar tariximizin daş yaddaşıdır. Bu yadigarların hər naxışında neft milyonçusunun saf əməli, vətənpərvərliyi, milli təəssübkeşliyi sükuta dalıb, heykələ çevrilib.

Ağa Musa Nağıyev iri neft maqnatları arasında Nobel qardaılarından sonra ən varlı və ən mötəbər milyonçu kimi tanınıb. On bir yaşından hamballıq edən bu samançı oğlu əlinin qabarları ilə 49 yaşında milyonçu Ağa Musaya çevrildi.

Onun Şah binası sayılan “İsmailiyyə” binasında fəaliyyət göstərən Akademiyanın “Elm” nəşriyyatı tərəfindən çap olunan “Zamanın sorağında” adlı kitabın müəllifi milyonçunun nəvəsi Dilarə Nağıyevadır. Müəllif yeni nəşrdə Ağa Musa Nağıyevin uzun müddət kölgədə qalmış fəaliyyətinə və xalqına göstərdiyi xidmətə güzgü tutub. AMEA-nın birinci vitse-prezidenti akademik Arif Həşimovun kitaba yazdığı ön sözdə oxuyuruq: “Keçmişimizə hörmətlə yanaşmaq, Azərbaycan tarixini, onun dəyərli səhifələrini övladlarımıza, gələcək nəslə ötürmək hər birimizin borcudur. Dilarə xanımın bu mövzuya müraciət etməsi və zaman məsafəsində və qazandığı nailiyyətləri onun vətənpərvərlik hisslərindən, humanizmindən, incə, nəcib duyğularından irəli gəlir. Xeyriyyəçilik prinsipləri ilə tanınan, insanlara maddi və mənəvi dayaq olan bu xanımın ürək genişliyi onun ətrafında olan insanlara sevgi payını aşılayır...

Müəllif yazır: - “Bəxt, tale, qismət deiylən anlamalara inanmayanlara bir məsləhətim var: - neft milyonçusu Ağa Musa Nağıyevin həyat tarixçəsinə nəzər salsınlar... Tanrı onu kiçik yaşlarından özündən böyük yükün altına atıb. Zəhmətin bəhrəsini – yalnız çörəyə və qəndə çatan pulu qazanıb ona möhtac olan ailəsinə köməkdə görür. Uşaqlığını unudur. Ağa Musa Nağıyevin sonradan qazandığı sərvətin ölçüsü hesaba gəlməzdir. Xeyirxahlığı, ziyalı təfəkkürü və zəmanəsinin mesenatları arasında özünəməxsus yer tutanlardan olub. Zamanla böyüyən insan- Ağa Musa Bakının simasına çevrilir”.

Müəllif kitabın əvvəlində oxuculara Bakını qurub-yaradan neftxudaların hər biri haqqında qısa məlumat verir. Bu da səbəbsiz deyildi. Paytaxtımız yalnız nefti, tarixi-memarlıq abidələri, bənzərsiz Xəzəri və Abşeronu ilə deyil, həm də məşhur insanları- milyonçuları ilə tarixləşən şəhərdir. Hətta 70 illik sovet rejimi onların üstünə xətt çəkmək istəsə də, bu milyonçuların adları onları tanıyanların yaddaşından silinmədi: H.Z.Tağıyev, A.M.Nağıyev, Ş.Əsədullayev, M.Muxtarov,

A.Nobel, Ə.B.Aşurbəyov, İ.Hacınski, H.Ə.Eldarov, K.Ə.Zərbəliyev, A.Rotşild, T. Qulubəyov. Müəllif haqlı olaraq yazır ki, bizim hər birimiz bu böyük şəxsiyyətlərin qarşısında borcluyuq. Çünki bu insanlar neftdən gələn sərmayəni xalqın maariflənməsinə, mədəniyyətin və mətbuatın inkişafına, memarlığın zənginləşməsinə, incəsənətin şaxələnməsinə səfr ediblər.

XIX əsrin axırlarından etibarən Azərbaycan ziyalılarının və sahibkaralrının səyi nəticəsində milli mədəniyyətin, təhsilin və səhiyyənin inkişafına kömək məqsədilə, xeyriyyə cəmiyyətləri yaranır. Bu cəmiyyətlərin fəaliyyətlərinin uğurlu olması etmək üçün dövrün mesenatları sırasında nüfuzlu yer tutan Hacı Zeynalabdin Tağıyev, Ağa Musa Nağıyev, Şəmsi Əsədullayev və Murtuza Muxtarovun böyük xidmətləri olub.

Milyonçunun nəvəsi Dilarə xanım Nağıyeva kitabı elə maraqlı ştrixlərlə naxışlayıb ki, təqdim etdiyi sənədlərdən bir vətən övladının, unudulmaz Bakı milyonçusunun işıqlı obrazı boylanır. Töhfələrinin sayını sıralayan rəqəmlərin, faktların arxasında fenomen bir şəxsiyyətin dəyərli xidmətləri dayanır. Ağa Musa Nağıyevin tikdirdiyi və Bakı memarlığının Qızıl Fonduna daxil olan binaların sıra sayı uzun bir siyahı yaradır. Bakıya bir klassikalıq gətirən, onun hüsnünə Qərb və Şərq memarlıq koloritini bəxş edən bu qeyri-adi gözəl binaların yaradıcısı Ağa Musa Nağıyev olub. Bu gün bir sıra komitə və nazirliklərin yerləşdiyi binalar onun yadigarlarıdır. 28 may küçəsində yol boyu sıra ilə düzülmüş, memarlıq üslubu ilə seçilən binaların əksəriyyəti Ağa Musa Nağıyevin təşəbbüsü ilə inşa olunub. Elmlər Akademiyasının Rəyasət Heyətinin binası, Zabitlər evi, Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsi, "ÜNS" teatrı, "Azərittifaq", Ağır Cinayətlər üzrə Məhkəmə və İqtisad Universitetinin binaları, eləcə də dörd xəstəxana, Mərdəkan bağı (Mədə-Bağırsaq sanatoriyası) və s.

Təkcə Bakıda deyil, başqa çəhərlərdə də məscidlər tikdirən Bakı milyonçusu digər dinlərə sitayiş edənləri də unutmurdu. O, Bakıda "Kirxa" və "Sinaqoq"un tikilməsilə başqa dinə sahib olanlara məkan yeri .......

Deyilənlərə görə, XX əsrin binalarından Morozovun Moskvadakı mülkünü dünya incəsənətinin keçid dövrünün ixtirası hesab etmək mümkünsə, Azərbaycanda bu şərəf təkcə "İsmailiyyə" qotikasına (saraya) görə Ağa Musa Nağıyevə ünvanlanır. Bu faktı da xatırladaq ki, Bakıya Şollar suyunun çəkilmə xərcinin xeyli hissəsini - 75 faizini Ağa Musa Nağıyev ödəyib.

Öz nəhəng sarayları, tikililəri ilə həmkarlarını – milyonçiları belə lərzəyə gətirən Ağa Musanın nəslinin başına çox zülümlər gəlib. Nəinki yaxın adamları, övladları, hətta uzaq qohumları da vətəndən sürgün edilib, zindanlara atılıb, qətlə yetirilib. Yazılarda onların mənfi obrazları yaradılır, karikaturaları çəkilir.

Ağa Musanın nəşi də elə bu səbəbdən bir neçə dəfə gordan (dörd dəfə yeri dəyişilib) edilib. Amma həqiqət deyilən bir inci var ki, o, min arşın quyunun dibinə salınsa da, nə vaxtsa üzə çıxır. Yetmiş illik ağır qadağadan sonra Günəşin üzündəki qara buludlar çəkildi.

Doğrudur, Azərbaycanın rus ordusu tərəfindən işğal edilməsi Ağa Musa Nağıyev kimi insanların təkcə ömürlərinə deyil, əməllərinə də balta çaldı. Əlbəttə, bu ömrü susdurmaq asan olsa da, onun işıqlı əməllərini, millət və xalqın yolunda gördüyü xeyirxahlığı ölümə məhkum etmək mümkün deyildir. Dövlət müstəqilliyimizin bərpasından sonra bu şəxsiyyətlərin haqqının özünə qaytarılması başlandı. Vətəvdən uzaqda yaşayanlar Bakıya döndülər.

Kitabın müəllifi haqlı olaraq söyləyir: "Çalışdığım Ağa Musanın adına layiqli nəvə olmaqdır. Onun nurlu əməlləri daima bir işıq kimi parlayıb, bu gün də həyatımızı işıqlandırır".

Müəllif Ağa Musa Nağıyevin əməllərini dolğun əks etdirmək məqsədilə "Gördüyü xeyirxah işlərin kiçik siyahısı"nı da kitaba əlavə edib. Buradan alınan bilgilərdən həqiqətən heyrətə gəlməmək qeyri –mümkündür. Bir insan nə qədər böyük və geniş ürəyə malik ola bilərmiş ki, öz varidatını bu dərəcədə səxavətlə el və millət yolunda xərcləsin.

Bircə məsələni xüsusilə diqqətə çatdırmaq lazımdır ki, Bakıda səhiyyə obyektlərinin tikilməsi məsələsinə diqqət yetirənin adı məhz Ağa Musa Nağıyev ilə bağlıdır. Ağır xəstəliyə düçar olmuş yeganə oğlu İsmayılı itirən milyonçu, vətən övladlarını xəstəliklərdən xilas etmək məqsədilə səhiyyə məsələlərinə böyük həssaslıqla yanaşıb. Səhiyyənin inkişafı naminə varından keçməyi bacarıb.

Bir əsrdən çoxdur ki, onun inşa etdirdiyi binalar Bakının bu gün də əzəmətli görkəmində öz sanballığı ilə seçilir.

Dilarə xanım bir arzusunu da bildirir ki, babam 100 bina tikdirmək niyyətində olsa da, 98-ni tikdirə bilib. Kaş elə bir imkanım olaydı ki, babamın istəyini tamamlayaydım - deyir.

Mən isə düşünürəm ki, Azərbaycan mədəniyyətinin, incəsənətinin və memarlığının inkişafında fədakarcasına çalışan, fəaliyyət göstərən bu unudulmaz şəxsiyyət haqqında kitablar yazmaq, araşdırmalar aparmaq, üstünü toz basmış sənədləri toplamaq, xeyirxah işlərin bəhrəsi olan abidələrin, binaların siyahısını tərtib etmək, bir sözlə, Ağa Musa Nağıyevi olduğu kimi xalqına çatdırmaq özü də bina tikməyə bərabərdir.

**Azərbaycan qəzeti, şöbə müdürü Flora Xəlilzadə**

## Zamanla böyüyən insan

Azərbaycan tarixində tərəqqipərvərliyi, ziyalılığı və ən əsası - mesenat kimi iz qoyan Ağa Musa Nağıyev yaşadığı zaman məsafəsində dövrünün tanınan və seçilən simaları sırasında öz möhürünü vurub.
Aparılan araşdırmalardan bəlli olur ki, ötən əsrin əvvəllərində varidatına və çoxsaylı tikililərinə görə on bir Bakı milyonçuları sırasında birincilik qazanıb. Məlum olduğu kimi, yaşadığımız imperiya dövründə ona da "istismarçı kapitalist" damğası vurulub. Ziyalılığı, alicənablığı və təvazökarlığı ilə seçilən Ağa Musa Nağıyev həyatı boyu ali amallara xidmət edib. Belə dəyərləri özündə cəmləşdirən ziyalının keçdiyi həyat yolunun məqamlarını əks etdirən nəşrlər onun müasirlərimizlə tanışlığına imkan yaradır.
Belə nümunələrdən olan Dilarə Ağamusa Nağıyevanın "Zamanın sorağında" adlı kitabı xeyriyyəçinin fəaliyyətinə müxtəlif aspektlərdən bir baxışdır. Bu nəşr müəllifin Ağa Musa Nağıyevə həsr etdiyi sayca üçüncü kitabıdır. Kitab illərin məsafəsində fəaliyyətinə kölgə salmış əsil ziyalının göstərdiyi xidmətə həsr olunub. Kitabın ərsəyə gəlməsində arxiv materiallarından istifadə edilib.
Müəllif maraqlı fikirlərlə kitaba giriş edir. O göstərir ki, yüz bina tikdirəcəyinə qərar verən Ağa Musanın – İstiqlaliyyət küçəsində ucalan, binalardan ən yüksəkdə duran, vaxtilə İlk Müsəlman Xeyriyyə Cəmiyyəti xüsusiyyəti daşıyan "İsmailiyyə" binası, həmin küçədə ucalan "Realnı məktəb" də özünəməxsus gözəlliyini bu günədək qoruyub saxlaya bilmişdir. Dilarə xanım yazır ki, Bakı milyonçuları arasında yüz bina tikmək ideyası yalnız Ağa Musa Nağıyevə məxsusdur.
"Zamanın sorağında" kitabının redaktoru AMEA-nın birinci vitse prezidenti, akademik Arif Həşimov giriş sözünü "Zamanla böyüyən insan" başlığı altında Ağa Musa Nağıyevin ziddiyyətli, sevincli-kədərli, faciəli həyatının xalqın taleyi və mədəniyyəti ilə sıx bağlılığından başlayır. Maarifçilik missiyasını həyata keçirən ziyalı bu məfhumun dəyərini dərk edərək təhsilin inkişafına qayğı göstərib, vəsait ayırıb. Qısa bir zaman kəsiyində Azərbaycanda belə insanların əməyi və milyonları sayəsində ziyalılar nəsli təşəkkül tapıb. Qazandığı sərvətin ölçüyə gəlmədiyi zamanda mesenat əldə etdiyi vəsaiti məhz elm, təhsil yolunda xərcləməyi özünə mənəvi borc hesab edib.
Təəssüflə qeyd etmək lazımdır ki, sovet hakimiyyətinin qurulduğu ilk illərdə o da çoxları kimi damğalandı, istismarçı kapitalist adını aldı.
Kitaba daxil edilən: "Unudulmuş unudulmazlar", "Nahaqqa mesaj", "Tarix unudulmur" və s. başlıqlı yazılarda milyonçunun həyatda saldığı iz ilə tanış oluruq. Hər tikilisində onun əməli, izi yaşanır.

Müəllif "Bakını qurub-yaradan neftxudalar" başlıqlı yazıda isə müəllif böyük əməllərilə yaşayan neft sahibkarlarının Hacı Zeynalabdin Tağıyevin, Şəmsi Əsədullayevin, Murtuza Muxtarovun, Alfred Nobelin, Əjdərbəy Kərbəlayinin, Abdulla Zərbəliyevin və başqalarının tərcümeyi-halına qısa şəkildə nəzər salıb.
Ağa Musa Nağıyevin inşa etdirdiyi arxitektur binalar öz gözəlliyi, möhtəşəmliyi ilə seşilir. O, fəhlələrinə toy edən, incəsənətə fikir yönəldən, kasıbların vəsiyyətlərinə əməl edib, dəfnlərini Kərbəlada keçirən, xəstəxanalar və mehmanxanalar tikdirənlər sırasında birincilik qazanıb, başqalarından seçilib.
O, bir ziyalı olaraq, ictimai həyatda da fəallıq göstərib. Belə ki, o, "Maarif Cəmiyyəti"ni yaradıb, şikəst uşaqlara yardım edən "Uşaq bağçası" xeyriyyə cəmiyyətinin həqiqi üzvü olub; İctimai yığıncaqlar keçirmək məqsədilə binalar inşa etdirib.
Kitabda Ağa Musa Nağıyevin nəsil şəcərəsi də maraqlı şəkildə diqqətə çatdırılır. Xeyriyyəçi ziyalının kökündən şaxələnən budaqlar Nağıyevlər nəslini ətrafında cəmləşdirir. Çox maraqlıdır ki, şəcərədə dünyasını dəyişmişləri xəzan olmuş (saralmış) yarpaqlarla, həyatda olanları isə yaşıl yarpaqlarla göstərib. Bu maraqlı ideyanı bir yenilik kimi qəbul edib, müəllifin tarixə verdiyi töhfə kimi sanmaq olar.
Müəllif onun tikdirdiyi binaların görüntülərini də oxuculara təqdim edib. Maraqlı görünüşdə olan bu binaların hər biri Ağa Musa Nağıyevin şah əsərləridir.
O binalar ki, bizə tarixdən soraq verir.
Azərbaycanın belə övladları bizləri tariximizin müəmmalı, qaranlıq qalan olayları ilə tanış edir.

**"S Ə S" qəzeti**
**Zümrüd**

## Bir dost haqqında düşüncələr

İstedadlı müğənni Zöhrə xanım Əliyeva ilə dostluğumuz çox-çox illər ( 1980 - 1983) əvvəl olyb. Yanılmaramsa, 1983-cü ildən başlayıb xoş münasibətlərimiz. Bir arada uzaqlaşdıq biri-birimizdən və yenidən və 2005-ci ildə rastlaşanda aramızda olan isti münasibət bu günədək davam edir. Zöhrə xanım o zaman da, bu gün də səsinin məlahəti və məharəti (fonoqrammasız) ilə hamının ürəyini fəth edir desəm, fikrimdə yanılmaram. Zöhrə xanım özünə qarşı tələbkar olduğu kimi hər zaman sevilən, hörmət qazanan insanlar silsiləsindən olan xanımlar cərgəsindədir. Təmənnasız olaraq xeyriyyə tədbirlərində mahnıları ilə hamının diqqətini bu gün də özünə cəlb edir.

O, ecazkar səsilə xariqələr yaradır. Gözəl dost və mehriban anadır.

Zöhrə xanım musiqi istedadını nümayiş etməklə bərabər, dinə də çox sitayiş edir. Hər dəfə, hətta cüzi bir işin həyata keçməsində Allaha şükr etməyi vacib sayan Zöhrə xanıma 2012-ci ildə "Məşhəd" ziyarəti- İmam Hüseynin qəbrini ziyarət etmək nəsib oldu. Onu bu arzu, istək çoxdan narahat edirdi. Arzusunun çin olmasına artıq Həcc ziyarətində 7 dəfə olan Hacı xanım Azadə dəstək oldu. Düşünürəm ki, səsinin ahənginin qorunub saxlanılmasında Allah özü ona kömək olur.
Filarmonniyanın solisti olmaq o dövr üçün böyük istedad tələb edirdi.
Zöhrə xanımın yaşayış tərzi və maddi durumu bu gün şou-biznesdə məşhurlaşan müğənnilərdən qat-qat fərqli olsa da, qürurunu, mənliyini itirməyib. O, əsl azəri xanımına məxsus olan xanımlığını bu günədək qoruyub saxlaya bilənlər cərgəsindədir.
Vaxtı ilə hər kəsin arzuladığı zirvəni Zöhrə xanım o müdhiş sayılan 1974- 1977 ci illərdə fəth edə bilmişdir.
Onu irəli çəkəcək bir sponsor olmadan, o vaxtlar hər kəsin qalxa bilmədiyi qülləyə səsinin gücü ilə ucalan Zöhrə xanım Əliyeva Müslüm Maqamayev adına Azərbaycan Dövlət Filarmoniyasında solist kimi fəaliyyət göstərib. Bir neçə ildən sonra o, Əliyağa Quliyevin xalq çalğı alətləri ansamblına solist kimi dəvət alır.
İfa etdiyi "Sona bülbüllər", "Qara gilə", "Qubanın ağ alması" kimi mahnılar bu gün də dinləyicilərin ruhunu oxşayır, ürəklərə məlhəm kimi yayılır.
Zöhrə xanımın şox fərqli bir xüsusiyyəti var. Bu onun sadəliyid**ir**. Hamıya isti münasibət bəsləyib, kiçiklərə - kiçik kimi yanaşan, böyüklərə kiçiklik edən, məhz bu cəhəti ilə hamının məhəbbətini qazanan və bu məhəbbəti bu günədək qoruyub, saxlaya bilirZöhrə xanım.
Zöhrə xanım bu gün də səsinin təravəti ilə hamını heyrətə salır.
Deyirlər ki, kiminsə haqqında fikir söyləmək istəsən, mütləq yol getməlisən. Zöhrə xanımın yaxşı yol yoldaşlığı var. Mahnıları ilə bərabər özü ilə bağlı əhvalatları məzəli danışıq tərzi ilə həmsöhbətlərinə çatdıra bilir.
Deyilənlərə görə Məşhəd ziyarətində onun maraqlı hadisələrlə üzləşməsi heç də təsadüfü deyil. Çünki bu ziyarət, onun gənclik illərinin arzusu olub.
... Eşidəndə ki, qarmon ifaçısı Adil Dəyanət oğlu haqqında kitab yazılır – mən yazmaqda usta deyiləm deyən Zöhrə xanım, onun haqqında xatirələrini yada saldıqca mən qeydlərimi aparıb, sizlərə də çatdırmağı vacib bildim.
Zöhrə xanım heç vaxt düşünməzdi ki, həmkarı Adilin haqqında keçmiş zamanda danışacaq. Çünki buna hələ ehtiyac yox idi, onun nə yaşı vardı? Ömrünün bahar çağını yaşayırdı. Hələ neçə-neçə qışı yola salıb, yazı qarşılayacaqdı.
Amma.... Nə etmək? Ömür vəfa etmədi.
Adil çox az yaşasa da, musiqi aləmində dərin iz qoydu. Sənətkarın qədrini onun ölümündən sonra bilirlər - belə deyirlər. Amma Adil sağ ikən onun artıq azarkeşlərinin sayı sanılmaz idi. Axı o, gözəl qarmon ifaçısı idi. Desəm ki, elə bil qarmon əlində gəlib dünyaya, bunu düzgün qəbul edin. Yaşadığı qısa ömür yolu da bunu deyir. Görkəmindən, və davranışından hiss olunurdu ki, yaxşı ailənin oğlu olub. Sonralar bəlli oldu ki, atası onu korluq çəkməyə qoymazmış və ailənin ilk övladı olduğundan çox ərkəsöyün böyüdüb onu. Dəyanət kişinin fikrində oğlunu həkimlik oxutmaq olsa da, görünür Adilin bu ixtisasa qovuşa bilmədiyinə elə onun

ərköyünlüyi səbəb olub. Bir qədər özünə qapanan və az danışan olub Adil. Adətən bu xüsusiyyətlər dərdli insanlarda olur. Bilmirəm, bəlkə də...
Həyatda çox şeyə nail olmuşdu Adil. Ailəvi idi, təhsilə yiyələnmişdi, sevdiyi işi, bir sözlə yaşamaq üçün hər şey var idi.
Amma hərəkətlərindən çox sirli olduğu duyulurdu. Soruşanda deyərdi hələ vaxt var, hər şey irəlidədir, inşaallah hər şey yaxşı olacaq.
Zöhrə xanımın Adil ilə tanışlığı Əli Ağa Quliyevin ansamblına gəldiyi vaxtdan başlayıb.
Deyilənlərə görə Əli Ağa müəllim say-seçmə peşəkarları orkestrə qəbul edirdi. Konsert zamanı Zöhrə xanıma qulaq asıb, ifasını bəyəndiyini söyləyərdi. Əli Ağa müəllim ona qara qızım, deyə müraciət edərdi.
Əvvəllər belə şağırılmasının acığına gəldiyini söyləyən Zöhrə xanım, sonradan onu çox istədiyindən belə müraciət etdiyini başa düşür. Əli Ağa zarafatından qalmayıb deyirdi, ay qız, - ağ kişmiş meynə dibində, qara kişmiş bəylər cibində.
Bir dəfə Adil də ona ay qara qız, - deyə müraciət edəndə, Zöhrə xanım əsəbi halda ona deyir: - Əli Ağa müəllimin çəkmələrini geyən tapılar, amma onun yerişini yeriməyi bacara bilməz.
Adil səhvini başa düşüb, ondan üzr istəyəndə, Zöhrə demişdi: – heç eybi yox, qızın olar, mən də ona ad qoyaram.
Sən demə Zöhrə onun yaralı yerinə toxunmuşdu. Oğul arzusunda olan Adilin artıq iki qızı var imiş. Sonradan daha iki qız və nəhayət arzu etdiyi beşinci övladı – Dəyanət oğlu gəlir dünyaya.
Kollektivdə hamı Adilin xatirini istəyirdi. Yerini bilən idi. Zarafatı sevməzdi. Daxilən çox sirli idi. Elə bil hər an ölümünü gözləyirdi, çünki o, neçə illər idi ki, xəstə likdən əziyyət çəkirdi.
Zöhrə xanımı o vaxtlar, elə indi də xarici görünüşünə görə ölməz sənətkar, muğam ustası Sara xanım Qədimovaya oxşadırlar. Hündür boyu, saç düzümü və qaməti ilə elə bil Sara xanımı xatırladır.
Qastrol səfərlərinin birində Sara xanım “ vacib aksesuarlarından” birini itirmişdi. Bütün kollektiv dəymişdi biri-birinə, hamı axtarışda idi.
Əşya tapılanda kollektivin gülüşü bütün Zaqatalanı ayağa qaldırmışdı. Məsələdən xəbər tutan Adil gülməkdən uğunaraq Zöhrə xanıma yaxınlaşıb demişdi:
- Zöhrə xanım, hərçənd ki biri-birinizə çox oxşayırsız, amma özünüzü qoruyun ki, belə bir hadisə sizin də başınıza gəlməsin.
Adil qarmonu dilə gətirəndə hər şeyi yaddan çıxarırdı. Görkəmli qarmon ustası, Xalq artisti Aftandil İsrafilov onun ifasını çox bəyənirdi. Özü də onun müəllimi olmasından qürur duyurdu ki, əməyi hədər getməyib. Adil deyirdi ki, bircə atamı razı sala bilmədim. Kişi elə hey çaşıb, mənə həkim deyə müraciət edir. Adil deyirdi ki, dəfələrlə atama desəm də ki, mən də ifam ilə insan ruhunu oxşayıram, onları feyziyab edirəm, bu da bir müalicə üsuludur. Faydası olmayırdı.
Adilin barmaqları pianoçunun barmaqlarını xatırladırdı. Hərdən tamaşaçıya elə gəlirdi ki, ifa edərkən o yatır. Musiqinin sədaları altında gah yatıb, gah da oyanan Adil, ifası ilə sözün əsl mənasında əsər yaradırdı.
Yaxşı yol yoldaşlığı olub. Qastrol səfərlərində çox olub onunla Zöhrə xanım. O deyir: - Qardaşın kimdir, yol getməmişəm, bilmirəm, atalar misalı bütövlükdə

Adilə aid idi. Çox zövqlü idi. Ona baxanda adam yaşamaq istəyirdi. Əyər desələr ki, incəsənətdə belə xüsusiyyətdə ikinci adam olmayıb –inanın, bu belədir. Adilin çatışmayan cəhəti – eyibsizliyi olub.
İndiki Heydər Əliyev adına sarayında Dövlətin təşkilatçılığı ilə üç gün konsert vermək qərara alınmışdı. Hamıya bəllidir ki, o vaxt fonoqramma yox idi, ifalar canlı idi. Bu çətin konsertin öhdəsindən əla gələ bildim. Adilin bu konsert zamanı qarmon ifası onu dinləyənlərin qulaqlarından bu gün də getmədiyinə məndə əminlik var – deyir Zöhra xanım.
Onlar bütövlükdə Azərbaycanın bütün bölgələrində, kolxoz və sovxozlar daxil olmaqla, eləcə də "Yaşıl teatrda" və Naxçıvanda konsertlər veriblər. Adildən yoruldum kəlməsini eşidən olmazdı. Əksinə, o, istirahət edəndə - yorulurdu. Musiqi onun ruhunu oxşayırdı. Çöx az danışardı. İfaçılığı onun sözü-söhbəti idi. Zaqatala, Şəki, Qax, Cəlilabad kimi rayonlarda səfərdə olarkən, bu insan gəzintidən özünü məhrum edər, ancaq məşq edib, növbəti konsertə hazırlaşardı. Daşkəsəndə və Gürcüstan Respublikasında verdiyimiz konsertlər hamını heyran qoymuşdu.
Ucqar dağ rayonlarını, Xınalıqa qədər qarış – qarış gəzib, yorulmadan konsert verib onlar.
Adil deyirdi: - Zöhrə xanım, siz məni gecənin yarısında da yuxudan oyatsaz, qarmonu dilə gətirərəm. Çünki səsinizin əsrarəngliyi bunu tələb edir.
Adilə birgə çalışdıqları "Təranə" Dövlət Gənclik ansamblında Cavanşir Məmmədov, Zümrüd Məmmədova, Sakit Məmmədov və ölməz sənətkar Məmməd Bağır Bağırzadə kimi sənətkarlarla bir səhnəni bölüşdürmək qismət olub. Sonradan bu ansambl fəaliyyətini Azərbaycan Dövlət Konsert Birliyində davam edir.
2002-ci ildə Adilin vəfatını – bütün sənət adamları yaxın adamının itkisi kimi qarşıladı. Bu incəsənət aləminin itgisi idi. Təsəvvür etmək olmazdı ki, Adilin qarmonu Adilsiz qaldı. Dünən deyib, gülən Adil, bu gün artıq yoxdur.
Bütövlükdə ansambl müəyyən vaxt onun yoxluğunu qəbul edə bilmirdi deyən Zöhrə xanımın gözlərindəki kədərin bu gün də nə isə demək istədiyini anlamaq olurdu.
Hamı kimi Zöhrə xanım da onun ölümündın çox heyifsləib, deyir: - Onunla bağlı günlərimi indi onsuz yad edirəm. Heç vaxt düşünməzdim ki, o xəyallarda keçmiş halda yada düşəcək. Axı onun nə yaşı var idi ki, ölüm onu haqladı? Cəmi-cümlətanı 45 illik ömür yolu keçdi Adil.

## Təsəllini həyatdan almalısan

Ulduz Bahadur qızının xatirəsinə

1993-cü ilin may ayından başladı Qubadlı faciəsinin əsası...

Ulduz Bahadur qızının sağalmaz yarası oldu bu faciə. Asan məsələ deyil, anadan olduğun və yaşadığın Diləli Müskanlı kəndindən, boya-başa çatdığın yerlərdən, sevdiyin torpaqlardan ayrı düşmək.
Diləli Müskanlı kəndinin əhalisi bir çətinliyə düşəndə, ağır ocağa – Mir Sədi babanın uyuduğu yerə gəlib dualar edib, nəzir edirdi. İndi bu ocaq da ona arxalanan insanlardan uzaq düşdü.
Bax, elə bu dərdi özü ilə gətirdi Ulduz xanım Bakıya. Bu dərd onunla yaşadı nə az, nə də çox - düz 20 il. O, dözdü bu dərdə, çətin də olsa.
Yeddi övlad anası (3-qız, 4-oğlan) Ulduz xanımın yeganə sevinci övladları oldu. Onlara baxanda qəlbi ulduz kimi bərq vursa da, Bakıya "köçəndən" ulduz kimi sönməyə başladı.
Amma elə bil Allah Taala bunu da ona çox gördü. Oğlu Səmədi - çiyərparəsini 2 il öncə aldı əlindən. Bax, elə bu dərd onun belini lap qırdı. Çünki bala da – torpaq qədər əzizdir.
Dərdini gizlədən Qabil kişi həyat yoldaşına elə hey deyirdi: - "Qəm yemə, ay Ulduz, hər şeyi verən də Allahdır, alan da odur. Taleyin qismətindən qaçmaq olmaz... Nə etməli, təki o biri balalarımıza ziyan dəyməsin. Allah qorusun onları".
Bu sözlərin arxasından həyat yoldaşına baxan Ulduz, Qabil kişinin belinin büküldüynü görüncə, daha da solurdu.
Ulduz xanımın ən böyük dərdi olan torpaq dərdi onunla beləcə 71il yol getdi. Amma, Xan qızı Natvan, Cavanşirlər - Qarabağın xan nəslindən olduğundan - Ulduz xanımın qaməti əyilmədi.
Bu xüsusiyyət onun övladalrına da keçib. Onların sırasında qızı Aliyə xanıma lap çox düşüb bu paydan. Budur Aliyəni mənə sevdirən!
Akademiyanın (AMEA nın) - "Elm" nəşriyyatında fəaliyyət göstərən bu çalışqan xanım – mənim diqqətimi özünə cəlb etdi.
Babam milyonçu-xeyriyyəçi Ağa Musa Nağıyevə həsr etdiyim kitabım və elmi monoqrafiyam "Elm" nəşriyyatında çap olunurdu. Bu bir vasitə oldu biri-birimizə isinməiymizə. Yeri gəlmişkən qeyd edim ki, 20 ildir bu yolda çalışdığım. Qazanqlarımdan biri də gözəl – dəyərli insanlarla tanışlığımdır.
Çox qısa bir zamanda hiss etdim ki, Aliyə ilə aramızda oxşar xüsusiyyətlər çoxdur, yaş fərqimiz cəmi-cümlətanı 30-35 il olsa da. Mən deyərdim ki, dünyagörüşümüz, fikirlərimiz, bəyəndiklərimiz, hətta bəyənmədiklərimiz də eynidir.
Yeri gəlmişkən, təvazökarlıqdan kənar da olsa, deməliyəm ki, müasir həyatla çox tez yollaşıram. Bəlkə də buna görə Aliyə üçün aramızda olan yaşın nə fərqi var ki. Axı bizim damarlarımızda axan mavi qan xüsusi bir növdür. Belə insanların damarları çox zərif olur, çünki rəng özünü göstərməlidir.
Aliyə xanım tez-tez doğulduğu yerlərdən, uşaqlıq və gənclik illərindən maraqlı anları yad edib danışır. Bu yerləri tərk edərkən, onun artıq yetkinlik dövrünün ən çılğın vaxtları idi.
Görün indi həyatının ən gözəl vaxtlarını Diləli Müskanlı kəndində keçirən ata-anası nələr çəkib?
Totalitar rejim bizə dini ainələri - namazı, qurbanı, orucu qadağa etsə də, kəndin adamları o zaman da, bu gün də Allaha və Mir Sədi Ağanın ruhuna dualar oxuyur.

Aliyə xanımın atası Qabil kişi o vaxtlar Kolxoz İdarə Heyətinin Sədri vəzifəsini icra edib. Kəndin əhalisinə əlindən gələn köməkliyi əsigəməyib. Ata nənəsi Dilarə xanım da çox hökmranlı olub. Kəndin imkansızlarına əl tutmağı ona hər dəfə tövsiyə edib, tapşırıqlar verirdi. Oğlu bu anlarda ona zarafatla deyirdi:
- Ana, elə bil kolxozun böyüyü mən deyiləm, sənsən.
Düşünürəm ki, Aliyəni mənə yaxınlaşdıran oxşar xüsusiyyətilərimiz oldu. Nənəsi də adaşım olub.
Aliyə xanım həyatdakı kimi işdə də çox ciddi və tələbkardır. Məsuliyyətlidir. Mənimlə kitabın üzərində işləyərkən bir an çaş qalırdım ki, müəllif hansımızıq. Çox maraqlı hadisələr baş verirdi iş prosesində.
Təbiətən mən işin tez alınmasına çalışanam. Bu müddət ərzində Aliyə mənə gözləməyi, dözməyi öyrətdi:
-"Gözlə, vaxtı çatan kimi hər şey düzələcək"! Dilarə xanım, tələsməyin!
Bu gün Aliyə xanım Sədri olduğum Ağa Musa Nağıyev adına "Milli Dəyərlərin Qorunması" təşkilatının mətbuat katibidir.
Artıq mən onsuz darıxıram.
Elmi işimdə o, belə bir arxiv sənədinə rast gəldi : Vaxtı ilə Bakıda bir çox xeyriyyə təşkilatları və maarifpərvər qüvvələr birləşərək müxtəlif xeyriyyə tədbirləri həyata keçirirdilər. Bu tədbirlər **"Bakı gecələri"** adlanırdı.
Keçirdiyiniz tədbirləri "Bakı gecələri" adlandırasız? Bununla keçmişə nəzər salıb, gözəl bir ideya vermiş oldu Aliyə xanım. Düz deyiblər ki, ağıl yaşda deyil, başdadır.
Beləcə silsilə tədbirlərin keçirilməsində **"Bakı gecələri"** adlı lahiyə reallaşdı.
... Aliyə xanımın ailəsində baş verən ağır itgi məni də sarsıtdı. Neçə vaxtdır ki, anasının səhhəti onu narahat edirdi. Hər bir övlad üçün ana əzizdir. Amma Aliyənin payına deyəsən bu sevgi bir qədər çox düşmüşdür.
2012-ci ilin qışına, qarına, soyuğuna baxmayaraq, Aliyə vaxtının çoxunu Sumqayıtda – anasının yanında keçirirdi.
Sevdiyi işindən soyuduğunun səbəbi də anası ilə bağlı idi. O, nə isə dəhşətli bir hadisənin baş verəcəyini gözləsə də, Allaha çox ümüdli idi. Deyirlər ki, ümüd sonuncu ölür. Aliyə anasının sağalacağına inanırdı.
Amma sən saydığını say, gör fələk nə sayır, deyiblər.
Telefonda: -"Anam dünyasını dəyişdi..."- deyən Aliyənin sanki özünü görürdüm. Həm Ulduz ananın, həm də Aliyənin çəkdiyi əziyyətlərə bir kəlmə "vəfat etdi" – sözü son qoydu!
Yas yerində gəlini İlhamə xanım ilə söhbətləşərkən, qaynana haqqında dediyi bir kəlməsi indi də qulaqlarımda əks-səda verir:
"Qaynanam parlayan bir Ulduza bənzəyirdi, Ulduz kimi də söndü".
Sanki bu parıltının arxasında mən gözəl qaynana, ləyaqətli qadın surəti gördüm. Bir an gözümün önündə Ulduz xanımın yol getdiyi 71 illik ömrünün səhifələri canlandı... Həyatın aksiomasıdır: - Bir gün yaranan, bir gün öləcək! Amma bu aksiomanı qəbul etməyə nə qədər güc və nə böyük ürək lazımdır.
Aliyə xanım! Sən məndən mərd, mətanətli, dözümlü və səbrli olmağı öyrəndin. Bəlkə bu dərdi çəkmək üçün mən də sənin üçün bir məktəb oldum, bilmirəm. İndi deyəcəklərimə qulaq ver:

-Dözümlü ol ki, bu dərd yükünü daşıya biləsən, mətanətli ol ki, atana dayaq olasan, mərd ol ki, bu dərdi mərdanə qarşılayasan, səbrli ol ki, sənin qarşında çox ağır yük dayanıb: - Cavanşirlər nəslinə yeni nəfəs vermək yükü!
Mərhum Məmməd Azaz demişkən:
Dünya mənim, Dünya sənin, Dünya heç kimin!
Bu yükü daşımaq sənin borcundur. Təsəllini həyatdan almalısan!
Bax, o zaman Mir Sədi Ağanın ruhu sənə duaçı olacaq, ananın ruhu dinclik tapacaq.

**Adil Soltan oğlunun xatirəsinə ithaf edirəm**

Adil Soltanoğlu İsmayılov xoşbəxt bir ailədə - yazıçı, şair İsmayıl Soltanın ailəsində dünyaya göz açıb. Soltan kişi üç övladından biri olan oğlu Adil ilə xüsusilə fəxr edirdi. Çox sonralar anladım bunun sirrini...
Azərbaycanın cənnət guşələrindən sayılan Göyçay rayonunda dünyaya göz açan Soltan (ədəbiyyatda İsamyıl Soltan kimi tanınan) valideyinlərini çox erkən itirdiyindən, əmisinin himayəsi altında boya-başa çatır. Hələ bir yaşı tamam olmamış atadan yetim qalan Soltan, 8 yaşında anasını da itirir. Atasının yadigar qalmış bir fotosunu göz bəbəyi kimi əzizləyib saxlayan Soltan, bir gün bu yeganə fotonu da itirir.
Elə bil onun gələcəyi bu şəkildən asılı imiş. Çox axtarır, şəklin izinə düşə bilmir, qanadı sınmış quş kimi hiss edir özünü.
Soltan İsmayıl bu kədərli təsadüfü sonradan yeni yazdığı şeirlərindən birinin mövzusuna çevirməklə atasının surətini canlandırmış olduğunu düşünürdü:
Bir rəssama verdim şəkli, böyütsün,
Rəssamsa itirdi yeganə əksi.
Qoruya bilmədim o saf töhfəni,
Getmir qulağımdan atamın səsi, sanki deyir,
Sən ikinci dəfə itirdin məni.
Uzun illər keçsə də, bu ağrı Soltan İsmayıl ilə yaşamaqda davam edirdi.
Bir gün gözlərini yumub, xəyala dalarkən, balaca əllərin onun başını sığalladığını hiss edərək, gözlərini açanda, qarşısında gördüyü sima - oğlu Adili görür. Sevincək oğlunu bərk-bərk qucaqlayıb, öpüb, deyir: - “Sanki atam dayanmışdı qarşımda. Bəli, bu atamın surəti idi. Mən oğlumun surətində atamı tapdım. İtirdiyim və illərlə həsrətində olduğum şəklin canlısını tapdım”.
Ata sevgisindən, nəvazişindən doyunca bəhrələnməyən 24 yaşlı Adil atasını itirdiyini - bu ağrını çox illər unuda bilmədi. Sonradan illər uzunu anası Səkinə xanım nə qədər çalışsa da, atasızlıq onu üzürdü...
Adil ata sevgisindən az qidalansa da, onun yolu ilə getdi. Fərq onda idi ki, ata yazar, oğul isə yaradıcı oldu.
40 il Kinostudiyada çalışıb atası kimi yazarların əsərlərinə ekran həyatı verib, obrazlara nəfəs verdi. Kino onun idealı oldu. Çəkiliş meydanında o, hər şeyi unudurdu.

Adilin bizdən ayrılığından 1 il keçirdi. Məzarının üstündə daş kitabədə bu rəqəmlər yazılmışdı: 21iyun 1938 - 13 dekabr 2011-il. 73 il yaşasa da, doğum ilə ölüm arasındakı məsafə sanki bir göz qırpımını xatırladır.
Düz deyiblər ki, ölüm qaş ilə göz arasındadır.
... Soltan İsmayılın çap olunmamış əsərləri bu gün dövlət arxivində qorunub saxlanır. Sağlığında imkansızlıqdan çox işləri işıq üzü görmədi. Qaməti kimi özü də əyilməz idi. Hərdən həvəsdən düşüb həyat yoldaşı Səkinə xanıma şikayət edərdi. Amma yazdıqlarından ona oxuyanda və Səkinə xanım onu alqışlayanda, yenidən ilhama gəlir və yeni əsərlər yaradırdı. Sevdiyi həyat yoldaşının qəbri üzərində yazdırdığı bu sözlər də istəyindən irəli gəlirdi.
Həsrət hazır sınaqmış, Hicran mənə dağ oldu.
Səfərin nə uzaqmış, qara saçın ağ oldu.
Gözlərim sisdə çəndə, gəlsən də, gəlməsən də.
Valideyinlərinin 24 illik sevgi macaraları Adilin də ailə həyatında 23 il davam etdi.
Yazıçı Soltan İsmayılın ailəsində üç övlad dünyaya gəlsə də, onun həyat yoldaşı Səkinə xanıma olan məhəbbətini heç biri əlindən ala bilmədi.
Bu yaxınlarda İsmayıl Soltanın əl yazmaları ilə tanış olduqca, bir daha bu sevginin şahidi oldum:
Mən həyat görmüşdüm gözündə aydın,
Gecələr yoluma nur səpən aydın.
Nə şair olardım, nə bəxti qara...
Ah, sən olmasaydın, sən olmasaydın.
Yazdığı bu misralardan hiss etdim ki, Səkinə xanım da dəyərli olub bu məhəbbətə.
O, gözəl, nazlı, ərkəsöyün bir xanım olmaqla bərabər, çox sərt xasiyyətli olub.
Soltan kişi yazdıqlarını ona həsr edər, ilk oxucusu da xanımı olardı.
Onunla yaxınlıq edəndə Səkinə xanımın sərtliyinin bəlkə də belə həyat yoldaşını erkən itirməsindən irəli gəldiyini düşünürdüm. Axı indi onun nazını çəkən yox idi.
Özünün dediyi kimi: "Oğul da, qız da özü üçün. Mənim nazımı ancaq o rəhmətlik çəkə bilərdi" - deyib, dərindən ah çəkərdi.
Afaq və Gülər qızları erkən yaşlarında ailə qurduqlarından, Səkinə xanımın çaldığı hava ilə oynamaq oğlu Adilin payına düşmüşdü.
Beləcə vaxt keçir, illər ötür, hələ də keçən illərin abu-havası ilə yaşayan Səkinə xanım oğlunun evlənmək vaxtının keçdiyini hiss etmirdi. Düzünü desək, Adil özü də bu haqda düşünməyirdi. Yaradıcı insan olduğundan, ancaq sənəti ilə məşğul olur, qalan vaxtını isə anasına həsr edirdi.
"Azərbaycanfilm" kinostuduyasında kadr üzrə direktor müavini vəzifəsində işləyirdim. Bu nəhəng kollektiv elə bil ki, bir ailə idi. Hamı biri-birindən xəbərdar idi.
Deyilənlərə görə insanların ürəyini oxuya bilirəm. Bu xüsusiyyət mənə irsən atamdan keçib.
Adil Soltanoğlu İsmayılov mənim istədiklərimin, hörmət bəslədiklərimin siyahısında idi. Söz düşəndə zarafatla deyirdim ki, Adil, səni mən evləndirəcəyəm.
Qismət elə gətirdi ki, qardaşım qızı Gülarə ali məktəbə daxil olmaq üçün iş stajı

yığmalı olduğundan "Azərbaycanfilm" kinostudiyada montajçı vəzifəsində işləməli oldu.
Düz deyiblər ki, qisməti ilahidən, hərəkəti bəndədən gözlə!
Adil rejissoru olduğu "Hündür səma" filmində Gülarə ilə işləyərkən, bu film onların sevgi macaralarının başlanğıcına səbəb oldu. Elə bil bu filmdə işləyərkən hər ikisi səmaları aşırdılar.
Aralarında 17 il yaş fərqi olmasına baxmayaraq, 1980-çı ildə qurduqları ailə çoxlarına nümunə oldu. Səkinə xanım qaynana rolunu "çox yaxşı" ifa etsə də, Adil onların hər birinin yerini bilir, hər birinin ayrılıqda nazını çəkirdi.
Ailəsi üçün çox can yandıran oldu Adil. Mədəniyyəti, tərbiyəsi, ailəyə isti münasibəti, qohumların yerini bilib, dörd baldıza qardaş olması onu hamıya sevdirdi.
Beləcə Adil ilə Gülaranın 30 il yaşadıqları ailə həyatı bir əfsanəyə çevrildi. Adil Gülarə üçün nə qədər əziz oldusa, Gülarə xanım da çalışıb nümunəvi həyat yoldaşı oldu onun üçün. Hər yerdə bir oldular. Çətin günlərində biri-birinə dayaq oldular. Sözün əsl mənasında sözləri biri-birinin boğazından keçirdi. Adilin bir mənfi cəhəti var idi, çox qısqanc idi. Onun bu xasiyyəti Gülarə xanımı boğaza yığsa da, onun tərəfini heç vaxt vermir, hətta bundan xoşhallanırdı. O, bunun - məhəbbətin nəticəsində yarandığından irəli gəldiyini düşünub, artıq buna adət etmişdi.
... Neçə illər idi ki, Adilin yaşaması üçün apardığımız mübarizədə hamımızın iştirakı oldu. Biri maddi, biri mənəvi cəhətdən, biri ürəyilə, biri həkim ixtisası ilə, biri isə həyatı və cavanlığı ilə çalışdı onun sağlamlığı naminə. Bir sözlə, hər zaman, hər yerdə, hərə bir məhəbbətlə istəyini Adilə bildirirdi. Bütün bunlar hamımızın ona olan istəyi, onun isə hörmətçil olmasından irəli gəlirdi.
Adil çox mülayim, istiqanlı, tərbiyəli olsa da anası kimi sərtliyi də var idi.
Düz deyiblər ki, ər ilə arvadın xəmiri bir yoğurulur. Yaş fərqləri çox olsa da, biri-birinə çox yaraşırdılar.
Adil əla keyfiyyətli həyat yoldaşı və ata oldu. Baldızları ona atalarının vəfatından sonra ata gözü ilə baxırdı. Adil bu ailəyə kürəkən kimi daxil olanda, kiçik baldızı Samirənin 4 yaşı var idi.
Çox çətindir belə bir insanı itirmək. Tibb elmi nə qədər inkişaf etsə də, əcəl öz işini görür.
İndi Gülarə şəklinə baxıb, onunla keçirdiyi uzun illəri yada saldıqca, sızlayır. Ona demədiklərini ürəyində bir-bir pıçıldayır. Adilsizliklə barışa bilməyir.
Son vaxtlar Adil xəstə yatsa da, Gülara onun həyatının sonu olduğuna inanmırdı. Heç bir yerdə qərar tutmurdu, evə tələsirdi, onun yanına. Adilsiz hara getsəydi, evdə körpəsini qoyan anaya bənzəyirdi. Heç onu tək qoymaq istəmirdi nə cavanlığında, nə də sonralar. Mən onları Leyli-Məcnun adlandırırdım. Belə məhəbbət az olur. Onların belə münasibətləri təmizliyin, saflığın rəmzi idi.
Nə yaxşı ki, Adil özündən əvəz bir oğul, bir qız övladı yadigar qoydu bu dünyada.
Adil İsmayılov 50 ilə yaxın kino sahəsində Fərhad kimi külüng vurub, dağ yarıb. Birinci kateqoriyalı rejissor olaraq işlədiyi 30-a yaxın filmlər onun yaradıcılıq yolunun təsdiqidir.

Çəkdiyi filmlər siyahısında:  Bir qalanın sirri, Bizim küçə, İnsan məskan salır, “Liftçi qız”, “Mən ki gözəl deyildim”, “Nəsimi”, “Skripkanın sərgüzəşti”, “Hacı Qara”, “Güllələnmə təxirə salınır”,”Yarasa”,  “Sarı gəlin”, “Ailə”  və başqaları olub.
Çəkiliş zamanı o, hər şeyi, hətta varlığını belə unudurdu.
”Biz qayıdacağıq” filmi Qarabağ hadisələrini müşayət edirdi. Bu filmin çəkilişində o, hadisələri qəlbən yaşayırdı.
Respublika Prezidentinin Sərəncamına əsasən Adil Soltanoğlu İsmayılov - Əməkdar İncəsənət xadimi adına layiq görüldü. O, Kino İttifaqının və Rejissor Gildiyasının üzvü olub.
Adil mədəniyyəti və mehriban davranışı ilə daima bizim və onu sevənlərin qəlbində yaşayacaq.  Bu onun həyatda ən böyük qazancıdır desəm, yanılmaram.
**01 fevral 2012**

## Bizə kədər üz verdi

Ailəmizə dərin kədər üz verdi. Bu il fevralın 9-da ailəmizin istəklisi, hər birimizin qəlbində xüsusi hörməti olan Vahid Ələkbərov qəflətən dünyasını dəyişdi. İsmayılovlar ailəsinə bir quda kimi daxil olan bu insan tez bir zamanda özünü hamımıza sevdirdi. Vahid müəllim bu ailəyə dir qayaq oldu, kürəkəninə olan məhəbbəti dastana çevrildi.
Bu yaxınlarda İsmayılovlar ailəsində baş verən itki zamanı Vahid müəllimin canfəşanlığı heç kimin gözündən qaçmırdı. Atasını itirmiş kürəkəninə dayaq olub, ata olacağına söz verdisə də, fələk qoymadı.
Vahid müəllim cərrahi əməliyyat keçirdikdə həyəcan hamını bürüsə də, inamlı idik onun yaşayacağına. Çünki o yaşamalı idi.
Böyüyə də, kiçiyə də eyni münasibət, eyni istilik – bu insanın ən möhtəşəm əlaməti idi. Yaxşıyam, yaxşıyam –deyib, zarafatlarından qalmırdı.
Mənə uşaqların dililə - bibi deyib, müraciət edirdi. Böyüklə böyük kimi, kiçiklə kiçik kimi rəftarı unudulmazdır.
Ali savadlı arxitektor kimi neçə-neçə binalara, daşlara nəfəs verdi Vahid müəllim. Binalar qaldı. Amma...
Onun hələ nə yaşı var idi ki, hələ o yaşamalı, yaratmalı, ən azından sevdiyi ailəsi üçün yaşamalı idi. Amma, nə etmək olar, düz deyiblər ki, sən saydığını say, gör fələk nə sayır.
Əlbəttə hər bir canlı və hətta cansızlar da fələyin əlindədir. O isə nə yaşa baxır, nə vəziyyətə.
Onunla bir toy və ya şənlikdə iştirak etmək özü bir aləm idi. İstəsən də, istəməsən də onun sevincinə qoşulduğunu, sözün əsil mənasında onun çaldığı hava ilə oynadığının şahidinə çevrilirsən. Şən zarafatı ilə hamıya xoş əhval ruhiyyə bəxş etməyi bacaran Vahid müəllim bu gün artıq aramızda yoxdur. İnanıram ki, hər birinin bu İnsan haqqında həyata keçirmədiyi düşüncələri və arzuları yarımçıq qaldı.

Çox hörmət bəslədiyimiz Vahid müəllim! İstəsək də, istəməsək də, çox çətin də olsa, bu gün aramızda yoxsuz. Çox çətindir bizim üçün, ailən üçün. Üç qız övladın və həyat yoldaşın Gültamam xanım Səni deyib, ağlayacaq, axtaracaq. Biz isə xoş xatirələrlə hər zaman Sizi yad edəcəyik.
Nə yaxşı ki, gözəl ailə, istəkli həyat yoldaşın, Fidan, Tükəz və Sevda kimi qızların var. Deyirlər ki, yad qğlar, yalan ağlar, ana, bacı düz ağlar.
Vahid müəllim! Sizi hamı deyib ağlayacaq. Çünki qazandığınız hörmət bunu bizdən tələb edir.
Ailənizə, qohumlarınıza başınız sağ olsun deyib, Allahdan Sizə rəhmət diləyirik.

09.02.2012-il.

ŞƏHİDLƏRİMİZƏ HƏSR OLUNUR

## MİLLİ QƏHRƏMAN ANASI

İnsanın canı – Allah – Taalanın ona verdiyi bir əmanətdir (Quarnı Kərim). Nə vaxt rəva bilsə, onu qaytarmaq vacibdir.
Adətən bütün naqıllar belə başlayır: – Biri var idi, biri isə yox idi!...
Amma mənim yazacağım nağıl deyil, bu bir ananın balaya olan sonsuz məhəbbət əfsanəsidir – hekayədir.
Şəhidlər xiyabanında bir məzar diqqətimi xüsusi cəlb edirdi. Sözü gedəcək ananı tez-tez Fəxri Xiyabanda qızının məzarı önündə gördükcə insanı kədər böğur, o isə vaxtın necə keçdiyini hiss etmir. Yanındakı balaca- şıltaq nəvənin isə böyüyüb ləyaqətli bir azəri xanımına çevrilməsi öz axarı ilə gedirdi. O, sanki baharda çiçək açan bir ağaca bənzəyirdi – nənənin gözündə. Bu Rəfiqə ana ilə Əminə nəvə idi. Əsgərovanın anası və qızı. Elə oxuyacaqlarınızı da bu üçlüyə həsr edirə m.
...Yenə Fəxri xiyabanda gördüm onu. Qızını deyib-ağlayan ananın birdən sakitləşdiyini, balaca qızcığaz ilə danışığını eşidəndə, heyrətdən yerimdə dondum. Qulaq günahkarı olub, bunları eşitdim: -“Ay nənə, nə istəyirsən bu daşdan, gör nə vaxtdır elə hey ağlayırsan. Nə istəyirsən bu daşdan, gedək evə, qaş qaralır, anam gələ bilər, qapı da bağlı”.
Əminə böyüyəndə bu sözlərin varlığını duyanda, həqiqəti dərk edəndə nələr olacaq? ... Axı 7 yaşlı Əminənin ölüm haqqında heç bir anlayışı yox idi.
O, düşünürdü ki, həyat sonsuzdur. Hər dəfə Əminə balanın, “ay nənə, anam harada qaldı, gəlib çıxmadı”? – suallarına nənə uydurma nağıllar danışar, biri vardılar, biri yoxdular bitməzdi. Bəlkə də nənə əlacsızlıqdan onu anasızlığa hazırlayardı.
... Sanki bir gün məktəbdən qayıdan Əminə göz yaşları içində -nənə, mənim anam “Milli Qəhrəmandır”? – sualını verndə, Rəfiqə ana bir qədər öznüdə cürət toplayıb,

bu sözləri deyəcəyinə hazırlaşırdı: - “Ay bala, dövlət hər adama belə yüksək ad verməyir. Öyün ki, sən milli qəhrəmanın qızısan”!
Qızının məzarı üstündə dayanan, daşa dönmüş bu sönük simada daha nələr oxudum...
Deyirlər ki, uca dağları qar bürüyəndə gözəl görünür. Rəfiqə xanımın ağ saçlarının çox böyük tarixi var. İllər ötdükcə, qara saçlı ananın hər bir telinin göz qabağında ağardığının şahidlərindənəm. Saç da dözmədi bu dərdə... vaxtsız ağardı Qəlbi daşa dönmüş Rəfiqə xanımın yalnız üzündəki nur – onun keçmişindən qalan bir yadigardır. Bala dərdi ona dözməyi öyrətdi - Rəfiqə xanım Əsgərovaya -şəhid anasına!
Biz Allah deyilik ki, nə baş verəcəyini əvvəldən biləK. Biz Allahın dözümlü bəndələriyik, daima onun itaətindəyik.
.... Bu hekayə bala dərdindən üzülən bir xanımdan, bir anadan bəhs edir.
Həyatı maraqlı bir romana oxşayan bu ana, qeyri - adi bir Allah bəndəsidir.
Onun bu dərəcədə mərd olduğunu bilmirdim. Düşünürəm ki, müəllimlik peşəsi ona bu yolda kömək oldu.
... Rəfiqə xanım hələ institutda işləyərkən yaratdığı zəngin kitabxana bu gün də respublikanın maarif işlərində çox yararlıdır. Bəlkə ömrünü axtarışlarda yaşamağı üstün tutan Rəfiqə xanım başına gələn dəhşətli hadisədən sonra da “Metodik tövsiyyələr”in sayını artırdıqca, bala yükünü yüngülləşdirməyə çalışır, deyə düşünsəm də, bu fikrimdən vaz keçdim.
Rəfiqə xanım ali məktəbi bitirdiyi zamandan tərbiyəçi – metodist vəzifəsində çalışıb, neçə-neçə müəllimlərin biliklərinin təkmilləşməsində fəal rol oynayıb.
Loqoped ixtisasına yiyələnən Rəfiqə xanım uşaqların nitqinin düzgün tələffüz olunmasına çalışmaqla bərabər müəllimlərin pedoqoji ustalıqlarının təkmilləşməsini də təşkil etmişdir. Bir sözlə, o, daima axtarışda olub.
Uşaqlarda danışıq tərzinin inkişafı, məhz rabitəli nitqin inkişafı - onu hər zaman düşündürürüb. Məhz bu səbəbdən Rəfiqə xanım dissertasiyasını da “Rabitəli nitq” anlayışına yönəldib. O, uşaqlarə təbiətin həssas varlığı adlandırır. Düşündüm ki, buna səbəb nədir? Cavabı onda tapdım ki, bütün övladlar ana üçün ən əziz varlıqdır. Rəfiqə xanımın əzizi Gültəkin qizi kimi.
Bir qədər keçmişə qayıdıram... Balaca Gültəkin o biri bacılarından fərqli olaraq həkim olmaq arzusunda idi. Həkimlik ixtisasına müqəddəs peşə kimi baxıb, insanlara xidmət edəcəyini, onların sağlamlığı uğrunda çalışacağını düşünürdü. Amma əhalinin dinc asayişinin nə vaxt isə pozulacağını və özünün bu proseslərdə iştirak edəcəyini heç ağlına da gətirə bilməzdi.
Artıq Tibb institutunun tələbəsi ikən Gültəkin xəstəliklərin müalicəvi möcüzələrindən anasına danışarkən, Rəfiqə ana xəyalında onu gah bir alim kimi təsəvvür edir, gah da elə bil böyük kürsülərdən çıxış edən səsini eşidirdi. Çünki Gültəkin bu peşənin elmi sirrlərini öyrənəcəyini məqsəd qoymuşdu qarşısına. Buna inanan Rəfiqə ana Gültəkinə hələ Tibb İnstitutunun birinci kurs tələbəsi olarkən ərkyana :- “ay elmlər doktoru”- deyə, müraciət edirdi.
3-4 kursda oxuyan qızı haqqında başqaları ilə danışarkən, mənim qızım elm ardınca gedəcək, deyib, öyünürdü. O zaman Rəfiqə ana özünü və övladını irəlidə nə kimi dəhşətlər gözlədiyini ağlına gətirə də bilməzdi. Arzularla yaşayan ana

məhz belə olmalı idi.
Amma bütün bunlara baxmayaraq, Rəfiqə ana qızının gecə yarıyadak mütaliədən ayrılmadığını görüb, - çırağı keçirib,- "Bəsdir oxudun ay qızım, gözlərinin kökü saraldı"- deyirdi.
Xəyallara uyan Rəfiqə xanım öz gözlərinin kökdən düşdüyünü hiss etməyib, kaş mən öləydim, balam sağ qalıb, övladına sahib çıxaydı – deyə düşünür...
Rəfiqə nənə - qızının yeganə yadigarı Əminə nəvəsinə baxıb, Gültəkini görürmüş kimi sevinir, onu sinəsinə basanda, ətrinin qoxusundan bihuş olur. Birdən ağlını itirmiş kimi nəvəni özündən kənarlaşdırır... Yox-yox, bu Gültəkinimin qoxusu deyil... Bir anlığa huşunu itirib, nə edəcəyini bilmir.
Belə hallar çox keçirib Rəfiqə xanım...
Rəfiqə ana xəyalən tez-tez Gültəkinin məktəb illərinə qayıdır. Onu lap kiçik görmək istəyir. Sanki beləcə onu qoruyub, saxlayacağını düşünür...
Yadına düşür... Bir gün Gültəkin məktəbdən qayıdanda , çox hirsli idi. Səbəbini söyləmədi. O gecə nigarançılıqdan yata bilmədim. Ertəsi gün məktəb direktoru mənə şikayət etdi ki, hansısa bir şagirdin qiymətinin aşağı düşməsinə etirazını bildirmək Gültəkinin haqqı deyil. Rəfiqə ananı bu məsələ çox düşündürür.
O,bilirdi ki, qızı Gültəkin haqq tərəfdarı idi. Qqatı düşmənlərimizə bilməyərəkdən "hörmət bəslədiyimiz" və müəllimlik edən birisinin haqqa - ədalətə arxa çevirdiyini o hələ uşaq ikən hiss etmişdi. Məyər bu günahmı sayılır?
Üsyankar təbiətli qiz – Gültəkin elə bil Qarabağ müharibəsi üçün dünyaya gəlmişdi. Kiçik yumruğa bənzər ürəyində qarabağ odu-alovu yanırdı balaca Gültəkinin.
Rəfiqə ana yenə xəyallara dalır... Yadına düşür: - Artıq Gültəkin ali savadlı həkim idi. 1991-ci ildə noyabrın 20-də Azərbaycanın 11 qüdrətli oğullarının Ağdama uçuşu zamanı vertalyotda qəzaya uğramaları - Gültəkinin ad gününü təqvimdən çıxarmasına səbəb oldu. Hadisə onun 31 yaşı tamam olan vaxta təsadüf etmişdi.
Yox! Mən bir daha ad günü keçirməyəcəyəm! – deyə o, qət etdi! Gütəkinin doğum gününün və bu faciənin noyabrın 20 –nə təsadüf etməsində fərq yalnız illərdə idi.
Belə bir faciəni yaşayan Gültəkin, bir il sonra öz başına gələcək dəhşətli hadisələrdən tamamilə bixəbər idi.
Sonradan Gültəkinlə bağlı baş verəcək hadisə onun bütün yaxınlarının ad günlərini qeyd etməyəcəklərinə qərar verəcəklərini Rəfiqə ana o zaman heç ağlına da gətirə bilməzdi.
1992-ci il 20 yanvar faciəsi - Gültəkinin odlu-alovlu qəlbində ikinci sağalmaz yara oldu. Bu tarix onda olan vətənpərvərlik, vətəndaşlıq hisslərinin daha da artıb-coşmasına bir təkan oldu. Rus –sovet quldur bölmələrinin Bakıya hücümü zamanı dinc əhalini güllə yağışına tutmaları, Gültəkin Əsgərovanın həyatında bir gözlənilməz tufana çevrildi. Vətən sevgisi onu baş verən hadisələrdən yan keçməməyə tuşladı!
"Tale" deyilən bir anlam var. Bəziləri onu "qismət" və yaxud "alın yazısı" adlandırır. Allah tərəfindən qüvvədə olan bu "taleyi və qisməti"- heç bir qüvvə nə yaza bilər, nə də poza bilər.
Bax, elə bu tale Gültəkinə təkan verdi! Və o, vətənə xidmət etdi!
... Yanvarın 20-də axşam növbəsini bitirib, bir çoxları kimi o da evinə qayıtmalı

idi. Amma... Gültəkin həkim hadisə baş verən dəqiqələrdə iş yerinə - Musa Nağıyev adına "Təcili Tibbi Yardım" xəstəxanasına qayıdıb, bədənləri düşmən gülləsindən paralanmış xəstələrə yardım göstərdi.
Belə bir hərəkəti ancaq vətən eşqi ilə yaşayan, vətənin qədrini bilən insan edə bilərdi. Gültəkin kimilər!
Yaralılara arxa oldu, ana – bacı oldu – O! Elə bu qüvvə, vətənə bağlılıq, vətən sevgisi Gültəkinin həkim kimi döyüşlərdə iştirakına səbəb oldu.
Belə döyüşlərin birində Şuşa batalyonunun komandiri şəhid Ramiz Qəmbərovun silahını Gültəkin həkim özü də hiss etmədən əlinə götürdü. İndi Gültəkin özünü mərd bir kişi kimi hiss edirdi. Əlinə aldığı silah elə bil ona güc verib, vətənini dşmənlərdən xilas etməyə yönəltdi.
Beləcə həkim Gültəkin – döyüş leytenantına çevrildi. Körpə balasını anasına tapşırıb, döyüş bölgələrinə yola düşərkən, Rəfiqə ananın sözləri onu daha da ruhlandırdı: "get qızım, uğurla qayıt! Görünür alın yazın "Vətəni sev, onu qoru"! – olub. Amma bu sözləri deyən ananın ürəyi çox narahat olsa da, yolunu kəsmədi. O, bilirdi ki, Gültəkin qəbul etdiyi qərardan dönməyəcək.
Elə bu son görüş oldu. Rəfiqə xanım, Sən öz dualarını etdin, amma balandan ayrılacağını duymasan da, üç dəfə onu geri qaytarıb, bərk-bərk sinənə sıxdın. Hiss etmədən o zaman sən südünün halallığını verdin övladına.
Rəfiqə xanım! Həyata belə övlad bağışladığın üçün azərbaycanın bütün anaları qarşısında baş əyir. Sənə, şəhid balana "başın sağ olsun, vətən uğrunda həlak olan milli qəhrəmanımız hər zaman millətimizin qəlbində yaşayacaq" – deyir!
Rəfiqə xanıma təsəlli vermək çox çətindir. Təsəlli üçün söz tapmaq hər bir insanda çətinlik yaradır.
Gültəkin Əsgərovanın – Bakıya gətirilən cəsədinin bir qismi həlak olmuş döyüş nöqtəsində - Aranzəmin yüksəkliyində Milli Ordunun əsgərləri tərəfindən torpağa tapşırıldı.
Vətənpərvər vətəndaşın vətən daşında- vətən torpağında iki qəbri– bu şəhidliyin ən uca zirvəsidir!

Baş daşına söykəmisən üzünü
Göz yaşına öyrədirsən gözünü
Sənsizliyə öyrədirsən özünü
Sənsizliyə inanmaya - inanmaya

Rəfiqə ana! Siz çox dözümlü oldunuz və bu dözümlüyünüz ilə Şəh övladınızın adını bir daha ucaltdınız. Bu hər qadının-ananın hünəri deyil. Bunu edən siz –nər kişi – Rəfiqə ana oldunuz. Qüdrətinizə,toplaya bildiyiniz qüvvəyə qibtə etmək olar.
.. **G**ültəkinin Bakıya gətirilən polad tabutunu qucaqlayıb, haray çəkəndə göz yaşların qurudu. Nitqin tutuldu, huşunu itirdin. Gözlərini açanda Əminənin heykələ oxşar sifətini görəndə - yaşamalıyam, mütləq yaşayıb, Gültəkinin yadigarını yaşatmalıyam!- deyə qərar verdin! Belə də etdin! Güc toplayıb, həyata sinə gərə bildin! Alim nəvə böyütdün!
Bu gün Əminənin təhsildə qazandığı uğurlar Sənindir, Gültəkinindir!
Hərbi həkim, jurnalist Məleкə Səmanın, Gültəkin Əsgərova haqqında **"Şəhid çələngi"** başlığı altında yazdıqlarını oxumaq insanda bir gərginlik yaradır:
... Gültəkini tanımaq olmurdu. Onun düşmən mərmisindən dağılan bədəninə

baxmaq qeyri - mümkün idi. Paralanmış əzalarının hər tikəsindən elə bil bir çələng boylanırdı.
Axı Gültəkin gülləri- çiçəkləri çox sevirdi, əzizləyirdi. Adı gül ilə başlayan qız xoşbəxt idi. Dərdi - səri yox kimi böyüdükcə, insanları sevir, onları gülə bənzədirdi. Qızıl gülü çox xoşlamırdı, tez solduğuna görə. Heç vaxt təsəvvür edə bilməzdi ki, şəhid kimi uyuduğu məzarını Rəfiqə ana qızıl güllərə qərq edəcək. Gültəkin gül kimi erkən saraldı-soldu ...
İndi Məleykə Səma – Vətən uğrunda solmuş Gültəkini deyib, ağlayır... Qəlbindəki sözlərindən qələmlə çələng bağlayır həmkarı – rəfiqəsi üçün.
Rəfiqə ana-nənə bu gün 30 yaşlı alim Əminəyə baxır, keçmişləri unutmaq istəsə də, bacarmır. Hadisədən 21 il keçsə də, o, yenə də 31yaşlı, gülərüzlü Gültəkini görür.
...Şəhidlər xiyabanına üz tutur. Onun yoxluğunu bilə-bilə ora üz tutan ana, sanki özünü aldadır. Məzarını görəndə huşunu itirən Rəfiqə ananın gözləri önündə sanki indicə gətirilmiş polad tabut dayanır. Təlaş içində olan ana bir an düşünür: qızım sağdır, bəlkə bu bir yuxudur?...
...Yenə xəyallar, yenə düşüncələr, yenə bəlkələr... 8 yaşlı Əminə nənəsindən soruşur: - Sən hər gün kimi ağlayırsan, nənə? Qoy anam gəlsin! Hər şeyi ona danışacağam. Bilirsən ki, o, heç vaxt razı olmayıb sən göz yaşı axıdasan.
Özündə güc toplayıb, nəvənin dediklərinin varlığına getməyib deyir: - Anan qayıdacaq, bala! Qoy müharibə qurtarsın!...
Ürəyində isə düşünürdü: - Axı belə bir misal da var- zaman özü müalicə edir. Əminə həqiqəti nə qədər gec başa düşsə, bəlkə mənim üçün yüngül olar onun saysız-hesabsız suallarını cavablandırmaq? Nə deyim bu körpəyə, necə deyim ki, indi sənin adın yetimlər siyahısına düşüb. Anan şəhid olub, bala!
1993-cü il noyabrın 20-də Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin verdiyi Sərəncam ildırım sürətilə Azərbaycana yayıldı.
**“ Müharibədə göstərdiyi igidlik və şücaətə görə tibb xidməti baş leytenantı Gültəkin Əsgərovaya Milli Qəhrəman Fəxri adı verilsin”.**
Gültəkinim Milli qəhrəmanlar cərgəsindədir! Bu qərardan təskinlik tapan Rəfiqə xanım nə edəcəyi haqda düşünərkən, balaca Əminə heç bir şey olmamış kimi “Vətənə sevgi” şerini əzbərləyirdi. Şeirdə deyilirdi, neçə illərdir ki, ağır xəstəliyə düçar olmuş bir qadın, torpaqların geri qaytarılmasını eşidib, ayağa qalxır. Şeiri dinləyən Rəfiqə ana ürəyində düşünürdü – kaş qəhrəman qızımın sağ qaldığını eşidəydim. O, Allahdan möcüzə göstərməyini diləyirdi hər axşam. Hamı yatanda, Rəfiqə ana dərin düçüncələrə dalırdı.
O gündən Rəfiqə anaya ağır da olsa, şəhid anası, milli qəhrəman anası – deyə müraciət edirlər. Nə qədər şərəfli olsa da, bir o qədər də çətin müraciət!...
Rəfiqə xanım qaysaqlanmış yaranızın göyüntüsünü təzələdiyim üçün üzr istəyirəm... Dərdinin ləkəsini təzələdiyim üçün bağışla məni...
Sinəsinə övlad dağı çəkilən minlərlə analardan biri – Rəfiqə ana -övlad sevgisinin qədərsizliyini aşkarlayır. Balan şəhid olandan yuxun ərşə çəkilib, yuxunu özünə haram bilirsən.
Müharibə sinənə böyük dağ çəkdi, belinə ağır üyk, boynuna nəvə zəhməti qoydu.

Atalar: “Bala qozdur, nəvə isə ləpə” – desə də, amma hər birinin öz yeri var. Gültəkinin yerini ürəyində tutan olmadı. Boş qaldı. Belə bir deyim də var ki, hər tikənin öz dadı var.

**...** 5 yaşlı Gültəkin qızının boğazında toyuq sümüyü qalanda, dediyin sözləri hər zaman xatırlayırsan: “Ay bala, dərdin mənə gəlsin. Sənə heç nə olmasın”.

Hər bir ana övladının hətta burnunun ucunun belə qanamasını istəməz...

Rəfiqə xanım! Qüvvəli və qüdrətli qadınsan! 28 yaşından dörd övlad böyüdən dul qadın! Səni həyat o zamandan sınağa çəkir.

Sadəcə sən bunlara özün də hiss etmədən alışdın.

“Şəhid anaları” Xeyriyyə mərkəzini yaratdın ki, yüngülləşəsən. Dərdli anaları bir ictimai qurumda birləşdirmək oldu məqsədin.

Vətən tarixi ilə bağlı faktlar silsiləsi yaratdın. Şəhid Anaların köməyinə çatdın. Güc tapdın özündə. Səsin Pekindən, İstanbuldan, Londondan gəldi. “Sülh, ailə və uşaq tərbiyəsi” mövzularında dövlətçiliyimizin müdafiəsi, müstəqilliyimizin qorunması istiqamətində apardığın işlər 20-ilə yaxındır ki, davam edir.

Mübariz qadın!

Müəllifi olduğunuz **“İllər,hadisələr, görüşlər, xatirələr”** adlı kitabınızı oxudum... Ana yaşadığı ömrün bir parçasını, Vətənin tarixi dönəminin kiçik bir yazılanlara.

Qadın, Tərbiyəçi, Alim, İctimai xanım, Şəhid anası! Bunların hamısı Rəfiqə xanımın simasında cəmlənmişdir.

Düşündüm, dərdinə şərik olmağa çalışdım... Bacarmadım... Üzü gülən, qəlbi daşa dönmüş anaya arxa olmaq olarmı? Heç vaxt! Çünki daş yaşamır. Daş - kitabələrə çevrilib, tarixləşir. Rəfiqə xanım! Agah ol ki,şəhidlər heç zaman unudulmur. Əyər unutsaq, unudularıq!

Qurani-Kərimdə deyildiyi kimi : “Allah yolunda şəhid olnalara – ölü deməzlər”. Gültəkin Əsgərova hər bir ailənin üzvüdür. Taleyi belə gətirdi – bax, bu olmalıdır amalın! Rəfiqə xanım!

Vətən dara düşəndə, haray vurub, at belinə qalxan - **Həcəri**, dağlarda külüng vuran mərd - **Şirini,** sevginin və qanunların qurbanı olan -**Leylini** yaşatdı **Gültəkin.**

Qarabağın üstünü qara buludlar alanda, Gültəkin kimi şəhidlərimiz haray çəkib. Onlaarın torpaqdan-daşdan gələn əks sədaları, bu gün də vətən oğullarının səsi hələ kəsilməyib : Oğul, hey!... Oğul, hey! ...

Rəfiqə xanım, Siz torpaqlarımızın geri qaytarılmasını -bu qələbəni xüsusi bayram edəcəksiz. Çünki Vətən uğrunda Sizin Şəhid payınız – ciyər-paranız var! Gültəkin Əsgərova kimi!!!

## QARATELİ DEYİN, AĞLAYIN

Hələ 1994-cü ildə Ulu Öndər Heydər Əliyev televiziya ilə çıxışında demişdir: “... Qazaxda Qaratel adında bir qız vardı, düşmən əlinə sağ keçməsin deyə özünü öldürmüşdü. Bax, əsl milli qəhrəman adı o xanıma layiqdir. ”

Qazaxın Əskipara kəndində döyüşlər gedirdi. Əsgərlərə ana kimi qayğı göstərən Qaratel də hücuma keçirdi...
1994-cü il iyunun 14 idi. Səhər tezdən ermənilər rus qoşunlarının köməyi ilə növbəti güclü hücuma keçdilər.”Fərəməz” deyilən təhlükəli mövqeni taqım komandiri Yaşar Qasımov idarə edirdi. Hər tərəfdən top, tank atəşinə tutulan bu mövqenin silah sursatı tükənirdi, başqa səngərdən qranatamyot mərmisini gətirmək lazım idi. Komandir bu haqda fikirləşməyə macal tapmamış, məlumatlandı ki, silahları gətiriblər. O,heyrətdən yerində donub qaldı. Bu çətin tapşırığı heç bir əmr gözləmədən Qaratel yerinə yetirmişdi.
Döyüş davam edirdi. Düşmənlə bizimkilərin düvvəsi qeyri - bərabər olduğundan onlar döyüşə - döyüşə geri şəkilməyə məcbur oldular. Vəziyyətin gərginləşdiyini görən komandir Qaratelə səngəri tərk etməsini və hətta kənddən çıxmasını əmr etməsinə baxmayaraq o, əmrə itaət etmədi. Döyüşçülər pərən-pərən düşsələrdə də, döyüşü davam etdilər.
Taqım komandiri Yaşar Qasımov, əsgərlərdən Surxay, Aleksey və Vəli taxıllığın içində 3 gün mühasirədə qalırlar. Aralarında yaralı olsa da min bir əziyyətdən sonra xilas olurlar.
... Qarqtel geri çəkilmir, mövqeyini dəyişir. O, Mərdanla birlikdə döyüşürdü. Əskipara onların gözləri önündə yanırdı. Bir erməni Vəli Namazovu yerə yıxıb, şücaətlə yanan kəndə baxmağa məcbur edir. Birdən erməninin ratsiya ilə olan danışığı Vəlinin diqqətini cəlb edir. O deyir: “Bir əcnəbi qadın sağdır. Onu diri tutun.”
Atışma xeyli davam edir, Qaratelin bərkdən, tük ürpədici qışqırığından sonra, sakitlik hökm sürür. Bu Qaratelin özünü öldürməmişdən əvvəl son fəryadı idi! Onun ölüsündən də əl çəkməyən düşmən, cəsədi qan içərisində olan Qaratelin saçlarından sürüyüb, əsirlərdən birinə göstərib soruşur – bunu tanıyırsan? Vəli kişi cavab verir ki, kəndimizin qızı Hava Seyidovadır.
Qaratelin cəsədi beləcə xilas olur. Əyər erməni Hava Seyidovanın Qaratel Hacımahmudova olduğunu bilsəydi, onun əsir düşmüş cəsədindən də intiqam alardı. Çünki onlar döyüşkən, qurd ürəyi yemiş Qaratelin axtarışında idilər. Qəhrəmanlığı ilə onlara qan uddurmuş Qaratelin.
Qazaxın Əskipara kəndinin ələ keçirilməsi təhlükəsi qarşısında ikən Qaratel ermənilərlə ratsiya vasitəsilə danışığı zamanı:- “Bu kəndi mənim meyidimin üstündən keçəndə ala bilərsiz”-demişdi. Bu belə də oldu!
...Əskipara kəndində cavanlardan ibarət könüllü özünümüdafiə batalyonu yaradılmışdı. Vəziyyətin pisləşməsilə əlaqədar qadın və uşaqları kənddən çıxarmaq qərara alınmışdı.
... Qaratel, əyər düşmən əlinə keçərsə köynəyinin yaxalığında gizlətdiyi zəhəri dar günündə istifadə etmək məqsədilə daşıdığını döyüş yoldaşlarına dəfələrlə söyləmişdi.
Son döyüş zamanı ona yaxınlaşmaqda olan ermənilərə əl qumbaralarını atdıqdan sonra dar günü üçün gəzdirdiyi bu zəhərin badəsini Qaratel Hacımahmudova 199.... iyunun 14-də içməli olur. Bununla yararlanmayan Qaratel daha dəhşətli bir üsula da əl atır, özünü güllələyir.

Məqsəd bir idi ! Düşmənə bir tikəsi də qismət olmasın namuslu, qeyrətli Vətəv qızı Qaratel Hacımahmudovanın.
... Əskipara kəndinin qəbiristanlığındakı məzarın qarşısında için-için ağlayıb, fəryadı ətrafı bürüyən qadını tanıyıb yaxınlaşan orta yaşlı kişi deyir: - Ay qızım, səsini çox ucaltma, ətraf düşmənlə mühasirədədir. Yaxşı olar ki, kənddən çıxıb gedəsən, nə qədər başın salamatdır. Bilirsən ki, axtarışdasan.
Qadın başını qaldırmadan dedi: - Heç vaxt qardaşım Məhəmmədin qəbrini qoyub getmərəm. Şəhid olsam da, yurdumda olacağam!
Qoca bu inadkarlıqla deyilən sözlərdə onun Vətənə sevgi , doğma yurda məhəbbət , ailəyə olan doğmalıq hiss etdi!
Məhəmməd cavan yaşında dünyasını dəyişərkən, ailə qurmayacağına və həyatını qardaşının üç övladına həsr edəcəyinə söz verən qəhrəmanımız, saçlarını erkən ağardan Qarqtel idi.
Qaratel o günü evdən çıxarkən tək səbir gətirəndə ürəyinə danmışdı ki, bu səbir onu qəbrə aparacaq. Bu belə də oldu.
Yuxu gördüyü günün ertəsi Əskipara – onun doğma yurdu düşmənin gülləsinə tuş gəldi.
Bu vətənpərvər qızın başını ələ keçirənə ermənilər yüksək məbləğ təyin etməyə Qaratelin şücaəti məcbur etmişdir.
1905-ci ilin noyabr ayında başlanan Qazax uyezdinin hadisələri M.S.Ordubadinin "Qanlı illər" əsərində öz yerini tutumşdur. Hələ o zaman qatı düşmənlərimiz tərəfindən "Əskipara müharibəsi" zühur etmişdir.
"... Hər tərəfdən müsəlman könüllü əsgərləri hücuma keçib, Əskipara kəndində böyük müharibəyə başlayırlar. Bu müharibədə yalnız 4 müsəlman qətl olur. 80 nəfər tələfat verən düşmən tərəfi hətta hərbi ləvazimatlarını doyub qaçmağa məcbur olub... "
XX əsrin sonunda ermənilərin tükənməz torpaq iddiası yenidən baş qaldırır. Əskipara kəndində ata və babaların tikdirdiyi, onların alın təri ilə daşı daş üstə qoyub yurd saldıqları yerlər viran olduqca doğma yurdunun müdafiəsinə qalxdı bu kəndin sakini Qaratel Şəmiqızı.
Hacımahmudova Qaratel bu kənddə doğulub boya-başa çatmış, bu torpağın hər qarışı onun üçün əziz olduğundan, orta və ali təhsil aldıqdan sonra da kəndində işləyib, Bakıya köçməyə can atmayıb. Hətta ona yaxşı iş təklif edəndə belə, Azərbaycan neft kəşfiyyatı idarəsində işləyərkən, hər ayın 15 gününü kənddə keçirirdi. Qardaşı Məhəmməd....... erkən dünyasını dəyişərkən övladları analarının nəzarəti altında idi. Buna baxmayaraq Qaratel qardaşı övladlarını himayəsinə götürmüş, ailə qurmayacağına and içmişdi. Qaratel tez-tez Məhəmmədin məzarı üstünə gedir və hər dəfə onu nə isə bir qorxu bürüyürdü. Elə bil nə isə bir fəlakətin baş verəcəyini gözləyirdi. Hər dəfə qadaşını deyib, ağlayarkən dua edirdi ki, Allah-Taala onu bu görüşə həsrət qoymasın.

Sonralar döyüş nöqtəsində Qaratel bibisi ilə çiyin-çiyinə vuruşan Şahinə deyirdi ki,Məhəmməd kimi ölülərimizin ruhunun şad olamsı üçün kəndimizi qorumalıyıq, düşmən əlinə keçməməsinə var qüvvəmizi sərf etməliyik. Hər şey bağışlana bilər, amma ruhlar bağışlamaz bizi heç vaxt.

Əskiparanın işğalı təhlükəsini hiss edən Teyyibə ana qızına kənddən çıxmasını məsləhət görəndə, Qaratel bunu bir təhqir kimi qəbul edib, ana biz vuruşmasaq, bəs kim kəndimizin müdafiəsinə qalxacaq, deyir. Ölsəm də, bu kənddən çıxamram, qardaşımın qəbrini erməni tapdağı altında qoya bilmərəm.
Topların səsi ara-bir sakitləşərkən Qaratel hərdən xəyallara dalır, özünü uşaq kimi görürdü... Budur o, kənd məktəbini yadına salır. Məktəbin direktoru Tofiq müəllim şagirdləri danlayıb, çalışmağı Qarateldən öyrənməyi məsləhət görürdi. Birdən onun gözü Qaratelin köhnə çəkmələrinə sataşır. Axı o atasızdır, anası da kənd təsərrüfatı ilə məşğul olan bir qadındır, imkansızdır. Ertəsi günü Qaratel Tofiq müəllimin guya onun dərs əlaçısı olduğuna görə ayaqqabı ilə mükafatlandırılmasını təhqir kimi qəbul edib, deyir: - Tofiq müəllim, çox sağ olun, amma bilin ki, mən dərsimi ayağımla deyil, başımla düşünüb, oxuyuram. Allah qoysa, məktəbi bitirib, ali təhsilə yiyələnib, yaxşı peşə sahibi olub, kəndimizə qayıdanda yaxşı geyinməyimə fikir verəcəyəm. İndi isə bunu ayıb saymıram. Əskipara kənd məktəbinin Respublikanan ən qabaqcıl məktəblərilə müqayisə ediləcək səviyyədə olub. Qarateli bu məktəbi yaxşı qiymətlərlə bitirməsinə baxmayaraq, texnikuma daxil olması ruhdan salsa da, sonradan məqsədinə nail olub, Dövlət İqtisad Universitetinə daxil olması kənddə və ən əsası Tofiq müəllimdə qürur hissi oyatmışdı. Çünki bu başqa cürə ola bilməzdi. Qaratel layiq layiq idi. universiteti qurtarıb, kəndə dönəndə hamı onun sadə, lakin zövqlü geyiminə həsəd aparırdı . Tofiq müəllimin üzündəki sevinc o zaman Qarqtelə elə bil atasının sevincini xatırlatdı. Qazax rayon ticarət mərkəzində işləyəndə kənddəkiləri geyimlə təmin edir, imkanı olmayanlara isə onlardan gizlədib qiymətindən aşağı məbləğ alırdı. Hər kəsə əl tuturdu. Hamı ilə şirin dil ilə danışır, hərəni bir cürə yola verirdi. Hərdən ağsaqqalar onunla məsləhət edəndə, özünü istəsə də gülməkdən uğunurdu. Belə olan hallarda ağsaqqallar deyirdilər -ay qızım, ağıl yaşda deyil, başdadır.
... Birdən elə bil elektrik vurmuş kimi yerindən atılsa da, səngərdə olduğu yadına düşür, fikrə dalır: - Rəhmətlik qardaşı Məhəmməd 1961-63-cü illərdə Belorusiyada hərbi xidmətdə ikən əmim oğluna yazdığı məktubları bu cümlələr ilə bitirirdi “Azərbaycanın azadlığı uğrunda mübarizəyə hazır olun!”.
1988-ci ildə baş verən hadisələr zamanı - azadlıq hərəkatı başlayanda Qaratel əmi oğlanlarının hansısa gizli təşkilata üzv olmalarını başa düşür. Xəyallar gerçəkləşir.
... Elə o zamanlar Qaratel qırmızı, yaşıl, qöy rəngdə parçaları biri-birinə tikib, üstündə təbaşirlə ay-ulduz çəkib anasına deyirdi, bu Azərbaycanın bayrağıdır.
O, “Qadın Hüquqlarının Müdafiəsi Cəmiyyəti”nin fəal üzvlərindən olub, kiçik kiçik bayraqlar tikib hamıya paylayırdı. Azadlıq hərəkatında ən qabaqcıl qadınlar cərgəsində idi Qaratel. Onun arzusu müstəqil Azərbaycanın bayrağını meydanda qaldırmaq olub. 20 yanvar hadisəsi onu tamam sarsıtmışdı. Azad dövlətçilik ruhu onun qanına o qədər hopmuşdu ki, bu yolda canından keçməyə hazır idi.

## SOY KÖKÜ İRANIN SƏRAB ŞƏHƏRİDİR

Ağa Musa Nağıyevin soy kökü İranın Sərab şəhərindən gəlir.
Atamın xatirələrindən Ağa Musanın "Qara şəhərdə"ki fəaliyyəti, burada qızlar üçün yataqxana tikdirdiyi haqda məlumatım var idi. Məqsəd Zavodda işləyən qızların gecə növbəsindən sonra şəhərə qayıtmaları çətinlik yaratdığından, onların gecələməsi idi.
Ağa Musanın "Qara Şəhər"də 6-cı Çernoqorodskaya və 2-ci Zavaqzalnı (hazırkı N.Əliyev 10) küçələrinin kəsişdiyi yerdə böyük bir sahəni (100 ha) əhatə edən 2 mərtəbəli xüsusi olaraq tikdirdiyi binasında İranın Sərab şərindən gələn köçkünlər yerləşdirilmişdi. Hansılar ki, sonradan 1918-ci ilin mart qırğınları zamanı sözün əsl mənasında "ətdən" (həmin köçkünlər )çəpər kimi düzülüb, düşmənin neft zavodları olan məkana girməsinə yol verməmişlər.
Hadisədən atasının danışıqlarından xəbərdar olan indiki sakini 70 yaşlı İsmayıl Tençurin, milliyyətcə tatar olan bir nəfər ilə görüşdük. İsmayıl Tençurin bu bina haqqında atasından eşitdiyini bizə nağıl etdi:
- Bina "Amerikanka" və "Naqiyevskiy dvor" adı ilə məşhur olub. Bu gün binanın düz yarısı elə bil bıçaqla kəsilmiş və həmin yerdə 23 mərtəbəli "göydələn" (bina) ucaldılıb. Yeni tikilən bina tərəfdə o vaxtlar Ağa Musanın çörək sexi olub, bu binanın sakinlərinin əksəriyyətinə çörəyi pulsuz verib. Bina ilə üz- üzə dayanan "Qadın həbsxanası"nın yerində isə Ağa Musa Nağıyevin onun un anbarı olub. Günün axırında, binanın anbara baxan tərəfində, bu günədək görkəmini saxlayan taxta eyvanda, Ağa Musanın un kisələrinin arabadan boşaldılmasını izlədiyini söyləyib əlavə etdi ki, Ağa bunuözündən başqa heç kimə inanmadığından edirmiş. İ.Tençurin onu da əlavə etdi ki, atam deyərdi - Ağa Musa çox səxavətli olub, amma yalana və aldanmaya yol verməzdi. Bir sözlə düzgünlük tərəfdarı olub. Belə bir binanı heç kim heç kəsə bağışlamazdı. O vaxtlar atam da bu binada təmənnasız qalırdı və indi mən də burada yaşayıram. Onu da qeyd etdi ki, eşitdiyinə görə binanın yeri sərfəli olduğundan, qalmış hissəsini də sökəcəklər.
... Bu yaxınlarda bir telefon zəngi gəldi. Zəng edən qadın Bakıdan idi, İsveçrədən gəlmiş bir nəfərin mənimlə Ağa Musa haqqında danışmaq istədiyini bildirdi. Danışan Vladimir Borisoviç idi. Məqsədi vaxtı ilə Ağa Musanın onun atası Borisə etdiyi yaxşılıq haqqında xatirələrini mənə çatdırmaq idi. Onun danışdıqlarından: - Atam İsveçrə mənşəli olub, Pyatiqorski şəhərində yaşayırdı. Təxminən 1914-1915-ci illər idi. Atam tanışlarına iş barəsində müraciət edir. İşləmək üçün Bakıya gedə biləcəyinə dair razılığını aldıqdan sonra ona bir ünvan verirlər. Deyirlər ki, Bakıda çox mötəbər və varlı bir şəxsiyyət var, Musa Nağıyev. O, özünə etibarlı və savadlı bir sürücü axtarır.

Atam Bakıya gəlib, Gül passajı binasında yerləşən kontoru (idarəyə) tapıb, xozeyini xəbər alır. Onu Ağa Musanın yanına gətirəndə təəccübdən özünü ititrir. Çünki o, varlı şəxsiyyətin hündür boylu, enlikürək olduğunu təsəvvür etdiyi zaman, qarşısında orta boylu və təsəvvür etdiyinin əksi olan cılız bir insan görür. Sonradan atam deyirdi ki, əməllərini gördükdən sonra həmin cılız Ağa Musa onun gözündə əvvəlcədən təsəvvür etdiyi kimi canlanmışdı.

Tanışlıqdan sonra onu iş otağına dəvət edəndə atamın gözü Ağa Musanın başı üstündəki qeyri-adi bir şəkilə sataşır. Sonradan bilir ki, bu mənsəbini itirməyib, milyonlara çatsa da o, heç zaman samançı oğlu olduğunu və hamballıq

etdiyini unutmadığını əks etdirən Emblem idi. Ortasında adının və soyadının baş hərifləri (MH) olan bu Emblem 2 kq.qızıldan hazırlanmışdı.
Atamı işə götürməyə razılıq verdikdən sonra onlar birlikdə maşını saxlanılan yerə düşürlər. Maşının gözəlliyinə heyran olan atam söyləyirdi ki, maşının kapotunu açanda sözün əsl mənasında gözləri qamaşmışdı. Ağa Musanın Avropadan sifarişlə gətizdirdiyi "Rols Rois" markalı maşının motoru qiymətli metaldan – nikeldən hazırlanmışdı.

Eşitdiklərim mənə nə qədər sevinc bəxş etdisə də, bir o qədər də kədərləndirdi. Düşündüm ki, bütün bu açıqlamaları mən deyil, oğlu İsmayılın nəvə-nəticələri aşkarlamalı idi.

## Ağa Musa Nağıyevin tikililərindən araşdırdığım binalarının S İ Y A H I S I

**("Zamanın sorağında" kitabda verilən siyahıda binaların sayı dəyişdirildiyinə görə siyahı təkrarlanır)**

**<u>28 may küçəsində</u>:**

**- 3, 5, 7, 8, 9, 10, 11, 14, 15, 17, 18,37,39,41 – yaşayış binaları;**
**- 4 və 6 saylı – "Əkiz" və ya "Güzgü simmetriyalı"- yaşayış binaları cəmi 14 бина;**
**- "Lüteran kilsəsi" - (Kirxa).**

**- Y.Məmmədəliyev 11- indiki "Azərittifaq"ın binası.**

**<u>Rəsul Rza küçəsində:</u>**

**- 11 saylı - yaşayış binası;**
**- 15 saylı – uzun müddət İncəsənət İnst.binası olub;**
**- Xaqani Ticarət mərkəzinin yerində keçmiş Tibb Univ. olub;**
**- 23 saylı "Gül pasajı"nın binası- keçmişdə "Balıq kontoru";**
**- 53, 57 və 59 saylı yaşayış binaları.**

**<u>İstiqlaliyyət küçəsində:</u>**

**- 31 saylı – Bakı Prokurorluğunun binası;**

**- 10 saylı bina – keçmiş "Realnı məktəb",indiki İqtisad Universiteti ;**
**- 6 saylı bina – "İsmailiyyə" -indiki AMEA;**
**- "İsmailiyyə" meydanı – indiki M.Ə. Sabir bağı.**

**<u>X ə s t ə x a n a l a r :</u>**

**- Mirqasımov 1 – "Ağa Musa Nağıyev" adına xəstəxana-indiki Səhiyyə Nazirliyinin binası.**
**- E. Əfəndiyev adına 2 saylı xəstəxana (Xətai rayonunda).**
**- Bəsti Bağırova 15 -"Elmi Tədqiqat Pediatriya İnstitutu" (OMD)**
**- Sabunçu qəsəbəsində - Poliklinikanın binası.**

**<u>Səməd Vurğun küçəsində :</u>**

- 1 saylı – yaşayış binası;
- 20 saylı bina – "Qış evi" - indiki "Zabitlər evi";
- 22 saylı bina – yaşayış binası;
- 28 saylı – yaşayış binası;
- **...... (2bina) saylı - "Ağır cinayətlər üzrə məhkəmə" binası.**

**<u>Xaqani küçəsində:</u>**

**- 14 və 16 saylı binalar –"Astoriya mehmanxanası" - indiki "Məhkəmə ekspertizası";**
**- 47 saylı bina – "Gəlir evi" – indi yaşayış binası.**

**- Şəmsi Bədəlbəyli 2 və 21 saylı yaşayış binaları.**
**- M.A.Əliyev küçəsi 216 – indiki Uşaq bağçasının binası.**
**- Nizami küçəsi 93 saylı yaşayış binası .**
**- 36 saylı bina keçmiş "Sinaqoq", indiki Prezident kitabxanasının arxivi.**
**- Bakıxanov 37 – "Körpələr evi"nin binası.**
**- Q.İsmayılov küçəsi 16 - yaşayış binası.**
**- Z.A.Tağıyev küçəsi 13 – "Yeni Avropa " mehmanxanası – (indiki Rusiyanın "Lukoyl" şirkəti).**
**- Zərifə Əliyeva 33 – "Poçt və Rabitə" evi, indiki Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi.**
**- Fizuli küçəsi – 27 – yaşayış binası.**

**<u>Neftçilər prospekti :</u>**

- **69 saylı – indiki "ÜNS" teatrının binası;**
- **73 saylı bina – indiki "Dövlət Neft Şirkəti";**
- **145 saylı bina - yaşayış binası.**

- **M.Ə.Rəsulzadə 6 – keçmiş prodmaqın binası.**
- **Mərdəkanda Yesenin küçəsindəki bağı – indiki "Mədə-bağırsaq" sanatoriyası.**
- **Kiçik Dəniz küçəsi 2 – 2010-cuilədək Səhiyyə Nazirliyinin binası olub.**
- **M.A.Əliyev küçəsi 246 - məscid;**

**Həmin küçədə 3 saylı yaşayış binası.**

**Bayıl şəhərində - 3 bina**

- **"Qara şəhər"də Qızlar yataqxanası;**
- **N.Əliyev küçəsi 10 - 100 hektardan çox olan sahədə yaşayış binası, (bu gün də Naqiyevckiy dvor kimi məşhurdur);**
- **N.Əliyev küçəsində "Qadın həbsxanası".**

**Cəmi 64 bina.**

**<u>Naməlum binalarından :</u>**

**Baryatinskaya 13 (Ağamalı – A.K.Əlizadə),**

- **Birjevaya 13 – (Üzeyir Hacıbəyov),**
- **Karantiynaya 84 (Həzi Aslanov),**
- **Kolyabinskaya, Marinskaya, Torqovaya 41 (Nigar Rəfibəyli),**
- **Bolşaya Morskaya 12 \ 30.**